

# Uşaq Dərslərinin Tədrisi, I Sinif



Ruhi İnstitutu





Kitab 3

# Uşaq Dərslərinin Tədrisi
# I Sinif

Ruhi İnstitutu

Silsilədəki kitablar:

Aşağıda Ruhi İnstitutunun tərtib etdiyi silsilədəki mövcud kitabların adları verilir. Kitabların gənc və böyük insanların öz icmalarına xidmət etmə qabiliyyətlərini yüksəltmək məqsədilə sistematik səylərdə əsas kurslar ardıcıllığı kimi istifadə olunması nəzərdə tutulur. Ruhi institutu Bəhai uşaq sinifləri müəllimlərinin təlimi üçün silsilədə üçüncü kitabdan ayrılan bir sıra kurslar dəstini, həmçinin yeniyetmə qruplarının animatorlarının yetişdirilməsi üçün Kitab 5-dən ayrılmış digər dəst də hazırlamaqdadır. Bunlar da aşağıdakı siyahıda verilir. Qeyd etmək lazımdır ki, fəaliyyət meydanında təcrübə toplandıqca bu siyahıda dəyişikliklər ola bilər və hazırda hazırlanmaqda olan tədris proqramının elementləri geniş şəkildə təqdim edilə biləcəyi mərhələyə çatdıqda yeni kitabların adları əlavə olunacaqdır.

| | |
|---|---|
| Kitab 1 | *Ruhun Həyatı Üzərində Düşüncələr* |
| Kitab 2 | *Xidmətə Qalxmaq* |
| Kitab 3 | *Uşaq Dərslərinin Tədrisi, I Sinif* |
| | *Uşaq Dərslərinin Tədris, II Sinif (budaq kurs)* |
| | *Uşaq Dərslərinin Tədris, III Sinif (budaq kurs*) |
| | *Uşaq Dərslərinin Tədris, IV Sinif (budaq kurs)* |
| Kitab 4 | *Qoşa Məzhərlər* |
| Kitab 5 | *Yeniyetmələrin Güclərinin Azad Edilməsi* |
| | *İlkin İmpuls: Kitab 5-in birinci budaq kursu* |
| | *Genişlənən çevrə: Kitab 5-in ikinci budaq kursu* |
| Kitab 6 | *Əmrin Təbliği* |
| Kitab 7 | *Xidmət Yolunda Birgə Addımlamaq* |
| Kitab 8 | *Həzrət Bəhaullahın Əhdi* |
| Kitab 9 | *Tarixi Perspektivin Əldə Edilməsi* |
| Kitab 10 | *Canlı İcmaların Qurulması* |
| Kitab 11 | *Maddi Vəsaitlər* |
| Kitab 12 | *Ailə və İcma* |
| Kitab 13 | *Sosial Fəaliyyətlə Məşğul Olmaq* |
| Kitab 14 | *İctimai Diskurslarda İştirak Etmək* |

Copyright © 1995, 2021 Kolumbiyada yerləşən Ruhi Fonduna aiddir.
Bütün hüquqlar qorunur. Nəşr 2.2.1.PE 2021 -ci ilin oktyabrında nəşr olundu
Printed in Azerbaijan

Originally published in Spanish as *Enseñar clases para niños, primer grado*
Copyright © 1987, 1996, 2021 by the Ruhi Foundation, Colombia
ISBN 978-958-52941-7-2

Permission for a limited printing of this book in Azerbaijani has been granted by the Ruhi Institute.

Ruhi İnstitutu
Kolumbiya, Kali şəhəri
Elektron ünvan: instituto@ruhi.org
Veb sayt: www.ruhi.org

# Mündəricat


Aparıcı üçün bir neçə fikir .................................. v

Bəhai təlim-tərbiyəsinin bəzi prinsipləri ............. 1

Uşaq sinifləri üçün dərslər, I sinif ...................... 37

# Aparıcı üçün bir neçə fikir

Bu kitab qonşuluqlarda və kəndlərdə uşaqların ruhani təlim-tərbiyəsi üçün müntəzəm dərslərin tədris edilməsi kimi yüksək dərəcədə təqdirəlayiq bir fəaliyyət göstərmək üçün artan sayda fərdlərdə qabiliyyət yaratmağa çalışan iki fəsli ehtiva edir. Ruhi İnstitutunun əsas kurslar ardıcıllığında bu üçüncü və ixtisaslaşmış bir xidmət yolunu getmək istəyənlər üçün o yolu açan birinci kitabdır. Bunu etmək qərarına gələn iştirakçılar uşaqlara təlim vermək üçün silsilə budaq kursları da öyrənməkdə irəli gedəcək və hər biri də öz vəziyyətinə uyğun bir sürətlə əsas ardıcıllığın açdığı yolla tərəqqi etməyə davam edəcəklər.

Bu kitab üzrə bir qrupu istiqamətləndirərkən, aparıcılar yuxarıdakı baxışı yadda saxlamalı və xatırlamalıdırlar ki, aid iştirakçıların ancaq müəyyən bir faizi özlərini bu fəaliyyət sahəsinə əsr etmək qərarı verəcəklər. Özünün birbaşa məqsədindən əlavə, bu kitab indi xidmət yoluna qəti ayaq qoymuş hər bir fərdi gənclər üçün kəndində və ya qonşuluğunda açılmaqda olan təlim-tərbiyə proqramına forma verən bəzi konsepsiya və ideyalarla daha geniş şəkildə tanış edəcəkdir. Burada kitab icma çərçivəsində həm onun uşaqların ruhani cəhətdən bəslənməsi üçün öhdəlikləri, həm də onun yaşlı üzvlərinin onlarla qarşılıqlı fəaliyyətdə göstərməli olduqları keyfiyyətlər, münasibətlər və davranış barədə anlayışın yüksəlməsinə töhfə verməyə ümid edir.

Kitab 2-nin ikinci fəslini öyrənmlərindən iştirakçılar artıq Həzrət Əbdül-Bəhanın bəyanı ilə tanışdırlar ki, təlim-tərbiyə üç cürdür: maddi, humanitar və ruhani. Burada onlara imkan veriləcəkdir ki, köməyilə fərdin ruhani təbiətinin, yüksək təbiətinin inkişaf etdirildiyi son tip təlim-tərbiyə barədə anlayışlarını inkişaf etdirsinlər. Bu elə əvvəldən aydın olmalıdır ki, Bəhai dinində başa düşüldüyü kimi, uşaqların ruhani-təlim-tərbiyəsi bəzən dini təlimatla əlaqələndirilən ehkamçı inanclarln aşılanmasından təməlli şəkildə fərqlənir. Əksinə, bu, biliyə sevgi, öyrənməyə açıq münasibət və gerçəkliyi araşdırmaq üçün davamlı həvəs bəsləmək məqsədi daşıyır.

Bunu da etiraf etmək eyni dərəcədə vacibdir ki, gənclərin tərbiyəsində dini tərbiyə (nəsihət) kənara atıla bilməz, çünki bunu etmək onların ilahi həqiqətlərə və ruhani priniplərə - o prinsiplər ki, son nəticədə onların düşüncə və hərəkətlərini idarə etməlidir - əllərinin yeməsində onları rədd etməkdir. Uşaqların öz meyarlarını və dünyagörüşlərin cəmiyyətlə qarşılıqlı fəaliyyətdən yəqin ki azad seçim vasitəsilə əldə etmək üçün buraxılmalarının ən yaxşı yanaşma olduğu iddiasını dəstəkləyənlər sanki başa düşmürlər ki, siyasi, iqtisadi və mədəni güclər öz maraqlarına xidmət edən inanc və davranış modellərini necə cidd-cəhdlə yeridirlər. Hətta belə olmasa da, gələcək nəsillərin fərdlərin ruhani təbiətini bəsləyən bir təlim-tərbiyə olmadan yaxşı bir dünya qurmağa qabil olacaqlarını fərz etməyə də heç bir əsas yoxdur. İlahi Tərbiyəçinin rəhbərliyindən məhrum qalmış insanlıq hərc-mərclik, ədalətsizlik və iztirabdan başqa az bir şey ortalığa çıxara bilər.

Odur ki, bəhai təlimləri bu kitabda nəzərdə tutulan uşaq təlim-tərbiyəsi üzrə altı illik proqramın mərkəzində dayanır. Bununla belə, proqramın tərtibatı, xüsusilə, məzmunun siniflər üzrə paylanması qaydası bütün köklədən olan gənclərə iştirak qapıları açır. I sinfin dərsləri 5-6 yaşında olan uşaqlarda ruhani keyfiyyətlərin inkişafı ilə bağlıdır - bu xasiyyətin cilalanmasına töhfə vermək üçün edilir. II Sinif öncəki ildə araşdırılan daxili keyfiyyətlərin ifadəsinə gətirən davranış vərdişi və tərzini -

məsələn, vasitəsilə Allaha yaxınlaşmaq arzusu ilə fərqlənən daxili halətin ifadə olunduğu idua etmək vərdişi - bəsləməklə bu dərslərin üzərində qurulur. Növbəti siniflər blik məsələsinə müraciət edir. Xüsusilə, öz ruhani inkişafları üşün işləmək məqsədilə fərdlər Allah haqqında biliyin axdığı Mənbəyə bağlanmalıdırlar. Odur ki, Allahın bu Gün üçün Əkiz (Qoşa) Məzhərlərinin, həmçinin Onlardan əvvəl gəlmiş Məzhərlərin həyatları üçün əsas olan mövzular bu siniflərin dərlərində müzakirə olunur. Sonuncu sinif uşaqlara Həzrət Əbdül-Bəhanın izahları və nümunəsi ilə hidyaət olunaraq və bundan faydalanaraq Həzrət Bəhaullahın Vəhyi haqqında biliklərini artırmaq imkanı verir. Ümid olunur ki, uşaqlar həyatda irəli getdikcə, fikir və hərəkətlərini Həzrət Bəhaullahın təlimlərinə uyğunlaşdırmağa çalışdıqca, bu, onlarda Onun yazılarına və nitqlərinə müraciət etmək vərdişini möhkəmləndirməyə kömək edəcəkdir. 11-12 yaşına çatanda isə bu uşaqlar yeniyetmələrin ruhani gücləndirilməsi proqramına keçmək üçün hazır olurlar və burada onların artan şüurları animatorun yanında öyrəndikləri silsilə dərsliklər, o cümlədən, onların Bəhai uşaq dərslərində aldıqları təlim-tərbiyəni davam etdirən dərsliklər vasitəsilə genişlənəcəkdir. Uşaq dərsi müəllimlimi olmağa can atan şəxslər tamamilə inanmaldırlar ki, bəhai olmayan valideynlər oğul və qızlarını bu cür dərslərə göndərmək imkanlarını razılıqla qarşılayırlar və ruhani təlim-təriyənin onların incə ürək və fikirlərində təsirni görməkdən daim sevinirlər.

Yuxarıda qeyd edildiyi kimi, I Sinifdəki dərslər xarakterin cilalnması üzərində fokuslanır. Odur ki, məhz bu kontekstdədir ki, birinci fəsil – "Bəhai təlim-tərbiyəsinin bəzi prinsipləri Əmrin təlim-tərbiyə üçün dərin mənalar daşıyan Yazılarından alınan müəyyən təməl konsepsiyaları nəzərdən keçirir. Bu fəslin birinci yarısı bu müzakirəyə həsr olunur, qalan hissəsi isə dərsləri aparmaq üçün hansı yanaşmaların qəbul edilməsinə və müəllimin valideynlərlə münasibətinə baxır.

Bu fəsildə (I) müzakirə olunan ilk konsepsiyalardan biri insan potensialıdır ki, Həzrət Bəhaullahın insan varlığını "qiymətli gövhərlərlə zəngin bir mədən"ə bənzədən bəyanında olan obrazlı ifadə vasitəsilə araşdırılır. İştirakçılardan o bəyandan çıxarıla biləcək iki birbaşa məna - konkret olaraq, şagirdlərə informasiya ilə doldurulmasını gözləyən boş qablar kimi baxan təlim-tərbiyə yanaşmasının kənara qoyulması və lazımi bəsləmə olmadan uşaqların öz daxili varlıqlarında gizli olan cəvahirləri aşkara çıxara bilməyəcəkləri üzərində düşünmək xahiş edilir.

Hər bir fərdə əta edilmiş cəvahirlər arasında, fəsildə deyilir, "ruhani keyfiyyərlər" adlandırılan şeylərdir ki, onlara  üzərində nəcib və dürüst xarakterin qurula biləcəyi daimi struktur kimi baxılır. Onların "məziyyətlər"in – hər cür tərifəlayiq sifət, o cümlədən, vərdiş və münasibətlər, habelə, bacarıq və qabiliyyətlər üçün işlədilən ümumi istilah - fərqli bir kateqoriyasını təşkil etməsi bütün iştirakçıların lazımi qaydada mənimsəməli olduqları mühüm bir ideyadır. 6-cı və 7-do bölmələr bu bəyanın bəzi mənalarını nəzərdən keçirir.

Aparıcı bunu təmin etmək istəyəcək ki, qrupun üzvləri müzakirə etdikləri şeyləri insan rhunun gücü kimi ruhani qabiliyyətlərin Allaha doğru bizim əbədi səyahətimizdə bizə kömək və yardım etməsi üçün bu həyatda hecə inkişaf etdirilməli olması barədə düşünmüş olduqları Kitab 1-in üçüncü fəslinin öyrənilməsinə bağlasınlar. Allaha məhəbbət və Allahı tanımaq ruhani keyfiyyətlərin bəslənməsində əvəzedilməzdir. İştirakçıların buna, bu iki fəsildəki ideyaların 1-ci Sinfin dərslərinə, deyək ki, punktuallıq və doğruşuluqla tək və eyni tip sifət kimi davranan məziyyətlər haqqında bir kursdan fərqli bir şey kimi ayırdığını baxmaları vacibdir. Və müəllimlər bu fərqi başa düşəndə onlar yaxşı xasiyyətin inkişaf etdiriləsinə əsas etibarilə davranış dəyişkliyi şərtləri ilə baxmaq meylindən qaçacaqlar.

Əlbəttə, ruhani keyfiyyətlərin özünün dinamikası var ki, onu da dərslərin özək elementləri – dua, sitatların əzbərlənməsi və hekayələr – xüsusilə, bəsləməyə çalışır. İştirakçılar artıq Kitab 1 və 2-nin öyrənilməsindən bu elementlərin təbiəti haqqında bəzi bəsirətlərə malikdirlər və 8-ci Bölmənin məqsədi öyrəndiklərini uşaqlara dərs keçmək işinə tətbiq etməkdə kömək etməkdir. Bunu edərkən,

onlar etiraf etməlidirlər ki, gənclərdə ruhani keyfiyyətləri bəsləmək üşün dərslər onları Allahın Sözü ilə bilavasitə təmasa gətirir və ən yüksək insani ideaların təcəssümü olan Həzrət Əbdül-Bəha haqqında hekayələrlə ilhamlandırır.

Bu fəsildə araşdırılan figər konsepsiya Allah qorxusudur (xofudur) ki, buna 12-ci Bölmədə baxılır. Bəhai Yazılarına görə bu, insan varlığının tərbiyəsində "başlıca amil"dir. İştirakçıların bunu başa düşmələri vacibdir ki, bu qorxu Allaha olan məhəbbətdən ayrı deyildir, çünki bu bir qorxudur ki, sevdiyimiz Kəsi rzı salmaq və Onun məhəbbətinin nemətlərinin bizə yetişməsinə mane olan hər hansı hərəkətdən qaçmaq arzumuzdan irəli gəlir. Məhəbbət olmadıqda, nalayiq hərəkətdən yayınmağa bizi motivasiya edən bu qorxu başqa bir qorxudur – Qəzəbli Allahın cəzasından qorxmaq. Bu uşaqların beyninə girməli olan bir obraz deyil. Başlayan müəllimlər təlim-tərbiyə prosesində Allaha məhəbbətlə Allah qorxusu arasında münasibəti yaxşı başa düşməli ikən, bunu da anlamalıdırlar ki, bu onların dərsdə açıq şəkildə qaldıracaqları bir mövzu deyil. Əksinə, onlar şagirdləriin üərklərində Allaha məhəbbət alovunu qızışdırmalı və mütləq əminlik qazanmaqda onlara kömək etməlidirlər ki, insanlığı sevdiyinə görə yaratdığı üçün Allah daim bizi bəsləyəcək və qoruyacaq.Məhz Onun Camalına məhəbbətdir ki, son nəticədə onları Onun razılığının əksinə olan yollarla hərəkət etməkdən çəkindirəcəkdir.

Yuxarıdakı konsepsiyalar və ideyalar üzərində müzakirələr bunu başa düşməyə gətirir ki, son nəticədə,ruhani təlim-tərbiyə prosesi ilə uşaqlar ruhani keyfiyyətlərin əldə edilməsinə özlüyündə bir mükafat kimi, dəyərsiz xasiyyətə malik olmağa isə ən böyük cəza kimi baxacaqlar. Ona görə də, bütün bunlar iştirakçıları gənclərdəki davranış dəyişikliyinə lazımi perspektivdən - əsasməqsəd kimi deyil, məhz xasiyyətin cilalnmasına yardım kimi baxmağa qabil edir. Buna da uyğun olaraq, onlar uşaqlarla qarşılıqlı fəaliyyətlərində uyğun yollar tapacaq ki, arzuolunan davranışı təşviq etsinlər və yaraşmayan davranş tərzlərindən çəkindirsinlər və bunların da bəziləri 13-cü Bölmədə qeyd edilmişdir. Bu bölmədə qısaca müraciət olunan digər konsepsiyalar azadlıq və intizama aid olanlardır. Uşaqların təlim-tərbiyəsində sərt cəzlara yer olmasa da, istədikləri kimi hərəkət etmələri üçün onlara tam azadlıq vermək də eyni dərəcədə onların ruhani inkişafları üçün ziyanlıdır.

Bu fəsildə sonra sevincli öyrənmə mühitini saxlayaraq sinifdə qayda və intizamı necə saxlamaq məsələsinə baxılır. Aparıcı yadda saxlamalıdır ki, əksər iştirakçıların uşaqlara dərs verməkdə əvvəlllər heç bir təcrübələri olmayacaqdır və ona görə də onlara baxmaları üçün ancaq cəmi bir neçə ilkin ideyalar təqdim edilir. Onlar bu xidmət aktını götürdükdən sonra müvafiq bıımələrə müraciət edə bilər və təcrübənin işığında ideyalar üzərində düşünə bilərlər.

İştirakçılar sonra isə dərsləri təşkil edən fəaliyyətlərlə uşaqları məşğul etməkdə yerinə yetirə biləcəkləri bəzi yanaşmaları nəzərdən keçirməklə davam edirlər. Yuxarıda xüsusi qeyd edilən dua, sitatların əzbərlənməsi və hekayələr kimi özəl elementlərə əlavə olaraq bu fəaliyyətlərə mahnılar, oyunlar və rəngləmə daxildir. Onların ixtiyarlarında olan yanaşmaları təhlil edərkən iştirakçıalr paklıq kimi bir ruhani keyfiyyət üzərində olan birinci dərsi yenidən nəzərdən keçirirlər.

Nəhayət, 26-cı Bölmədə, müəllimin və sinifindəki uşaqların valideynləri arasında inkişaf edən davamlı söhbətin təbiətinə baxılır. Bu bölmə bu cəhətdən Kitab 2-də iştirakçıların öyrəndikləri, həmçinin, o zamandan bəri qonşuluqlarında və ya kənddə dərslərdə iştirak edən uşaqların ailələrini ziyarət edən dostların böyüyən nüvəsinin üvü kimi əldə etmiş olduqları hər hansı bir təcrübə üzərində qurularaq davam edir. Tüter təmin etməlidir ki, valideynlərlə söhbətləri üçün hazırlaşmaqda bu birinci fəsildəki konsepsiyaları yenidən nəzərdən keçməyə dəvət edən çalışmaları yerinə yetirmək üçün iştirakçılara kiayət qədər vaxt verilsin. Bu çalışma, qrupun üzvləri üçün müzakirə olunan çoxlu konsepsiya və ideyaları zehinlərində daha da gücləndirmək vasitəsi kimi xidmət edəcəkdir.

İkinci fəsil, “Uşaqlar üçün Dərslər, 1-ci Sinif” iki hissədən ibarətdir: bu sinif üçün təklif olunan iyirmi dörd dərs və müəllimləri, hər biri bir ruhani keyfiyyətin inkişafı ətrafında qurulmuş dərslərin məzmunu ilə yaxşı tanış olmağa qabil etmək üçün tərtib edilmiş ilkin bölmələr. Bir dəfəyə dörd dərsi götürərək ilkin bölmələr iştirakçıları hər bir dərsin, əvvəlki fəsildə paklıq üzərində birinci dəfə etdiklərinə xeyli bənzər olaraq təhlil etdikləri əsas elementləri üzrə yönəldir.

Bəhai Yazılarından olan sitat hər bir dərsin mərkəzi elementini təşkil edir. Bu sitat onu uşaqlara təqdim etməkdə müəllimlərin istifadə etməyə təşviq olunduqları qısa müddəa ilə müşayiət olunur. Qısa da olsa, bu müddəalar baxılan ruhani keyfiyəti səciyyələndirən dinamikanı təsəvvürdə canlandırmağa başlamaqda uşaqlara kömək edən və Yazılardan əxz edilən soz və obrazlar pleyadasından istifadə edir. Giriş qeydlərini təbii bir formada təqdim etmək və və bu dinamika barədə bəsirət əldə etməkdə şaagirdlərə kömək etmək üçün müəllimin qabiliyyəti təcrübə ilə və dərsdə müzakirə olunan ruhani keyfiyyətlər üzərində davamlı təfəkkür etməklə artacaqdır. Bunun işığında, ilkin bölmələrdə iştirakçılardan xahiş edilir ki, hər bir keyfiyyətin həm fərdin həyatında, həm də onların təbliğ səylərində mənası üzərində ilkin olaraq düşünsünlər, bu məqsədlə isə hər bir keyfiyyətə aid seçilmiş kiçik sitatlar daxil edilir.

Belə bir düşünmə-təhlil etdikdən sonra, iştirakçılar sonra baxdıqları keyfiyyətləri əyani izah edən hekayələri nəzərdən keçirirlər. əsas etibarilə, Həzrət Əbdül-Bəhanın həyatından götürülərək bu hekayələrinməqsədi insan ruhunun sifətləri (xasiyyətləri) kimi ruhani keyfiyyətlərin qeyri-məhdud təzahürlərindən uşaqlara bir işartı verməkdir. Bu məqsədlə, hər bir hekayə üçün bəzi suallar verilir ki, hadisələr ardıcıllığının fövqünə qalxıb o hekayənin açdığı ruhani gerçəkliyə baxmaqda müəllimlərə kömək edilsin. Həzrət Əbdül-Bəhanın hekayələri halında xüsusi olaraq, bu suallar elə ifadə olunur ki, müəllimlər öz təhkiyələrində (hekayəni danışarkən) ruhani keyfiyyətləri Onun necə son dərəcə kamilliklə təcəssüm etdirdiyinə vurğu etsin və Onun hərəkətlərinin əsl mənasınını görməkdən uşaqları yayındıra biləcək tələsgən və səthi əlaqə qurmaq tələsindən qaçsın.

İştirakçılar dörd dərsdən ibarət hər bir qrupu bu  yolla təhlil etdikdən sonra onlardan xahiş edilir ki, müxtəlif elementləri öz aralarında praktikaya qoymaq üçün bir vaxt ayırsınlar və bu zaman birinci fəsildə müzakirə olunan yanaşmaları tətbiq etsinlər. Praktika elementinin vacibliyini dəyərindən az qiymətləndirmək mümkün deyil. İndi potensial müəllim kimi qabiliyyətlərini yüksəltmək səylərində qrup üzvlərinə yardım etməkdə tüterin üzərinə çox şey düşür. Dərslərin öyrənilməsinin dörd dərsdən ibarət bloklara ayrılması bu cəhətdən müəyyən bir çeviklik dərəcəsinə imkan yaradır və bu ehtiyac olduğu qədərilə, institutun uşaq dərsləri üzər koordinatoru ilə məşvərət edərək tuter bu cəhətdən necə ən yaxşı şəkildə davam etmək məsələsinə müəyyən qədər fikir verməlidir. Elə vaxtlar ola blər ki, iştirakçılar üçün onlar bu xidmət aktını üzərilərinə götürməzdən əvvəl bütün fəslin öyrənilməsi, o cümlədən, praktiki kompenentini həyata keçirmək mümkün olsun. O halda, mühümdür ki, dərs keçmək istəyənlər Kitab 3-2-ni bitirəndən dərhal sonra, ya özlərinin siniflərini başlasınlar, ya da hansısa fəaliyyətlərdə kömək etməklə başqa bir müəllimlə birgə işləyərək tez təcrübə əldə etsinlər. Lakin başqa hallarda işitrakçılar üçün, deyək ki, bir ya iki blok dörd dərsin öyrənilməsini və praktikasını bitirdikdən sonra müəllimlik etməkdə bənzər təcrübə ələ etməyə başlamaq faydalı ola bilər.

Sonra münasib intervallarla tüter iştirakçıları geri gətirə və onların artan təcrübələri işığında daha dörd dərsi öyrənə və praktikdan keçirə bilərlər. Burada bunu qeyd etmək lazımdır ki, ilkin bölmələrin dörd dərs qrupu kimi təşkil edilməsi o demək deyil ki, onlarda baxılan ruhani keyfiyyətlər hər hansı br formadasa əlaqəlidir.

Bu cür təşkilati tədbirlərdən asılı olmayaraq, müəllimlərin dərslərlə hərtərəfli tanış olmaları və hər bir dərs müddəti üçün yaxşı hazırlaşmaları çox vacibdir. Əgər müəllim birbaşa kitabdan oxumursa,

əksinə, dua və sitatları əzbərdən deyirsə, sitatı dərsdə təqdim etmək üçün hazırlaşmışsa və hekayəni nəql etmək üçün məşq etmişsə, uşaq dərsi daha da uğurlu olacaqdır.

Bu cür hazırlıqdan başqa, oyunlar üçün bəzi əşyalar, rəngləmə vərəqləri və karandaşlardan başqa material və kənar resurslar kimi çox az şey lazım olur. İkinci fəslin sonunda verilən rəngləmə vərəqlərinin surəti çıxarıla yaxud ayrı kağız üzərində çəkməklə çoxaldıla bilər. Onlar, bundan əlavə, çap edilmək üçün Ruhi institutunun vebsaytından da endirilə bilər. Vebsaytda, həmçinin, 1-ci SİnIf üçün mahnıların səs yazısı da verilmişdir ki, özlərini nəinki dərsə hazılamaq üçün, həm də onları oxumaq üçün öyrənməkdə uşaqlara yardım etmək üçün müəllimlər istifadə etmək istəyə bilərlər. İcmalarında gənclər üçün dərslərə başlayanlar səylərinə həsr olunan bir qeyd dəftəri aparmağa təşviq olunurlar ki, bu da onları lazım olan informasiyanın əldə olmasında onlara kömək edəcək, hazırlıq və təhlil modelinin möhkəmləndirəcəkdir.

Burada aydın göstərmək lazımdır ki, 1-ci Sinif üçün iyirmi dörd dərs hər bir dərsin normal şərtlər daxilində tək bir dərs vaxtı bitməsinin təmin edilməsi məqsədilə tərtib edilmişdir. Dərsin elementlərini iki dövrə bölmək fəliyyətləri lazımsız şəkildə uzatmaq meylini artırır. Lakin daha da vacibi, bu, hər biri fərqli intensivlik səviyyəsində olmaqla, lakin hamısının bir ruhani keyfiyyət ətrafında fırlandığı fəaliyyətlərin arasında ritmin qoyulduğunun mühüm olduğu öyrənmə prosesisinin effektivliyini poza  bilər.

Sonda, təəlim-tərbiyə ptosesində müəllimlə şagirdlər arasındkımünasibət barədə də bir neçə söz deyilməlidir və bu bir mövzudur ki, ona birinci fəslin 9-10-cu Bölmələrində baxılır, amma bütün kitab boyunca da üstüörtülü keçir. Hər bir müəllimin uşaqların 1-ci Sinifdə öyrəndikləri bütün ruhani keyfiyyətləri uşaqlar arasındakı fəaliyyətlərində təzahür etdirmək üçün son dərəcə səy qoymalı olması aydındır. O keyfiyyətlərin arasındasevgi qədər heç biri vacib olmayacaq, bir sevgi ki Allaha sevginin bir əksidir. Bu sevgi müəllimin yaratmış olduğu mühitdə - dərsdən əvvəl edilən hazırlıqlarda, hər bir dərsin əvvəlində oxunan dualarda, şagirdlərlə ünsiyyətdə danışılan dildə, etdikləri tərəqqi üçün şagirdlərin aldıqları təşviq və tərifdə hiss ediləcəkdir.



# Bəhai Təlim-Tərbiyəsinin Bəzi Prinsipləri

Məqsəd:

Təlim-tərbiyə(təhsilə) aid Bəhai Yazılrında olan bəzi prinsip və Konsepsiyaları araşdırmaq və uşaqları ruhani cəhətdən bəsləyən dərslərə uşaqları necə cəlb etmək üzərində düşünmək.

# BÖLMƏ 1

Ruhi Institutunun bu üçüncü kitabı sizə ən qiymətli xidmət aktını – uşaqların ruhani təlim-tərbiyəsi üçün bəhai dərslərini aparmağı təqdim edir. Əgər kitabı öyrəndikdən və praktika komponentini yerinə yetirdikdən sonra vaxt və enerjinizin müəyyən bir hissəsini bu xidmət aktına həsr etmək qərarına gəlsəniz, altı illik təlim-tərbiyə proqramının birinci sinfinə daxil olan uşaq qrupu üçün icmanızda həftəlik dərs başlamaq mövqeyində olacaqsınız. Siz uşaq dərsini aparanda da, əlbəttə, əsas ardıcıllığın kitablarını keçərək irəli getməkdə davam edəcəksiniz.

Uşaqların öyrədilməsi sizin getdiyiniz yoldakı bir neçə xidmət aktından ancaq biridir. Hətta siz əgər bununla məşğul olmaq istəməsiniz belə, bu kursu keçməyin dəyərli olduğunu görəcəksiniz. Kəndinizdə, şhər və ya qonşuluğunuzda icma-quruculuğu prosesinə töhfə verərkən bir çox hallardabaaca uşaqlarla təmasada olacaq və burada oxumaqdan qazandığınız bəsirətlərdən tez-tez istifadə edə biləcəksiniz. Ümumdünya Ədalət Evinin aşağıdakı bəyanatının uşaqlra münasibətdə yaratdığı hisslər üzərində bir anlıq düşünün:

> **“Uşaqlar bir icmanın malik ola biləcəyi ən qiymətli sərvətdir, çünki gələcəyin vədi və təminatı onlardadır. Onlar özlərində əsas etibarilə, icmanı təşkil edən böyüklərin uşaqlara münasibətdə etdikləri və ya edə bilmədikləri ilə formalaşan gəələcək cəmiyyətin xarakterinin toxumlarını daşıyırlar. Onlar bir icmanın cəzasızlıqla laqeyd ola bilməyəcəyi bir əmanətdir. Uşaqlara hərtərəfli sevgi, onlarla davranma tərzi, onlara verilən diqqətin keyfiyyəti, onlara böyük münasibətinin ruhu – bunların hamısı lazımi münasibətin vacib cəhətləri arasındadır.”[1]**

Birinci sinfin iitabın ikinci fəslində təqdim olunan dərsləri sadədir. Hər bir dərs bir ruhani keyfiyyətin inkişafı üzərində fokuslanan bir blok fəaliyyətlərdən ibarətdir. Uşaqlar dualar və Yazılardan sitatlar əzbərləməyə, hekayələrə və təlimlərin izahlarına qulaq asmağa, rəsm çəkməyə və rəngləməyə, oxumağa və oynamağa təşviq olunurlar. Bu dərsləri aparmaq üçün təlim-tərbiyə sahəsində böyük miqyasda biliyə tələb olunmur. Müəllim kimi sizin hər hansı formal bir təhsilinizin olub-olmamasından asılı olmayaraq, bu kurs, şübhəsiz, həftələr keçdikcə uşaq dərslərini effektiv aparmaq üçün sizi hazırlayacaqdır. Kitab 3-dən çıxan budaq kursları keçdikcə və təcrübə qazandıqca siz təlim-tərbiyə üçün təməl əhəmiyyətə malik olan çoxlu məsələlərə fikir vermək fürsətiniz olacaqdır. Başlanğıcda siz yəqin ki dərsin planlarına sıx əməl edəcəksinz, amma getdikcə daha çox özünüzün işləyib hazırladığınız əlavə məzmunla da onları zənginləşdirə biləcəksiniz.

# BÖLMƏ 2

Gəlin Həzrət Bəhaullahın və Həzrət Əbdül-Bəhanın bir müəllimin gördüyü işi qiymətləndirməkdə (başa düşməkdə) bizə kömək edən aşağıdakı sözləri üzərində düşünək. Siz onları əzbərləmək istəyə bilərsiniz ki, dərs zamanıı onları xatırlaya biləsiniz.

> **“Mübarəkir o müəllim ki, uşaqları öyrətməyə və insanları Bəxş Edən, Məhbub Allahın yoluna hidayət etməyə qalxar”.[2]**

**"İnsanın Qüdrətli Allaha göstərə biləcəyi bütün xidmətlərdən ən böyükləri arasında uşaqları təlimi və tərbiyəsidir..."[3]**

**"Aşkar ilahi Kitaba uyğun olaraq, uşaqların öyrədilməsi zəruri və məcburidir. Kitabdan belə hasil olur ki, müəllimlər Rəbb Allahın bəndələridir, çünki onlar sitayiş kimi olan bu vəzifəni yerinə yetirmək üçün ayağa qalxmışlar. Ona görə də siz hər nəfəs dərdikcə şükr etməlisiniz, çünki siz öz ruhani uşaqlarınıza təlim-tərbiyə verirsiniz".[4]**

1. Siz bu sözlərin mənası üzərində düşündükcə, aşağıdakı cümlələrdəki boş yerləri doldurun.

   a. ________________ o _____________ ki, uşaqları ____________________ və insanları ___________________, _____________ Allahın ____________ _____________________________ qalxar.

   b. İnsanın Qüdrətli Allaha göstərə biləcəyi bütün ______________ __________ _________________ uşaqların ______________ və _______________ . . ."

   c. Aşkar ilahi Kitaba uyğun olaraq, uşaqların öyrədilməsi __________________ və __________________. Kitabdan belə hasil olur ki, ___________________ Rəbb Allahın _________________, çünki onlar______________ kimi olan bu vəzifəni yerinə yetirmək üçün _____________________________. Ona görə də siz hər nəfəs dərdikcə ______________________________, çünki siz ______________ _________________ təlim-tərbiyə verirsiniz".

2. İndiyə kimi öyrəndiklərimizin əsasında bu müddəalardan hansıların doğru olduğuna qərar verin:

   _____ Valideynlər, müəllimlər və icma – hamı uşaqların ruhani təlim-tərbiyəsi üçün məsuliyyət daşıyırlar.

   _____ Hər bir icmanın uşaqların ruhani təlim-tərbiyəsi üçün dərslər təşkil etmək öhdəliyi vardır.

   _____ Uşaqların öyrədilmsinə sitayiş aktı kimi baxmaq olar.

   _____ Uşaqlar məktəbə getdikləri üçün onların ruhani təlim-tərbiyəsi üçün icmanın dərslər təşkil etməsinə ehtiyac yoxdur.

   _____ Uşaqların müəllimi ruhani oğul və qızlarını böyütmüş olur.

## BÖLMƏ 3

Əmrin Yazılarında təlim-tərbiyə sahəsinə aid çoxlu parçalar vardır. Biz onlardan bəzilərini bu kursda və ondan çıxan budaq kurslarda öyrənəcəyik. Başlamaq üçün Həzrət Bəhaullahın aşağıdakı sözlərini oxuyun:

**“İnsana qiymətsiz gövhərlərlə zəngin bir mədən kimi baxın. Yalnız təlim-tərbiyə onun xəzinələrini açmağa və bəşərin ondan faydalanmasına səbəb ola bilər”.**[5]

Aşağıdakı cümlələri tamamlamaq bu müddəanın dərin mənası üzərində təfəkkür etməkdə və artıq etməmisinizsə, onu əzbərləməkdə sizə kömək edəcəkdir.

a. İnsan varlıqları qiymətsiz _________________ zəngin bir___________ kimidir.

b. Yalnız_____________________ onun xəzinələrini,_______________ və bəşəri ondan ___________________ qabil edə bilər.

Təlim-tərbiyə sahəsi üçün Həzrət Bəhaullahın sözlərinin mənaları çox genişdir və onlardan bir neçəsi sonrakı bölmələrdə nəzərdən keçiriləcəkdir. İndilik gəlin bir ideyaya baxaq. Fərz edin ki, sizə iyirmi boş banka verilmiş və onları qaşıq-qaşıq su ilə doldurmağınız xahiş edilmişdir. Əgər təlim-tərbiyə bu şəkildə – şagirləri tikə-tikə məlumatla doldurmaq kimi təsəvvür edilərsə bu, darıxdırıcı və yorucu bi iş olardı, deyilmi? Sonra kəşf edilməsini və üzə çıxarılmasını gözləyən gizli gövhərlərlə dolu bir mədən təsəvvür edin. Siz razı deyilsinizmi ki, təlim-tərbiyəyə gövhərləri aşkara çıxarmaq işi kimi baxanda o doğrudan da ən ləzzətli bir məşğuliyyət deyilmi?

## BÖLMƏ 4

Gəlin yuxarıdakı sitat barəsində düşünməyimizi davam etdirək. Biz sevgi, doğruluq, ədalət, səxavət, dəyanət və səmimilik kimi keyfiyyətləri Həzrət Bəhaullahın işarə etdiyi gövhərlər arasında saya bilərikmi? Bəs insan zəkasının gücləri necə, təbiətin sirlərini açmaq, gözəl sənət əsərləri yaratmaq, nəcib və yüksək fikirlər ifadə etmək gücləri? Sizin dərs deyəcəyiniz uşaqlar potensial olaraq bütün bu sifətlərə malikdirlər. Bəzi digər sifətləri qeyd edə bilərsinizmi? Onlardan hansısa biri lazımi təlim-tərbiyə olmadan inkişaf edə bilərmi? Bu sitatlar üzərində düşünərkən, Kitab 1-də istifadə edilən analogiyanı xatırlayın ki, çırağın işıq vermə potensialı var, amma bunu etməsi üçün onun yandırılması lazımdır.

__________________________________________________________________

__________________________________________________________________

__________________________________________________________________

__________________________________________________________________

__________________________________________________________________

__________________________________________________________________

## BÖLMƏ 5

Potensialımızı inkişaf etdirmək üçün hamımız bir təlim-tərbiyə prosesinin müxtəlif mərhələlərindən keçirik ki, bu da, belə deyə bilərik, həyatımızın sonuna qədər davam edir. Biz evdə, məktəbdə, işdə və icma daxilində təlim-tərbiyə alırıq. Bizim burada özümüzdən soruşmalı olduğumuz sual budur ki, bu həyat boyu sürən təlim-tərbiyə prosesinin bir cəhəti

kimi, Bəhai dərslərinin diqqət mərkəzində, xüsusilə, birinci sinifdə nə dayanmalıdır? Həzrət Əbdül-Bəhanın müəyyən nəsihətləri cavab tapmaqda bizə yardım edəcəkdir:

> **"Siz gözəl xasiyyətə birinci dərəcə əhəmiyyətə malik məsələ kimi baxmalısınız. Hər bir ata və ananın vəzifəsi budur ki, uşaqlarına uzun müddət ərzində öyüd versinlər və onları əbədi şərəfə aparan şeylərə yönəltsinlər".[6]**

> **"Əxlaq və gözəl davranış öyrənmək kitab öyrənməkdən çox-çox vacibdir. Təmizkar, xoşgörülü, gözəl xasiyyətli və ədəbli uşaq, hətta o savadsız olsa da, kobud, pinti, pis davranışlı uşaqdan daha üstündür, hətta o elm və incəsəntdə yaxşı biliyə malik olsa belə. Ona görə ki, özünü yaxşı aparan uşaq savadsız olsa da, başqalarına fayda verir, pis xasiyyətli və pis davranışlı uşaq isə korlanmışdır və başqalarına ziyan vurur, hətta o savadlı olsa da. Lakin əgər uşaq elə tərbiyə olunsa ki, həm savadlı olsun, həm də tərbiyəli, onda bunun nəticəsi nur üstünə nurdur".[7]**

> **"O zaman uzaqda deyil ki, əxlaq ifrat dərəcədə korlanacaq. Uşaqların bəhai kimi böyüdülmələri zəruridir ki, onlar həm bu dünyada, həm də o biri aləmdə xoşbəxtlik tapsınlar. Əks təqdirdə, onları kədər və əzab-əziyyət saracaq, çünki insanın xoşbəxtliyi ruhaniyyətli davranış üzərində qurulur".[8]**

Bu cür parçalar Ruhi İnstitutnu uşaqların ruhani təlim-tərbiyəsi üçün proqramın birinci sinfində xasiyyətin cilalanması üzərində fokuslanmağa gətirib çıxardı. Bu məqsədi araşdırmaq üçün irəli getməzdən əvvəl siz "gözəl xasiyyət" dedikdə nəyi başa düşdüyünüzü qrupunuzda müzakirə etmək istəyə və bəzi qənaətlərinizi aşağıda boş yerdə yaza bilərsiniz.

______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

## BÖLMƏ 6

İnsan gözəl saxiyyət barədə düşünəndə ağlına dərhal gələn ir konsepsiya "məziyyətdir". Dünyada çoxlu dəyərli proqramlar vardır ki, şagirdlərdə bu və ya digər məziyyətlər toplusunu inkişaf etdirməyə çalışır.Bu proqramlar "məziyyət" istilahını geniş diapazonda tərifəlayiq insani sifətləri təsvir etmək üçün istifadə edirlər. Onların bəziləri punktuallıq kimi vərdişlərdir. Başqaları çətinlikdə olanlara şəfqət (ürəyi yanmaq) kimi münasibətlərdir. Bir başqaları da, müəyyən bacarıq və qabiliyyətlərə, deyək , aydın danışmaq qabiliyyətinə aiddir. Amma bir kateqoriya məziyyətlər də var ki – bir neçəsini qeyd etsək, doğruluq, səxavətlilik, təvazökarlıq, sevgi - qalan bütün məziyyətlərdən ayrı dayanır və biz onları "ruhani keyfiyyətlər" adlandırırıq. Sizdən xahiş edilir ki, birinci sinifdə səylərinizi insan ruhunun bu təməl sifətlərinin inkişafı üzərində cəmləşdirəsiniz. Bu o demək deyil ki, siz uşaqlarla qarşılıqlı ünsiyyətinizdə digər məziyyətlərə etinasız qalacaqsınız. Bu sadəcə ona görə belədir ki, sizin kediyiniz dərslər başlıca olaraq ruhun Allaha doğru əbədi səyahəti üçün mühüm olan keyfiyyətlərin qayğısına qalır. Burada qoyulan fərqi başa düşmək üçün

punktuallığa bir məziyyət kimi baxın. Punktual olan bir insan həm də rəzil və qəddar ola bilər. Lakin rəzillik və qəddarlıq doğruluq və səmimilik, sevgi və ədalət, səxavətlilik və bağışlayıcılıq kimi ilahi keyfiyyərləri əldə etmiş bir adamın xüsusiyyəti ola bilməz. Belə bir insanın punktual olması da, əlbəttə, yüksək dərəcədə arzuolunandır.

Siz ruhun bu həyatda əldə etməli olduğu keyfiyyətlərə Kitab 1-in üçüncü fəslində bir qədər fikir vermisiniz. Bu bir fürsət ola bilər ki, geri dönəsiniz və müvafiq bölmələri bir daha nəzərdən keçirəsiniz. Sonra orada öyrəndikləriniz barəsində erkən uşaq yaşlarından ruhani keyfiyyətlərin inkişafının vacibliyi kontekstində düşünün. Düşüncələrinizi yazmaq üçün aşağıda yer təqdim edilir.

_______________________________________________

_______________________________________________

_______________________________________________

_______________________________________________

_______________________________________________

_______________________________________________

_______________________________________________

## BÖLMƏ 7

Tərifəlayiq xasiyyət göstərmək üçün uşaqlara kömək edərkən siz təbii olaraq onların davranışı ilə məşğul olacaqsınız, çünki məziyyətlər labüd olaraq əmələ çevrilməlidir. Müəllim olaraq siz gözəl (yaxşı) davranışı bir çox yollarla gücləndirəcəksiniz. Tərif, təşviq, nəsihət, izahat, mükafat – bunların hər birini siz kiçik bir qrup uşaqların tərəqqisini izləyərkən vaxtaşırı istifadə edəcəksiniz. Bəzən, sizin tərəfinizdən yumşaq bir narazılıq bu və ya digər uşağın göstərdiyi nalayiq davranışdan çəkindimək vasitəsi kimi xidmət edəcəkdir – bu o halda mümkün olacaq ki, sinfinizdəki uşaqlarla dərin sevgi və duyğu bağları yaratmış olasınız. Şagirdlərinizlə necə ünsiyyət edəcəyinizlə bağlı bəzi məsələləri sonrakı bölmələrdə araşdıracağıq. Bizim indiki müzakirə məqsədimiz üçün gəlin bir misala baxaq. Uşaqlarla qarşılıqlı ünsiyyətinizdə siz, şübhəsiz, onlarda paylaşma münasibətini və müvafiq vərdişi bəsləməyə cəhd edəcəksiniz. Sizin deyəcəyiniz və edəcəyiniz bəzi şeylər nələrdir? Qrupunuzun digər üzvləri ilə bu sualı müzakirə edin.

İndi aşağıdakı sual üzərində düşünün: Davranışın (əxlaqın) bir cəhəti kimi, paylaşma, deyək ki, qıtlıq zamanı da qalacaqmı, əgər o səxavətliliyin təzahürü deyilsə, bir ruhani keyfiyyət ki, Səxavətli və Kərəm Sahibi Allahın bir sifətini əks etdirir? Əlbəttə, cavab odur ki, davranış dəyişikliyi baş verdikdə əsl məqsəd o ruhani keyfiyyətlərin inkişafıdır ki, insan ruhunun gücləri kimi, onlar Allahı tanımaq və Onu sevməklə bəslənməlidir. Həzrət Əbdül-Bəha bizə nəsihət edir:

> **“Sən uşaqlar barəsində yazmışdın: Lap başlanğıcdan uşaqlar ruhani (ilahi) təlim-tərbiyə almalı, həmişə Allahı zikr etmələri onların yadına salınmalıdır. Qoy Allaha məhəbbət onların ana südü ilə onların bütün batini varlığına hopsun”.**[9]

**"Uşaq körpəlikdən Allahın məhəbbəti ağuşunda bəslənməli, Onu tanımaq köksündə qidalanmalıdır ki, o işıq saçsın, ruhaniyyətcə inkişaf etsin, hikmət və biliklə dolsun və mələklər dəstəsinin xasiyyətlərini əldə etsin".**[10]

**"Uşaqların təlim-tərbiyəsinə aid sualına dair: sən onları Allaha məhəbbət döşündən qidalandırmalı, ruha aid şeylərə can atmağa öyrətməlisən ki, üzlərini Allaha tərəf döndərsinlər; ta ki, onların davranış tərzi gözəl ədəb qaydalarına uyğun, xasiyyətcə birinci olsunlar; ta ki, onlar bəşərin bütün fəzilətlərini və tərifəlayiq keyfiyyətlərini mənimsəsinlər..."**[11]

Siz bu sitatlardan ən azı birini əzbərləmək istəyə bilərsiniz.

# BÖLMƏ 8

Birinci sinifdə, ümumən beş ya altı yaşlı uşaqlara sizin keçəcəyiniz dərslər bizim indiyə kimi araşdırdığımız ideyaları nəzərdə tutmaqla işlənib hazırlanmışdır. Bu məqamda ikinci fəslə qayıtmaq və birinciyə xüsusi diqqət ayıraraq iki ya üç dərsi oxumaq faydalı olardı. Sizin sonralar bütün iyirmi dörd dərsi təfərrüatları ilə təhlil etmək fürsətiniz olacaqdır. İndilik, təşviq olunursunuz ki, aşağıda göstərildiyi kimi, əvvəlki bölmələrdəki müzakirələrin işığında onların müxtəlif elementlərinə fikir verəsiniz.

Hər bir dərs sizin özünüzün və bəzi uşaqların oxuduqları dualarla başlayır. Bundan dərhal sonra, uşaqlar sizin köməyinizlə dua əzbərləməyə vaxt həsr edirlər. "Allahın məhəbbət ağuşunda qidalanmalı" olan uşağın inkişafı üçün dua əvəzedilməzdir. Həzrət Əbdül-Bəha bizə buyurur ki, "uşaqlar cavan bitki kimidirlər, onlara dua öyrədilməsi isə onların üzərinə yağış yağdırmaq kimidir ki, onlar zərif və təravətli olsunlar, Allahın məhəbbətinin xəfif nəsimləri onların üzərinə əssin, onları sevinclə titrətsin."Bir anlıq vaxt ayırıb bu elementin uşaqlarda gözəl xasiyyət bəsləmək kimi ümumi məqsədə necə töhfə verməsi üzərində düşünün. Fikirlərinizi bir neçə cümlədə ifadə etməyə cəhd edin. Kitab 1-də verilmiş aşağıdakı kimi müəyyən parçalar sizə yardım edəcək:

**"Allahla söhbət ən böyük nailiyyət və ən şirin halətdir. Dua ruhaniyyət, düşüncəlilik və ilahi hisslər yaradır, Mələkutun yeni cazibələrini törədir və daha yüksək zəka həssasiyyəti doğurur".**[12]

**"Allahın ayələrindən sənə yetişənləri, ey Mənim bəndəm, Ona yaxın kəslərin avazı ilə oxu, qoy nağmələrinin şirinliyi sənin öz qəlbini alovlandırsın və bütün insanların ürəyini cəzb etsin".**[13]

**"Ruh təsir gücünə malikdir; duanın isə ruhani təsiri vardır".**[14]

**"Bəndə gərək Allaha dua edib yardım istəsin, Onun köməyi üçün yalvarsın və iltimas etsin. Bəndəliyin məqamına belə yaraşır, Rəbb isə istədiyi kimi, Özünün sonsuz hikmətinə uyğun olaraq hökm verəcək".**[15]

______________________________________________________________

______________________________________________________________

Hər bir dərsin mövzusu Müqəddəs Yazılardan uşaqların əzbərləmələrinin gözlənildiyi bir sitat ətrafında fırlanır. Sizdən xahiş edilir ki, onun mənası haqqında elementar anlayış əldə etmək üçün onlara əlinizdən gələn köməyi edəsiniz, bir anlayış ki, dəyişməz olaraq ruhani keyfiyyətlərin inkişafı üçün labüd olması üzə çıxır. Bu cəhətdən baxılmalı olan bir məsələ budur ki, siz arzu olunan keyfiyyətləri Allahın Sözünün köməyi olmadan ciddi və mənalı bir şəkildə bəsləyə bilərdiniz ya yox. Yenə də, fikirlərinizi ifadə edərkən silsilədəki ilkin kitablardakı bəzi düşüncələrinizi – məsələn, Kitab 2-nin birinci fəslində Allahın Sözünün gücü haqqında etdiyiniz təfəkkürü yadınıza salın. Konkret olaraq, yəqin ki əzbər bildiyiniz aşağıdakı parça bu məsələyə baxmaqda sizə necə kömək edir:

> **“Allahın Kəlamı insanların qəlblərinə əkilmiş fidana bənzər. Siz gərək onu hikmətin, arınmış və müqəddəs sözlərin kövsəri ilə bəsləyib böyüdəsiniz ki, onun kökləri bərkisin, budaqları isə fələkləri ötüb keçsin”.**[16]

Dərslərin başqa bir elementi uşaqlara nəql edilən hekayələrdən ibarətdir. Onların əksəriyyəti Atasının təlimlərinin kamil Nümunəsi kimi sizin bəsləmək istədiyiniz keyfiyyətləri təcəssüm etdirən Həzrət Əbdül-Bəhanın həyatından alınmışdır. Kitab 2-nin üçüncü fəslini öyrənməyinizdən siz Həzrət Əbdül-Bəhanın Şəxsində bəşəriyyətə bəxş edilmiş misilsiz nemətdən artıq agahsınız. Onun həyatı haqqında uşaqların öyrəndikləri hekayələr onların xarakterinin inkişafında xüsusi rol oynayır və Onun uşaqlara olan məhəbbəti təkrar-təkrar onlara xatırladılmalıdır. Onların Həzrət Əbdül-Bəha ilə bağları möhkəmləndikcə, siz onları əmin edə bilərsiniz ki, onlar Ondan nümunə götürməyə çalışdıqda Onun ürəyinə sevinc gətirirlər. Həzrət Əbdül-Bəhanın həyatından hekayələr sevinc və ehtiramla söyləndikdə, sizin fikrinizcə onlar uşaqlarda arzu olunan keyfiyyətlərin inkişafına necə töhfə verir?

Mahnıları oxumaq dərsin başqa bir elementidir ki, uşaqların ürəklərini və ruhlarını xoşbəxtliklə doldurur. Həzrət Əbdül-Bəha buyurur:

**“Musiqi sənəti ilahi və təsirlidir. O, qəlbin və ruhun qidasıdır. Musiqinin gücü və məlahəti ilə insan ruhu yüksəlir. Musiqi uşaqların ürəklərini ehtizaza gətirir və onlara təsir edir, çünki onların ürəkləri pakdır, musiqi təranələri onlara böyük təsir göstərir. Bu uşaqların ürəklərinə əta edilmiş gizli istedadlar musiqi vasitəsilə öz ifadəsini tapacaqdır.”**[17]

Qrupunuzla uşaqların hələ çox balaca ikən gözəl mahnılar oxumağı öyrənmələrinin nə üçün vacib olduğunu müzakirə edin.

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

Oyun və rəngləmələr dərsin daha iki elementidir. Oyunlar təbiəti etibarilə əməkdaşlığa yönəlikdir və müəyyən arzu olunan xasiyyət və vərdişlərin inkişaf etdirilməsinə töhfə vermək məqsədi daşıyır. Dərslərdə verilən rəngləmə səhifələri hər bir dərsin fokuslandğı ruhani keyfiyyətə aiddir. Rəngləmə də, inkişaflarının bu mərhələsində uşaqlar üçün zəruri olan bir sıra həyati bacarıq və qabiliyyətləri möhkəmləndirir. Bu iki fəaliyyət uşaqların ruhani təlim-tərbiyəsi dərslərinin fərqləndirici əlaməti olmalı olan sevinc atmosferinin yaradılmasına kömək edir. Siz ruhani keyfiyyətlərin inkişafı üçün sevincli bir mühitin necə əvəzedilməz olması barədə bir neçə söz demək istəyə bilərsiniz.

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

## BÖLMƏ 9

Son bir neçə bölmə üzərində siz birinci sinfin dərsləri barədə bir qədər bəsirət əldə etmisiniz və hər bir elementin xarakterin cilalanmasına necə töhfə verdiyini görmüsünüz. İndi isə gəlin dərs deyəcəyiniz uşaqlarla münasibətlərinizin təbiətini qısaca nəzərdən keçirək.

Birincisi və ən önəmlisi sizin şagirdlərinizə bəslədiyiniz sevgi olacaq, bir sevgi ki, Allaha sevginin bir əksi kimi, hər bir kökdən olan işaqları əhatə edəcəkdir. Bu sevgini hər bir uşağa çatacaq bir tərzdə necə ifadə etmək bir məsələdir ki, müəllim onu öyrənməyə çalışır.

Şagirdlərinizə sizin pak və favoritlikdən azad sevginiz Qüdrət Sahibinin hər bir uşağın mahiyyətinə qoyduğu qiymətsiz dəyərə malik gövhərləri açmaq işini asanlaşdıracaqdır. Siz hər bir şagirdə Allahın surətində yaradılmış nəcib bir varlıq kimi baxacaqsınız və bu həqiqətə Həzrət Bəhaullahın bu sözləri şəhadət verir:

**"Zatımın qədimliyində və varlığımın əzəliyyətində gizli ikən Öz məhəbbətimi səndə aşkar etdim, ona görə səni yaratdım. Və Öz surətimi səndə həkk etdim və Camalımı sənə açdım".[18]**

**"Səni qüvvət əllərilə yaratdım, qüdrət barmaqları ilə xəlq etdim. Nurumun cövhərini səndə əmanət qoydum".[19]**

**"Sən Mənim çırağımsan və Mənim işığım səndədir. Ondan nurlan və Məndən başqasını axtarma. Çünki Mən səni zəngin yaratmışam və nemətimi sənə tamamlamışam".[20]**

Siz, əlbəttə başa düşməlisiniz ki, məhəbbət qaçılmaz olaraq sınanacaqdır. Siz dərs keçdikcə, şagirdlərinizdə xarakterin arzuolunmaz xüsusiyyətləri ilə qarşılaşacaqsınız. Bu cür hallarda bəzi uşaqların islaholunmaz olması barədə yanlış düşüncəni rədd etməyiniz mühümdür. Bəhai uşaq dərslərinin müəlliminin heç bir şübhəsi olmamalıdır ki, hər bir uşağın Allahın Onun Məzhərləri vasitəsilə tanımaq və Onların təlimlərinə itaət etmək qabiliyyəti vardır. Hər bir uşağın ruhani cəhətdən inkişaf etmk qabiliyyəti vardır. Sizin sinfinizdəki hər bir uşaq nəcib yaradılmışdır və sizin köməyinizlə, bu nəcibliyi nümayiş etdirə bilər.

Sevgili Ağanın uşaqlara işarə edərək istifadə etdiyi ifadələri yada salmaq Allahın yaradılışı kimi onların ruhani mahiyyətlərini daha aydın görməkdə sizə kömək edəcəkdir. Aşağıda bu cür ifadələrdən seçmələr verilir; onları oxuyun və onların sizin dərs deyəcəyiniz qiymətli varlıqlar barədə qavrayışınızı necə formalaşdırmalı olduğu üzərində düşünün.

- bu sevimli uşaqlar
- bu parlaq, şən uşaqlar
- Məlakutun bu gözəl uşaqları
- Sənin hidayət sularının cücərtdiyi bu fidanlar
- Əbha Cənnətinin körpə bitkiləri
- Sənin bağının bitkiləri
- Sənin məhəbbət bağındakı körpə fidanlar
- Allahı tanımaq çəmənliklərinin təravətli şitilləri
- Sənin ilahi baharında çiçək açmış gənc ağaclar
- Sənin bağının qızılgülləri
- Sənin hidayət bağının qızılgülləri
- Sənin çəmənliyinin çiçəkləri
- həyat ağacının zoğları

- Sənin İrfan bağlarında böyüyən cavan budaqlar
- Sənin fəzl meşəliyində tumurcuqlayan budaqlar
- xilas çəmənliklərinin quşları
- Camali-Mübarəkin (Kamali-Mübarək) barmaqlarının yandırdığı çıraqlar
- Sənin qüdrət barmaqlarının əsərləri
- Sənin əzəmətinin ecazkar əlamətləri
- Əbdül-Bəhanın sevimliləri

## BÖLMƏ 10

Sevgi ilə yanaşı sizin şagirdlərinizlə bəslədiyiniz münasibət birinci sinfin dərslərində baxılan digər bütün ruhani keyfiyyətlərlə səciyyələnəcəkdir. Heç bir şübhə yoxdur ki, siz bu keyfiyyətləri yalnız dərs müddətində uşaqlarla təmaslarınızda deyil, həm də həyatınızın hər bir cəhətində getdikcə daha çox göstərəcəksiniz. Həzrət Bəhaullah bizə nəsihət edir:

> **“Məbada, ey insanlar, başqalarına yaxşı nəsihət verən, amma ona özləri əməl etməyi unudanlardan olasınız.”[21]**

Uşaq dərsləri müəllimləri üçün bu xüsusilə vacibdir ki, dərslərdə müzakirə olunan hər bir keyfiyyətin məna və nəticələri haqqında artan anlayış əldə etsinlər, elə bir anlayış ki, onların qayğısı altında olan körpə fidanları tərbiyə etmək və bəsləmək səylərində onlara kömək etsin. Məsələn, sizin görmüş olacağınız kimi, birinci dərs paklıq üzərində fokuslanır. Münasib görünür ki, xarakter məsələsi ilə bağlı dərslər ürəyin paklığı kimi bir keyfiyyəti araşdırmaqla başlasın. Həzrət Bəhaullah bizə xatırladır ki, “insan ürəyindən başqa” “göydə və yerdə olanların hamısını” Allah bizim üçün müəyyən etmişdir, insan ürəyini isə o Özünün gözəllik və cəlal məkanı etmişdir. İnsanın öz ürəyinin güzgüsünü təmizləməsi onu insan varlığının qəlbinin bəzənməli olduğu digər bütün sifətləri əks etdirməyə qabil edir.

Bu sinifdə baxılan ruhani keyfiyyətlər barədə düşünməkdə müəllimlərə kömək etmək üçün ikinci fəsil onların hər birinə aid bir neçə sitatı ehtiva edir. İndilik, aşağıda paklıqla bağlı sitatları oxumağa təşviq olunursunuz. Sonra isə bu keyfiyyətin, ümumiyyətlə, insan varlığının həyatında və xüsusilə, uşaqları tərbiyə etməyə qalxanların səyləri üçün əhəmiyyətini qrupunuzun digər üzvləri ilə müzakirə edin. Bəzi fikirlərinizi verilmiş boş yerdə yazdıqdan sonra siz sitatlardan ən azı birini əzbərləmək istəyə bilərsiniz.

> **“Ey mənim qardaşım! Pak ürək güzgü kimidir; onu sevgi fırçası ilə Allahdan başqa hər şeydən təmizlə və arıt ki, əsl günəş orada parlasın və əbədi səhər açılsın”.[22]**

> **“Ey varlıq oğlu! Ürəyin mənim məkanımdır; nazil olmağım üçün onu təmizlə. Ruhun nəzərgahımdır (zühur yerimdir), zühurum üçün onu pak et”.[23]**

**“İnsanın ürəyi nə qədər pak və arınmış olursa, o qədər o, Allaha yaxınlaşır və Həqiqət Günəşinin işığı onda zahir olur”.[24]**

**“İnsanın həyat tərzində birinci şey paklıq, sonra isə saflıq, təmizlik və ruh azadlığı olmalıdır. Əvvəlcə suyun axdığı məcra təmizlənməlidir ki, sonra ondan şirin çay suları axsın”.[25]**

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

## BÖLMƏ 11

İndi siz, uşaqların müəllimi kimi, özünüzdən soruşmalısınız, Allahın Öz Məzhəri Həzrət Bəhaullah vasitəsilə açmış olduğu təlimlərə uyğun hərəkət etmələri üçün onların motivasiyasını gücləndirməyə və Onun buyurduğu kimi, bizim qəlbimizi bəzəməli olan keyfiyyətləri inkişaf etdirməyə necə kömək edə bilərsiniz. Siz bu suala cavab axtararkən, Həzrət Bəhaullahın aşağıdakı sözləri üzərində düşünün:

**“Mənim qüdrət dilim əzəmət səltənətimdən bütün məxluqata xitab edərək deyib: ‘Mənim Camalıma məhəbbətiniz xatirinə Mənim hökmlərimə əməl edin!’ Xoş o aşiqin halına ki, heç bir dillə vəsfi mümkün olmayan bir həddə fəzl rayihəsi gələn sözlərdən Məhbubun ilahi ətrini duydu”.[26]**

**“Qoy Allaha məhəbbət alovu sizin nurlu ürəyinizdə parlaq şölə ilə yansın. Onu İlahi hidayət yağı ilə qızışdırın və özünüzün dönməzlik sığınacağında qoruyun. Onu təvəkkül və Allahdan başqa hər şeydən inqita etmək şüşəsində saxlayın ki, allahsızların dedi-qodusu onun işığını söndürməsin”.[27]**

**“Ey varlıq oğlu! Sevgim Mənim qalamdır. Oraya daxil olan kəs nicat tapar və əmin-amanlıqda olar; ondan üz çevirən kəs isə yolunu azar və həlak olar”.[28]**

1. Aşağıdakı cümlələri əvvəldə verilmiş sitatlardakı sözlərlə tamamlayın.

   a. Biz Allahın hökmlərinə Onun ________________ məhəbbət xatirinə riayət etməliyik.

   b. Allaha məhəbbət ________________ bizim ____________ ürəyimizdə _____________________ yanmalıdır.

c. Biz Allaha ______________________ alovunu İlahi ___________________ ___________ ilə qızışdırmalıyıq.

d. Biz onu Allaha __________________ şüşəsində qorumalıyıq.

e. Biz Allaha _________________________ alovunu Ona ______________ və ______________________________________________________________ ______________ şüşəsində saxlamalıyıq.

f. Biz Allahın hökmlərinə Onun ________________ məhəbbət xatirinə riayət etməliyik. Allaha məhəbbət ___________________ bizim _______________ ürəyimizdə ______________________________ ilə yanmalıdır. Biz bu alovu ______________ hidayət yağı ilə qızışdırmalıyıq. Biz onu öz _____________ şüşəsində qorumalıyıq. Biz onu __________________ və Allahdan başqa hər şeydən _______________ şüşəsində saxlamalıyıq. Biz Allaha məhəbbət alovununu qızışdırmalı, onu qorumalıyıq ki, allahsızların dedi-qoduları onun ________________ söndürməsin. Allahın ______________ qalasına daxil olan kəs nicat və ______________________ tapar.

# BÖLMƏ 12

Sizin uşaqlarla keçrdiyiniz vaxt ərzində siz onların nurlu ürəklərində "Allahın məhəbbət alovunu" qızışdırmağa çalışacaq, Onun nemətlərinin və Onun sözləri vasitəsilə böyüyə bilmək imkanına görə sevincin fərqinə varmalarına kömək edəcəksiniz. Əlbəttə, bizim Allaha olan məhəbbətimiz və Onun nemətlərini almağa can atmağımız özü ilə bir qorxu da gətirir ki, hansısa bir səbəbdən, Onun məhəbbəti bizə çatmaz. Əgər bizim yanlış hərəkətlərimiz Onun xeyir-bərəkətlərini almağımızın qarşısını alan maneələr kimi çıxış edirsə, onda necə? Bizim mövcudluğumuzun səbəbi məhz Allahın məhəbbətidir və əgər biz bircə anlığa da olsaq, ondan məhrum olsa, bizim həyatımız məhv olardı. Əgər biz Allaha itaət etməsək, bizim Onun məhəbbətini almayacağımız qorxusu bizi düz yolda saxlayır, bizi nəfsimizin təhriklərindən, həsəd, tamah, şəkk-şübhə və şər istəklərdən qoruyur.

Uşaqların ürəklərində Allaha məhəbbət toxumları əkmək səylərinizdə siz həmçinin, Allahdan qorxmaq barədə də düşünməlisiniz, çünki onlar bir-birindən ayrılmazdır. Həzrət Əbdül-Bəha bizə nəsihət edir:

> **"Bu uşaqlara ilahi nəsihətlərlə tərbiyə verin. Uşaqlıqlarından onların ürəklərinə Allah sevgisi salın ki, onlar həyatlarında Allah xofu göstərsinlər və Allahın bəxişlərinə inamları olsun. Onları öyrədin ki, özlərini bəşəri qüsurlardan azad etsinlər və insan ürəyində gizli qalmış ilahi kamillikləri əldə etsinlər".**[29]

Bunu qeyd etmək vacibdir ki, Allah xofu (qorxusu) uşaqlarla birbaşa müzakirə ediləcək bir mövzu deyil. Onların yadında qalmalı olan yeganə təsəvvür (obraz) mehriban bir Allah təsəvvürü olmalıdır ki, onlar Onun nemət və bəxşişlərinə tam əmin olmalı və

inanmalıdırlar. Onlarda Allah sevgisi bəsləməyə çalışarkən sizin təqdim edə biləcəyiniz təsəvvür (anlayış) budur ki, müəyyən sözlər və əməllər Allaha xoş gedir, digərləri isə yox. Məsələn, onlara deyilə bilərdi ki, mehriban dilli olmaq və bir-birinə lütfkar olaq Allaha xoş gedən hərəkətlərdir, amma kobud sözlər işlətmək və başqalarını incitmək Allaha xoş deyil.

Aşağıdakı sitatlar sizin düşünməyiniz üçün verilir:

**"Sən gərək bütün şərtlər daxilində insanları ruhani xüsusiyyətlər və gözəl əməllər göstərməyə səbəb olan şeylərə dəvət edəsən ki, hamı insanın yüksəlişinə səbəb olan şeylərdən agah olsun və özlərini ən ciddi səylərlə ən uca Məqama və Cəlal Zirvəsinə tərəf yönəltsinlər. Allah xofu Onun yaratdıqlarının təlim-tərbiyəsində həmişə başlıca amil olmuşdur. Ona yetişənlərin xoş halına!"**[30]

**"Bu Zühurda onu müzəffər edən qoşun tərifəlayiq əməllər və dürüst əxlaqdır. Bu qoşunların sərkərdəsi və başçısı isə həmişə Allah qorxusu olmuşdur, o qorxu ki, hər şeyi əhatə edir və hər şeyə hakimdir".**[31]

**"Kamilliyin digər bir xüsusiyyəti Allahdan qorxmaq, bəndələrini sevməklə Allahı sevmək, mülayimlik, dözümlülük və təmkin göstərmək, səmimi, üzüyola, rəhmdil və şəfqətli olmaqdır; əzmli və cəsarətli, etibarlı və enerjili, çalışqan və mübariz, səxavətli və sədaqətli, kinsiz, qeyrətli və şərəfli, yüksək düşüncəli və alicənab olmaq, başqalarının haqqına hörmət etməkdir".**[32]

Bu və əvvəlki bölmədəki parçaların işığında Allah sevgisi ilə Allah xofu arasındakı münasibət və bu ikisi arasındakı dinamik qarşılıqlı təsirin tərifəlayiq bir xarakterin inkişafı üçün necə vacib olması barədə bir ya iki paraqraf yazın.

## BÖLMƏ 13

Əvvəlki bölmələrdə bizim müzakirələrimizdən aydın olmalı olduğu kimi, ruhani təlim-tərbiyə gözəlliyə cəzbolunma gücündən istifadə edir və ruhani keyfiyyətlərin üzərində fokuslanmaqla, lazımınca uşaqların ürəklərini həqiqi gözəlliyə – gözəl xasiyyətin gözəlliyinə, Müqəddəs Sözün fitrətindəki gözəlliyə, nümunəvi davranışın gözəlliyinə, yüksək fikirlərin gözəlliyinə və ən vacibi isə, Əbhanın Gözəlliyinə cəzb olunmağa yönəldir. Nəhayət, Allahın qanunlarına itaət Onun gözəlliyinə məhəbbətdən doğur. Beləliklə uşaqlar böyüyüb görürlər ki, ruhani keyfiyyətlərin əldə edilməsi özlüyündə ən böyük mükafatdır, dəyərsiz xarakterə sahib olmaq isə ən böyük cəzadır. Həzrət Əbdül-Bəha buyurur:

> **"Yaramaz əməllərin əsas səbəbi cahillikdir, ona görə də biz qavrayış və bilik vasitələrindən möhkəm yapışmalıyıq. Gözəl xarakter tərbiyə edilməlidir. İşıq ən uzaq yerlərə belə yayılmalıdır ki, insanlıq məktəbində hamı ruhun səmavi xasiyyətlərini əldə etsin və özləri üçün aydınlaşdırsınlar ki, şübhəsiz, yaramaz və bəd xarakterə malik olmaqdan daha məşum bir cəhənnəm, daha dəhşətli (yandırıcı) bir uçurum yoxdur; qınağalayiq keyfiyyətlər göstərməkdən daha qaranlıq quyu, ya da daha iyrənc işgəncə yoxdur".**[33]

Səmavi keyfiyyətlər əks etdirmək sevincini yaşamaqda uşaqlara kömək etmək üçün biz düzgün davranış göstərmək səylərində onları təşviq etməli, arzuolunmaz davranışdan çəkindirməliyik. Həm ağır cəzadan, həm də uşaqlara istədiklərini etməyə icazə verməklə mütləq azaqlıqdan qaçılmalıdır. Ümumdünya Ədalət Evinin bizə xatırlatdığı kimi, "Sevgi uşaqların şıltaqlığına göz yummaq yaxud onları tamamilə öz istədiklərini etməyə buraxmaq deyil, intizam, onları çətinliyə alışdırmaq cəsarəti tələb edir." Ədalət Evi davam edərək buyurur ki, "Uşaqlar mehribanlıqla, amma təkidlə Bəhai standartları ilə yaşamağa istiqamətləndirilməlidirlər". Həzrət Əbdül-Bəha izah edir:

> **"Nə vaxt ana öz uşağının yaxşı iş tutduğunu görsə, qoy o, uşağı tərifləsin, alqışlasın və onu həvəsləndirsin; əgər cüzi bir arzuolunmaz xüsusiyyət özünü göstərərsə, qoy ana uşağa öyüd-nəsihət versin, onu cəzalandırsın və bu zaman münasib vasitələrdən istifadə etsin, lazım gələrsə, bir az sözlə tənbeh də etsin. Lakin uşağı döymək və ya təhqir etmək qadağandır, çünki uşaq döyülərsə və ya alçaldılarsa, onun xasiyyəti tamamilə korlanar".**[34]

Həzrət Əbdül-Bəhanın göstərişinə əməl etmək üçün müəllim uşaqlar yaxşı hərəkət edəndə onları tərifləmək və ürəklərinə sevinc gətirmək yolları axtarmalıdır. Bu tələb edir ki, müəllim yaxşı müşahidə aparsın və hər bir uşağın irəliləyişini yazsın və bu zaman ehtiyatlı olsun ki, qalanlarına məhəl qoymayaraq həmişə az sayda eyni uşalqarı tərifləməsin. Odur ki, müəllimdən mehriban diqqət almağa adət etmiş uşaq üçün nadinc davranışa görə sadə bir bəyənməmə jesti incə, amma təsirli bir cəza vasitəsi ola bilər. Bəzən, xüsusilə, uşaq fəaliyyəti pozduqda daha irəli getmək və pis davranış üçün şifahi qınaq ifadə etmək zəruri ola bilər. Bu ciddi və hörmətli bir səs tonu ilə, cüzi də olsa qəzəb və ya səbirsizlik göstərmədən edilməlidir. Bundan əlavə, müəllimlərin çox vaxt dərsdən əlavə bu və ya digər şagirdə nəsihət etmək üçün vaxt tapmasına ehtiyac ola bilər.

Elə ola bilər ki, hətta müəllim yuxarıdakı məsləhətə əməl etsə belə, bəzi uşaqlar özlərini gözlənildiyi kimi aparmasınlar. Bu cür hallarda kiçik və uyğun tədbirlər tələb oluna bilər. Belə tənbehlər arasında uşağa rəngləməyə icazə verməmək yaxud bir neçə dəqiqə onu oyundan kənar saxlamaq tədbirləri ola bilər. Bu cəhətdən yadda saxlanılmalı iki mühüm fikir

var. Birincisi budur ki, müəllim uşağa aydın izah etməlidir ki, o nə üçün tənbeh edilmişdir, məsələn, deyə bilər ki, “Sən bunu, bunu etmisən, ona görə də oyuna girməzdən öncə beş dəqiqə gözləməlisən”. İkinci ideya isə budur ki, tənbeh pis davranışdan dərhal sonra tətbiq edilməlidir; əks təqdirdə uşaq cəzanı davranışla əlaqələndirməyə qadir olmaya bilər.

İndi isə yuxarıdakı ideyaları qrupunuzun digər üzvləri ilə müzakirə edin. Siz bir yerdə cümlələr qura bilərsinizmi ki, sizin fikrinizcə, uşaqlarda yaxşı davranışı təşviq etmək və onların həm fərd olaraq, həm də qrup kimi etdikləri irəliləyişi tərifəməkdə münasib olsun? Zəruri olduqda pis davranışdan çəkindirməkdə hansı cümlələr uyğun olardı?

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

## BÖLMƏ 14

Tərifəlayiq keyfiyyətləri inkişaf etdirməkdə uşaqlara kömək etmək üçün dərsdə intizam və nizamla fərqlənən münasib mühit yaratmağınız vacibdir.

Həzrət Əbdlü-Bəha buyurur:

> **“... məktəblər çox nizam-intizamlı bir yer olmalıdır, tədris hərtərəfli və düşünülmüş olmalı, şərait elə təmin edilməlidir ki, uşaqların xasiyyəti yaxşılaşsın və cilalansın; belə ki, bu erkən yaşlarından uşağın batini zatında ilahi təməl qoyulsun və paklıq (müqəddəslik) binası ucaldılsın”.**[35]

Uşaqlar üçün həftəlik dərslərə istinadən isə O aşağıdakı nəsihətləri verir:

> **“Sən mütləq başladığın bu mütəşəkkil fəaliyyəti heç fasilə vermədən davam etdirməli və buna böyük əhəmiyyət verməlisən ki, günbəgün bu [sinif] böyüsün və Müqəddəs Ruhun nəfəsi ilə daha da canlansın. Əgər bu fəaliyyət yaxşı təşkil olunsa, əmin ol ki, o gözəl nəticələr verəcək”.**[36]

Öyrətmə (tədris) sənətinin böyük hissəsi hər bir uşağı elə istiqamətləndirməkdən ibarətdir ki, onun davranışı nəşəli, eyni zamanda da intizamlı öyrənmə mühitinə töhfə versin. Baxmayaraq ki, bu mənada təcrübədən sizin qazanmalı olduğunuz çoxlu bəsirətlər var, amma biz elə lap başlanğıcdan özünüzü hazırlamaqda sizə kömək etmək üçün bir neçə təməl ideyanı müzakirə edəcəyik. Başlamaq üçün dərs vaxtını təsvir edən aşağıdakı mətni oxuyun:

Siz uşaqlar gələndə özlərini təşkil etmələri və sakit oturmaları üçün onlara bir neçə dəqiqə verirsiniz. Uşaqların hamısı yerbəyer olduqdan sonra dərsi dua ilə açmaq üçün siz sakit atmosferdən istifadə edirsiniz. Təqdim etdiyiniz növbəti fəaliyyət mahnı oxunmasıdır ki, ondan sonra siz dərsin mövzusunu elan edirsiniz və sitatları əzbərləməkdə uşaqlara kömək edirsiniz. Gözləmə ab-havası yaratdıqdan sonra uşaqlara hekayə danışırsınız. Sonra onlar oyun oynayırlar. Oyun bitdikdə siz rəngləmə vərəqlərini, karandaş və ya qələmləri paylayır və istəyirsiniz ki, şəkli diqqətlə rəngləsinlər. Dərsi bitirmək üçün uşaqları sakit oturmağa və özlərini son dua üçün hazırlamağa təşviq edirsiniz, sonra siz və daha bir neçə uşaq dua oxuyursunuz.

Fəaliyyətlər ardıcılığında bir məntiq varmı? Sizin fikrinizcə, fəaliyyətlər nə üçün məhz bu qaydada (ardıcıllıqda) təşkil edilir?

__________________________________________________________________

__________________________________________________________________

__________________________________________________________________

__________________________________________________________________

__________________________________________________________________

__________________________________________________________________

__________________________________________________________________

__________________________________________________________________

## BÖLMƏ 15

Sizin yuxarıda müzakirə etmiş olduğunuz kimi, uşaqlar dərsə sakit oturmaq üçün gəlmirlər. Nə də onları o cür saxlamaq sizin məqsədinizdir. Siz fürsətdən istifadə edib onların təbii enerjilərini öyrənməyə istiqamətləndirməlisiniz. Bunu etmək üçün siz sakit anları və fəaliyyət və sövq-təbii hərəkət dövrlərini planlaşdırmalısınız. Bütün hallarda təşkilatçılıq əsas elementdir. Dərs yaxşı təşkil olunanda uşaqların öz fikirlərini toplaması və öyrənməsi daha asan olur. Bununla bağlı ən azı aşağıdakı üç məqamı nəzərə almağa dəyər:

1. Hər bir dərs dövrü aydın və ardıcıl bir tərzdə başlamalı, eyni cür də, nizamlı bir tərzdə bitməlidir.

2. Bir rejim qoyulmalıdır. Beləliklə, uşaqlar yavaş-yavaş hansı fəaliyyətin hansının ardınca gəldiyini və onlardan nələrin gözləndiyini biləcəklər.

3. Hər bir fəaliyyətə həsr edilən vaxt çevik olmalı və uşaqların şövq və enerjisindən asılı olmalıdır.

Əvvəlki bölmənin təsvirində qeyd edildiyi kimi, hər bir dərs dövründə uşaqların yerinə yetirəcəkləri fəaliyyətlər aşağıdakı kimidir:

a. Duaların oxunması və əzbərlənməsi

b. Mahnıların oxunması

c. Bəhai Yazılarından sitatların öyrənilməsi və əzbərlənməsi

d. Hekayələrin dinlənilməsi

e. Oyunlar oynanılması

f. Cizgilərin rənglənməsi

g. Son duaların oxunması

Bu fəaliyyətlər təbii olaraq onların tələb etdiyi enerji səviyyəsi və hərəkət dərəcəsində fərqlənir; bəziləri çox fəal, digərləri isə çox sakit olacaqdır.

Bu yeddi fəaliyyətdən hansılarda ən çox hərəkət vardır?________________________

____________________________________________________________________________

____________________________________________________________________________

____________________________________________________________________________

Hansılar daha sakit fəaliyyətlərdir? ____________________________________________

____________________________________________________________________________

____________________________________________________________________________

____________________________________________________________________________

Nizam-intizamlı atmosferin saxlanmasının müəllimin üzərinə qoyduğu müəyyən tələblər vardır. Aşağıdakılardan hansılar arzu olunan atmosferə töhfə verir, hansılar ona mane olur? Onları müvafiq olaraq "T" və "M" ilə işarə edin.

_____ Dərsin keçirildiyi yerin təmiz və səliqəli saxlanması

_____ Vəziyyət nə olursa olsun, sakit və səbirli qalmaq

_____ Uşaqlar göstərişlərə qulaq asmayanda səbri itirmək

_____ Hər bir fəaliyyət üçün materialların əvvəlcədən hazırlanması

_____ Uşaqlar gözləyərkən konkret fəaliyyət üçün orda-burda ləvazimat axtarmaq

_____ Hər bir fəaliyyət üçün uşaqların nə etməli olduqlarını aydın izah etmək

_____ İşlərini tez bitirən uşaqları məşğul tutmaq üçün digər fəaliyyətlərə hazır olmaq

_____ Uşaqların bir fəaliyyətdən digərinə nizamlı bir qaydada keçmələrinə kömək etmək

_____ Uşaqlara kitabdan hekayə oxumaq

_____ Hekayəni elə yaxşı öyrənmək ki, onu şövq və rahatlıqla uşaqlara danışmaq olsun

## BÖLMƏ 16

İntizamlı və qayda-qanunlu bir dərs atmosferi yaratmağa çalışarkən sizə müəyyən bir davranış meyarları qoymaq lazım olacaq. Birinci bir neçə həftə bu cəhətdən xüsusilə vacib olacaq. Bu ilikin dövrdə hansı gözləntilər qoyulursa, onlar böyük ehtimalla bütün il boyu saxlanılcaqdır. Başlanğıcda, müəllim bir neçə davranış meyarı seçməli və bir dəfədə üç ya dördündən çox olmamaqla onları uşaqlara sadə bir dildə izah etməlidir. "Özümüzü yaxşı aparmalıyıq" kimi çox ümumi meyarlar (standartlar) o qədər də kömək etmir, lakin "danışanda növbə ilə danışaq" kimi digər meyarları isə başa düşmək asandır. Qrupunuzun üzvləri ilə aşağıdakı müddəalarda verilmiş meyarları müzakirə edin və daha bir neçəsini siyahıya əlavə edin.

a. Biz oyun oynayanda bir-birimizə kömək edirik.

b. Biz birliyimizi saxlayır və savaşmırıq.

c. Biz sinfimizə gələn yeni dostları xoş qarşılayırıq.

d. Danışanda biz-birimizə və müəllimizə qulaq asırıq.

e. Biz bir-birimizlə mehriban dillə danışırıq.

f. Biz danışmaq üçün növbəmizi gözləyirik.

g. Biz karandaşlarımızı bir-birimizlə paylaşırıq.

h. Biz işlərimizi görüb qurtarmağa çalışırıq.

i. ______________________________

j. ______________________________

k. ______________________________

l. ______________________________

Bu cür sadə cümlələrə bölünəndə davranış gözləntiləri uşaqlarla müzakirə edilə və müddəalar onlarla müntəzəm olaraq oxuna bilər. Bu yolla, müddəalar meyar kimi mənimsənilə bilər ki, uşaqlar ona can atırlar və onlar sərt qoyulan qaydalar kimi qavranılmayacaq. Onlar verilmiş gözlənti dəsti ilə tanış olanda müəllim bir dəfəyə çoxunu əlavə etməkdən qaçmağı yadda saxlayaraq tədricən başqalarını da təqdim edə bilər. Dərs zamanı hansısa konkret bir çətinlik meydana çıxarsa, uşaqlara o çətinliyə xitab edən bəzi sadə cümlələri qurmaqda kömək edilə bilər. Bu cür hallarda müəllim qətiyyətli və ardıcıl olmalı, amma eyni zamanda da dost kimi və nəvazişlə dolu olmalıdır.

## BÖLMƏ 17

Bölmə 8-də biz birinci Sinif dərslərinin müxtəlif elementlərinin əhəmiyyətini qısaca nəzərdən keçirdik və onların hər birinin tərifəlayiq xarakterə necə töhfə verdiyini müzakirə

etdik. Bu və növbəti yeddi bölmədə, təklif olunan və əzbərləməkdən başlayan fəaliyyətlərdə uşaqları məşğul etmək üçün qəbul edə biləcəyiniz yanaşmaları nəzərdən keçirəcəyik.

Dua və Yazılardan sitatların əzbərlənməsi sizin keçəcəyiniz dərslərin mərkəzində dayanır və hər bir dərs boyu duaları əzbərdən söyləmək və bir yeni sitatı əzbərləmək səylərində şagirdlərə kömək edəcəksiniz. Bizim sizin onları bu fəaliyətlərlə necə məşğul edə biləcəyinizi müzakirə etməmizdən əvvəl Müqəddəs Sözü əzbərləməkdə uşaqlara kömək etməyə cəhd edərkən kənara qoyulmalı olan ümumi bir yanlış konsepsiya barədə bir neçə söz deyilməlidir.

Siz eşitmiş ola bilərsiniz yaxud dərs keçməyə başlayarkən "uşaqlar şeyləri təkrar etməməlidirlər" yaxud "onlar özlərinə məxsus fikirləri ifadə etməyi öyrənməlidirlər" kimi fikirləri eşidərsiniz. Əslində, mexaniki öyrənmə deyilən bir şeyin tənqidi o qədər nüfuz edib ki, bu fikirlər dünyanın hər yerində getdikcə daha geniş yayılmaqdadır. Bu doğrudur ki, insan riyaziyyarda bərabərliyi, fizikada bir qanunun tərifini, yaxud ədəbiyyatda nəsr əsərinin bir parçasını az ya çox dərəcədə onları anlamaqla əzbərləyə bilər. Amma sizin özünüzdən soruşmalı olduğunuz sual budur: nə üçün dərin bir müddəanın əzbərlənməsi ilə onun mənasının dərk edilməsi bir-birinə qarşı qoyulmalıdır? Yaddaş insan zəkasının (beyninin) dərketmə, düşünmə və xəyal kimi güclərindən biridir. Onlar bir-birini tamamlayır və gücləndirir. Biz ancaq təsəvvür edə bilərik ki, Allahın Sözünün əzbərlənməsi özünün insan ürəyini və zəkasını yenidən yaratmaqda sonsuz potensialları ilə uşaqların ağıl və dərrakələrini (anlayışlarını) nə qədər yüksəldəcəkdir. Sonra onlar inkişaflarında müxtəlif mərhələlərdən keçdikcə, əzbərlədikləri parçalardan təzə bəsirətlər ədə edəcək və bütün həyatları boyu onlar Allahın Sözünün yaradıcı, yenidən dirçəldici və transformasiyaedici güclərindən istifadə etməyə qabil olacaqlar.

Qrupunuzun digər üzvləri ilə Allahın Sözünü əzbərləməyin uşaqların beyinlərində və ürəklərində ruhani bilik toxumlarını – o toxumlar ki, zaman keçdikcə böyüyəcək, şirin və ətirli meyvələr gətirəcək – dərin əkməkdə kömək etməsində müəllimlərin inamlı olmalarının nə üçün vacib olduğunu müzakirə edin.

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

## BÖLMƏ 18

Fikrimizdə yuxarıdakı düşüncələrlə gəlin Yazılardan parçaları əzbərləməkdə şagirlərinizə necə kömək edəcəyinizə 1-ci Dərsdəki sitatı nümunə götürərək diqqət ayıraq. Başlamaq üçün üzərində dərsin fokuslandığı ruhani keyfiyyətin mənası barədə bəzi ilkin bsirətləri əldə etməkdə onlara kömək etmək istəyəcəksiniz. Bu məqsədlə istifadə etmək üçün qısa bir giriş müddəası verilir. Sonra isə təşviq olunursunuz ki, sitatda olan çətin sözləri

seçməklə və uşaqların asanlıqla müəyyən edə biləcəkləri vəziyyətlərdə istifadə etməklə onun mənası barədə ilk elementar anlayış əldə etməkdə onlara kömək edəsiniz. Paklıq keyfiyyətinə xitab edən 1-ci Dərsdə təsvir edildiyi kimi bu yanaşmanı nəzərdən keçirin.

Bizim ürəklərimiz güzgü kimidir. Biz onları həmişə təmiz saxlamalıyıq. Kiməsə qarşı kin saxlamaq, kiməsə qısqanclıq etmək və hər hansı bir səbəbdən kiməsə kopud olmaq – bunla ürəklərimizin güzgüsünü örtən toz kimidir. Ürəklərimiz pak olanda onlar Allahın nurunu və Onun sifətlərini – mehribanlıq, sevgi cə səxavətlilik kimi sifətləri - əks etdirir və başqalarına xoşbəxtlik səbəbinə çevrilir. Ürəklərimizi təmiz saxlamaqda kömək olaraq gəlin Həzrət Bəhaullahın bu sitatını əzbərləyək:

**“Ey Ruh Oğlu! İlk nəsihətim budur: pak, mehriban və nurlu bir ürəyə malik ol . . .”**

*Nəsihət*

1. Herard və Mari bir gün rəsm rəngləyirdilər. Herarda sarı karandaş lazım idi, amma Mari ona sarı karandaş vermək istəmirdi. Müəllim Mariyə dedi ki, o paylaşmalıdır. Müəllim Meriyə yaxşı nəsihət verdi.

2. Patrisiya pulunu konfetə yoxsa hekayə kitabına xərcləmk barədə qərar verməli idi. Valideynləri ona məsləhət verirlər ki, hekayə kitabı lasın. Valideynləri Patrisiyaya yaxşı nəsihət verirlər.

*Malik olmaq*

1. Yatağına getməzdən əvvəl Tenayə dua oxumağı xoşlayır. Onun dua oxumaq üçün başala bir dua kitabçası var. Tinayə kiçik bir dua kitabçasına malikdir.

2. Biz bostanımızda çoxlu dadlı tərəvəzlər yetişdiririk. Bii çoxlu təzə tərəvəz verən yaxşı bir torpaq sahəsinə malikik.

*Pak ürək*

1. Ckati qəzəblənib və Aqota kobud sözlər dedi. Aqot kədərləndi, amma tez də Katini bağışladı. Ağot pak ürəyə malikdir.

2. Qustavo piroqlarını bütün uşaqlarla, hətta başqalrı ilə heç nəyini paylaşmayan Corcla paylaşmağı xoşlayır. Qustavo pak ürəyə malikdir.

*Mehriban ürək*

1. Minq Linqin valideynləri dostlarını evlərinə dəvət edəndə Minq Linq şadlıqla onlara yemək verir. Minq Linq ühriban ürəyə malikdir.

2. Cənab Robertson çox qocadır. Cimmi onun meyvə məhsulunu bazara aparmaqda ona kömək edir. Cimmi Mehriban ürəyə malikdir.

*Nurlu ürək*

1. Mən kədərli olanda anam həmişə məni şənləndirir və məni şad edir. Mənim anam şad ürəyə malikdir.

2. Obuya xəstələnib və bütün vaxtı yataqda qalmalı olmuşdu. O çoxlu dualar oxudu, kədərlənmədi, və şad olmaqda davam etdi. Qbuya şnurluürəyə malikdir.

Əlbəttə, siz sadəcə kitabdan giriş müddəasını və izahedici cümlələri oxumayacaqsınız, siz əvvəlcədən yaxşı hazırlaşacaqsınız ki, onları təbii bir çəkildə təqdim edəsiniz.

Uşaqların əzbərlədikləri dulara gəlsikdə isə, təklif olunur ki, siz eyni yanaşmanı qəbul edəsiniz, amma hansı sözlərin və ya ifdələrin izaha tələb etməsin qərar vermək sizin ixtiyarınıza buraxılacaqdır. Bu cəhətdən siz bir qədər ehtiyatlı olmaq istəyəcəksiniz. Elə vaxtlar olur ki, sözlərin mənasını duaların özündən tədricən çıxarmaqda uşaqlara imkan vermək yetərli olur. Məsələn, uşaqların 1-ci dərsdə öyrənməyə başladıqları aşağ\ıdakı duaya baxın. Onlar asanlıqla görəcəklər ki, həm "pak ürək", həm də "gövhər" nəsə qiymətli şeylərdir. Amma son nəticədə pak ürəyi bizə ALlahın verdiyini başa düşmək üçün onlara, çox güman ki, "bəxş etmək" sözünün mənasını öyrənmə lazım gələcək. Bu məqsədlə siz hansı cümlələri qurardınız?

**"Odur Allah! Ey Allah, mənim Allahım! Mənə gövhər(dürr) kimi pak bir ürək bəxş et."**[37]

________________________________________

________________________________________

________________________________________

________________________________________

## BÖLMƏ 19

İndi isə gəlin duaları və sitatları əzbərləməkdə şagirlərinizə kömək edərkən qəbul etdiyiniz bir yanaçmaya baxaq Edəcəyiniz bu ola bilər ki, parçaları kiçik hissələrə böləsiniz və hər parça bir dəfəyə əzbərlənə bilər. Birinci hissə əzbərləndikdən sonra ikinci hissə ona əlavə edilə bilər və bütöv sitat və ya dua əzbərlənənə qədər beləcə davam edə bilər. Siz şagirlərdən xahiş edə bilərsiniz ki, hər bir hissəni sizin ardınızca bəzən tək olaraq, bəzən də qrup halında təkrarlasınlar.

Məsələn, şagirdlərinizə 1-ci Dərsdəki sitatı öyrətmək üçün “Ey Ruh Oğlu!” ifadəsi ilə başlayar və uşaqların bunu təkrarlamalarını istərdiniz. Sonra siz “Ey RUh Oğlu!” ifadəsini “Mənim ilk nəsihtim budur” cümləsi ilə birləşdirər və uşaqlardan onların bir yerdə təkrar etmələrini istərdiniz. Sonda isə “Pak, Mehriban və nurlu bir ürəyə malik ol” sözlərini əlavə edərdiniz. Qrup sitatı buy olla öyrəndikdən sonra uşaqlardan bir neçəsinin onu əzbərdən söyləmələrində onlara kömək etmək olar. Əlbəttə, sizə lazım olacaq ki, bu çalışmanı şən bir tərzdə həyata keçirilməsini təmin edəsiniz ki, uşaqlar diqqətlərini saxlasınlar və nəşəli atmosfer qorunsun. Daha sonra onların qabiliyyətləri tədricən yüksəldikcə, dua və bütöv sitatlarda bir dəfəyə daha uzun hissələri əzbərləməyə qabil ola bilərlər.

Siz dərsin bu hissəsini yerinə yetirərkən, müəyyən vəziyyətlər yarana bilər ki, onları əvvəlcədən bilmək çətindir və onları elə ilk təcrübədən necə həll edəcəyinizi öyrənməli olacaqsınız. Amma hələ də bəzi hallar olacaq ki, siz onlara hazırlığınızın bir hissəsi kimi baxsanız yaxçı olardı. Aşağıdakı sualları qrupunuzun digər üzvləri ilə müzakirə edin:

- Əgər sinifinizdə çoxlu uşaqlar varsa, sitatları əzbərlməkdə onlara necə kömək edəcəksiniz?
- Uşaqların bəziləri digərlərinə nisbətən tez əzbərləyərlərsə, siz nə edəcəksiniz?
- Əgər bi rya daha çox uşaqın əzbərləməklə bağlı çətinlikləri olsa, nə edəcəksiniz?
- Siz necə təmin edəcəksiniz ki, hətta uşaq dərs dövründə bütöv sitatı əzbərləyə bilməsə də, o yenə də müvəffəqiyyət hissi yaşasın?

____________________________________________________________________
____________________________________________________________________
____________________________________________________________________
____________________________________________________________________
____________________________________________________________________
____________________________________________________________________
____________________________________________________________________
____________________________________________________________________

## BÖLMƏ 20

Uşaqlar oxumağı sevirlər və sitatalrın əzbərlənməsindən əvvəl gələn bu fəaliyyət ən sevincli fəaliyyətlərdən biridir. Uğurun açarı praktikadır. Siz özünüz mahnıları bilən bir kimsə ilə ritmə və melodiyaya diqqət etməklə oxumalısınız. Əgər siz yazılmış mahnıları dinləsəniz, onları daha tez öyrənəcəksiniz. Uşaqlarla da isz mahnıları dəfərlərlə oxumalı olacaqsınız ki, onlar mahnıları yaxşıca öyrənsinlər. Mahnıların da sözləri sitatların əzbərlənməsində olduğu yolla əzbərlənə bilər, ancaq bu dəfə sözlər melodiya üzrə təkrarlanmalıdır. Şagirlərinizin qabiliyyətindən asılı olaraq, siz görəcəksiniz ki, bəzi mahnılar uşaqların oxumaları üçün çox çətindir. Bu cür hallarda mümkündür ki, siz sözləri oxuyasınız, şagirlər isə xorla oxumaqda sizə qoşularlar.

## BÖLMƏ 21

Bizim nəzərdən keçirəcəyimiz növbəti fəaliyyət hekayə nəql edilməsidir. Əvvəlllər qeyd edildiyi kimi, birinci sinifdəki hekayələrin əksəriyyəti Həzrət Əbdül-Bəhanın həyatından alınmışdır. Bu hekayələr çox xüsusi bir məqsədə xidmət edir. Onlar uşaqların əldə etməyə cəhd etdikləri ruhani keyfiyyətlərin kamil Nümunədə Onun yer üzündə bütün həyatı boyu necə tamlıqla təzahür etdiyini görməkdə onlara kömək edir. Bu hekayələri danışanda müəllimin göstərdiyi ehtiram onların incə ürəklərində səmavi hisslər yaradır və onların ruhani həssasiyyətlərini oyadır.

Sizin uşaqlara Həzrət Əbdül-Bəha haqqında söyləyəcəyiniz hekayələr qısa olsa da, onların verdiyi ruhani bəsirətlər dərindir. Ona görə də siz şagirdlərinizi təsvir oluna hadisələrin fövqünə qaldırıb ruhani gerçəkliklərdən işartılar görməkdə onlara kömək edəcəksiniz. Gəlin bunun işığında 1-ci Dərsdədəki hekayni nəzərdən keçirək.

*Həzrət Əbdül-Bəha həmişə insanın ürəyini oxuyardı və O, ürəkləri pak və nurlu olan insanları çox sevərdi. Şam yeməyi vaxtı Həzrət Əbdül-Bəhanın qonağı olmaq şərəfi qazanmış bir qadın vardı. Qadın oturub Onun hikmətli sözlərini dinləyərkən qarşıusnda içərisində su olan stəkana baxdı və ağlından belə bir fikir keçdi: "Ah! Kaş Həzrət Əbdül-Bəha bu stəkandakı suyun boşaldılıb doldurulduğu kimi, mənim ürəyimi götürüb oradan hər cür dünyəvi arzunu boşaldardı və sonra onu ilahi sevgi və anlayışl doldurardı,"*

*Bir anlığa onun ağlından bu fikir keçdi və bu barədə bir söz demədi, amma çox keçmədən nəsə baş verdi ki, onun nə düşündüyünün Həzrət Əbdül-Bəhanın bildiyini başa düşdü. Söhbətin ortasında ikən, Həzrət Əbdül-Bəha dayandı, xidmətçini çağırdı və yavaşca ona bir neçə kəlmə dedi. Xidmətçi sakitcə o xanmın stoluna yaxınlaşdı, stəkanını götürdü, boşaltdı və qadının qarşısına qoydu.*

*Bir az sonra Həzrət Əbdül-Bəha danışığını davam etdirərək su qrafinini stolun üzərindən götürdü və çox təbii bir şəkildə qadının boş stəkanını yenidən doldurdu. Nə baş verdiyini heç kəs bilmədi, amma qadın bildi ki, Həzrət Əbdül-Bəha Onun ürəyinin arzusuna cavab verirdi. O sevincinin həddi-hüdudu yoxdu. O indi bilirdi ki, ürəklər və beyinlər Həzrət Əbdül-Bəha üçün açıq kitab kimidir və O onları böyük sevgi və mehribanlıqla oxuyur.*

Aydın görünür ki, paklıq ruhani bir keyfiyyətdir ki, hekayə - əslində bütün dərd – onun üzərində fokuslanır. Aşağıdakı sualar sizin hekayə danışmağınızın şagirdlərin bu keyfiyyət barədə alnlayışlarını necə dərinləşdirməsi və onun üçün çalışmağın nə demək olması barəsində düşünməkdə sizə kömək edəcəkdir.

1. Uşaqların bunu başa düşmələri vacib olacaq ki, Həzrət Əbdül-Bəhanın qonağı ürək paklığı əldə etməyi arzulayırdı. Hekayədə bu arzu ilə qonağın qarşısındakı su stəkanı arasındakı əlaqə nədir?

2. Paklığa nail olmaq üçün biz, necə ki stəkan boşaldıldı və yenidən dolduruldu, özümüzü dəyərsiz fikir və hisslərdən təmizləməliyik ki, Allah bizim ürəklərimizi sevgi, səxavətlilik və mehribanlıq kimi keyfiyyətlərdlə işıqlandırsın. Biz, əlbətə, bilirik ki, Allahın nəzərindən heç nə gizli qala bilməz. Bu anlayış paklıq üçün qoyduğumuz səylərdə bizə necə kpmək edir?

Bu sualları qrupunuzun digər üzvləri ilə müzakirə etdikdən sonra bəzi fikirlərinizi aşağıda yazın.

________________________________________________

________________________________________________

________________________________________________

________________________________________________

________________________________________________

________________________________________________

________________________________________________

________________________________________________

________________________________________________

Bu sinifdə bir neçə dərs vardır ki, Həzrət Əbdül-Bəhanın həyatı ilə bağlı olmasa da, ruhani keyfiyyətlərin əhəmiyyətini nümayiş etdirir. Uşaqlar hekayələrdə bu keyfiyyətləri göstərməyin mükafatını, onlara məhəl qoymamağın nəticələrini görə bilirlər. Məsələn, 4-cü dərsdə `canavar` deyin qışqıran çobanın hekayəsi bir çox mədəniyyətlərdə məşhurdur və bu hekayə yalan danışmağınnəticələrini nümayiş etdirir və bu yolla doğruçuluq keyfiyyəti barədə bəsirət verir. Uşaqlar bu hekayələrdə verilən mesajlardan xeyli faydalana bilərlər ki, xarakterilərinin formalaşmasında onlar üçün bunların dəyərli olması özünü doğruldacaqdır.

## BÖLMƏ 22

Hekayə danışmaq bir sənətdir. Hekayəni təsirli nəql etmək üçün onunla yaxşı tanış olmaq lazımdır. Bu bölmədə biz 1-ci Dərsdən olan hekayəni mmüəllimin onu uşaqlara necə danışmalı olmasını görmək üçün daha təfərrüatlı öyrənəcəyik.

Biz müəyyən etmişik ki, bu hekayənin əsas mövzusu ruhani bir keyfiyyət olan ürəyin paklığıdır və bu keyfiyyət stəkan misalında araşdırılır. Özünüzdən soruşmalı olacağınız birinci sual budur - hekayənin hansı hissələri bu əsas mövzu ilə birbaşa bağlıdır? Həzrət Əbdül-Bəhanın hikmətli sözləri səbəb olur ki, qadın nə qədərəcə ürəyini, qarşısındakı stəkan kimi, dünyəvi arzulardan pak etmək istədiyini düşünsün və bu, əsas bir hissədir. Həzrət Əbdül-Bəhanın sonra yenidən doldurduğu stəkandakı suyu boşaltmaq barədə xidmətçiyə göstərişi başqa bir mühüm məqamdır. Məsələn, əgər siz Həzrət Əbdül-Bəhanın xidmətçiyə qadının stəkanını boşaltmağı tapşırmasını qeyd etməsəydiniz, necə olardı?

İndi, hətta biz hekayənnin əsas hissələrini müəyyən etmiş olsaq da, onun digər təfərrüatları unudula bilməz. Bu hekayə necə alınardı, əgər siz sadəcə desəydiniz ki, Həzrət Əbdül-Bəhanın qonağı şam süfrəsində oturarkən dilədi ki, kaş onun ürəyi də, necə ki stəkan

boşaldılır, o cür təmizlənərdi? Hekayədə həmişə təfərrüatlar var ki, ona daha çox hiss qatır və onu maraqlı edir. Bunlar hansı təfərrüatlardır?

- Boş stəkan fikri qonağın ağlına yemək vaxtı, Həzrət Əbdül-Bəhanın hikmətli sözlərini dinləyərkən gəlir, amma o fikrini heç vaxt səsləndirmir.

- Şam ziyafətində toplananlar üçün danışsa da, Həzrət Əbdül-Bəha dayanıb qadının səsləndirilməmiş fikrinə xitab edir.

- Qadından başqa heç kəs nə baş verdiyini bilmir.

- Qonaq Həzrət Əbdül-Bəhanın onun ürəyinin arzusunu bilməsindən hədsiz şad olur.

Bunu qeydə etmək lazımdır ki, hər bir müəllim 1ci Sİnifdəki hekayələri əlavə təfərrüatlar və başqa elementlərlə bəzəməməyə diqqət etməlidir ki, bu, hekayələrin çatdırmaq istədiyi ruhani həqiqətlərdən uşaqların diqqətini yayındırmasın.

Ona görə də, hekayənin nəqli boyu siz yadda saxlama qistəyəcəksiniz ki, hekayəni danışmağın məqsədi uşaqlara nəsə vacib bir şeyin öyrədilməsidir. Siz onu sevinc və hissiyatla danışanda onlar daha uaxşı başa düşəcəklər. Uşaqlar monoton söylənmiş hekayəni dinləməyəcəklər. Siz xoşbəxtlik, kədər, mməyusluq, qorxu və cəsarət kimi emosiyaları səsinizlə, üz ifadələriniz və jestlərinizlə çatdırmağı öyrənməlisiniz. Səsinizin tonu və ucalığı hekayənin açılmasına uyğun olaraq dəyişməlidir və jestləriniz, sadə olsa da, bir-birinə uyğun olmalıdır. Siz həmçinin, təhkiyənizin (nitqinizin) ritm və sürəti barədə də düşünməlisiniz. Əgər çox yavaş danışsanız, uşaqlar darıxmağa başlayacaqlar, əgər çox sürətlə danışsanız, onlar hekayənin süjetini tuta bilməyəcəklər. Hər şeydən öncəsi isə, yadda saxlamalısınız ki, siz teatr göstərmirsiniz və hissləriniz səmimi olmalıdır. Uşaqlar qeyri-səmimiliyi asanlıqla tuta bilirlər. Arzu olunan budur ki, uşaqların ürəyinə yol tapasınız və qədim hekayə danışmaq ənənəsini davam etdirəsiniz ki, min illərdir, bununla insanlığın hikmət xəzinəsi bir nəsildən digərinə ötürülmüşdür.

## BÖLMƏ 23

İndi isə gəlin hekayə danışılmasının ardınca gələn iki fəalyyyətə nəzər salaq – oyun oynamaq və rəngləmək. Bu bölmədə biz oyunlara həsr olunan vaxta necə yanaşmağı müzakirə edəcəyik, rəngləməyə isə növbəti bölmədə baxılacaq.

Ğncə də qeyd edildiyi kimi, 1-ci Sinifdəki oyunlar təviətcə əməkdaşlıq xarakterlidir. Çox insan inanır ki, oyunun meydanoxuyucu (çətin) olması üçün uşaqlar gərək bir-birləri ilə yarışsınlar (rəabət aparsınlar, bir-birlərinə rəqib olsunlar). Amma biz başa düşməlitik ki, uşaqlar yarışmaq məcburiyyətində qaldıqları vəziyyətə salınanda müəyyən arzuolunmaz münasibət və vərdişlər yetişdirilir ki, onlar oyun zamanından sonra da qalır. Bundan əlavə, belə bir anlayış da vardır ki, mükəmməlliyə ancaq rəqabətlə nail olmaq olar. Siz bu ideyanın həqiqiliyini yoxlamalısınız. Bu gerçəkdən, doğrudurmu ki, biz əməkdaşlıqla mükəmməlliyə nail ola bilmərik? Rəqabətdə kimlərsə udur, kimlərsə uduzur; əməkdaşlıqda isə hər kəs uğur hissi yaşayır.

Birinci sinifdəki oyunlar uşaqların tapşırıqlara qulaq asmaq və onları yerinə yetirmək bacarıqlarını yüksəltmək məqsədi daşıyır. Onlar həm də görəcəklər ki, hər bir oyun bütöv sinif üçün ümumi hədəf qoyur və səylərini koordinasiya etməkdə onların hər birinin o hədəf nail olmaqda öz rolları var. Hər şeydən əvvəl isə, gözlənilir ki, onlar bir-birlərinə göstərdikləri qayğı dərəcəsini də yüksəldəcək, əzmli olmağı öyrənəcək və onları bir-birinə bağlayan dostluq bağlarını möhkəmləndirəcəklər. Ona görə də, siz yadda saxlamalısınız ki, olar uğur hissi yaşamaq üçün oyunu mükəmməl oynamalıdırlar. Məsələn, 1-ci Dərsdə təklif edilən oyuna baxın. Bu oyun arzu olunan məqsədlərə necə töhfə verir?

Növbəti fəaliyyət üçün avtomobil təkərini torpağa qoyun və uşaqlardan xahiş edin ki, baxsınlar, onların neçəsi onun işində eyni zamanda dayana bilər. Əgər təkər yoxdursa, siz yerə matras və ya dəsmal yaxyd bənzər bir əşya qoya bilərsiniz. Hansı əşyanı seçməyinizdən asılı olmayaraq, o kifayət qədər kiçik olmalıdır ki, sinifdəki bir çox uşaqlar üçün oyunu meydanoxuyucu etsin.

Müəllimin oyunu təqdim etmə metodu uşaqların nu necə oynamalarına təsir edir. Oyunun məqsədi aydın izah edilməlidir. Sonra isə uşaqlara təlimat verərkən, müəllim çox vaxt onu necə oynamağı göstərməli və onlarla bir yerdə məşq etməli olacaq.

## BÖLMƏ 24

İncəsənət fəaliyyətləri uşaqların yaradıcılıq və mental bacarıqlarının inkişaf etdirillməsi üçün vacibdir və erkən yaşlardan sərbəst rəsmçəkmə və özünü incəsənətlə ifadənin digər formaları vasitəsilə təsəvvürlərini (xəyallarını) istifadə etmək fürsəti verilməlidir. Lakin dünyanın çox yerində uşaqların beş ya altı yaşdan əvvəl rəsm çəkmək fürsətləri olmayacaq, ondan da ötəsi, onların heç karandaşları olmayacaq. Onlar üçün birinci sinifdə dərslərlə birgə verilən şəkilləri rəngləmə fəaliyyəti dərsin ən həyəcanverici vaxtlarından biridir və bu onlarda sonrakı siniflərdə daha kompleks incəsənət fəaliyyətlərinə keçmək üçün zəruri inamı yaradır. Bu, həmçinin, onların məharətini və intizam hissini inkişaf etdirir. Uşaqlarda rəngləmə vasitəsilə aşağıdakı qabiliyyətlər, bacarıq və münasibətlər necə yüksəlir?

- Nizam və gözəlliyi başa düşmək
- Təfərrüata fikir vermək
- Əldəki iş üzərində fokuslanmaq
- Resursları başqaları ilə bölüşmək
- Başqalarına hörmət göstərmək

Müəyyən bacarıq və münasibətlərin yetişdirilməsinə əlavə olaraq, dərsin rəngləməyə həsr edilən hissəsi 1-ci Sinifdəki dərslərdə baxılan keyfiyyətləri öz şagirdləri ilə müzakirə etməsi üçün müəllimə daha bir fürsət verir. Rəsmlərin təsviri barədə sinfə suallar verməklə

müəllim ideyalarını ifadə etmək və şəkildə baş verənlər barədə danışarkən fikirlərində əlaqələr qurmaq üçün şagirdlərə imkan verə bilər. Birinci dərsin rəngləmə səhifələrinə baxın və onu uşaqlara necə təqdim edəcəyinizi qrupunuzla müzakirə edin. Fikirlərinizi aşağıda yazın.

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

Müəllim özünü bu fəaliyyət üçün hazırlamalıdır. Uşaqlar dəyişməz olaraq rəngləməyə böyük həvəs göstərirlər; Amma dərsin bu hissəsi əgər yaxşı təşkil olunmazsa, hərc-mərclik yarana bilər. Rəngləmək üçün uşaqlara yer müəyyən edilməlidir və rəsmlərin surətləri hər bir dərs üçün əvvəlcədən hazırlanmalıdır. Xüsusilə birinci bir neçə dərsdə müəllim uşaqların karandaşlarla necə davranmaları barədə bir standart qoya və onlarla bir intizam və əməkdaşlıq hissi qura bilər. Əvvəlcə, hər bir uşaqdan istənilə bilər ki, müəllimin tutduğu qutudan bir karandaş götürsün. Onlar rəngləri dəyişmək istəyəndə əllərindəki karandaşı qaytarıb başqasını götürə bilərlər. Bir neçə dərsdən, onlar əllərində hər dəfə ancaq bir karandaş saxlamağa vərdiş etdikdən sonra karandaşlar qutusu ümumi yerdə (ortada) qoyula bilər.

İndi isə aşağıdakı vəziyyətlərə baxın. Hər bir cütlükdə hansı vəziyyət bu fəaliyyətin effektivliliyinə töhfə verəcəkdir?

_____ Müəllim imkan verir ki, uşaq xətlərdən kənarı rəngləsin, o vaxtadək ki, şagird dəqiq rəngləməyi öyrənməyə cəhd etsin.

_____ Bütün uşaqlara deyilir ki, dəqiq olaraq xətlərin daxilini rəngləsinlər.

_____ Uşaqlar rəngləyərkən, müəllim onların arasında gəzir, onlara kömək edir və təşviq edir.

_____ Uşaqlar rəngləyərkən, müəllim oturur və öz işi ilə məşğul olur.

_____ Rəngləməyə ayrılmış vaxtda uşaqlar gördükləri işdə diqqətlərini cəmləyirlər.

_____ Rəngləməyə ayrılmış vaxtda uşaqlar bir-birinin diqqətini yayındırırlar.

_____ Uşaqlar rəngləyərkən, tamamilə səssiz qalırlar.

_____ Uşaqlar rəngləyərkən, şən bir halda ünsiyyət edir və bir-birini təşviq edirlər.

## BÖLMƏ 25

Bir çox müəllim dərs keçdikləri uşaqlar haqqında bəzi elementar məlumatları saxlamaq üçün qeyd kitabçası tuturlar. Bu cəhətdən iki cədvəl kömək edir, biri onların dərslərdə iştirakını yazmaq üçün ad və yaşlarının qeyd edildiyi cədvə, digəri isə sitatları əzbərləməkdə onların inkişafını izləmək üçün aparılan cədvəl. İkinci cədvəldə, məsələn, uşaqların adları soldakı sütunda, dərslərin sayı isə yuxarıda cədvəl boyu üfüqi sətirdə yazıla bilər. Müəllim iki məlumatın kəsişdiyi xanada uşaqların hansı sitatları əzbərlədiklərini qeyd edə bilər.

Qeyd kitabçasında dərslərin özünə aid də bir bölmə ola bilər ki, müəllimlər orada hər bir dərsin təhlilini, onu necə keçmək barədə fikirlərini, uşaqlarla dərs prosesinin necə keçməsi barəsində düşüncələrini yaza bilərlər.

Başqa bir bölmədə isə müəllim uşağın irəliləyişi (inkişafı) barədə, habelə, onun valideyni ilə bölüşülə biləcək hər hansı konkret epizodları qeyd edə bilər. Bəzi müəllimlər bu bölməyə uşağın valideynlərinin, qardaş-bacılarının adlarını və onların evini ziyarət edərkən danışdıqları mövzuların qısa icmalının yazılmasının da faydalı olduğunu görmüşlər.

## BÖLMƏ 26

Uşaq dərsi müəllimi kimi, siz hər bir uşağın valideynləri ilə sıx və mehriban münasibət qurmalı olacaq, onlarla müntəzəm görüşərək oğul və qızlarının böyüməsi və inkişafını müzakirə edəcək, onların dəstəyini axtaracaqsınız. Siz artıq Kitab 2-ni bitirdiyinizdə icmanızda dərslərdə iştirak etmiş bəzi uşaqların ailələrini ziyarət etmiş ola bilərsiniz. Yaddaşınızı yeniləmək üçün Kitab 2-nin üçüncü fəslində Bölmə 15-ə istinad edə bilərsiniz. Həmin bölmədə uşaq dərsi müəllimi Maribelin Emmagilin evlərinə ikinci ziyarəti zamanı onun anasına nə deyəcəyi barədə fikirlərini necə toplayır. O qərara alır ki, Emmanın dərsdə iştirakının onun ürəyinə gətirdiyi sevincdən bəhs etməklə və onun qızında kəşf etdiyi gözəl keyfiyyətləri qeyd etməklə başlasın. Bir müəllimin icmanın uşaqlarına hansı sevinc və şövqlə xidmət etdiyini görmək valideynlər üçün necə əhəmiyyətlidir? Valideynlərin ürəklərini cəzb edən və onlarla etibar bağları yaradan digər hansı sifətlər vardır?

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

Müəllimin gördüyü və uşağın inkişaf etditdiyi ruhani keyfiyyətləri valideynlərin diqqətinə çatdırmaq bir müəllim üçün niyə vacibdir?

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

Maribel, həmçinin, bu fəslin 3-cü Bölməsində öyrəndiyiniz sitatı Emmanın anası ilə bölüşmək və uşaqların təlim-tərbiyəsi üçün onun mənalarını onunla araşdırmaq qərarına gəlir. Sizin valideynlərlə etdiyiniz çoxlu söhbətlərdə uşaq dərslərinin proqramını formalaşdıran təlim-tərbiyə ideyalarını izah etmək fürsətiniz olacaqdır. Aşağıda sizin bu fəsildə nəzərdən keçirdiyiniz bəzi konsepsiyalar verilir. Uşaqların ruhani təlim-tərbiyəsi kontekstində o konsepsiyaların hər biri barəsində valideynlərə nə deyəcəksiniz? Valideynlərlə söhbətlərinizdə paylaşacağınız bu və ya digər konsepsiya ilə bağlı Yazılardan hər hansı parçalar varmı?

Tərifəlayiq xarakterin inkişaf etdirilməsi: ____________________

Ruhani keyfiyyətlərin qazanılması: ____________________

Duanın uşaqların ürəyinə təsiri: ____________________

Allahın Sözünün əzbərlənməsinin vacibliyi: ____________________

Həzrət Əbdül-Bəhanın həyatından hekayələrin uşaqlara tərbiyəvi təsiri: __________

Allah sevgisi və Allah xofu: ______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

İntizam və azadlıq: ______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

Maribel ideyaların təqdimatı zamanı dayanıb Emmanın anasını öz fikrilərini bölüşməyə dəvət edir. Gözlənirlir ki, zamanla müəllimlərlə uşaqların valideynləri arasında dərin bir söhbət inkişaf edəcəkdir. Nə üçün vacibdir ki, elə birinci ziyarətlərindən müəllimlər baxılan mövzular barədə onların rəylərini, fikirlərini və ideyalarını almağa çalışsınlar?

Ruhani keyfiyyətlər üzrə ümumi konsepsiyanı valideynlərlə müzakirə etməyə əlavə olaraq, siz onların qız və oğullarında dərslərin yetişdirməyə çalışdığı konkret keyfiyyətlər barədə onlarla söhbət etmək üçün il boyunca çıxan fürsətləri istifadə etməlisiniz. Dərs 1-də baxılan ürək paklığı keyfiyyəti barədə əldə etmiş olduğunuz bəsirətləri yadda saxlayaraq, belə bir söhbətə necə yanaşa biləcəyinizi dərnəyinizin üzvləri ilə araşdırın.

______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

Maribel fərqindədir ki, əgər Emma iştirak etdiyi dərslərdən tam fayda götürməlidirsə, özü (Maribel) ilə Emmanın anası arasında qarşılıqlı anlayış və dəstək olmalıdır. Məsələn, dərsdə öyrənilən dua və sitatlar valideynlərin köməyi ilə evdə oxuna bilər. Bu yolla uşaqlar onların ürəklərinə və qəlblərinə nüfuz edəcək və xarakterlərini formalaşdıracaq Allah Sözünü daha yaxşı mənimsəyə bilirlər. Müəllimlərin səylərini valideynlərin hansı yollarla gücləndirə və dəstəkləyə biləcəklərini qrupunuzun üzvləri ilə müzakirə edin.

______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

Uşaqlarda arzu olunan ürəyə aid və əqli sifətlər ancaq uzun müddət ərzində lazımi təlim-tərbiyə ilə bəslənə bilər. İndi aydındır ki, siz valideynlərlə müntəzəm görüşlərinizdə

vurğulayacağınız şey onların uşaqlarının nə qədər kiçik olmasından asılı olmayarq etdikləri tərəqqidir. Söhbətləriniz irəli getdikcə, siz valideynlərlə bu nailiyyətlərin üzərində növbəti inkişafa necə nail ola biləcəyinizi araşdıra bilərsiniz. Bu cür müsbət ünsiyyət əhvali-ruhiyyəsi qurulanda müəllim böyük ehtiyatla uşaqlarda müşahidə etdiyi hər hansı bir çətinliyi valideynlərlə bölüşə bilər. Məqsəd elə bir əməkdaşlıq vasitəsi tapmaqdır ki, çətinliklərini aşmaqda uşağa kömək etsin. Valideynlərlə belə konstruktiv ünsiyyət üsulu yaratmağın vacibliyini qrupunuzla müzakirə edin.

________________________________________________________________________

________________________________________________________________________

________________________________________________________________________

________________________________________________________________________

________________________________________________________________________

## BÖLMƏ 27

Fəslin əvvəlində qeyd edildiyi kimi, kursda iştirak edənlərdən heç də hər kəs uşaq dərsi yaratmayacaq. Yaradanlardan isə bəziləri başqa bir xidmət sahəsinə keçənə qədər uşaq dərsi apara bilər. Bir başqaları da özlərini bu sahədəki fəaliyyətə həsr edəcək, uzun müddət ərzində uşaqları Allah sevgisi içində bəsləyən dərslər aparacaq. Bununla belə, iştirakçıların seçdikləri yoldan asılı olmayaraq hamının istər qonşuları ziyarət edərkən, görüş və yığıncaqlarda iştirak edərkən, yaxud qardaş-bacı və ya valideyn olaraq öz icmalarının gənc üzvləri ilə təmas imkanı olacaqdır. Şərait nə olursa olsun, bu fəsildə araşdırılan konsepsiya və ideyalar onların icmalarının, Ümumdünya Ədalət Evinin bizə buyurduğu kimi, "ən qiymətli sərvəti"nin qayğısına qalmaq məsuliyyəti barədə bəsirətlər verəcəkdir. Qoy hamımız, insanlığın parlaq gələcəyinə intizarlı nəzərlərlə baxarkən, aşağıdakı parçalardan ilham və dəstək (ruzi) alaq:

> **"Biz bütün insanlara Allahın Sözünün öz bəndələri arasında ucaldılmasına, eynilə, varlıq aləminin irəliləməsinə və ruhların yüksəlişinə aparan şeyləri əmr edirik. Bu məqsəd üçün ən böyük vasitə uşağın təlim-tərbiyəsidir".**[38]

> **"Uşaqların təlim-tərbiyəsi insanın ən tərifəlayiq əməlləri arasındadır və bu, Mərhəmət Sahibinin fəzl və lütflərini cəzb edir, zira təlim-tərbiyə insanın bütün kamilliklərinin ən zəruri təməlidir və insanlara imkan verir ki, daimi şərəf zirvələrinə aparan yolda çalışsınlar. Əgər uşaq lap körpəlikdən öyrədilərsə, o, Müqəddəs Bağbanın mehriban qayğısı altında, şırıldayan arxlar arasında böyüyən cavan pöhrə kimi ruh və biliyin saf sularından içəcək. Və təbii ki, o Həqiqət Günəşinin parlaq şüalarını udacaq, onun işığı və istisi ilə həyat bağında təravətli və gözəl bir ağac kimi böyüyəcək...**
>
> **Əgər bu möhtəşəm vəzifənin yerinə yetirilməsində gərgin səy qoyularsa, insanlıq aləmi başqa bir zinətlə bəzənər və parlaq işıqla nur saçar. Onda bu qaranlıq yer nurlu bir vadiyə çevrilər, bu yer məskəni Cənnətə çevrilər".**[39]

# REFERENCES


1. From a message dated 21 April 2000, published in *Messages from the Universal House of Justice, 1986–2001: The Fourth Epoch of the Formative Age* (Wilmette: Bahá'í Publishing Trust, 2010), no. 331.26, p. 727.

2. Bahá'u'lláh, in "A Compilation on Bahá'í Education", compiled by the Research Department of the Universal House of Justice, published in *The Compilation of Compilations* (Maryborough: Bahá'í Publications Australia, 1991), vol. 1, no. 576, p. 251.

3. *Selections from the Writings of 'Abdu'l-Bahá* (Wilmette: Bahá'í Publishing, 2010, 2015 printing), no. 106.1, p. 187.

4. 'Abdu'l-Bahá, in "A Compilation on Bahá'í Education", published in *The Compilation of Compilations*, vol. 1, no. 614, pp. 273–74.

5. *Gleanings from the Writings of Bahá'u'lláh* (Wilmette: Bahá'í Publishing Trust, 1983, 2017 printing), CXXII, par. 1, p. 294.

6. *Selections from the Writings of 'Abdu'l-Bahá*, no. 108.1, p. 188.

7. Ibid., no. 110.2, p. 190.

8. Ibid., no. 100.2, p. 179.

9. Ibid., no. 99.1, pp. 178–79.

10. Ibid., no. 103.5, p. 183.

11. Ibid., no. 122.1, pp. 198–99.

12. Words of 'Abdu'l-Bahá, cited in *Star of the West*, vol. 8, no. 4 (17 May 1917), p. 41.

13. *Gleanings from the Writings of Bahá'u'lláh*, CXXXVI, par. 2, p. 334; also in *Bahá'í Prayers: A Selection of Prayers Revealed by Bahá'u'lláh, the Báb, and 'Abdu'l-Bahá* (Wilmette: Bahá'í Publishing Trust, 2002, 2017 printing), p. iii.

14. From a talk given on 5 August 1912, published in *The Promulgation of Universal Peace: Talks Delivered by 'Abdu'l-Bahá during His Visit to the United States and Canada in 1912* (Wilmette: Bahá'í Publishing, 2012), par. 6, p. 345.

15. 'Abdu'l-Bahá, in *Prayer and Devotional Life: A Compilation of Extracts from the Writings of Bahá'u'lláh, the Báb, and 'Abdu'l-Bahá and the Letters of Shoghi Effendi and the Universal House of Justice*, compiled by the Research Department of the Universal House of Justice (Wilmette: Bahá'í Publishing, 2019), no. 24, p. 7.

16. *Gleanings from the Writings of Bahá'u'lláh*, XLIII, par. 9, p. 109.

17. From a talk given by 'Abdu'l-Bahá on 24 April 1912, published in *The Promulgation of Universal Peace*, par. 1, p. 71.

18. Bahá'u'lláh, *The Hidden Words* (Wilmette: Bahá'í Publishing Trust, 2003, 2012 printing), Arabic no. 3, p. 4.

19. Ibid., Arabic no. 12, p. 6.

20. Ibid., Arabic no. 11, p. 6.

21. *Gleanings from the Writings of Bahá'u'lláh*, CXXVIII, par. 6, p. 313.

22. *The Call of the Divine Beloved: Selected Mystical Works of Bahá'u'lláh* (Haifa: Bahá'í World Centre, 2018), no. 2.43, p. 31.

23. *The Hidden Words*, Arabic no. 59, p. 17.

24. From a talk given by 'Abdu'l-Bahá on 26 May 1912, published in *The Promulgation of Universal Peace*, par. 1, p. 204.

25. *Selections from the Writings of 'Abdu'l-Bahá*, no. 129.2, p. 204.

26. *Gleanings from the Writings of Bahá'u'lláh*, CLV, par. 4, pp. 376–77.

27. Ibid., CLIII, par. 5, p. 369.

28. *The Hidden Words*, Arabic no. 9, p. 5.

29. From a talk given by 'Abdu'l-Bahá on 24 April 1912, published in *The Promulgation of Universal Peace*, par. 4, p. 73.

30. Bahá'u'lláh, *Epistle to the Son of the Wolf* (Wilmette: Bahá'í Publishing Trust, 1988, 2016 printing), p. 27.

31. *Tablets of Bahá'u'lláh Revealed after the Kitáb-i-Aqdas* (Wilmette: Bahá'í Publishing Trust, 1988, 2005 printing), no. 8.53, p. 126.

32. 'Abdu'l-Bahá, *The Secret of Divine Civilization* (Wilmette: Bahá'í Publishing, 2007, 2016 printing), par. 74, p. 53.

33. *Selections from the Writings of 'Abdu'l-Bahá*, no. 111.1, p. 191.

34. Ibid., no. 95.2, pp. 176–77.

35. Ibid., no. 111.4, pp. 191–92.

36. Ibid., no. 124.1, p. 200.

37. 'Abdu'l-Bahá, in *Bahá'í Prayers*, p. 29.

38. From *a Tablet revealed by Bahá'u'lláh, in Social Action: A Compilation Prepared by the Research Department of the Universal House of Justice* (Wilmette: Bahá'í Publishing Trust, 2020), no. 178, p. 107.

39. *Selections from the Writings of 'Abdu'l-Bahá*, no. 103.1–3, p. 182.



# Birinci Sinif Uşaq Dərsləri

## Məqsəd

Beş-altı yaşda uşaqlara xarakterin cilalanması üzərində fokuslanaraq dua və sitatların əzbərlənməsindən, mahnı, hekayə, oyun və rəngləmədən ibarət olan dərslər keçmək qabiliyyətini inkişaf etdirmək

# BÖLMƏ 1

Ötən fəsildə siz birinci sinifdə təlim səylərinizin təbiəti barədə düşündünüz və dərsi təşkil edən müxtəlif elementləri nəzərdən keçirdiniz. İkinci fəsil isə iyirmi dörd dərsin özünü ehtiva edir ki, onlar da, bildiyiniz kimi, ruhani keyfiyyətlərin inkişafı ətrafında qurulmuşdur. Bu ilkin bölmələrdə sizə dərslərin məzmunu ilə tanış olmaq və onları aparmaq praktikası imkanı veriləcək. Bizim edəcəyimiz odurki, biz hər dəfə dörd dərs götürəcək və hər birində xitab edilən ruhani keyfiyyətlər üzərində düşünəcəyik. Sonra isə iştirakçı yoldaşlarınızla dərslərin təfərrüatına baxmağa təşviq olunacaq, növbəti dörd dərsə keçməzdən əvvəl müxtəlif fəaliyyətləri növbə ilə yerinə yetirəcəksiniz.

# BÖLMƏ 2

Birinci Sinifdə hər bir dərs dövrü müəllim tərəfindən oxunan açılış duası ilə başlamalıdır. Kömək olaraq  hər dörd dərsdən bir oxumaq üçün bir yeni dua, ümumilikdə isə altı dua təklif olunacaqdır. Əgər siz bu duaları yadda saxlaya bilsəniz, bu, uşaqların özlərinin duanı əzbərləmə səylərində təşviq edəcəkdir. 1-4-cü dərslər üçün aşağıdakı dua təklif olunur:

> **“İlahi! Bu uşaqları tərbiyə eylə. Bu uşaqlar Sənin bağının bitkiləri, Sənin çəmənliyinin gülləri, Sənin bağçanın qızılgülləridir. Qoy Sənin yağışın onların üzərinə yağsın; qoy Sənin həqiqət Günəşin Sənin məhəbbətinlə onları nurlandırsın; qoy Sənin nəsimin onları təravətləndirsin ki, tərbiyə alsınlar, böyüsünlər, inkişaf etsinlər və kamil bir gözəlliklə meydana çıxsınlar. Sən Əta Edənsən, Sən Şəfqətlisən”.**[1]

Yuxarıdakı duanı oxuduqdan sonra siz bir neçə uşağı təşviq edəcəksiniz ki, əzbər bildikləri bir duanı oxusunlar. Əvvəldə heç də uşaqların hamısı dərsin bu hissəsinə töhfə verə bilməyəcəklər. Lakin tədricən, bu sinifdə öyrəndiləri duaları əzbərlədikcə daha və daha çox uşaq bunu edə biləcək. Əvvəlki fəsli öyrənməyinizdən siz artıq aşağıdakı dua ilə də tanışsınız və uşaqlar bu birinci bir neçə dərsdə onun üzərində fokuslanacaqlar.

> **“Odur Allah! Ey Allah, mənim Allahım! Mənə dürr təkin saf bir qəlb əta eylə”.**[2]

Açılış duasına həsr olunan dövr ən mühüm hissədir; o, Allaha sitayiş atmosferi yaradacaq, bir atmosfer ki, öyrənməyə yardım edir. Həzrət Əbdül-Bəha bizə buyurur ki, uşaqları bir yerə toplamaq və onlara dua öyrətmək onların ürəklərinə “sevinc gətirir”. Allahla söhbət “yüksək zəka həssasiyyəti yaradır”.

Allaha dərin sitayiş və ehtiram hissi inkişaf etdirməkdə və dua edən zaman özlərini uyğun şəkildə aparmaqda uşaqlara yardım edilməlidir. Ürəklərini və beyinlərini, istər özləri dua oxuyarkən, istərsə də başqa bir uşağın oxuduğu duaya qulaq asarkən, Müqəddəs Sözün üzərində cəmləşdirməkdə onların köməyə ehtiyacı ola bilər. Müəllim uşaqlardan necə ehtiram göstərmələrini soruşa bilər – məsələn, onlar necə oturmalıdırlar, əllərini necə tutmalıdırlar ki, fikri yayındırmasın, ora-bura baxmaqdan gözlərini necə saxlamalıdırlar. Müəllim həmçinin, özlərini duaya necə hazırlamalarını da onlara göstərə bilər. Siz yadda saxlamaq istəyəcəksiniz ki, səsli və hərəkətli bir mühitdə hər bir uşağın bir dua oxumasındansa, ancaq üç və ya dörd uşağın ruhani bir atmosferdə dua oxumaları daha yaxşıdır. Ona görə də məsləhət olardı ki, hər bir dərsin başlanğıcında dua oxuyacaq uşaqları əvvəlcədən seçəsiniz. Əmin olmaq

istəyəcəksiniz ki, hər üç ya dörd dərsdən bir hər bir uşağın ən azı bir dəfə dua oxumasına imkan verilsin.

İl boyunca, vaxtaşırı olaraq şagirdlərinizlə duanın təbiəti və nə üçün dua etdiyimiz barədə danışmağınız vacib olacaq. İlk bir neçə həftə ərzində onlara nə deyə biləcəyinizi aşağıda təsvir edin.

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

## BÖLMƏ 3

İndi isə birinci dörd dərsi qrupunuzun digər üzvləri ilə diqqətlə, bir-bir oxuyun. Siz giriş şərhlərinə və uşaqların əzbərləyəcəkləri sitatlara xüsusi diqqət verməlisiniz. Əlbəttə, siz bilirsiniz ki, birinci dərs paklıq üzərində foksulanır. Ətrafında hər bir növbəti dərsin fırlandığı ruhani keyfiyyəti yazın.

Dərs 1: Paklıq______________________________________________________

Dərs 2: ____________________________________________________________

Dərs 3: ____________________________________________________________

Dərs 4: ____________________________________________________________

Bu dərsləri keçməyə hazırlaşarkən, birinci fəsildə ürəyin paklığı haqqında artıq etdiyiniz kimi, hər bir dərsdə xitab edilən keyfiyyət üzərində düşünməyə vaxt ayırmalısınız. Aşağıda Yazılardan digər üç keyfiyyətə aid bir neçə sitat verilir. Təklif olunur ki, hər bir bloku qrupunuzla bir eçə dəfə oxuyasınız  və şagirdlərinizin əzbərləyəcəkləri sitatları nəzərdə saxlayaraq parçalar üzərində birlikdə düşünüəsiniz. Bundan sonra həmin keyfiyyətin fərdin həyatında ümumiyyətlə, bir müəllim kimi sizin səylərinizdə, xüsusilə, əhəmiyyəti barəsində fikirlərinizi yazın. Yadda saxlayın ki, bu sitatlar sizin sinifinizdəki uşaqlar üçün deyil, sizin özünüzün düşünməyiniz üçündür.

Ədalətlə bağlı biz oxuyuruq:

**"İnsanların çırağı Ədalətdir. Onu zülm və istibdadın müxalif küləkləri ilə söndürməyin. Ədalətin məqsədi insanlar arasında birliyin zahir olmasıdır."[3]**

**"Heç bir işıq ədalətin işığı ilə müqayisə olunmaz. Dünyanın təşkili və bəşərin sakitliyi ondan asılıdır."[4]**

**"Dünyanın mürəbbisi Ədalətdir, çünki Ədalət mükafat və cəza sütunları üzərində dayanır. Bu iki sütun dünyaya həyat mənbəyidir".[5]**

**"Ey ruh oğlu! Mənim nəzərimdə ən sevimli şey insafdır (ədalətdir); Məni istəyirsənsə, ondan üz çevirmə. Səndən əmin olmağım üçün ondan qafil olma. Onun köməyi ilə sən başqalarının gözü ilə deyil, öz gözünlə görərsən və ətrafındakıların biliyi ilə deyil, öz biliyinlə dərk edərsən. Bunu ürəyində özün düşün, sən necə olmalısan. Həqiqətən, insaf Mənim sənə bir bəxşişim və inayətimin bir əlamətidir. Onu gözünün önündə saxla."[6]**

____________________________________________

____________________________________________

____________________________________________

____________________________________________

____________________________________________

Sevgi keyfiyyəti haqqında Yazılar bizə buyurur:

**"Məhəbbətin cövhəri insanın ürəyini Məhbuba döndərməsi, özünü Ondan başqa hər şeydən ayırması, Rəbbinin istədiyindən başqa heç nə istəməməsidir".[7]**

**"Bu gün Əmrə xidmət etmək Onun dostları arasında sevgi və yoldaşlıq yaratmaqdır."[8]**

**"Müqəddəs Məzhərlərin zühurunun məqsədi həmişə insanlıq aləmində ülfət (yoldaşlıq) və sevginin qurulması olmuşdur."[9]**

**"Yəqin bil ki, Məhəbbət Allahın müqəddəs Qanununun sirri, Ən Mərhəmətlinin təzahürü, ruhani yağmurların mənbəyidir. Məhəbbət göylərin zərif işığı, Müqəddəs Ruhun insan ruhunu canlandıran əbədi nəfəsidir."[10]**

____________________________________________

____________________________________________

____________________________________________

____________________________________________

____________________________________________

Doğruluqla bağlı isə bizə belə nəsihət edilir:

**"De: özünüzü doğruluq və nəzakətlə (ədəblə) bəzəyin."[11]**

**"Doğruluq olmazsa, Allahın heç bir aləmində heç bir ruh üçün tərəqqi və yüksəliş mümkün olmaz."[12]**

**"Doğruluq keyfiyyətlərin ən yaxşısıdır, çünki o qalan bütün məziyyətləri ehtiva edir. Doğruçü şəxs bütün əxlaqi xəstəliklərdən hifz olunacaq, hər bir bəd əməldən yayınacaq, hər cür şər hərəkətdən qorunacaqdır, çünki bütün qüsur və səhv hərəkətlər doğruluğun əksidir, doğruçu insan isə onların hamısından ikrah edir."[13]**

________________________________________________
________________________________________________
________________________________________________
________________________________________________
________________________________________________

İndi isə bu dərslərdə uşaqların öyrənəcəkləri sitatların əzbərlənməsinə əlavə olaraq hər bir blokdan ən azı bir sitatı sizin özünüz əzbərləmək istəyə bilərsiniz.

## BÖLMƏ 4

Ağlınızda yuxarıdakı düşüncələr, ilk dörd dərsdə şagirdlərinizə nəql edəcəyiniz hekayələri yenidən oxuyun. Görəcəyiniz kimi, dörd hükayədən üçü ən yüksək insani idealların mücəssəməsi olan Həzrət Əbdül-Bəhanın həyatından alınmışdır. Sizin 1-ci Sinifdə dərs keşdiyiniz bəzi uşaqlar Həzrət Əbdül-Bəhanın Şəxsiyyəti ilə tanış olmaya bilərlər, ona görə də Onu uşaqlara qısaca təqdim etməli olacaqsınız. Kitab 2-nin üçüncü fəslində öyrəndikləriniz Onun misilsiz məqamı barədə sizin özünüzün agahlığınızı yüksəltmişdir və kurslar silsiləsi üzrə irəlilədikcə siz Həzrət Əbdül-Bəhanın simasında Allahın insanlığa bəxş etdiyi əzi və qiymətli bir hədiyyə üçün Ona şükranlığınız artacaqdır. Birinci sinifdə dərdə başlayan uşaqlara siz Həzrət Əbdül-Bəha haqqında nə deyəcəksiniz?

________________________________________________
________________________________________________
________________________________________________
________________________________________________
________________________________________________
________________________________________________
________________________________________________
________________________________________________
________________________________________________

Birinci fəsli öyrənməyinizdən bilirsiniz ki, uşaqlara hekayə danışarkən, siz onları hadisələrin fövqünə çıxarmaq istəyəcək və ruhani gerçəklik barədə bir işartı almaqda onlara kömək edəcəksiniz. Birinci dərsdə Həzrət Əbdül-Bəhanın qonağı haqqında hekayənin paklıq

keyfiyyətinin əhəmiyyətini və onun üçün çalışmağın nə demək olmasını başa düşməkdə şagirldərinizə necə kömək etməsi barədə düşünmək üçün sizə artıq fürsət verilmişdi. Gəlin növbədi üç dərsdəki hekayələri də eyni cür nəzərdən keçirək.

Görmüş olacağınız kimi, 2-ci Dərsdə siz dərsin mövzusu olan və Həzrət Əbdül-Bəhanın ədalət barədə qayğısını göstərən bir hekayə danışacaqsınız. Bu hekayə bir gün Həzrət Əbdül-Bəha Əkkadan Hayfaya gedərkən baş verən hadisəni təsvir edir. Əgər uşaqlar hekayəni süjeti açıldıqca onu başa düşməli olsalar, onların tutmalı olacaqları bir neçə təfərrüat vardır - məsələn, adi faytondakı oturacaqla özəl karetadakı oturacaq arasındakı fərq. Bu, Həzrət Əbdül-Bəhanın ehtiyacı olanlara ruhani və maddi dəstək verməyə qadir olması üçün Öz şəxsi rahatlığından keçmək istəyini görməkdə uşaqlara kömək edəcəkdir. Siz buna necə əmin olacaqsınız ki, Həzrət Əbdül-Bəhanın ədalət kimi ruhani keyfiyyəti nüçayiş etdirən həyat tərzi – lazımsız yerə Özünə pul xərcləməmək və ehtiyacı olanlara vermək - şagirdləriniz tərəfindən başa düşülür? Hekayəni danışmazdan əvvəl sizin öz fikrinizdə (beyninizdə) aydın olmalı olan bəzi təfərrüatlar hansılardır?

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

Sevgi 3-cü Dərsin mövzusudur və siz burada uşaqlara Əkkada yaşayan və Həzrət Əbdül-Bəhaya qarşı həmişə hörmətsiz yanaşsa da, uzun illər ərzində Onun inayətini alan bir kişi barədə hekayəni nəql edəcəksiniz. Əlbəttə, bizə mehrian olanlara ürəyimizdə məhəbbətin olması asandır. Amma Həzrət Əbdül-Bəhanın sevgisinin sərhədi yox idi və bu qeyd-şərtsiz idi. Hekayəni sizin danışmaq metodunuzda siz necə əmin olacaqsınız ki, Həzrət Əbdül-Bəhann sevgisinin bu xüsusiyyəti uşaqlara aydındır? Cahillikdən yanlış dvaranan bir kəsin ürəyini dəyişməkdə sevginin günün başa düşməkdə siz onlara necə kömək edə bilərsiniz? Hansı təfərrüatlar var ki, əgər atılsa, hekayəni başa düşməkdə və bu bəsirəti əldə etməkdə uşaqlara çətinlik yaradardı?

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

Doğruluq keyfiyyəti üzərində fokuslanan 4-cü Dərsdə geniş yayılmış və \`canavar\` deyib qışqıran çobanın hekayəsi verilir. Hekayə gənc çobaın yalanının nəticələrini göstərir ki, bunu uşaqlar asanlıqla başa düşəcəklər. Amma siz onların daha da irəli getmələrini və doğruğu olmağın mükafatını anlamalarını sini istəyəcəksiniz. Mükafat nədir və siz necə əmin olacaqsınız ki, uşaqlar hekayədən bunu çıxara (anlaya) bilirlər?

____________________________________________________________

____________________________________________________________

## BÖLMƏ 5

Bu bölmələrdə siz 1-ci Sinfin ilk dörd dərsində xitab edilən ruhani keyfiyyətlərin əhəmiyyəti barədə anlayışınızı dərinləşdirərək onlar barədə düşünmüsünüz. Siz, həmçinin, görmüsünüz ki, bu hekayələr şagirdlərinizin bu sinifdə inkişaf etdirmələrinə ümid etdiyiniz keyfiyyətlərin təbiəti barədə necə işartılar verir.

Növbəti dörd dərsə baxmağa keçməzdən əvvəl siz iştirakçı yoldaşlarınızla bu birinci dörd dərsi keçmək üşün hazırlaşmağa bir qədər vaxt sərf etməlisiniz. Əvvəlki fəsildə müzakirə olunan yanaşmalardan istifadə edərək siz onlarla növbə ilə əzbərləmək üçün duanı daxil edə, əzbərlənəcək sitatla bərabər hər bir dərsdə müzakirə olunan ruhani keyfiyyəti təqdim edə bilərsiniz. Siz hekayəni bir-birinizə danışmalı, oyunlar oynamalı və müəyyən bir arxayınlıq dərəcəsi ilə onları öyrədənə qədər mahnıları oxuya bilərsiniz. Rəngləmə vərəqlərini necə təqdim edəcəyinizi düşünün. Bu çalışmanı yerinə yetirməzdən öncə birinci fəsildəki 17-24-cü Bölmələri yenidən nəzərdən keçirməyiniz kömək edərdi. Təklif edildiyi kimi, müxtəlif elementlərin praktikasını etdikdən sonra qrupunuzun hər bir üzvündən xahiş edilə bilərdi ki, başqa üzvlər şagird rolunda olmaqla, bir ya bir neçə dərsi keçsin. Hətta bu da mümkün ola bilər ki, sizin şəraitinizdən asılı olaraq, üç ya dörd uşağı bir yerə toplayasınız və dərsləri onlarla keçəsiniz.

Yuxarıdakı çalışmanı yerinə yetirərkən, siz,yəqin ki, hər bir dərs barədə qeydlər aparacaq və onu necə keçəcəyiniz barədə fikirlərinizi yazacaqsınız. Bundan əlavə, bəzi oyunlar üçün dərsdən əvvəl hansısa ləvazimatlr hazırlamağa ehtiyac ola bilər. Çox müəllimlər birinci fəsildə haqqında danışılan qeyd kitabının bir bölməsini bu cür hazırlıqlara həsr edirlər.

Yadda saxlayın ki, siz bu kitabı və qeyd kitabçasını özünüzlə sinfə aparacaqsınız, siz sadəcə onları oxumaq istəməyəcəksiniz. Məzmunu hansı asanlıq və şövqlə təqdim edəcəyinizdən asılı olaraq uşaqlar da fəaliyyətlərə o dərəcədə cəlb olunacaqlar. Elə isə praktika və hazırlıq çox mühüm olacaqdır.

## BÖLMƏ 6

5-8-ci Dərslər üçün təklif edilir ki, hər bir dərsi açmaq üçün aşağıdakı duanı əzbərdən söyləyəsiniz:

> **“Sən Ey mehriban Rəbb! Bu nazənin uşaqlar Sənin qüdrət barmaqlarının əsərləri, əzəmətinin ecazkar nişanələridir. Ey Allah! Bu uşaqları hifz eylə, onlara elm öyrənməkdə kərəminlə kömək eylə və bəşəriyyət aləminə xidmət etməkdə onlara yardım eylə. Ey Allah! Bu uşaqlar dürr dənəsidirlər, onları Öz inayət sədəfinin qoynunda bəslə.**
>
> **Sən Kəramətli, Ən Mehribansan.”**[14]

Siz öyrətmə (dərs vermə) səylərinizin işığında bu sözlər üzərində düşünmək üçün bir qədər vaxt sərf etmək istəyə bilərsiniz. Onlar hər bir dərs dövründə sizin yanaşma tərzinizə necə təsir edəcəkdir? Onlar uşaqların zərif ürəklərində Allah sevgisini necə möhkəmləndirəcəkdir?

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

Bu dərslərdə siz aşağıdakı duanı əzbərləməkdə şagirdlərinizə kömək edəcəksiniz və bildiyiniz kimi, əgər onun mənası barəsində onlar bir qədər anlayşşa malikdirlərsə, bu çalışmanın asan olduğunu görəcəklər. Bu cəhətdən özünüzün bir neçə fikrinizi verilən boş yerdə yaza bilərsiniz. Sizin fikrinicə hansı sözlər onlara tanış gəlməyə bilər və onları siz uşaqların asanlıqla eyniləşdirə biləcəkləri vəziyyətlər vasitəsilə necə izah edə bilərsiniz? Bu cür sözlərdən başqa, sizin bunu başa düşməkdə onlara kömək etməyinizə ehtiyac ola bilər ki, hərm çıraq, həm də ulduz işıq verir və işıq olmasa, qaranlıq olur və biz görə bilmirik və o halda itə bilərik. Odur ki, duada Allahdan diləyirik ki, biz ruhani işıq kimi parlayaq və biz Öz istədiyi kimi etməyə Onun qüdrət və qüvvətinə şəhadət veririk.

**“Ey Allah, mənə yol göstər, məni qoru, məni şölə saçan bir çıraq və parlaq bir ulduz eylə. Sən Qüdrətli və Qüvvətlisən.”**[15]

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

## BÖLMƏ 7

İndi isə 5-8-ci Dərsləri bir-bir oxuyun və şagirdlərlə bölüşəcəyiniz giriş ideyalarına və əzbərləyəcəkləri sitatlara xüsusi fikir verin. Burada hər bir dərsdə müzakirə olunan ruhani keyfiyyəti göstərin:

Dərs 5: __________________________________________________

Dərs 6: __________________________________________________

Dərs 7: __________________________________________________

Dərs 8: __________________________________________________

Aşağıda Yazılardan bir neçə sitat verilir ki, bu dörd keyfiyyətə bəsirət salır. Əvəvl etdiyiniz kimi, hər bir blok üzərində düşünün və bəzi fikirlərinizi verilən yerdə yazın.

Səxavətlilik keyfiyyəti haqqında biz oxuyuruq:

**"Bolluqda səxavətli, yoxsulluqda səbirli olun."**[16]

**"Comərdliyin kökü insanın öz sərvətini özünə, ailəsinə və din qardaşları arasındakı yoxsullara sərf etməsidir".**[17]

**"Onlar nə qədər ədavətlə görsələr, qoy o qədər də xoşməramlılıq göstərsinlər; nə qədər işgəncə və fəlakətlə üzləşsələr, o qədər də səxavətlə lütf piyaləsini əldən-ələ ötürsünlər. Budur o ruh ki, bütün dünyanın həyat ruhu olacaq, budur onun ürəyində yayılan işıq..."**[18]

**"Səxavətin dan yeri, varlığın sirlərinin sübhü, ilhamın alovlandığı səhərlər, şəfəqlərin doğduğu yerlər, Ruhül-Qüdsün saxladığı, Rəbbə heyran olmuş, Ondan başqa hər şeydən inqita etmiş, bəşəri xasiyyətlərdən uca, səma mələklərinin sifətləri ilə bəzənmiş ruhlar olun ki, bu yeni dövrdə, bu ecazkar əsrdə ən ali bəxşişləri qazanasınız."**[19]

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

Təmənnasızlıq (fənalıq) barədə bizə belə nəsihət verilir:

**"... Hər biriniz digərini özündən üstün tutaraq bir-birinizə sonsuz məhəbbətə malik olmalısınız."**[20]

**"İlahi! Mənə fənalıq piyaləsindən içir; mənə fənalıq libası geyindir və məni fənalıq dəryasında qərq eylə. Məni, öz sevimlilərinin yolunda toz eylə və Sənin yolunda, Sənin seçilmişlərinin addımları ilə şərəflənmiş torpağa fəda olmağı əta eylə, Ey Ucada olan şərəf Mövlası."**[21]

**"İnsan o kəsdir ki, başqalarının xatirinə öz maraqlarını unudur. Öz rahatlığını hamının rifahı naminə tərk edir. Xeyr, bəlkə öz həyatını belə bəşərin həyatı naminə tərk etməlidir. Belə bir insan insanlıq aləminin şərəfidir. Belə bir insan bəşər aləminin şanıdır. Belə bir insan əbədi səadəti qazanmış kəsdir. Belə bir insan Allahın astanasına yaxındır. Belə bir insan əbədi xoşbəxtliyin təcəllisidir."**[22]

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

Aşağıdakı sitatlarda biz şadlığın hərəkətverici qüvvəsindən bir işartı alırıq:

**"Allahın məhəbbət fəzasında sevinc qanadları ilə pərvaz edin."[23]**

**"Bütün sevinclər Onun hüzuruna yetişənlərə, Onun camalına baxanlara, Onun nəğmələrini dinləyənlərə, Onun müqəddəs və uca, Onun parlaq və şəfəq saçan dodaqlarından çıxan Sözlə cana gələnlərədir!"[24]**

**"Sevinc bizə qanad verir! Sevincli anlarda bizim gücümüz daha canlı, bizim ağlımız daha iti, anlayışımızsa daha aydın olur."[25]**

**"Nə qədər ki bacarırsınız, hər bir görüşdə məhəbbət çırağı yandırın və nəvazişlə hər bir ürəyi sevindirin və ruhlandırın."[26]**

Aşağıdakı parçalar bizə səmimiyyətdən danışır:

**"Söylə: Südəmər körpə anasının döşünə necə can atarsa, səmimi ruh da Allaha yaxınlığa o cür can atar, xeyr, onun iştiyaqı daha şiddətlidir, kaş bilərdiniz! Yenə də, Onun həsrəti fəzl kövsəri üçün ciyəri yananın yanğısı yaxud günahkarın bağışlanmaq və mərhəmət istəyi kimidir".[27]**

**"Bu günlərdə doğruluq və səmimiyyət yalançılığın caynağında əziyyət çəkir, ədalət isə zülmün qırmancı altında işgəncəyə məruz qalıb".[28]**

**"Hər kəsə yaraşan odur ki, bu qısa ömrü səmimiyyət və insafla keçirsin."[29]**

**"Sizin ürəkləriniz pak, niyyətiniz səmimi olmalıdır ki, ilahi bəxşişləri ala biləsiniz."[30]**

Yuxarıdakı blokların hər birindən ən azı bir parçanı əzbərləməyə çalışın.

## BÖLMƏ 8

İndi isə gəlin 5-8-ci Dərslərin hekayələrinə qayıdaq və araşdırdıqları ruhani keyfiyyətlər barədə bəsirətlər əldə etməkdə onların uşalqara necə kömək edəcəyi üzərində düşünək. Hekayəni bird aha oxuduqdan sonra aşağıdakı sualları nəzərdən keçirin.

Səxavətlilik 5-ci Dərsin hekayəsində əsas mövzudur və bu, Həzrət Əbdül-Bəhanın uşaqlığında Atasının qoyun sürüsü ilə bağlı baş verən bir hadisəni təsvir edir. Hekayənin hansı hissəsi əsas mövziya aiddir? Hansı təfərrüatlar vardır ki, əgər onlar atılsa, hekayəni başa düşməkdə uşaqlara çətinlik yaradardı? Əlbəttə, ən vacib məqam Oğlunun qoyunlarla bağlı səxavət ruhunu öyrənəndə Həzrət Bəhaullahın göstərdiyi məmnunyyətdir. Onun sözləri Həzrət Əbdül-Bəhanın malik olduğu hər şeyi, ancaq maddi mülkiyyəti deyil, həm də bütün Varlığını insanlığın xeyri üçün necə verəcəyini öncədən bildirmişdi. Siz necə əmin olacaqsınız ki, uşaqlar Həzrət Əbdül-Bəhanın səxavətinin miqyasını başa düşürlər, halbuki onun sərhədi yox idi?

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

6-cə Dərsdəki hekayə təmənnasızlıq yolları barədə uşaqlara bir işartı verir. Bahalı əba qəbul etməkdən imtina edərək Həzrət Əbdül-Bəha başqalarını Özündən necə üstün tutduğunu göstərdi. Siz necəəmin olacaqsınız ki, uşaqlar sizin hekayəni danışmağınızdan bu qənaətə gəlirlər? Hekayəni nəql etməzdən öncə sizin ağlınızda aydın olmalı olan təfərrüatlar hansılardır?

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

7-ci Dərsin mövzusu sevincli olmadır və siz hələ uşaq ikən Həzrət Əbdül-Bəha ilə görüşmüş, və sonra irəli gedərək həyatını Allahın Əmrinin irəlilədilməsinə həsr etmiş Leroy Loas haqqındakı hekayni danışacaqsız. Hekayədə Leroy qərara alır ki, Həzrət Əbdül-Bəha üçün aldığı gül buketini Ona verməsin; O bununyerinə ürəyini vermək istəyir. Leroyun bunu nə üçün etdiyini uşaqların başa düşmələri üçün vacib olacaq ki, insan ürəyinin hər hansı maddi şeydən daha qiymətli olduğunu uşaqlara başa salasınız. Hekayənin o hissəsini danışanda ona səsinizlə vurğu etmək kifayət olacaqmı? Əgər uşaqlar ideyalar ardıcıllığını tutmalıdırlarsa və Həzrət Əbdül-Bəhanın nə üçün Öz əbasına taxılmış qızılgülü çıxarıb Leroya verməsinin oğlana elə sevinc gətirməsini başa düməlidirlərsə, Sizin təhkiyənizdə hansı təfərrüatlar vurğulanmalıdır?

Həzrət Əbdül-Bəha həyatı boyunca ONun hüzuruna gələn hər kəsə sevinc gətirdi. Bu hekayədə biz görürük ki, Leroyun ən çox istədiyi şey məhz Həzrət Əbdül-Bəhanın ürəyini şad

etmək idi. Uşaqların bunu başa düşməsi nə üçün zəruridir ki, sevincin ən böyük qaynaqlarından biri başqalarına sevinc gətirməkdir?

______________________________________________________________

______________________________________________________________

______________________________________________________________

______________________________________________________________

______________________________________________________________

8-ci Dərsin fokuslandığı mövzu səmimiyyətdir və hekayəni uşaqlara təqdim edərkən siz izah etmək istəyərsiniz ki, bəzən hər hansı bir keyfiyyətə malik olmağın nə demək olduğunu o halda daha yaxşı başa düşürük ki, o keyfiyyətin olmadığı bir hekayəyə qulaq asaq. Ağacını kəsməkdə qonşusunu inandırmaq istəyən kişinin helayəsi bir misaldır. Zahiri görkəmin bəzən aldadıcı ola biləcəyini başa düşməkdə uşaqlara necə kömək edəcəksiniz? Hekayəni danışarkən, siz əmin olmalı olacaqsınız ki, uşaqlar səmimi (dürüst) olmayan qonşunun əslində mükafatlandırıldığını düşünməsinlər?Qeyri-səmimi olmağın mənfi təsirlərini başa düşməkdə uşaqlara kömək etmək üçün onlara nə deyəcəksiniz?

______________________________________________________________

______________________________________________________________

______________________________________________________________

______________________________________________________________

______________________________________________________________

## BÖLMƏ 9

Indi ki siz 5-8-ci Dərslərdə müzakirə olunan ruhani keyfiyyətlər haqqında bəzi bəsirətlər əldə etmisiniz, burda dayanıb, birinci dörd dərslə etdiyiniz kimi, dərsləri və onun müxtəlif elementlərini iştirakçı yoldaşlarınızla aparmaq praktikasını etməlisiniz. Yadda saxlayın ki, qeyd kitabınızda hər dərs üzrə saxlamaq istədiyiniz hər hansı bir məqamı yaza və onu necə keçmək barədə fikirlərinizi qeyd edə bilərsiniz.

## BÖLMƏ 10

Təklif olunur ki, 9-12-ci Dərslər üçün hər bir dərsi özünüzün də əzbərləməyə təşviq olunduğunuz aşağıdakı duanı oxumaqla açasınız:

> **“Qoy Sənin gözəlliyin, İlahi, mənim qidam, liqanın işığı içkim, razılığın ümidim, vəsfin işim olsun, Sənin zikrin munisim, hökmranlığın köməyim, məkanın yurdum, evim isə o yer olsun ki, Sən onu Səndən pərdə ilə ayrılanların məhdudiyyətlərinin fövqünə qaldırmısan.**
>
> **Sən həqiqətən, qüdrət, güc və cəlal Allahısan.”[31]**

Bu dörd dərsdə siz aşağğıdakı duanı əzbərləməkdə şagirdlərinizə kömək edəcəksiniz. Duanın mənasını başa düşmələri üşün uşaqlara izahat verməkdə sizə hansı sözlər və ifadələr lazım olacaq?

**“Mübarəkdir o yer, o ev, o məskən, o şəhər, o ürək, o dağ, o sığınacaq, o mağara, o vadi, o torpaq, o dəniz, o ada və o çəmən ki, orada Allah xatırlanmış və Onun tərifi ucaldılmışdır.”**[32]

____________________________________________________

____________________________________________________

____________________________________________________

____________________________________________________

____________________________________________________

## BÖLMƏ 11

Əvvəllər etdiyiniz kimi, 9-dan 12-yə kimi Dərsləri oxuyun, giriş qeydlərinə və əzbərlənəcək sitatlara xüsusi fikir verin. Üzərində hər bir dərsin fokuslandığı ruhani keyfiyyəti aşağıda göstərin.

Dərs 9: ____________________________________________

Dərs 10: ___________________________________________

Dərs 11: ___________________________________________

Dərs 12: ___________________________________________

Yuxarıdakı röd keyfiyyət barədə sizin özünüzün anlayışınızı dəruləşdirmək üçün onların hər birinə aid olan seçilmiş sitatlar üzərində düşünün. Bunu edərkən, şagirdlərinizin əzbərləyəcəkləri parçanı nəzərinizdə saxlayın. Sonra isə bu kkeyfiyyətlərin fərdin həyatında və uşaqların müəllimi üçün  vacibliyi barədə fikirlərinizi yazın.

Təvazökarlıq keyfiyyəti barədə Yazılar bizə buyurur:

**“Təvazökarlıq insanı izzət və qüvvət göyünə qaldırır, məğrurluq isə zillət və həqarətin dibinə salır”.**[33]

**“Bu Gün Allaha itaət göstərən və Ona sığınan hər bir ruh bütün gözəl adların və məqamların şərəf və izzətinə layiq görülər”.**[34]

**“Allahın sevimli kəsləri (dostları) hər hansı yerdə toplaşanda və bir kimsə ilə görüşəndə, Allaha münasibətdə və Onu zikr edib, tərifləmək tərzlərində elə mütilik və təslimiyyət göstərməlidirlər ki, ayaqlarının altındakı torpağın hər bir zərrəsi onların sədaqətinin(möminliyinin) dərinliyinə şahidlik etsin.”**[35]

**“Bu yəqindir ki, insanın ali məqamı(fərqliliyi) Allahın qaşısında müti və itaətkar olmaqdır . . .”[36]**

___________________________________________________________________

___________________________________________________________________

___________________________________________________________________

___________________________________________________________________

___________________________________________________________________

Şükranlığın (minnətdarlığın) vacibliyi haqqında oxuyuruq:

**“Bil ki, Mən səni müqəddəslik ətirləri ilə bürüdüm, Öz sözümü sənə tamlıqla açdım və nemətimi səninlə kamil etdim və Özüm üçün istədiyimi sənin üçün də istədim. Elə isə Mənim razılığıma qane ol və şükr et!”[37]**

**“Rəbbin ilə kifayətlən, Onun ruhu ilə yaxından ünsiyyət bağla və şükr edənlərdən ol!”[38]**

**“Elə isə Allaha şükr eylə ki, Onun Əmrinə kömək etməkdə səni möhkəmləndirdi və sənin qəlbinin bağçasında elm və anlayış sünbülləri cücərtdi. Beləcə, Onun fəzli səni və bütün xilqəti bürüdü.”[39]**

**“Həqiqət budur ki, Allah insane təbiətin məhrum olduğu məziyyətlər, güclər və ruhani qüvvələr əta etmişdir və insan onlarla ucalmış, fərqlənmiş və üstün olmuşdur. Biz bu bəxşişlər üçün, bizə verdiyi bu qüvvələr üçün, bizim başımıza qoyduğu bu tac üçün Allaha çükr etməliyik.”[40]**

___________________________________________________________________

___________________________________________________________________

___________________________________________________________________

___________________________________________________________________

___________________________________________________________________

Aşağıdakı sitatlar bizə bağışlayıcılıqdan danışır:

**“O, günahkarı əfv etməli və onun açlaq vəziyyətinə həqarətlə baxmamalıdır, çünki heç öz sonunu bilmir.”[41]**

**“Bütün şeylərin batini mahiyyəti bütün şeylərdə belə səslənir: “Bu Gün əfv – Yeganə, Şəriksiz, bütün insanların Qüdrətli Qoruyucusu və onların günahlarını Örtən Allahdandır”[42]**

**“Ona görə də, heç kəsin qüsuruna baxmayın; əfv gözü ilə baxın. Qüsurlu göz qüsurları görür. Səhvləri örtən göz ruhların Yaradanına baxır.”[43]**

**“Qoy ürəyiniz heç kəsdən inciməsin. Kimsə sizə qarşı xəta törədirsə və səhv edirsə, siz onu dərhal bağışlamalısınız.”[44]**

Bu çıxarışlar isə bizim can atdığımız dürüstlük meyarlarını təsvir edir:

**“De: Dürüstlük, ləyaqət, hikmət və məsumiyyət insanı yüksəldir, nadürüstlük, yalan, cəhalət və riyakarlıq isə onun alçalmasına gətirir”.**[45]

**“Ey Allahın şəhərlərində Onun dostları və ölkələrində Onun sevimliləri! Bu Məzlum sizə dürüstlük və təqva hökm edir. Mübarəkdir o şəhər ki, onların işığı ilə parlayır. İnsan onlarla ucalır, bütün yaradılışın qarşısında əmin-amanlıq qapısı onlarla açılır. Onlardan möhkəm yapışan, onların kəramətini etiraf edən nə xoşbəxtdir, onların məqamını dananın isə vay halına.”**[46]

**“Etibarlılıq, hikmət və dürüstlük, həqiqətən, Allahın Öz yaratdıqlarına gözəl bəzəyidir. Bu qəşəng libaslar hər bir heykələ layiqli bir libasdır. Xoşbəxtdir dərk edənlər və bu məziyyətləri əldə edənlərin xoş halına.”**[47]

Yuxarıdakı hər blokdan ən azı bir parça əzbərləməyə çalışın.

## BÖLMƏ 12

İndi isə gəlin bu dörd dərsdəki hekayələr sizin şagirdlərinizə yuxarıdakı ruhani keyfiyyətlər barədə necə bəsirətlər verəcəkdir.

9-cu Dərsdəki hekayə bəzi zəngin ziyarətçilərlə görüşəndə baş verən bir hadisəni təsvir edir; bu, uşaqlara Onun mütləq təvazökarlığını göstərəcəkdir. Həzrət Əbdül-Bəhanın Özü ilə büsat və cah-cəlalla davranılmasını istəməməyi əsas ideyadır. Bu hekayə Onun təvazökarlığını necə nümayiş etdirir? Əlbəttə, cah-cəlalın konkret bir forması – ləyən, su və ətirli dəsmal – sadəcə maraqlı bir detaldır və hekayəni nəql etməyinizdə əsas mövzudan yayındırmamalıdır. Əksinə, bu vurğulanmalı olan xülasədir. Bu, Həzrət Əbdül-Bəhanın təvazökarlığı və başqalarına xidmət etmək arzusu barədə uşaqların anlayışını daha da necə genişləndirəcəkdir?

10-cu Dərsin övzusu şükranlıqdır və uşaqlar Həzrət Əbdül-Bəhanı ziyarət edən və bütün narahatlıq və dərdlərini Onunla bölüşməyə başlayan bir qadın haqqında hekayədir. Həzrət Əbdül-Bəha onu sonra həyatda ağğır çətinliklər yaşamasına baxmayaraq, Allahdan aldığı bütün nemətlər üçün çükranlıqdan heç vaxt geri durmayan Mirzə Heydər Əliyə təqdim edir. Hekayəni nəql edərkən şagirdlərinizin bunu dəqiq başa düşməsini istəyəcəksiniz ki, Həzrət Əbdül-Bəha Mirzə Heydər Əlini qadına təsadüfən təqdim etmədi. Sizin fikrinizcə, qadın ondan nə öyrəndi? Hekayə bu dərsi necə çatdırmağa çalışır?

Bağışlayıcılıq 11-ci Dərsin mövzusudur və siz şagirdlərinizə Həzrət Əbdül-Baha barədə bağışlamağın bağışlayan şəxsə təsirini göstərən bir hekayənni danışacaqsınız. Uşaqların ideya ardıcıllığını tutmaları üçün siz hekayənin çoxlu təfərrüatlarını aydın çatdırmalı olacaqsınız. Bu, Həzrət Əbdül-Bəhaya və Əkkada Onun yoldaşlarına ağır ziyan vurmaq istəyən şəhər hakimindən bəhs edir. Hekayədə Həzrət Əbdül-Bəha hakimi etdiyi hərəkətlərinə görə yalnız bağışlamır; O, hər şeyini itirmiş hakimlə iltifatla davranır və sıxıntılı vaxtlarında ona kömək edir. Uşaqların hekayədən bunu başa düşmələrinə ümid etməlisiniz ki, bağışlayıcılıq, Həzrət Əbdül-Bəhanın göstərdiyi kimi, bizə əziyyət verən kəslərə ürəyimizdə qarşı pis hisslər saxlamaqdan daha böyük bir şeydir. Onların bu ideyanı tutub-tutmadıqlarını siz necə biləcəksiniz?

12-ci Dərsin hekayəsində uşaqlar Həzrət Əbdül-Bəhanın kareta sürücüsünün yol üçün ədalətsiz qiymət tələb etməsinə necə cavab verdiyini görəcəklər. Baxmayaraq ki, Həzrət Əbdül-Bəha mehribanlıq və nəzakət cövhəridir, amma O heç vaxt icazə verməzdi ki, insanlar Ona və ya başqalarına qarşı qeyri-dürüst davransınlar yaxud aldatsınlar. Sizin fikrinizcə, sürücü Həzrət Əbdül-Bəhanın cavabından nə öyrəndi? Qeyri-dürüst olmaqla bizim əslində itirdiyimizin, sürücünün itirdiyi gözəl hədiyyə kimi, hər hansı maddi şeydən, daha böyük olduğunu başa dşüməkdə uşaqlara necə kömək edəcəksiniz?

## BÖLMƏ 13

9-12-ci Dərslərdə fəaliyyətləri yerinə yetirmək prakikasını iştirakçı yoldaşlarınızla etdikdən sonra növbəti dörd dərsə keçə bilərsiniz. Təklif edilir ki, 13-16-cı dərslər üçün hər bir dərsi aşağıdakı duanı əzbərdən söyləyəsiniz:

> **"Ey mənim mərhəmətli Rəbbim! Bu Sənin razılıq bağında bitmiş sünbül çiçəyi və Sənin irfan bağında üzə çıxmış bir budaqdır. Ey kəramət Rəbbi, onu həyatverici nəsimlərinlə daim və hər vaxt təravətli et, Öz lütf buludlarının yağmurları ilə onu büsatlı, canlı və çiçəklənən eylə, Sən ey mehriban Rəbb!**
>
> **Həqiqətən, Sən Ən Nurlusan."[48]**

Aşağıda şagirdlərinizin 13-16-cı Dərslərdə əzbərdən söyləyəcəkləri dua verilir. Onun mənası barədə anlayış əldə etməkdə onlara kömək etmək üçün siz şagirdləriniz üçün yeni olan və ya tanış olmayan söz və ifadələri müəyyən etməli və onları izah etmək üçün uyğuncümlələr tərtib etməlisiniz. Əlbəttə, onlar sizin bu dərslərdə yaddaşdan (əzbərdən) söyləyəcəyiniz dua ilə səsləşən duadakı obrazları asanlıqla başa düşəcəklər.

> **"İlahi" bu körpə fidanı Öz bol nemətlərinin bağında ək, Onu Öz inayət çeşmələrindən suvar və izn ver ki, o Sənin lütf və fəzlinin yağmurları ilə böyüyüb gözəl bir bitkiyə çevrilsin.**
>
> **Sən Qüdrətli və Qüvvətlisən."[49]**

## BÖLMƏ 14

13-16-cı Dərslərin hər birini iştirakçı yoldaşlarınızla adəti üzrə olduğu kimi oxuduqdan sonra onlarda xitab edilən keyfiyyətləri yazın

Dərs 13: ________________________________

Dərs 14: ____________________________________________

Dərs 15: ____________________________________________

Dərs 16: ____________________________________________

Aşağıdakı sitatlar, sizin əvvəllər də etdiyiniz kimi, sizə bu dərslərdə müzakirə edilən ruhani keyfiyyətlər üzrində düşünməyi davam etdirmək fürsəti verəcəkdir.

Şəfqət göstərməyin vacibliyi barədə biz oxuyuruq:

**"Şəfqət işıqları saç ki, ürəklər təmizlənsin və paklaşsın, ta ki onlar Sənin təyidlərindən bir pay və nəsib alsınlar."[50]**

**"Şəfqətli olun ki, sizin hərəkətləriniz çıraqdan saçılan işıq kimi şəfəq saçsın."[51]**

**"Siz bir ağacın meyvələri, bir budağın yarpaqlarısınız; bütü insan nəslinə şəfqətli və mehriban olun."[52]**

**"İndi Allahın aşiqləri Onun bu göstərişini yerinə yetirməyə qalxmalıdırlar: qoy onlar bəşər övladlarına mehriban ata, gənclərə şəfqətli qardaş, belini illərin əydiyi kəslərə təmənnasız övlad olsunlar."[53]**

____________________________________________

____________________________________________

____________________________________________

____________________________________________

____________________________________________

İnqita keyfiyyəti haqqında bizə belə nəsihət verilir:

**"Məndən başqa hər şeydən inqita edin, sonra da üzünüzü Mənim üzümə tutun, çünki bu, sizə malik olduqlarınızdan daha xeyirlidir."[54]**

**"Dünya malına və onun bər-bəzəklərinə sevinməyin və onlara ümid bağlamayın. Ulu və Əzəmətli Allahın zikrinə güvənin."[55]**

**"İnqitanın cövhəri insanın üzünü Rəbbin dərgahına döndərməsi, Onun Hüzuruna daxil olması, Onun Üzünə baxması, qarşısında şahid kimi durmasıdır".[56]**

**"İnqita günəş kimidir; hansı ürəkdə parlarsa, tamah (hərislik) və nəfs odunu məhv edər. Gözləri anlayış nuru ilə işıqlanan kəs, şübhəsiz, dünyadan və onun faniliklərindən inqita edəcəkdir. . . . Dünya və onun rəzaləti sizi kədələndirməsin. Xoşbəxtdir o kəs ki, sərvət onu lovğa etmir, kasıblıq isə onu kədərləndirmir."[57]**

____________________________________________

____________________________________________

Aşağıdakı parçalar bizə qane olmaq keyfiyyətindən danışır:

**"Ey insan oğlu! Sonsuz kainat boyu çaxıb keçsən, göylərin ənginliklərini yarsan belə, əmrimizə təslim olub, Üzümüz qarşısında müti olmayınca, rahatlıq tapa bilməzsən."[58]**

**"Ey nəfsi-həva oğlu! Hərislikdən əl çək və qane ol, çünki həris (tamahkar) həmişə məhrum olmuş, qane olan isə sevilmiş və qəbul edilmişdir."[59]**

**"Ona görə də, razılıq və imtina yolu ilə get. Qoy heç bir əziyyət ürəyini kədərləndirməsin, nə də ümidini dünyəvi bəxşişlərə bağla. Xoşbəxt ol, Allahın iradə etdiklərinə qane ol ki, ürəyin və qəlbin sakitik tapsın və batini varlığın və vicdanın əsl sevinc yaşasın."[60]**

Aşağıdakı çıxarışlar mehribanlıq barədə bizin anlayışımızı işıqlandırır:

**"Biz sevirik ki, sizi hər zaman Öz razılıq cənnətimizdə dostluq və razılıq içində ünsiyyət edən görək və sizin hərəkətlərinizdən dostluq və brilik, mehribanlıq və ülfət ətri duyaq."[61]**

**"Ürəkdən mehriban olun, ancaq zahirən deyil. Qoy Allahın dostlarının hər biri fikrini bunda cəmləsin: Rəbbin insana mərhəməti olmaq; Rəbbin fəzli olmaq. Qoy onun yoluna çıxan hər kəsə bir xeyir versin, ona bir faydası dəysin."[62]**

**". . . insanlar nə üçün bir-birlərinə ədalətsiz və iltifatsız olmalı, Allaha xoş olmayan şeylər göstərməlidirlər? Onun bizi sevərkən, biz nə üçün düşmənçilik və nifrət bəsləməliyik? Əgər Allah hamını sevməsəydi, hamını yaratmaq, təlim və ruzi verməzdi. Mehribanlıq (inayət) ilahi siyasətdir."[63]**

**"Ancaq sözdə dostluq göstərməklə kifayətlənməyin, qoy ürəyiniz yolunuza çıxan hər kəsə sevgi və mehribanlıqla alışsın."[64]**

Yuxarıdakı hər blokdan ən azı bir parçanı əzbərləməyə çalışın.

## BÖLMƏ 15

13-16-sı Dərslərdə xitab olunan ruhani keyfiyyətlər barədə anlayışınızı dərinləşdirdikdən sonra dörd hekayəni oxuyun və aşağıdakı sualları qrupunuzla müzakirə edin.

13-cü dərsin mövzusu şəfqətdir və sizin nəql edəcəyiniz hekayədə bir qadından bəhs edilir ki, o, Həzrət Əbdül-Bəhanı görmək ümidi ilə gəldiyi evin qapısını döyür, amma geri qaytarılır. Hekayənin hansı hissəsi Onun qadına şəfqətini əks etdirir? Uşaqlara hansı təfərrüatlar kömək edəcək ki, hekayəni izləsinlər və başa düşsünlər ki, hamı üçün eyni dərəcədə narahat olan şəfqətli bir ürək çətinlikdə, sıxıntı və ya kədərdə olan insanlara xüsusilə həssasdır?

14-cü Dərs inqita etmək ruhani keyfiyyəti barədədir. Hekayə Müqəddəs Torpağa getmək qərarına gəlmiş, biri zəngin, digəri isə onun qədər varlı olmayan iki dostdan bəhs edir. Əlbəttə, inqita etmək keyfiyyəti barədə bəsirət əldə etmək üçün uşaqlar başa düşməli olacaqlar ki, Müqəddəs Torpağa səfər Allaha yaxınlaşmağın rəmzidir. Uşaqların bunu başa düşməsini istəyəcəksiniz ki, inqita etmək bizim nə qədər çox və nə qədər az şeylərə malik olmağımızdan deyil, malik olduğumuz şeylərin bizim Allaha yaxınlaşmağımıza mane olmasına icazə verib-verməməyimizdən asılıdır. Bu anlayışı bəsləməkdə hekayə necə kömək edəcəkdir?

15-ci Dərsdəki hekayə əsas mövzu olan qane olma keyfiyyəti barədə uşaqlara bəzirət verəcəkdir. Həzrət Əbdül-Bəha Öz məiyyətinə buyurur ki, Əkka qala-məhbəsində olarən o xoşbəxt idi, çünki Onun o illəri ixmdət yolunda keçmişdi. Bu müddəa uşaqların qaneçilik barədə anlayışlarına necə təsir edəcəkdir? Onlar necə görəcəklər ki, cismən məhbəsdə olsa da, Həzrət Əbdül-Bəhanın ruhu heç vaxt həbs oluna (məhdudlaşdırıla) bilməzdi?

16-cı Dərsdə, qəzəb və nifrətlə alışmış bir kişidən bəhs edən hekayəni danışarkən siz müəyyən təfərrüatları vurğulamalı olacaqsınız; Əks təqdirdə uşaqlar onun əsas mövzu olan mehribanlıqla bağlılığını diqqətdən qaçırmış olardılar. Bu təfərrüatlar hansılardır? O qədər uzun müddətdə öz qəzəb və nifrətinə boğulmuş kişiyə Həzrət Əbdül-Bəha hansı dərsi verir?

## BÖLMƏ 16

Ümid edilir ki, 13-16-cı Dərslərin sizin tərəfinizdən təhlili səmərəli idi və iştirakçı yoldaşlarınız müxtəlif elementlərin birlikdə prakitkasından həzz aldılar. 17-30-ci dərslərə gəldikdə isə siz hər birsin əvvəlində aşağıdakı duanı əzbərdən (yaddaşdan) söyləyə bilərdiniz:

> **"İlahi! İlahi! Sənin bu bəndən, Sənə tərəf gəlib, Sənin məhəbbət səhranda divanə olub, Sənin xidmət yolunda addımlayır, Sənin lütflərini gözləyir, kəramətinə ümid edir, mələkutuna təvəkkül edir və Sənin bəxşiş şərabından məst olub. Ey mənim Allahım! Onun Sənə məhəbbətindəki hərarətini, Səni tərif etməkdə sabitliyini, Sənə eşqindəki vurğunluğunu artır.**
>
> **Həqiqətən, Sən Ən Səxavətlisən, bol fəzl Sahibisən. Səndən başqa Allah yoxdur, Bağışlayan, Mərhəmətli Allah."[65]**

Bu dərslərdə uşaqlar aşağıdakı duanı azbərdən söyləməyi öyrənməkdə fokuslanacaqlar və başqaları ilə etdiyiniz kimi, uşaqların əzbərlədikləri sözlər barədə bəzi anlayışları əldə etdiklərinə əmin olmalı olacaqsınız. Bu dua əvvəlkilərə nisbətən bi qədər uzundur və əgər uşaqlar bu duanı və hər hansı başqasını ayrılmış dörd dərs müddətində əzbərləməkdə çətinlik çəksələr, siz zəruri olan istənilən uyğunlaşmanı edə bilərsiniz.

> **"Sənin adın mənim şəfamdır, Ey mənim Allahım, Səni zikr etmək mənim dərmanımdır. Sənə yaxınlıq mənim ümidim və Sənə məhəbbət mənim munisimdir. Sənin mənə mərhəmətin həm bu, həm də o biri dünyada mənim şəfam və yardımımdır. Sən, həqiqətən, ən Kəramətli, ən çox Bilən və ən Hikmətlisən. (Sən, həqiqətən, Kərim, Alim və Həkimsən)."[66]**

## BÖLMƏ 17

17-20-ci Dərslərin icmalına baxmaq üçün onları adətən etdiyiniz kimi, bir-bir oxuyun və onlarda uşaqlarla birlikdə araşdıracağınız ruhani keyfiyyətləri yazın.

Dərs 17: ______________________________

Dərs 18: ______________________________

Dərs 19: ______________________________

Dərs 20: ______________________________

Aşağıda bir neçə sitat verilir ki, sizə və iştirakçı yoldaşlarınıza yuxarıdakı keyfiyyətlərin mənası haqqında bəsirətlər qazanmaqda kömək edəcəkdir. Xatırlayın ki, onları ancaq fərdin həyatı perspektivindən müzakirə etməyəcəksiniz; həmçinin, onların özünüz kimi uşaq dərsi müəllimi üçün nə demək olması barədə də düşünün.

Cəsarət keyfiyyəti haqqında bizə belə nəsihət edilir:

**"Bacardığın qədər çalış ki, tamamilə Məlakuta tərəf dönəsən, ta ki, sən daxili cəsarət və yenilməz güc əldə edəsən."**[67]

**"Size sınmış ürəklərə rahatlıq mənbəyi olasınız. Sərgərdana sığınacaq olasınız. Qorxudulmuşlara cəsarət mənbəyi olasınız. Beləcə, Allahın lütfü və yardımı ilə insanlığın xoşbəxtlik sancağı dünyanın göbəyində qaldırılsın və ümumdünya razılığının bayrağı dalğalansın."**[68]

Ümidvar olmağın vacibliyi ilə bağlı biz oxuyuruq:

**"Bütün ümidini Allaha bağla və Onun dəyişməz mərhəmətindən möhkəm yapış. Ondan başqa kim binəsibi zəngin edər, yıxılanı zillətdən qurtarar?"**[69]

**“Ey hərəkət edən torpaq! Mən səninlə ünsiyyət istəyirəm, amma sən mənə etibar etmirsən. Üsyan qılıncı sənin ümid ağacını kəsib. Mən hər bir halda sənə yaxınam, Sən isə bütün hallarda Məndən uzaqsan. Mən səndən ötrü tükənməz izzət seçdim, sən isə özün üçün nəhayətsiz zillət bəyəndin. Nə qədər ki, vaxt var, qayıt və fürsəti əldən vermə.”[70]**

**“İnsan bütün hallarda Allahın feyz dənizinə qərq olmuşdur. Ona görə də heç bir halda ümidsiz olma, əksinə, öz ümidində möhkəm ol.”[71]**

**“Əgər ürək Allahın verdiyi nemətlərdən üz döndərirsə, o necə xoşbəxtliyə ümid edə bilər? Əgər o, ümidini və etibarını Allaha bağlamasa, o harada rahatlıq tapa bilər? Ah, Allaha etibar et! Zira, Onun kəraməti əbədididr və Onun nemətlərinə güvən, zira onlar alidir.”[72]**

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

Etibarlılığa aid isə Yazılar deyir:

**“Ey insanlar! Allahın nəzərində bu gün ən gözəl libasetibarlılıqdır. Bütün nemət və şərəf özünü bu ən böyük zinətlə bəzəyən ruhun nəsibi olmalıdır.”[73]**

**“Etibarlılıq insanlıq şəhərinə bir qala, insan heykəlinə göz kimidir. Ondan məhrun qalan kəs Onun Taxtı önündə baxışdan məhrum kimi hesab ediləcək.”[74]**

**“Hər bir ölkədə Allahın etibarlılıq təzahürləri olun. Siz bu keyfiyyəti o qədər mükəmməl əks etdirməlisiniz ki, hətta qızıl qalaqları olan şəhərdən keçsəniz, nəzərləriniz bircə anlıq belə onun cazibəsinə düşməsin (şirniklənməsin).”[75]**

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

Bu sözlər isə bizə alışmaqdan danışır:

**“Ey dostlar! Siz bu gün Allahın məhəbbət atəşi ilə elə alışmalısınız ki, onun istisi sizin damarlarınızda, əzalaırnız və bədəninizin üzvlərində aşkara çıxsın, və dünya xalqları bu istidən alışsınlar və Məhbubun üfüqünə tərəf dönsnlər.”[76]**

**“Qoy sənin ruhun dünyanın göbəyində yanan bu sönməz Atəşin alovu ilə yansın, elə yansın ki, kainatın suları onun hərarətini soyutmaqda aciz qalsın.”[77]**

**"Mərhəmət Sahibinin xilqətin düz göbəyində yandırdığı bu sönməz Atəşin alovu ilə parlaqlıqla yan ki, sənin vasitənlə Onun məhəbbətinin hərarəti Onun sevimli dostlarının ürəklərndə yansın. Mənim yolumla get və Mənim, Qüdrətli və Ulu Kəsin zikri ilə insanların ürəklərini məftun et."**[78]

**"Sevgi atəşini alışdır və hər şeyi yandırıb yax; sonra isə ayağını aşiqlərin torpağına bas."**[79]

______________________________________________________________

______________________________________________________________

______________________________________________________________

______________________________________________________________

______________________________________________________________

Yuxarıdakı hər blokdan ən azı bir parçanı əzbərləməyə çalışın.

## BÖLMƏ 18

İndi isə gəlin 17-20-ci Dərslərədki hekayələrə qayıdaq. Hər birini yenidən oxuduqdan sonra qrupunuzun digər üzvləri ilə aşağıdakı sualalra baxın.

17-ci Dərsdə siz Əli Əsgərin hekayəsini danışacaqsınız, o şəxs ki, rüşvətxor məmur onu təhdid etsə də, yalan danışmaq və aldatmaqdan imtina etmişdi. Uşaqlar artıq bilirlər ki, yalan danışmaq Allahın nəzərində xoş deyil. Hekayə onları qadir edəcək ki, Allahın təlimlərinə itaət etməyin necə bir cəsarət mənbəyi olduğunu görsünlər ki, bu da dərsin mövzusudur. Hekayənin hansı hissəsi bu rabitəni qurmaqda onlara kömək edəcəkdir? Əgər uşaqlar hekayəni izləyib başa düşməlidirlərsə və bu vacib məqamı anlamalıdırlarsa, hadisələri nəql edərkən hansı təfərrüatları vurğulamaq vacib olacaqdır?

______________________________________________________________

______________________________________________________________

______________________________________________________________

______________________________________________________________

______________________________________________________________

18-ci Dərs ümidli olmaq keyfiyyəi ətrafındadır və siz uşaqlara ümidi Həzrət Əbdül-Bəha tərəfindən dirçəldilən ruhdan düşmüş bir kişinin hekayəsini danışacaqsınız. Həzrət Əbdül-Bəha həmin şəxsi mehribanlıq yağmuruna tutur və ona xatırladır ki, o, ALlahın Mələktu ilə zəngindir. Allahın Mələkutu ilə zəngin olmaq o demək deyil ki, bizim böyük maddi sərvətimiz var. Bu nə deməkdir? Həzrət Əbdül-Bəhanın xatırlatması kişinin Allahın nemələrinə etibarını necə yüksəldir? Allaha etibar(təvəkkül) etmədən ümidli qalmağın çətin olduğunu qəbul etməkdə uşaqlara necə yardım edəcəksiniz?

Etibarlılıq 19-cu Dərsin mövzusudur və bu keyfiyyətin vacibliyini göstərmək üçün siz şagirdlərinizə Həzrət Əbdül-Bəhanın Müqədəs Torpaqda poçtu almaq və göndərmək vəzifəsini həvalə etdiyi Məhəmmədtağının hekayəsini danışacaqsınız. Hekayəni nəql edərkən uşaqların əsas ideyanı buraxmamaları üçün sizin ağlınızda tutmalı olacağınız çoxlu təfərrüatlar vardır. Bunlar hansılardır? Məhəmmədtağını təsvir edərkən siz "etibarlı" və "əmin" sözlərindən istifadə edəcəksiniz. Siz düşünürmüsünüz ki, eyni zamanda həm səhlənkar, həm də etibarlı olmaq mümkündür?

Alışmaq keyfiyyəti ilə bağlı olan 29-ci Dərsin hekayəsində mərkəzdə Tomaq Brekvelin siması dayanır. O alışmaq keyfiyyətini – ürəyimizdə Allaha olan məhəbbətin şiddətini başa düşməkdə bizə kömək etmək üçün Yazılarda tez-tez yandırılmış çıraq, qızaran alov, alışan od metaforası (təşbehi, bənzətməsi) işlədilir. Siz inamlı olmalısınız ki, bu metafora vasitəsilə sizinşagirdləriniz alışmş olmağın nə demək olması barədə bir anlayış əldə edəcəklər. Mücərrəd düşünmək qabiliyyəti uşaqlarda erkən yaşlardan mövcud olur və onların dil qabiliyyətləri inkişaf etdirkcə bu qabiliyyət də böyüyür. Yadınızda bu fikirlərlə, hekayənin hansı hissəsinin Tomas Brekvelin  Allah sevgisi atəşi ilə necə alışdığını göstərdiyini müəyyən edin. Hekayəni maraqlı və cəlbedici edən bəzi təfərrüatlar hansılardır?

## BÖLMƏ 19

Belə fərz edilir ki, siz və iştirakçı yoldaşlarınız 1-20-ci dərslərin elementlərinin praktikasından ilhamlanırsınız və indi 1-ci Sinfin son dörd dərsinə, 21-24-cü Dərslərə keçməyə hazırsınız. Hər bir dərsin əvvəlində əzbərdən bu duanı oxumaq istəyə bilərsiniz:

**“Məndə təmiz bir ürək yarat, Ey mənim Allahım və sakit bir vicdan oyat, Ey mənim Ümidim! Qüvvət ruhu ilə məni Əmrində möhkmlət, Ey mənim Məhbubum və cəlalının nuru ilə yolunu mənə göstər, Ey mənim Muradım! Fövqəl qüdrətinlə məni müqəddəslik səmana yüksəlt, Ey mənim varlığımın Mənbəyi və əbədiyyətinin nəsimləri ilə məni sevindir, Ey mənim Allahım! Əzəli nəğmələrinlə mənə sakitlik üfür, Ey mənim Munisim, qədim üzünün zənginliyi ilə məni Özündən başqa hər şeydən qurtar, Ey mənim Mövlam və əbədi Zatının zühuru ilə məni müjdələ, Sən ey aşkarlardan ən Aşkarı və gizlilərdən ən gizlisi Allah!”[80]**

Aşağıda uşaqların bu sinifdə əzbərləyəcəkləri son dua verilir. Hərçənd onlar bunun əksər hissəsinin mənasını başa düşəcəklər, amma siz onlar üçün yeni və ya tanış olmayacaq söz və ya ifadəni necə izah edəcəyinizə qərar verməlisiniz.

**“Sən Ey Mehriban Allah! Mən kiçik bir uşağam, Öz mələkutuna qəbul etməklə məni ucalt; mən yer əhliyəm, məni səmavi eylə; aşağı aləmdənəm, məni uca səltənətə aid eylə; tutqunam, işıq saçan eylə; maddiyəm, məni ruhani eylə və mənə yardım eylə ki, Sənin tükənməz feyzlərini təzahür etdirim.**

**Sən Qüvvətli və Ən Mehribansan.”[81]**

______________________________________________________________

______________________________________________________________

______________________________________________________________

______________________________________________________________

______________________________________________________________

## BÖLMƏ 20

1-ci Sinifdə keçəcəyiniz son dörd dərsi oxuyun və həmişəki kimi, əzbərləyəcəkləri sitatları şagirdlərinizə təqdim etmək üçün onlarla bölüşəcəyiniz ideyalara xüsusi fikir verin. Hər bir dərsin fokuslandığı keyfiyyəti yazın.

Dərs 21: ____________________________________________________

Dərs 22: ____________________________________________________

Dərs 23: ____________________________________________________

Dərs 24: ____________________________________________________

Aşağıdakı sitatlar sizə və qrup yoldaşlarınıza bu dərslərdə xitab edilən ruhani keyfiyyətlər üzərində, əvvəlki dərdlərdə etdiyiniz kimi, birlikdə düşünmək fürsəti verəcəkdir.

Nur saçmaq keyfiyyətinin mənası barədə Yazılar bizə belə deyir:

**“Ey Allaha sevgisisinin alovu! Şüa işıq saçmalı, günəş doğmalıdır; bədirlənmiş ay parlamalı, ulduz sayrışmalıdır. Sən şüa olduğun üçün Allahdan dilə ki, səni nurlanma və aydınlanmağa, üfüqləri işıqlandırmağa və dünyanı Allah sevgisi atəşi ilə yandırmağa qabil etsin.”[82]**

**“Bir-birinizlə, ey insanlar, nur saçaraq və sevinc içində yaşayın.”[83]**

**“Hamını Sevən Allah insanı İlahi nur saçmaq və dünyanı sözləri, əməl və həyatı ilə işıqlandırmaq üçün yaratdı.”[84]**

**“İnsanlığa xidmət Allaha xidmətdir. Qoy Mələkutun sevgi və nuru sizin vasitənizlə o vaxtadək saçılsın ki, sizə baxan hər kəs onun inikasından nurlansın. Səmavi məqamlarının yüksliyində parıldayan və sayrışan ulduzlar olun.”[85]**

____________________________________________________________
____________________________________________________________
____________________________________________________________
____________________________________________________________
____________________________________________________________

Bu parçalardan biz vəfadarlıq keyfiyyəti barədə bəsirət əldə edirik:

**“Allahın bəhası sənin üzərinə, hər bir möhkəm və səbatlı ürəyin və hər bir dəyanətli və vəfalı qəlbin üzərin olsun.”[86]**

**“Mərhəmətlinin kənizlərinə bu müraciəti çatdırın ki, imtahanlara çox ağır olanda qoy mətin olsunlar, Bəhaya olan məhəbbətlərində vəfalı qalsınlar. Qış fəslində tufanlar qopur, şiddətli küləklər əsir, bunun ardınca isə bütün gözəlliyi ilə bahar gəlir, düzləri və təpələri ətirli bitkilərlə və qırmızı lalələrlə bəzəyir, hər şey göz oxşayır.”[87]**

**“Bu gün Rəbbin Astanasında bəyənilən kəs vəfadarlıq badəsini əldə dolandırandır; o kəs ki, hətta düşməninə belə, kəramət cəvahiri bəxş edir, ona zülm etmiş, indi isə yıxılmış zalimə kömək əlini uzadır; bu o kəsdir ki, hətta ən qatı düşməninə belə sevgili dost olur.”[88]**

____________________________________________________________
____________________________________________________________
____________________________________________________________
____________________________________________________________
____________________________________________________________

Aşağıdakı parçalar bizə səbrdən danışır:

**“Ey insan oğlu! Hər şeyin bir əlaməti var, məhəbbətin də əlaməti Mənim təqdirimə səbr etmək və bəlalarıma dözməkdir.”[89]**

**“Mübarəkdir səbrlə dayanan, əzab və məşəqqətlər altında səbrli olan o kəslər ki, başlarına gələn heç nə üçün şikayət emirər və itaət yolu ilə gedirlər.”[90]**

**“Dəyişməz hökmlə müəyyən olunanla razı qal və səbrlə dözənlərdən ol.”[91]**

**“Üzünü Ən Uca Üfüqə dikən kəsə yaraşır ki, səbr ipindən bərk-bərk yapışsın, İmdada Yetən və Muxtar Allaha təvəkkül etsin”.[92]**

____________________________________________________________________
____________________________________________________________________
____________________________________________________________________
____________________________________________________________________
____________________________________________________________________

Səbatlılıqla bağlı isə biz aşağıdakıalrı oxuyuruq:

**“İnsanların üzərinə qoyulan birinci və ən başlıca vəzifə, Əbədi Haqqı tanıdıqdan sonra, Onun Əmrində səbatlı olmaqdır.”[93]**

**“Allahın Əmrində elə səbatlı ol ki, hətta yer üzündə heç bir şeyin sənin üzərinə düşən vəzifədən yayındırmağa gücü yetməsin.”[94]**

**“Allaha məhəbbətində səbatlı ol və Onun Əmrində dönməz ol. Sonra nitqinlə Ona kömək göstər.”[95]**

**“Beləcə, biz səbatlı addımlarla yəqinlik Yolunda gedərik ki, bəlkə Allahın riza çəmənliyindən əsən nəsim ilahi qəbulun şirin rayihələrini bizə gətirər və bizi, faniləri əbədi izzət Mələkutuna yetişdirər.”[96]**

**“İnamlı və səbatlı olun; sizin xidmətiniz səma gücləri tərəfindən təyid edilir, zira sizin məqsədiniz uca, niyyətiniz pak və dəyərlidir.”[97]**

____________________________________________________________________
____________________________________________________________________
____________________________________________________________________
____________________________________________________________________
____________________________________________________________________

Yuxarıdakı blokların hər birindən ən azı bir parçanı əzbərləməyə çalışın.

## BÖLMƏ 21

İndi isə gəlin barəsində öyrənməkdə olduqları ruhani keyfiyyətləri onlarda bəsləməyə çalışaraq birlikdə o qədər gözəl saatlar keçirməli olacağınız şagirdlərinizə danışacağınız son

dörd hekayəyə baxaq. Hər bir hekayəni bir daha oxuduqdan sonra aşağıdakı sualları qrupunuzla müzakirə edin.

21-ci Dərsdə uşaqlar Doroti Beyker haqqında hekayəni dinləyəcəklər; o gənc qız ikən Həzrət Əbdül-Bəha ilə birinci dəfə görüşmüşdü. Onlar hekayənin gedişində görəcəklər ki, Doroti necə Onun nur saçmağına heyran olmuşdur və hekayənin əsas mövzusu da elə budur. Həzrət Əbdül-Bəhanın nur saçması Dorotiyə necə təsir edir? Uşaqların Həzrət Əbdül-Bəhaya bağlılığını hekayənin necə artırdığına necə emid edə bilərsiniz?

____________________________________________________________________

22-ci Dərsin mövzusu İsfəndiyar haqqındakı hekayənin göstərdiyi vəfadarlıqdır. Hekayənin hansı hissəsi bu mövzuya birbaşa bağlıdır? Vəfalı qalması üçün İsfəndiyara kömək edən daha hansı ruhani keyfiyyətlər İsfəndiyar nümayiş etdirir? Hekayəni danışarkən təhkiyənizə daha hansı təfərrüatları daxil edəcəksiniz?

23-cü Dərs səbr keyfiyyəti üzərində fokuslanır. Hekayədə Li Ksin müxtəlif böyümə mərhələlərindən – kiçicik toxumdan başlayaraq sonda meyvə gətirən ağaca keçərək böyüyən şaftalı ağacını becərərkən səbrlilik göstərir. Hekayə səyin qoyulduğu uzun vaxt ərzində göstərilən səbrin mükafatını vurğulayır və zəhmətimizin bəhrəsini görməzdən əvvəl bizim nə qədər böyük səy qoymalı olduğumuzu nümayiş etdirir. Hekayəni şagirlərinizə danışarkən ağlınızda aydın olmalı olan hansı təfərrüatların omasını istəyəcəksiniz?

24-cü Dərsdə siz uşaqlara Həzrət Əbdül-Bəhanın bacısı Bəhiyyə Xanım haqqında hekayə danışacaqsınız. Bu hekayə onlara bədbəxtlik qarşısında Bəhiyyə Xanımın necə səbatlılıq göstərməsini nümayiş etdirir. Amma siz bunu da istəyəcəksiniz ki, onlar özləri ilə belə bir anlayışı götürsünlər ki, Allahın sevgisində səbatlı olmaq hər hansı xüsusi bir böhran və ya çətinliyi aşmaqdan daha çox şeyi əhatə edir. Onun həyat hekayəsi uşaqlara Allahın Əmrində möhkəm olmağın tələb etdiyi güc və mətanətdən necə bir işartı verəcəkdir?

## BÖLMƏ 22

Bu fəildə siz birinci sinifdə uşaqlarla birlikdə araşdıracağınız ruhani keyfiyyətlər üzərində düşündünüz və xarakterlərinin inkişafına töhfə vermək ümidi ilə onlara keçəcəyiniz iyirmi dörd dərsin müxtəlif elementlərini yerinə yetirərək praktika etdiniz. İndi isə bir qədər vaxt ayırıb 1-ci Sinifdə inkişaf etdirməkdə  şagirdlərinizə kömək etmək kimi bir nemətə malik olacağınız bütün ruhani keyfiyyətləri xatırlayın. Yəqin ki, bu keyfiyyətlərin arasında Allah sevgisində səbatlılıq onların dərslərini yekunlaşdıracaqları mövzu olacaq, necə ki əvvəllər müzakirə edildiy kimi, bu da da vacib olacaq ki, onlar ürək paklığı üzərində fokuslanmaqla başlasın. Siz birinci dərs keçmək səyinizə başlayanda bunun üzərində düşünməlisiniz ki, Onun sevgisində səbatlılığın şagirdlərinizin daxilində gizli olan cəvahir kimi keyfiyyətləri göstərmək üçün səylərində sizin qayğınıza tapşırılmış şagirdlərinizin əzmkar olmalarında onlara necə kömək edəcəkləri üzərində tez-tez düşünməlisiniz.

## Uşaqlar üçün 24 Dərs

# DƏRS 1

## A. Duaların oxunması və əzbərlənməsi

İlahi xeyir-duaları cəzb etmək və ruhani mühit yaratmaq üçün dərsi əzbər bildiyiniz bir duanı oxumaqla başlayın. Məsələn, Bölmə 2-də təklif olunan dua kimi. Daha sonra siz uşaqlardan soruşa bilərsiniz ki, onlardan hər hansı biri dərs üçün oxuya biləcəyi hansısa duanı əzbər bilirmi. Daha sonra onlar aşağıdakı duanı əzbərləyəcəklər. Onun əhəmiyyətini qavraya bilməkdə onlara kömək etmək üçün konkret misallarla izah edilməli olduğunu düşündüyünüz sözləri müəyyən edin. Uşaqların bir çoxunun bunu asanlıqla öyrənəcəyi gözlənilir, lakin siz onu növbəti üç dərs ərzində onlarla birlikdə nəzərdən keçirməlisiniz ki, onlar Dərs 5-də yeni dua öyrənməyə başlayanda bu onların qəlbinə və zehninə həkk olunmuş olsun.

**“Odur Allah! Ey Allah, mənim Allahım! Mənə dürr təkin saf bir qəlb əta eylə”.**[98]

Uşaqların bu ilk bir neçə dərsdə əzbərləyəcəkləri dua qısa olduğu üçün, Bölmə 2-də ehtiram və duanın mahiyyətindən bəhs edən bəzi fikirləri onlarla müzakirə etmək üçün bir neçə fürsətiniz olacaq.

## B. Mahnılar

Dualara həsr olunmuş müddətdən sonra uşaqlar dərsin mövzusu olan ürəyin paklığı ilə bağlı daha sonra əzbərləyəcəkləri sitatı musiqiyə çevirən aşağıdakı mahnını oxumağı öyrənə bilərlər. Bəzi sözlər uşaqlara çətin gələ biləcəyi üçün ilk dörd misranı oxumağı öyrənmələrinə kömək edə və bunu qalan hissələrdə də davam etdirə bilərsiniz.

Mənim İlk Nəsihətim

C C/B Am C/B
Ey Ruh Oğlu!
C C/B Am C/B
Ey Ruh Oğlu!
F G
Mənim ilk nəsihətim budur
F G
Mənim ilk nəsihətim budur
F G C Am
Pak, mehriban və nurlu bir ürəyə malik ol ki,
F G C Am
Müstəqil ola biləsən
F G C C/B Am C/B
Qədim, daimi və əbədi
F G C
Qədim, daimi

## C. Sitatların əzbərlənməsi

Növbəti fəaliyyət olaraq, uşaqlar Bəhai Yazılarından bir sitat əzbərləyəcəklər. Dərsin mövzusunu və əzbərlənməli olan sitatı aşağıdakı şəkildə təqdim edə bilərsiniz:

> Bizim qəlbimiz güzgüyə bənzəyir. Biz onları həmişə təmiz saxlamalıyıq. Kiməsə qarşı kin saxlamaq, kiməsə həsəd aparmaq və hər hansı bir səbəbə görə kiməsə qarşı xoş

olmayan rəftar etmək – bunlar qəlbimizin aynasını örtən toz kimidir. Bizim qəlblərimiz pak olanda Allahın nurunu və Onun sifətlərini – xeyirxahlıq, sevgi və alicənablıq kimi sifətlər – əks etdirir və biz başqaları üçün xoşbəxtlik səbəbi oluruq. Qəlblərimizi pak saxlamağa kömək etmək üçün gəlin Həzrət Bəhaullahın bu kəlamını əzbərləyək:

**"Ey Ruh Oğlu! Mənim ilk nəsihətim budur: Pak, mehriban və nurlu bir ürəyə malik ol..."**[99]

Əgər uşaqlar bu sitatı yaxşı başa düşsələr, onu əzbərləmək onlar üçün asan olacaq. Buna görə də söz və ifadələrin mənasını onlarla müzakirə etmək üçün müəyyən qədər vaxt sərf etməyiniz tövsiyə olunur. Burada bunu etməkdə sizə kömək edəcək bəzi cümlələr verilmişdir:

*Nəsihət*

1. Bir gün Herard və Meri bir neçə rəsm rəngləyirdilər. Herarda sarı rəngli karandaş lazım idi, amma Meri bunu ona vermək istəmirdi. Müəllim Meriyə dedi ki, o, karandaşları dostu ilə bölüşməlidir. Müəllim Meriyə yaxşı nəsihət verdi.

2. Patrisia pulunu peçenyeyə, yoxsa hekayələr kitabına xərcləməyə qərar verməlidir. Onun valideynləri hekayə kitabı almağı məsləhət görürlər. Valideynləri Patrisiaya yaxşı nəsihət verirlər.

*Malik olmaq*

1. Tinayə yatmağa getməzdən əvvəl dua oxumağı xoşlayır. Onun oxumaq üçün kiçik dua kitabçası var. Tinayə kiçik dua kitabçasına malikdir.

2. Bağımızda çoxlu dadlı tərəvəzlər yetişdiririk. Bizə çoxlu təzə tərəvəzlər verən yaxşı bir torpaq sahəsinə malikik.

*Pak qəlb*

1. Keti qəzəbləndi və Aqota qarşı nəzakətsiz sözlər işlətdi. Aqot kədərləndi, amma tezliklə Ketini bağışladı. Aqotun pak bir qəlbi var.

2. Qustavo peçenyelərini bütün uşaqlarla, hətta heç kimlə heç nəyini paylaşmayan Yorge ilə belə bölüşməyi xoşlayır. Qustavonun pak bir qəlbi var.

*Mehriban qəlb*

1. Valideynləri dostlarını evlərinə dəvət etdikdə, Min Linq məmnuniyyətlə onlara yemək verir. Min Linqin mehriban bir qəlbi var.

2. Cənab Robertson çox yaşlıdır. Cimmi meyvə məhsulunu bazara aparmaqda ona kömək edir. Cimminin mehriban bir qəlbi var.

*Nurlu qəlb*

1. Mən qəmgin olduğum zaman anam məni ruhlandırır və şadlandırır. Mənim anamın nurlu bir qəlbi var.

2. Obuya xəstələndi və bütün vaxtını yataqda keçirməli oldu. O, çoxlu dualar edirdi, qəmgin olmurdu və xoşbəxtliyini göstərməyə davam edirdi. Obuyanın nurlu bir qəlbi var.

**D. Hekayə**

Uşaqlar sitatı əzbərlədikdən sonra siz onlara Həzrət Əbdül-Bəha haqqında qəlbin paklığının vacibliyini nümayiş etdirəcək aşağıdakı hekayəni danışa bilərsiniz. Unutmayın ki, sinfinizdəki bəzi uşaqlar Həzrət Əbdül-Bəha ilə tanış deyilsə, başlamazdan əvvəl Onun haqqında bir neçə kəlmə deməyə hazırlıqlı olmalısınız.

*Həzrət Əbdül-Bəha həmişə insanın ürəyində nə olduğunu söyləyə bilirdi və pak və nurlu ürəyi olan insanları O, çox sevirdi. Həzrət Əbdül-Bəha ilə nahar etmək şərəfinə nail olmuş bir xanım vardı. Oturub Onun müdrik sözlərinə qulaq asarkən o, qarşısındakı su ilə dolu stəkana baxaraq düşündü: "Ah! Kaş Həzrət Əbdül-Bəha mənim ürəyimi götürərdi, onu tamamilə bu dünyanın arzularından azad edərdi və yenidən İlahi sevgi və anlayışla doldurardı, necə ki, bu stəkanı boşaldıb doldurmaq olar".*

*Bu fikir onun beynindən ani olaraq keçdi və o, bu barədə heç nə demədi, amma tezliklə elə bir şey baş verdi və o başa düşdü ki, Həzrət Əbdül-Bəha onun nə fikirləşdiyini bilmişdi. O, söhbətinin tən yarısında ikən fasilə etdi və xidmətçisini çağıraraq ona fars dilində bir neçə kəlmə dedi. Xidmətçi sakitcə xanımın yanına gəldi, onun stəkanını götürdü, suyunu boşaldaraq yenidən onun qarşısına qoydu.*

*Bir qədər sonra Həzrət Əbdül-Bəha söhbətini davam etdirərək su dolçasını masadan götürdü və çox təbii şəkildə astadan xanımın boş stəkanını yenidən su ilə doldurdu. Heç kəs nə baş verdiyini hiss etmədi, amma həmin xanım bildi ki, Həzrət Əbdül-Bəha onun ürəyinin istəyinə cavab verir. Onun ürəyi sevinclə doldu. O, indi başa düşdü ki, ürəklər və fikirlər Həzrət Əbdül-Bəha üçün açıq kitab kimidir ki, O, onları böyük məhəbbət və mehribanlıqla oxuyur.*

**E. Oyun: "Paylaşmaq"**

Növbəti fəaliyyət üçün yerə bir avtomobil şini qoyun və sonra uşaqlardan eyni anda neçəsinin orada dayana biləcəklərini göstərmələrini xahiş edin. Təkər yoxdursa, bunun əvəzinə yerə döşək və ya dəsmal və ya buna oxşar bir şey qoymaq olar. Seçdiyiniz istənilən əşya, oyunu sinifdəki uşaq sayı üçün meydanoxumaya çevirəcək qədər kiçik olmalıdır.

**F. Rəngləmə: Rəsm 1**

Oyundan sonra uşaqları bir yerə toplaya və hər birinə rəngləmək üçün Rəsm 1-in bir nüsxəsini verə bilərsiniz. Bu zaman əzbərlədikləri sitatın səhifənin aşağısında yerləşdiyini onlara izah etməli və dərsin mövzusu ilə şəklin əlaqəsi barədə əvvəlcədən hazırladığınız bir neçə sözü deməlisiniz.

**G. Bağlanış duaları**

Dərsi bitirmək üçün iki ya üç uşaqdan bildikləri bir duanı və ya öyrəndikləri bir sitatı əzbərdən oxumaları istənilə bilər. Sonra isə siz son bir dua oxuya bilərsiniz.

# DƏRS 2

## A. Duaların oxunması və əzbərlənməsi

Bu və növbəti iki dərsi Dərs 1-in başlanğıcında oxuduğunuz dua ilə açmağınız tövsiyə olunur. Daha sonra əvvəlcədən seçilmiş bir neçə uşağın hər birindən bildikləri bir duanı oxumalarını istəyə bilərsiniz. Bunun ardınca, şagirdlərinizə kömək edin ki, əvvəlki dərsdə təqdim olunan duanı əzbərləməyə davam etsinlər.

## B. Mahnılar

Növbəti fəaliyyət üçün uşaqlar iki mahnı – əvvəlki dərsdəki mahnını və aşağıdakı, dərsin mövzusu olan ədalət haqqındakı bu yeni mahnını – oxuya bilərlər.

Nəcib Yol

D
Ədalət nəcib bir yoldur
A D
Ədalət gətirir daha parlaq bir gün
G D
Möhtaclara bir işıq
A D
Yaxşı əməllərlə parıldayan
D A D
Ah, ədalətdir doğru yol
D
Bilirik, Həzrət Əbdül-Bəha
A D
Məhəbbət və qayğıyla paylaşardı
G D
Aza qane olardı
A D
Şadlıq gətirmək üçün O,
D A D
Aza qane olardı
D
Ədalətli olmaq üçün biz
Verici olmalıyıq
A D
Yaşamaqçün həyatı,
Sevgi və sevinci paylaşmalıyıq
G D
Aldığımız nemətləri paylaşmaqla
A D
Daha yaxşı dünya qurarıq
D A D
Ədalətdir doğru yol

(*ilk bəndi təkrarlayın, son doqquz sətrin hər birini iki dəfə oxuyun*)

## C. Sitatların əzbərlənməsi

Bu iki mahnıdan sonra uşaqları Həzrət Bəhaullahın Yazılarından bir sitat əzbərləməyə təşviq etməlisiniz. Dərsin mövzusunu və sitatı təqdim etməkdə sizə kömək edə biləcək bəzi fikirlər:

> Allah ədaləti sevir. Ədalət olduğu zaman hər kəs həyatın yaxşı şeylərindən zövq alır. Belədə hər uşaq məktəbə gedə bilir, hər ailənin rahat bir evi var və imkanı olanlar Allahdan aldıqları nemətləri başqaları üçün daha məmnuniyyətlə verirlər. Bir-birimizə insaflı və ədalətlə yanaşanda Allah bizdən razı qalır. Birinə pis münasibət göstərildiyini görsək, onun üçün ayağa qalxmalı və kömək etməliyik. Dostlarımızdan və ya qonşularımızdan onların sahib olduqlarını almamalıyıq. Bir şey paylaşılacağı zaman heç kimin kənarda qalmamasından və hamının ədalətli bir hissə almasından əmin olmalıyıq. Gəlin özümüzə ədalətli olmaqda yardım etmək üçün Həzrət Bəhaullahın bu sitatını əzbərləyək:
>
> **“Ədalət yolu ilə gedin, zira bu, həqiqətən, düz yoldur”.**[100]

Uşaqların yuxarıdakı sitatı əzbərləməyə başlamazdan əvvəl onun haqqında təməl anlayışa malik olmalarını təmin etmək vacib olacaqdır. Uşaqlar üçün yeni ola biləcək sözlərin mənalarını izah etməkdə sizə kömək etmək üçün aşağıda bir neçə cümlə verilmişdir.

*Addımlamaq*

1. Meşədə ağaclardan çoxlu yarpaqlar tökülüb cığırı örtmüşdü. Fumiko meşədə gəzir. O, yarpaqla örtülmüş cığırla addımlayır.

2. Pedro bütün dostlarına bir yerdə həvəslə oynamaqda kömək etməyi xoşlayır. Pedro və onun dostları çox həmrəydirlər. Pedro birlik yolu ilə addımlayır.

*Yol*

1. Luisin ulağı var. O, ulağı çəmənliyə otarmağa apardı və yalnız buraxdı. Ulaq evin yolunu özü tapdı.

2. Məktəbə iki yol gedir. Milli həmişə nənəsigilin evinin yanından keçən yol ilə getməyi xoşlayır.

*Ədalət*

1. Karlosa sinifdə paylaması üçün rəngli karandaşlar verildi. On ədəd rəngli karandaş və beş uşaq var idi. Karlos hər uşağa iki karandaş verdi. Karlos karandaşları paylayarkən ədalətli davrandı.

2. Annanın həyətindəki su quyusunda çoxlu su var, amma bəzən onun qonşusunun quyusu quruyur. Anna heç vaxt qonşusunun əziyyət çəkməsinə imkan vermir və həmişə onun su götürməsinə məmnuniyyətlə razı olur. Anna ədaləti sevir.

## D. Hekayə

Uşaqlar sitatı əzbər oxumağı öyrəndikdən sonra Həzrət Əbdül-Bəhanın nə qədər ədalətli olduğunu daha yaxşı təsvir edən aşağıdakı hekayəni onlara danışa bilərsiniz.

*Bir gün Həzrət Əbdül-Bəha Əkkadan Hayfaya getmək istədi. O, adətən insanlarla dolu olan adi karetada ucuz bir yer almağa getdi. Sürücü çox təəccübləndi və ola bilsin ki, öz-özündən soruşdu ki, görəsən niyə Həzrət Əbdül-Bəha belə qənaətcildir ki, bu cür ucuz kareta ilə gedir. "Şübhəsiz, Zati-alileriniz gərək xüsusi faytonda getməyə üstünlük verərdi" – deyə o, müraciət etdi. "Xeyr" – deyə Həzrət Əbdül-Bəha cavab verdi və Hayfaya qədər adamla dolu olan karetada getdi. Hayfada karetadan düşdüyü zaman çox yoxsul bir balıqçı qadın Ona yaxınlaşdı və Ondan kömək istədi. O, bütün günü heç nə tuta bilməmişdi və indi ac ailəsinin yanına qayıtmalı idi. Həzrət Əbdül-Bəha ona yaxşı məbləğdə pul verdi və sürücüyə tərəf dönərək dedi: "Əgər bu qədər insan belə dəhşətli aclıq çəkirsə, nə üçün mən dəbdəbə içində yol getməliyəm?"*

**E. Oyun: "Yanğılı Susuzluq"**

Hekayə danışmağa həsr olunmuş dövrdən sonra uşaqlar bir oyun oynamaq üçün həvəsli olacaqlar. Qollarına çubuqlar bağlayın ki, dirsəklərini bükə bilməsinlər, sonra da bir səhrada birlikdə gəzdiklərini və hamısının çox susadığını təsvir etmələrini istəyin. Onlar üçün ayırdığınız fincanlardakı suya rast gələndə içməyin bir yolunu tapmalıdırlar. Bunun yeganə yolunun bir-birinə kömək etmək olduğunu, bir-birlərini islatmamağa fikir verməli olduqlarını öyrənəcəklər.

**F. Rəngləmə: Rəsm 2**

Növbəti fəaliyyət kimi, hər bir uşağa rəngləmələri üçün Rəsm 2-nin bir nüsxəsini verin. Uşaqlara xatırladın ki, əzbərlədikləri sitat səhifənin altındadır. Rəsmin dərsin mövzusu ilə əlaqəsi barədə bir neçə kəlmə danışmağa hazır olmalısınız.

**G. Bağlanış duaları**

Uşaqlar boyamağı bitirdikdə, onlardan bir neçəsini bu və ya əvvəlki dərsdə əzbərlədikləri bir dua və ya sitatı oxumağa dəvət edə bilərsiniz. Sonra isə siz son bir dua oxuya bilərsiniz.

## DƏRS 3

**A. Duaların oxunması və əzbərlənməsi**

Dərsi başlatmaq üçün əzbərdən bir dua oxuyun və əvvəlcədən seçilmiş bir neçə uşaqdan hər birinin də bir dua oxumasını istəyin. Daha sonra şagirdlərinizlə Dərs 1-də oxumağa başladıqları duanı nəzərdən keçirməyə bir az vaxt sərf edə bilərsiniz.

**B. Mahnılar**

Növbəti fəaliyyətə uşaqlara əvvəlki dərslərdə öyrəndikləri iki mahnını oxutdurmaqla başlayın. Sonra onlara dərs mövzusu olan sevgi ilə əlaqəli aşağıdakı mahnını öyrədin.

Sev, Sev, Sev

Sev, sev, sev, sev, sev yoldaşını,
Sevgidir yaradan dünyamızı.
Allah sevdi xilqəti
Yaratdı səni ki,
Sevəsən Onu və bəşəriyyəti.

Sev, sev, sev Əbədi xeyiri
Sev, sev, sev qardaşlıq toxumunu
Sev bütün xilqəti çün
Yaratdı səni ki,
Sevəsən Onu və bəşəriyyəti.

Sev sən xilqəti
Yaxındır ya uzaq
Parlaq ulduztək
Hər insana bax.
Sev bütün xilqəti çün
Yaratdı səni ki,
Sevəsən Onu və bəşəriyyəti.

**C. Sitatların əzbərlənməsi**

Əzbərləmək məqsədilə sitatı təqdim etmək üçün dərsin mövzusu ilə bağlı aşağıdakı fikirləri şagirdlərinizlə bölüşə bilərsiniz:

> Allahın məhəbbəti bəşərin üzərinə günəş şüaları kimi saçılır. Günəşin şüaları həm quru səhralara, həm də yaşıl bağlara eyni şəkildə düşür. Onun istiliyi sayəsində münbit yerlərə əkilmiş toxumlar böyüyür və qiymətli meyvələr verir. Elə isə qəlblərimizin pak torpağına, Onun qayğısının hərarəti altında böyüyüb çiçək açacaq olan Allah sevgisinin toxumlarını əkməliyik. O zaman sevgimiz yayılacaq və hər kəsə, hətta bizə bəzən pis rəftar edənlərə qarşı da sevgi göstərəcəyik. Bütün bəşəriyyəti sevməkdə bizə kömək etməsi üçün gəlin Həzrət Bəhaullahın bu kəlamını əzbərləyək:
>
> **"Ey Dost! Könül bağında eşq gülündən başqa heç nə əkmə..."**[101]

Bu sitatda izaha ehtiyac duyula biləcək yeganə söz «heç nə» sözüdür ki, onun da mənası yoxluqdur.

1. Dineyo günəş və güllər barədə mahnılar oxumağı xoşlayır və başqa heç nə haqqında mahnı oxumur. Dineyo günəş işığı və güllərdən başqa heç nə haqqında oxumur.

2. Ta Cen çay kənarına getmək istəyirdi, amma o, ev işlərini yerinə yetirməmişdi. Atası dedi ki, o, işini qurtarmayınca evi tərk edə bilməz və təəssüf ki, Ta Cen çox məyus oldu. Nənəsi ona dedi: "Əzizim, əgər sən atana qulaq asmasan, sənin planların heç nəyə çevrilməyəcək".

**D. Hekayə**

Əzbərləməyə həsr olunmuş müddətdən sonra şagirdlərinizə aşağıdakı hekayəni danışa bilərsiniz:

*Həzrət Əbdül-Bəha Əkka şəhər-məhbəsində məhbus olarkən həmin şəhərdə Onunla çox pis rəftar edən bir adam yaşayırdı. O düşünürdü ki, Həzrət Əbdül-Bəha yaxşı adam deyil və Allah bəhailərlə necə rəftar olunmasına laqeyddir. Əslində, o inanırdı ki, bəhailərə qarşı nifrətini göstərməklə Allaha olan sevgisini nümayiş etdirir. O, bütün qəlbi ilə Həzrət Əbdül-Bəhaya nifrət edirdi. Həmin nifrət böyüyür, daxilində kök salır və hərdən sınmış qabdan dağılan su tək püskürüb özünü büruzə verirdi. İnsanlar məsciddə namaz üçün toplaşan zaman o, Həzrət Əbdül-Bəhanın əleyhinə qışqırar və Onun haqqında qorxunc şeylər deyərdi. Küçədə Həzrət Əbdül-Bəha ilə rastlaşarkən o, əbası ilə üzünü örtərdi ki, Onu görməsin.*

*Həmin adam çox kasıb idi, nə yeməyə bir şeyi vardı, nə də geyinməyə bir isti paltarı. Siz necə düşünürsünüz, Həzrət Əbdül-Bəha onunla necə rəftar etdi? O ona qarşı xeyirxahlıq nümayiş etdirdi, yemək və paltar göndərdi və onun qayğısına qalınmasını təmin etdi. Məsələn, bir dəfə həmin adam ağır xəstə idi. Həzrət Əbdül-Bəha ona həkim göndərdi, dərman və ərzağının pulunu ödədi və həmçinin ona bir qədər pul verdi. O, hədiyyələri Həzrət Əbdül-Bəhadan qəbul etdi, amma Ona təşəkkür etmədi. Hətta, o, bir əlini nəbzini ölçmək üçün həkimə uzatdı, digər əli ilə isə üzünü örtdü ki, Həzrət Əbdül-Bəhanın üzünü görməsin. Və bir neçə il boyunca bu beləcə davam etdi. Amma bir gün nəhayət ki, həmin adamın qəlbi dəyişdi. O, Həzrət Əbdül-Bəhanın evinə gəldi, Onun ayaqlarına düşdü və kədərli şəkildə və gözlərindən iki çay kimi axan göz yaşı seli ilə yalvardı: "Ağa, bağışlayın məni! İyirmi dörd il mən Sizə pislik etmişəm. Sizsə iyirmi dörd ildə mənə qarşı ancaq yaxşılıq göstərmisiniz. İndi bilirəm ki, mən səhv etmişəm. Rica edirəm, məni bağışlayın". Beləliklə, Həzrət Əbdül-Bəhanın böyük sevgisi nifrət üzərində zəfər çaldı.*

**E. Oyun: "Körpü"**

Növbəti fəaliyyətlə bağlı yerdə bir xətt düzəltmək üçün oturacaqlardan, lövhələrdən, kərpiclərdən və ya plitələrdən istifadə edə bilərsiniz. Bura "körpüdür". Uşaqları iki qrupa bölün və heç kəsin körpüdən yıxılmasına imkan vermədən onların əks istiqamətlərdə hərəkət edərək eyni anda körpüdən keçməli olduqlarını deyin. Uşaqlar görəcəklər ki, müvəffəq olmaq üçün öz yerlərini dəyişməkdə və bir-birlərini ötməkdə bir-birlərinə kömək etməlidirlər.

Onlara kömək etmək üçün uşaqları yavaş-yavaş başlanğıc yerlərinə apara və onların addım-addım getmələrinə kömək edə bilərsiniz. Bütün uşaqları eyni vaxtda körpünün üstünə qoymaq əvəzinə, hər hansı ikisi ilə məşq edə bilərsiniz. Bir neçə nümayişdən sonra körpüdəki uşaqların sayı hamının iştirak edəcəyi vəziyyətə qədər artırıla bilər.

**F. Rəngləmə: Rəsm 3**

Oyundan sonra son fəaliyyət olaraq siz uşaqların hər birinə Rəsm 3-ün bir nüsxəsini verə bilərsiniz. Şəklin dərs mövzusu ilə əlaqəli olması barədə bir neçə kəlmə deməyi unutmayın.

**G. Bağlanış duaları**

Dərsi bitirmək üçün şagirdlərinizi sakit oturmağa təşviq edin və onlardan ikisi və ya üçü əzbərlədikləri bir dua və ya bir sitatı oxusun. Sonra siz və ya uşaqlardan biri bir bağlanış duası oxuyur.

# DƏRS 4

**A. Duaların oxunması və əzbərlənməsi**

Açılış dualarından sonra, şagirdlərinizlə bir yerdə son bir neçə dərsdə əzbərdən öyrəndikləri duanı nəzərdən keçirin.

**B. Mahnılar**

Növbəti fəaliyyət üçün uşaqlara həqiqət mövzusunda bu yeni mahnını öyrətməzdən əvvəl əvvəlki dərslərdə öyrəndikləri mahnıları oxumalarını təmin edin:

Doğru Sözlər

G D
Toz örtmüş bir güzgü
A D
Parlaq günəşi əks etdirə bilməz
G D
Qanadları palçığa batmış bir quş
A D D7
Qanad açıb fəzaya uça bilməz

Xor:
G D
Bütün sözlərimiz həqiqət olanda
A D D7
Ruhumuz inkişaf edib böyüyər
G D
Bütün fəzilətlərin təməli
A D
Biz bilirik ki, doğruluqdur

Xor

Bir gəmi yırtılmış yelkəndən istifadə edərsə
Küləyi tuta bilməz
Gözlər duvağa bürünsə
Ön yolu görə bilməz

Xor *(son sətir təkrarlanır)*

## C. Sitatların əzbərlənməsi

Dərsin mövzusunu və əzbərləmək üçün yeni sitatı aşağıdakı şəkildə izah etməyiniz təklif edilir:

> Doğruluq hər bir insan üçün ən mühüm ruhani keyfiyyətlərdən biridir. Biz heç vaxt kiçik bir yalan belə danışmamalıyıq, hətta heç kim bunu bilməyəcəksə belə. Bəzən insanlar ona görə yalan danışırlar ki, onlar həqiqəti deməyə qorxurlar. Amma biz bilirik ki, Allah bizim bütün əməllərimizdən xəbərdardır və biz Ondan heç nəyi gizlədə bilmərik. Biz həqiqəti sevməliyik. Əgər biz doğruçu olmasaq, ədalət, sevgi və mehribanlıq kimi başqa məziyyətlərimizi inkişaf etdirmək çox çətin olacaq və biz Allaha yaxın olmağa nail ola bilməyəcəyik. Gəlin Həzrət Əbdül-Bəhanın aşağıdakı kəlamını əzbərləyək:
>
> **“Doğruluq bütün insani fəzilətlərin təməlidir”.**[102]

Yuxarıdakı sitatda uşaqlara çətin gələ biləcək sözlərin mənalarını izah etməkdə sizə kömək edəcək bəzi cümlələr aşağıda verilmişdir.

*Doğruluq*

1. Sancay stəkanı əlindən saldı və sındırdı. Onun anası nə baş verdiyini soruşduqda o, düzünü dedi və yalan danışmadı. Sancay doğruluq fəzilətini göstərdi.

2. Gita bir axşam oynamağa o qədər çox vaxt sərf etdi ki, ev tapşırığını bitirə bilmədi. Ertəsi gün, tapşırığı təqdim etməyin vaxtı çatdıqda, müəlliminin narazı olacağını hiss etsə də, həqiqəti deməli olduğuna qərar verdi. Gita doğruluq fəzilətini göstərdi.

*Təməl*

1. Alokun atası ev tikirdi. Divarları hörməyə başlamazdan əvvəl divarların hörüləcəyi yerə daş və beton tökdü. Beton və daş evin təməlini təşkil edir. Bu təməl evin dağılmasının qarşısını alır.

2. Yazmağı və oxumağı öyrənməzdən əvvəl siz hərfləri və hərflərin ifadə etdiyi səsləri bilməlisiniz. Hərflərin verdiyi səslərin öyrənilməsi oxumağı və yazmağı öyrənməyin təməlidir.

*Fəzilətlər*

1. Avrora dostcanlı, mehriban və şəndir. Dostcanlılıq, nəzakətlilik və mehribanlıq onun çoxsaylı fəzilətlərindən bir neçəsidir.

2. Xanım Patel uşaqlara ədalət, səxavət, təvazökarlıq və dürüstlüyü öyrədir. Bunlar hər kəsin malik olmalı olduğu fəzilətlərdən bəziləridir.

## D. Hekayə

Növbəti fəaliyyət kimi, doğruluq keyfiyyəti barədə düşünməkdə uşaqlara kömək etmək üçün siz onlara aşağıdakı hekayəni danışa bilərsiniz:

*Uzaq ölkələrdən birində çox illər bundan əvvəl cavan bir çoban vardı. Atası tarlada işləyən və anası ev işlərini görən zaman onun da vəzifəsi ailənin qoyunlarına baxmaq idi. Bir gün oğlan darıxdı və qonşuları ilə zarafat etmək qərarına gəldi. Birdən o, "Canavar! Canavar! Canavar qoyunları yeyir!" – deyə haray saldı. Onun bütün dostları canavarı qovmaq üçün ona köməyə gəldilər, amma onlar oraya çatanda gördülər ki, çoban dayanıb onlara gülür, çünki onlar çox qorxmuşdular, əslində isə ətrafda canavar yox idi. Onlar onun çox pis iş tutduğunu söyləyərək geriyə, öz işlərinə döndülər.*

*Növbəti gün yenə o özünün axmaq zarafatını təkrar etdi: "Canavar! Canavar! Kömək edin! Kömək edin!" – deyə qışqırdı. Qonşulardan bəziləri köməyə tələsdilər, amma yenə də oğlan onlara güldü, çünki bu dəfə də onlar aldadılmışdılar və yenə də canavar yox idi. Üçüncü gün onlar oğlanın "Canavar! Canavar! Canavar qoyunları yeyir, xahiş edirəm kömək edin" – deyə qışqırdığını eşitdikdə ona fikir vermədilər, çünki onlar fikirləşdilər ki, bu onun növbəti yalanıdır. Amma həmin gün doğrudan da canavar gəlib qoyunları yemişdi! Gənc çoban çox kədərli idi, amma o yaxşı dərs aldı. Əgər biz yalan danışsaq, bir gün gələr ki, nə valideynlərimiz, nə qardaş və bacılarımız, nə də dostlarımız sözlərimizə inanarlar, hətta biz düz danışsaq da belə".*

### E. Oyun: "Telefona Toxun"

Yuxarıdakı hekayəni danışdıqdan sonra uşaqlar oyun oynaya bilərlər. Uşaqlardan xahiş edin ki, bir sıraya düzülsünlər. Onların hamısı bir istiqamətə baxmalı, son uşaq isə divarda ya da ağacda asılmış kağıza və ya əgər varsa, yazı lövhəsinə baxmalıdır. Yazmaq üçün onun bir alətə ehtiyacı var. Uşaqların sayı çoxdursa birdən çox cərgə təşkil edilə bilər.

Barmağınızla birinci uşağın kürəyində nəsə çəkin. O da öz növbəsində ikinci uşağın kürəyində həmin rəsmi çəkir. İkinci uşaq da üçüncü uşağın kürəyində onu çəkir və sonuncu uşaq bu rəsmi bir parça vərəq üzərində və ya yazı lövhəsində çəkənədək beləcə davam edir. Sonra siz həmin rəsmin yanında birinci uşağın kürəyində çəkdiyiniz rəsmi çəkməlisiniz. Rəsmləriniz çox sadə olmalıdır ki, uşaqların hamısı onları çəkə bilsinlər.

### F. Rəngləmə: Rəsm 4

Növbəti fəaliyyət kimi uşaqlara rəngləmələri üçün Rəsm 4-ün surətlərini adi qaydada paylaya bilərsiniz.

### G. Bağlanış duaları

Həmişə olduğu kimi, sitat və dualar oxunarkən uşaqlardan sakit oturmalarını xahiş edərək dərsi yekunlaşdırın.

## DƏRS 5

### A. Duaların oxunması və əzbərlənməsi

Bu və sonrakı üç dərs üçün dərsə əzbər bildiyiniz başqa bir duanı oxumaqla başlamalısınız və bu məqsədlə Bölmə 6-da bir dua təklif olunur. Uşaqlardan bir neçəsi açılış dualarını oxumaq üçün sizə qoşulduqdan sonra, onlara əzbərləmələri üçün aşağıda göstərilən duanı təqdim edə bilərsiniz. Onların hamısının bu dərsdə duanın heç olmasa bir hissəsini öyrənə biləcəyi və Dərs 8-ə qədər tam əzbərdən oxuya biləcəyi gözlənilir.

**“Ey Allah, mənə yol göstər, məni qoru, məni şölə saçan bir çıraq və parlaq bir ulduz et. Sən Qüdrətli və Qüvvətlisən”.**[103]

**B. Mahnılar**

Bu dərsdə uşaqlara aşağıdakı mahnını öyrətməkdən əlavə siz əvvəlki dərslərdə öyrəndikləri mahnıları da onlarla birlikdə oxuya bilərsiniz.

Səxavət Fəvvarəsi

C
Fəvvarə kimi ol, bulaq kimi ol
C G
Həmişə çağla
F C
Həqiqətən belə etsən
Dm7 G7 C
Xoşbəxt olarsan
F C
Qəlbini hər gün ara
D7 G7
Verə biləcəyin nələrsə varsa

Xoşbəxtlik olsun
Sənin məqsədin
Ürəyini, könlünü ver
Bu doğrudur əgər sən
Belə etsən Allah da
Daim səninlə olar
Qəlbini hər gün ara
Verə biləcəyin nələrsə varsa

Xoşbəxtlik olsun
Sənin məqsədin
Ürəyini, könlünü ver
Bu doğrudur əgər sən
Belə etsən Allah da
Daim səninlə olar

**C. Sitatların əzbərlənməsi**

Aşağıdakı fikirlər dərsin mövzusunu və uşaqların əzbərləyəcəyi sitatı təqdim etməkdə sizə kömək edəcək:

Allah Öz yaratdıqlarına qarşı çox səxavətlidir. Bitkilərə yağış yağdırır, heyvanlara və insanlara qida və yemək verir. O bizim hamımızın qayğısına qalır. O bizə çoxlu bəxşişlər verib: dağları, çayları, ulduzları və ətrafımızdakı bütün gözəllikləri görən gözlər; xoşavazlı mahnıları, quşların cikkiltisini, valideynlərimizin tövsiyələrini və Allahın Kəlamını eşidən qulaq. Bizə vasitəsilə kainatın sirlərini öyrənə biləcəyimiz zəkanı verdi və hər şeydən əvvəl Onu tanıyıb sevə biləcəyimiz mənəvi gücləri verdi. Allah bizə qarşı səxavətli olduğu kimi bizim də bir-birimizə qarşı səxavətli

olmağımızı istəyir. Biz malik olduğumuz şeyləri – yeməklərimizi, mallarımızı, zamanımızı, biliklərimizi – köməyimizə ehtiyacı olan kəslərə verməliyik. Sevgimizi, sevincimizi və evdə və məktəbdə öyrəndiyimiz yaxşı şeyləri bölüşməliyik. Səxavətli olmaq səylərimizdə bizə kömək etməsi üçün Həzrət Bəhaullahın Allahın səxavətini xatırladan bu sitatını əzbərləyək:

**“Əliaçıq və səxavətli olmaq Mənim sifətlərimdir; xoş o kəsin halına ki, özünü Mənim fəzilətlərimlə bəzəyir”.**[104]

*Səxavətlilik*

1. Ram və Raciş bir qədər pul yığmışdılar. Onlar kiçik bacı və qardaşları üçün bəzi kitablar almaq qərarına gəldilər. Ram və Raciş səxavətlidirlər.

2. Xanım Mörfi bütün səhərini piroq bişirməyə sərf etdi. Piroqları şəhərə satmağa aparmazdan əvvəl o, iki böyük piroqu qonşularına verdi. Xanım Mörfi səxavətlidir.

*Sifət*

1. Daş çox möhkəmdir. Möhkəmlik daşın sifətidir.

2. “Sifətlərindən biri çalışqanlığındır” müəllim Çarlinə dedi.

*Bəzəmək*

1. Bu axşam icma mərkəzində dua yığıncağı var. Uşaqlar görüş otağına qoymaq üçün çiçək topladılar. Görüş otağı güllərlə bəzənib.

2. Li Fenqin gözəl təbəssümü var. Çox vaxt onun üzünü bu təbəssüm bəzəyir.

**D. Hekayə**

Bu dərsdə uşaqlara səxavət konsepsiyası üzərində düşünməkdə kömək edəcək aşağıdakı hekayəni danışacaqsınız:

*Bir gün Həzrət Bəhaullahın qoyunlarına görə cavabdeh olan şəxs Həzrət Əbdül-Bəhanı bir gününü Onun qoyunlarını otaran çobanlar ilə kənddə keçirməyə dəvət etdi. O vaxt Həzrət Əbdül-Bəha uşaq idi və Həzrət Bəhaullah və Onun ailəsi hələ ki sevimli vətənlərini tərk etməyə məcbur edilməmişdilər. Həmin vaxt Həzrət Bəhaullahın dağlarda böyük torpaqları və çoxlu qoyun sürüləri var idi. Anasının razılığı ilə Həzrət Əbdül-Bəha çobanlara qoşuldu və onların müşayiəti ilə gözəl bir gün keçirdi, onlarla birlikdə oxudu, oynadı və gözəl ziyafət hazırlandı. Gün sona çatıb Həzrət Əbdül-Bəha geri qayıtmağa hazırlaşarkən çobanların hamısı Onun ətrafına toplaşdı və vida nitqi söylədilər. Həzrət Əbdül-Bəhanı müşayiət edən şəxs Ona dedi ki, torpağı və qoyun sürüləri olan şəxslərin hədiyyələr verməsi adətdir. Həzrət Əbdül-Bəha bir qədər sükut etdi. Onun onlara bağışlamağa bir şeyi yox idi, amma həmin şəxs təkid etdi ki, çobanların bir gözləntiləri var. Birdən Həzrət Əbdül-Bəhanın ağlına bir fikir gəldi: O, çobanlara otardıqları qoyunlardan bir neçəsini verəcəkdi. Həzrət Bəhaullah Həzrət Əbdül-Bəhanın çobanlara qarşı səxavətli münasibətini eşidəndə çox məmnun oldu. O, zarafatla qeyd etdi ki, adamlar gərək Həzrət Əbdül-Bəhanın qayğısına qalsınlar, çünki bir gün O Özünü bağışlaya bilər. Əlbəttə, Həzrət Əbdül-Bəha ömrünün qalan hissəsində məhz bunu etdi. O, malik*

*olduğu hər şeyi və Öz həyatının hər anını bəşəriyyətə, bizi birləşdirməyə və bizə həqiqi səadət gətirməyə həsr etdi".*

**E. Oyun: "Əkizlər"**

Hekayə danışmağa həsr olunan müddətdən sonra uşaqlar həmişə olduğu kimi bir oyun oynayacaqlar. Eyni boyda olan uşaqların birlikdə işləməsinə mümkün qədər çox fikir verməklə onları cütlərə bölün. Hər bir cütdən kürək-kürəyə durub aşağı çöməlmələrini xahiş edin. Sonra onlara deyin ki, qollarını dirsəkdən çarpazlaşdırıb ayağa qalxmağa cəhd etsinlər. Uğur qazandıqdan sonra, üç-dörd uşaqdan ibarət qruplarla eyni şeyi etməyə çalışın.

**F. Rəngləmə: Rəsm 5**

Son fəaliyyət olaraq siz Rəsm 5-in nüsxələrini rəngləmək üçün uşaqlara paylaya bilərsiniz.

**G. Bağlanış duaları**

Dərs adəti üzrə sizin və bir neçə uşağın dualar və sitatlar oxumaları ilə yekunlaşır.

# DƏRS 6

**A. Duaların oxunması və əzbərlənməsi**

Siz və bir neçə şagird açılış dualarını oxuduqdan sonra, uşaqların Dərs 5-də təqdim olunan duanı öyrənməyə davam etmələrinə kömək edə bilərsiniz.

**B. Mahnılar**

Növbəti fəaliyyət olaraq uşaqlara dərsin mövzusu ilə əlaqəli aşağıdakı mahnını oxumağı öyrədin. Onlar, həmçinin xoşladıqları başqa bir neçə mahnını da oxuya bilərlər.

Qardaşını Üstün Tut

C G/B Am7 C
Mən susuzam, mən susuzam
Dm G C Am7
Lakin əvvəlcə qardaşım var
F Em Dm C
Mən suyu ona verərəm
Dm G C
Onun susuzluğu yatar

Xor:

F G C Am
Qardaşı üstün tutmaq
F G C Am
Bu, böyük bir nemətdir

F G C Am
Bu ona sənin qayğının
F G C Am
Yaxşı bir ifadəsidir

F G C Am
Bacını üstün tutmaq
F G C Am
Bu, böyük bir nemətdir
F G C
Bölüşdükcə bil ki sən
F G C
Daha da zənginləşirsən

Mən acmışam, mən acmışam,
Axı bacım da acmışdır
Öz payımdan ona versəm,
Bu yol ən yaxşısıdır.

Xor

**C. Sitatların əzbərlənməsi:**

Bu dərsdə uşaqlar Həzrət Bəhaullahın Yazılarından bizi fədakarlığa səsləyən bir sitat öyrənəcəklər. Siz bu mövzunu aşağıdakı tərzdə təqdim edə bilərsiniz:

> Allah bizim hər birimizi sevir və O, insan qəlbini Onu tanıyaq və sevək deyə yaratmışdır. Qəlblərimiz pak olduqda biz Allahın əlamətlərini Onun yaratdıqlarında görə bilərik. Onun səxavətini, xeyirxahlığını və mərhəmətini görürük. Biz Allaha məhəbbətimizlə ətrafımızdakı bütün insanlara – valideynlərimizə, qardaşlarımıza, dostlarımıza və qonşularımıza – sevinc və xoşbəxtlik gətirmək istəyirik. Məhəbbətimiz o qədər böyükdür ki, bizi ən çox sevindirən şey başqalarına sevinc bəxş etmək və onların rahatlığını özümüzün rahatlığından üstün tutmaqdır. Odur ki, biz özümüz haqqında düşünməzdən əvvəl yoldaşlarımız olan insanlar haqqında düşünürük. Gəlin Həzrət Bəhaullahın aşağıdakı kəlamını əzbərləyək:
>
> **“Mübarəkdir o kəs ki, qardaşını özündən üstün tutur”.**[105]

*Mübarək*

1. Ameliyanın anası ondan mağazaya getməsini və beş şey almasını istədi. O, bir siyahı tutmadı, ancaq heç birini unutmadan hamısını satın almağı bacardı. Allah Ameliyaya yaxşı yaddaş əta etməklə onu mübarək etmişdir.

2. Viktorun ailə üzvləri hər səhər evlərində dua oxuyurlar. Viktorun ailəsinin evi Allahın yada salındığı yer olduğuna görə mübarəkdir.

*Üstün tutmaq*

1. Anuşkanın nənəsi həm nanəli çayı, həm də limonlu çayı sevir, amma seçmək imkanı olduqda nanəli çayı seçir. O, nanəli çaya üstünlük verir.

2. Vesna çölə çıxıb oynaya və ya bağdakı atasına kömək edə bilər. O, bağda atasına kömək etmək qərarına gəlir. Vesna atasına kömək etməyi üstün tutur.

**D. Hekayə**

Aşağıdakı hekayə Həzrət Əbdül-Bəhanın həm sözü, həm də əməli ilə bizə fədakarlıq yollarını necə göstərdiyindən bəhs edir:

> *Həzrət Əbdül-Bəha həmişə Özü üçün ucuz geyimlərə üstünlük verirdi. Onun üçün daha vacib olan səliqəli və təmiz olmaq idi. Artıq paltarı olanda O, həmişə bu paltarları başqalarına verərdi. O, bir gün Əkka Valisinin təşkil etdiyi qəbula gedəcəkdi. Onun həyat yoldaşı hiss etdi ki, Onun əbası belə bir xüsusi tədbir üçün elə də yaxşı deyil. Qəbul vaxtından xeyli əvvəl o, dərzinin yanına getdi və Həzrət Əbdül-Bəha üçün yaxşı bir əba sifariş verdi. Valinin qəbuluna getmək günü gəlib çatanda yeni əbanı ortaya qoydular, amma Həzrət Əbdül-Bəha Öz köhnə əbasını axtarmağa başladı. Belə bahalı bir əba necə Onun əbası ola bilərdi? Həmin qiymətə beş adi əba sifariş vermək mümkün idi. Həzrət Əbdül-Bəha həyat yoldaşına dedi: "Onda sən görərdin ki, Mənim sadəcə bir ədəd təzə əbam olmayacaq, dörd yeni əbam daha olacaq ki, Mən də onları başqalarına verə biləcəyəm!"*

**E. Oyun: "İlbiz"**

Növbəti fəaliyyət üçün uşaqlara ilbiz olacaqlarını deyin. Uğur qazanmaq üçün bir sırada durmalı, əl-ələ tutmalı və ayrılmamalıdırlar. Bir ucdakı insan mərkəz olmalı və o, hərəkətsiz dayanmalıdır. Digər ucdakı uşaq, mərkəzdəki uşağın ətrafında dolanmaq üçün xəttdəki hər kəsə rəhbərlik etməlidir. Bir ilbiz formalaşdırmaq üçün onlar özlərini yavaş-yavaş spiral formasına salmalıdırlar.

Yuxarıdakı oyuna alternativ olaraq uşaqlara deyin ki, yenidən sıraya düzülsünlər və əl-ələ tutsunlar. Sonra sıranın bir ucunda olan uşaqdan yerində dövrə vurmasını və qalanlarının isə onun ətrafına yavaşca spiral kimi burulmasını istəyin. Bunu edərkən onların bir-birinin ayağını tapdalamamaları üçün diqqətli olduqlarından əmin olun.

Əgər vaxt imkan verərsə, uşaqlar ilbiz əmələ gətirdikdən sonra ortada olanlara yerə çöməlmələrini deyin və mərkəzdə olan uşaqdan öz yanında olan uşağın qolları altından keçməsini, digər uşaqların da qollarının altından keçərək ilbizdən kənara çıxmasını istəyin. Digər uşaqlar da bir-birlərinin əllərini buraxmadan onun etdiyini təkrarlayırlar, o vaxtadək ki, onların hamısı ilbizdən çıxır və yenidən düzlənirlər. Aydındır ki, bu oyunun baş tutması üçün sinifdə kifayət edən sayda uşaq olmalıdır.

**F. Rəngləmə: Rəsm 6**

**G. Bağlanış duaları**

## DƏRS 7

**A. Duaların oxunması və əzbərlənməsi**

Siz özünüz və uşaqlardan bir neçəsi açılış dualarını oxuduqdan sonra uşaqların Dərs 5-də əzbərləməyə başladıqları duanı nəzərdən keçirə bilərsiniz.

**B. Mahnılar (əvvəlki mahnıları da təkrar etməklə)**

```
  D    A          D           G         D
Sevinc bizə qanad... qanad verir
  D    A          D            A      D
Sevinc bizə qanad... qanad verir

    A                       D
Sevincli olanda daha güclü oluruq
    A                  D
Sevincli olanda ağlımız itiləşir
    A                            D
Sevincli olanda dərkimiz aydınlanır
  D    A          D         A         D
Sevinc bizə qanad... qanad verir

  Dm         A7       Dm            A7     Dm
Amma kədərli olanda biz, kədərli olanda biz
  A            Dm       A        Dm
Zəif oluruq, gücümüz çəkilir
     A         Dm        A   Dm
İçimiz tutqun, fikrimiz boz olur
A7
Amma ki
```

Sevinc bizə qanad... qanad verir
Sevinc bizə qanad... qanad verir

Sevincli olanda daha güclü oluruq
Sevincli olanda ağlımız itiləşir
Sevincli olanda dərkimiz aydınlanır
Sevinc bizə qanad... qanad verir

**C. Sitatların əzbərlənməsi**

Uşaqların bu dərsdə əzbərləyəcəkləri, sevinc mövzusu üzərində fokuslanmış sitatı təqdim etməkdə aşağıdakılar sizə kömək edəcəkdir:

> Həzrət Əbdül-Bəha bizə buyurur ki, sevinc bizə qanad verir, biz sevinəndə daha güclü oluruq, xoşbəxt olanda biz daha tez dərk edirik. Sevinc insan qəlbinin bir keyfiyyətidir. Qəlblərimiz sevinclə dolu olanda biz hər yerdə Allahın xeyir-bərəkətlərini – bizi sevən valideynlərin, dostluğun xeyir-bərəkətlərini və hər şeydən əvvəl Onu tanımağın və Onu sevməyin xeyir-bərəkətini – görürük. Biz bütün şərtlər altında xoşbəxt və sevincli olmalıyıq və başqalarına sevinc bəxş etmək üçün əlimizdən gələni etməliyik. Həzrət Əbdül-Bəhanın arzusu bu idi ki, bütün uşaqlar hər

tərəfə sevinc işığı saçaraq parlaq şamlar kimi olsunlar. Bizim daim sevincli olmağı yadda saxlamağımıza kömək etməsi üçün gəlin bu sitatı əzbərləyək:

**“Ey İnsan Oğlu! Ürəyinin şadlığı ilə sevin ki, Mənimlə görüşməyə layiq və gözəlliyimə ayna olasan”.**[106]

*Fərəhlənmək*

1. Ronald nənə və babasından uzaqda yaşayırdı. Məktəb tətilində onları ziyarət edəcəyini eşidəndə o, çox şad oldu. Onun ürəyi fərəhləndi.

2. Müjgan anası və atasına bağçalarında xiyar toxumu əkməkdə kömək etdi. İlk kiçik xiyarlar yetişməyə başlayanda onun ürəyi fərəhləndi.

*Layiq olmaq*

1. Siyona səylə çalışdı və əla qiymətlər aldı. Müəllim çalışqanlığına görə onu təriflədi. Siyonanın çalışqanlığı müəlliminin tərifinə layiq idi.

2. Deyvid həmişə qardaş və bacılarının qayğısına yaxşı qalırdı. Onun valideynləri bilirdilər ki, uşaqları ona etibar edə bilərlər. Deyvid valideynlərinin etibarına layiq idi.

*Əks etdirmək*

1. Amari tapdığı daşı parlaq oluncayadək o qədər cilaladı ki, o, işığı əks etdirməyə başladı.

2. Xalis güzgü olan qəlblər Allahın sifətlərini əks etdirir.

*Gözəllik*

1. İlananın anası göydə uçan quşları, çiçək açan gülləri və okean dalğalarının sahilə vurmasını görməkdən ləzzət alır. O, təbiətdəki gözəlliyi görür.

2. Bəzən bir mahnının gözəlliyi qəlblərimizə o qədər toxunur ki, o, gözümüzə yaş gətirir.

3. Münir nə vaxt dua etsə, Allahın gözəlliyini, sevgisini, səxavətini və hikmətini xatırlayır.

**D. Hekayə**

Aşağıdakı hekayə uşaqlara Həzrət Əbdül-Bəhanın ətrafında olanların qəlblərinə necə sevinc gətirdiyini aydın göstərir.

*Leroy Yoas görkəmli bir bəhai idi və yəqin ki, siz böyüdükcə onun haqqında daha çox şeylər öyrənəcəksiniz. Həzrət Əbdül-Bəha 1912-ci ildə Çikaqoya səfər edəndə, o, gənc oğlan idi. Bu ruhani uşağın Həzrət Əbdül-Bəhanın hüzurunda olmaq fürsətindən nə qədər həyəcanlandığını təsəvvür edə bilirsinizmi? Bir gün atası və Leroy Həzrət Əbdül-Bəhanın qaldığı mehmanxanaya gedərkən onun ağlına bir fikir gəldi: o, qərara gəldi ki, Həzrət Əbdül-Bəhaya çiçək aparmaq istəyir. Əlində olan az pulla o, bəyaz qərənfillərdən ibarət gözəl bir buket ala bildi. Lakin mehmanxanaya çatanda o, fikrini dəyişdi. O, qərara aldı ki, Həzrət Əbdül-Bəhaya maddi olan heç bir şey verməsin, hətta gözəl çiçəklər belə. O Ona ürəyini verəcəkdi. Bu onun hədiyyə vermək*

*üçün malik olduğu ən mühüm şey idi. Beləliklə, Leroyun atası çiçəkləri Həzrət Əbdül-Bəhaya təqdim etdi və onları kimin gətirdiyini demədi.*

*Sonra Həzrət Əbdül-Bəha Onunla görüşmək üçün mehmanxanaya toplaşmış dostların qarşısında çıxış etdi. O danışarkən Leroy Onun ayaqlarının dibində sakitcə oturaraq Onun müdrik və sevgi dolu sözlərinə qulaq asırdı. Bir qədər keçdikdən sonra Həzrət Əbdül-Bəha ayağa qalxdı, qonaqların əlini sıxdı və hər birinə məhəbbətinin əlaməti olaraq bir bəyaz qərənfil verdi. Leroy indi Həzrət Əbdül-Bəhanın arxasında dayanmışdı. "Ah! Kaş ki, O dönəydi və bu çiçəklərdən birini də mənə verəydi" gənc oğlanın fikrindən keçdi. Bəlkə də qəlbinin dərinliyində o, istəyirdi ki, Həzrət Əbdül-Bəha bu gözəl çiçəkləri Ona kimin gətirdiyini bilsin. Lakin bəyaz qərənfillər bir-bir başqa adamlara təqdim olunurdu, belə görünürdü ki, Leroya onlardan bir dənəsi də çatmayacaq. Bu zaman Həzrət Əbdül-Bəha qəfildən geri döndü və nəzərini Leroy Yoasa dikdi. Onun üzündən nur saçılırdı, gözləri isə mehribanlıqla dolu idi. O ona bəyaz qərənfil verdimi? Xeyr! Həzrət Əbdül-Bəha Leroya daha qiymətli bir şey bağışladı. O, əbasında gözəl bir qırmızı qızılgül gəzdirirdi. O, qızılgülü çıxardı və gənc oğlana təqdim etdi. Leroyun ürəyi şadlıqdan atlandı. Axı Həzrət Əbdül-Bəha bəyaz qərənfilləri kimin gətirdiyini bilirdi.*

**E. Oyun: "Əjdahanın Quyruğunu Tutmaq"**

Növbəti fəaliyyətə başlamaq üçün uşaqlardan sıraya düzlənib əllərini qarşılarında duran uşağın çiyninə və ya belinə qoymalarını rica edin. Sıradakı birinci uşaq əjdahanın başıdır. Sondakı uşaq isə başdan qaçmağa can atan və sağa-sola çırpılan quyruğudur. "Başla" komandası verilənə qədər əjdahanın sırası düz qalmalıdır. Uşaqlardan biri sayır: "Bir, iki, üç, başla!" "Başla" komandası verilən kimi baş o tərəfə, bu tərəfə dönür və çalışır ki, quyruğu tutsun. Bütün bədən başla birlikdə dönməli və qırılmamalıdır. Əgər baş quyruğa toxuna bilsə və ya quyruğa toxunmazdan əvvəl bədən qırılsa, baş quyruq olur və sıradakı növbəti uşaq baş yerini tutur. Oyun o vaxtadək davam edir ki, hər bir uşağın ən azı bir dəfə baş və quyruq olmaq şansı olsun.

**F. Rəngləmə: Rəsm 7**

**G. Bağlanış duaları**

# DƏRS 8

**A. Duaların oxunması və əzbərlənməsi**

Əzbər bildiyiniz bir duanı söyləməklə ənənəvi qaydada dərsi açın, sonra isə əvvəlcədən seçilmiş uşaqların bəzilərindən dua oxumağı xahiş edin. Daha sonra uşaqlarla birlikdə Dərs 5-də öyrənməyə başladıqları duanı nəzərdən keçirə bilərsiniz.

**B. Mahnılar (əvvəlki mahnıları da təkrar etməklə)**

Hər Zaman

Xor:

E A<br>
Biz hər zaman təzahür etdirməliyik<br>
B E A B<br>
Doğruluğumuzu və səmimiyyətimizi

E A<br>
Biz hər zaman təzahür etdirməliyik<br>
B E A B<br>
Doğruluğumuzu və səmimiyyətimizi *(təkrar)*

E A B<br>
Danışanda ürəyimin dərinindən paylaşıram<br>
E A B<br>
Qoyuram ki, xoş və doğru sözlər sənətim olsun<br>
E A B<br>
Ah necə bir xəzinədir səmimiyyət<br>
A E B E<br>
Dürüstlük və saflığın gözəl bir qarışığı<br>
A E B E A E<br>
Ah necə bir xəzinədir səmimiyyət

Xidmət edəndə ürəyimin dərinindən verirəm<br>
Düşüncələrimi təmizləyir, başlamazdan əvvəl dua edirəm<br>
Bu şəkildə hərəkətlərim əsl birlik yarada bilər<br>
Ah necə bir xəzinədir səmimiyyət<br>
Ah necə bir xəzinədir səmimiyyət

Dua edəndə ürəkdən dua edirəm<br>
Gözlərimi yumuram, Allahı düşünürəm<br>
İstəyimi düşünmürəm, ehtiyacımı düşünmürəm<br>
Səmimiyyətin əməllərimdə necə parlaya biləcəyini düşünürəm<br>
Ah necə bir xəzinədir səmimiyyət

Xor *(iki dəfə təkrarlayın)*

**C. Sitatların əzbərlənməsi**

Uşaqların bu gün əzbərləyəcəkləri sitatı təqdim edərkən siz dərsin mövzusu ilə bağlı olan aşağıdakı ideyalardan istifadə edə bilərsiniz:

> Sözlərimiz və əməllərimiz ürəyimizdə olanları əks etdirəndə biz səmimiyyət keyfiyyətini göstərmiş oluruq. Səmimiyyət başqaları ilə münasibətdə bizi doğruçu və vəfalı olmağa ruhlandırır. Məsələn, biz etdiyimiz hər hansı bir şey üçün üzr istəyəndə ürəyimizdə deyirik ki, hər cür səy göstərəcəyik ki, səhvlərimizi təkrar etməyək. Məhz səmimiyyətimiz sayəsində başqaları bizim ürəyimizin paklığını görə və bizə etibar edə bilər. Bu keyfiyyətin əhəmiyyətini yadda saxlamağımıza kömək etməsi üçün biz Həzrət Əbdül-Bəhanın aşağıdakı sitatını əzbərləyəcəyik:

**"Biz hər zaman öz düzlüyümüzü və səmimiyyətimizi təzahür etdirməliyik . . ."[107]**

*Təzahür etdirmək*

1. Kisaba çimərlikdə tapdığı balıqqulağını palçıqdan təmizlədi və hamar və parlaq olana qədər onu sürtdü. Bu işi bitirdikdə balıqqulağının həqiqi gözəlliyi təzahür etdi.

2. Günəş çıxdıqca və səhərin dumanı çəkildikcə dağların əzəməti təzahür etdi.

*Səmimiyyət*

1. Leonun sinif yoldaşları dərs oxumaq əvəzinə çox vaxt oyunlar oynayırlar. Leo narahat olurdu ki, onlar məktəbdə müvəffəqiyyət qazanmayacaqlar, ona görə də təklif etdi ki, hamısı birlikdə dərslərini öyrənsinlər və o, öyrənməkdə bir-birlərinə kömək etmələrinin yollarını axtarmağa çalışır. Leonun sinif yoldaşları üçün narahatlığı səmimidir.

2. Roza anasına söz verdi ki, ev tapşırıqlarını hər gün edəcək. Onun valideynləri evdə olmayanda Roza ev tapşırıqları üzərində səylə işləyir. Roza öz vədində səmimidir.

**D. Hekayə**

Bu dərsdə uşaqlara danışdığınız hekayə, səmimiyyət keyfiyyətinə malik olmağın nə demək olduğunu və onun nə zaman çatışmadığını anlamalarına kömək edəcəkdir.

*Bir neçə uşağı olan bir ailəyə məxsus bir evin arxasında uzun illərdir iri bir ağac var idi. Ağac böyüdükcə və qol-budaq atdıqca evin arxa tərəfinə kölgə salırdı. Bir qış səhəri ata ağacın altından keçərkən qonşusunu gördü. Onlar kənddə olub keçənlər haqqında qısaca bir söhbət etdilər. Bir qədər sonra bu iri ağaca işarə edərək qonşu dedi: "Bilirsən, bu həddən artıq nəhəng ağacı artıq kəsməyin vaxtıdır. Bu, çox böyüyüb və hər yeri tutub. Budaqlardan biri qırılsa və sənin evinin damına düşsə, ya ondan da pisi, uşaqların onun kölgəsində oynayanda onlardan birinin üstünə düşsə bəs nə edəcəksən?" Onlar ayrıldıqdan sonra kişi qonşunun məsləhəti barədə fikirləşdi. Bu ağac onun yadına gəlməyən vaxtlardan bəri burada dururdu və indiyə kimi heç bir ziyan verməmişdi. Yayda yaxşıca kölgə salır, qışda isə evi şiddətli küləklərdən qoruyurdu. O, möhkəm və güclü görünürdü. "Amma yenə də, bəlkə qonşunun da sözündə bir həqiqət var," – kişi öz-özünə fikirləşdi. "Görünüş bəzən aldadıcı ola bilər. Əgər ağac göründüyü kimi möhkəm olmasa, onda necə?" Beləliklə, o, qərara gəldi ki, ağacı kəssin.*

*Bu, çətin bir iş idi, çünki ağac çox böyük idi, çoxlu qolları və budaqları vardı, bəziləri isə çox hündür idi. Kişi bu işi elə yenicə bitirmişdi ki, qonşu da gəlib çıxdı, bu dəfə onun yanında iki oğlu və arabası da var idi. "Görürəm ki, ağacı kəsmək qərarına gəldin," – yerdəki çoxlu odun parçalarına baxaraq qonşu dedi. "Zənn edirəm ki, bu qədər odun parçalarını buradan götürməkdə sənə kiminsə köməyi lazım olacaq. Biz sənə kömək edə bilərik. Mən iki oğlumu və arabamı da gətirmişəm və biz bunların hamısını sənin həyətindən çıxarmağa şad olarıq". Oğlanlar cavab gözləmədən ağac parçalarını arabaya yükləməyə başladılar. Onlar arabanı doldurub gedəndən sonra kişi illər boyu onun evinə kölgə salmış ağacın kötüyü üzərində oturdu. Onda başa düşdü ki, qonşusunu əslində onun ailəsinin təhlükəsizliyi deyil, bütün qış ayları boyunca onun evini isti saxlamaq üçün odun əldə etmək maraqlandırırmış."Görünüş doğrudan da bəzən aldadıcı ola bilər" – deyərək kişi köksünü ötürdü. O gün ailənin*

*gözəl ağacını itirməsi olduqca kədərlidir. Ancaq daha kədərlisi budur ki, qonşu dostunun etibarını və Allahın razılığını qazanma fürsətini itirdi.*

**E. Oyun: "İsti, yoxsa Soyuq"**

Uşaqlardan birinin gözünü bağlayın və ondan xahiş edin ki, üzünü qrupun əksi olan tərəfə döndərsin. Qalan uşaqlar kiçik bir əşyanı, məsələn, qələmi və ya karandaşı gizlətdikdən sonra onun gözlərini açırlar və gizlədilən əşyanı tapmasını istəyirlər. Uşaq əşyaya yaxınlaşdıqca digərləri daha da ucadan əl çalaraq ona kömək etməlidirlər. O, əşyanın olduğu yerdən uzaqlaşdığı təqdirdə isə uşaqların əl çalmaları zəifləyir və daha səssiz olur. Axtaran uşaq əşyaya yaxınlaşdıqca digər uşaqlar əl çalmaq yerinə, "ılıq", "isti", "qaynar" deyə səslənə də bilərlər. Uşaq gizlədilmiş əşyadan uzaqlaşdıqda isə onlar "soyuq", "daha soyuq", "dondurucu" deyə qışqırırlar. Uşaqlar çalışmalıdırlar ki, axtarış aparan uşağı çaşdırmasınlar; əks halda o, digər uşaqlara etibar etməyəcək və oyunun mənası itəcək.

**F. Rəngləmə: Rəsm 8**

**G. Bağlanış duaları**

# DƏRS 9

**A. Duaların oxunması və əzbərlənməsi**

Bu və növbəti üç dərsə başlamaq üçün Bölmə 10-da təklif olunan dua kimi əzbərdən oxumaq üçün bir dua seçin. Bir neçə şagird açılış dualarında sizə qoşula bilər, bundan sonra əzbərləmələri üçün aşağıdakı duanı təqdim edə bilərsiniz. Bu dua uşaqların əzbərlədikləri əvvəlki iki duadan daha uzundur, lakin bunu qavramaq onlar üçün çətin olmayacaq və onların hamısı Dərs 12-yə qədər bunu yadda saxlaya biləcəklər.

> **"Mübarəkdir o yer, o ev, o məskən, o şəhər, o ürək, o dağ, o sığınacaq, o mağara, o vadi, o torpaq, o dəniz, o ada və o çəmən ki, orada Allah xatırlanıb və Onun tərifi ucaldılıb".[108]**

**B. Mahnılar (əvvəlki mahnıları da təkrar etməklə)**

Dünya Kimi Ol

C G
Dünyaya bax
F G C
Necə təvazökardır
C G
Allahın bütün nemətləri ondadır
F G C
Bizə lazım olan hər şey ondadır
C G
Bizə imkan verir ki, onun üstündə gəzək

F G C
Heç vaxt duymadıq desin:
C G
“Mən sizdən daha böyük
F G C
Daha zənginəm”

Ağaca bax
Necə təvazökardır
Meyvəsi bol olduqca
Başını yerə dikir
Beləcə insanlarla o
Bəhrəsini bölüşür
Heç vaxt duymadıq desin:
“Mən sizdən daha böyük
Daha zənginəm”

C G
Dünya kimi olun
F G C
Ağac kimi olun
C G
Təvazö qanadında
F G C
Şərəf göyünə qalxın
C G
Təvazö qanadında
F G C
Şərəf göyünə qalxın

**C. Sitatların əzbərlənməsi:**

Aşağıdakı fikirlər sizə bugünkü dərsin mövzusunu və sitatı əzbərləmək üçün uşaqlara təqdim etməkdə kömək edəcək.

> Ən vacib ruhani keyfiyyətlərdən biri təvazökarlıqdır. Allahın qarşısında müti olanlar Allahın və Onun yaradılışının böyüklüyünü başa düşürlər. Onlar bilirlər ki, Onun köməyi və lütfü olmadan heç birimiz heç nəyə nail ola bilmərik. O, Hər Şeyə Qadirdir, Qüdrətlidir. Və necə ki, heç vaxt Allah qarşısında qürur göstərmərik, eləcə də Onun bütün yaratdıqları qarşısında təvazökar oluruq. Yerin və onun üzərindəki hər kəsin Onun tərəfindən yaradıldığı və Onun əlamət və xüsusiyyətlərini əks etdirdiyini unutmamalıyıq. Təbiətə hörmət edirik və bilirik ki, hər zaman ətrafdakılardan öyrənə biləcəyimiz nələrsə var. Gəlin aşağıdakı sitatı əzbərləyək:
>
> **“Ey İnsan Oğlu! Mənim qarşımda müti ol ki, lütfkarlıqla görüşünə gəlim”.**[109]

*Müti*

1. Zeynəb riyaziyyatdan çalışmalar üzərində səylə çalışır və həmişə müvəffəq olur. O, mütidir və heç vaxt nailiyyətlərindən lovğalanmır.

2. Yonq Funun qonşuluğundakı uşaqlar öyrənməyə çox həvəslidirlər və uşaqlar ondan xahiş ediblər ki, onlar üçün kiçik bir sinif qursun. Hərçənd onun təcrübəsi azdır və özünü buna layiq görmür, lakin o, Allaha inam bəsləyir və əlindən gələni edir. O bu işə müti yanaşır.

*Lütfkarlıqla*

1. Kandasın ailəsi bir neçə qonşusunu yemək üçün evlərinə dəvət edib. Qonaqlar gələndə Kandas onları salamlayır və lütfkarlıqla onlara sərin içki təklif edir.

2. Covanni yaşlı qonşusunun baqqal çantaları ilə evə getməkdə çətinlik çəkdiyini gördü, beləcə lütfkarlıqla onun üçün çantalarını aparmağı təklif etdi.

**D. Hekayə**

*Təvazökarlıq Həzrət Əbdül-Bəhanın ən nəzərəçarpan keyfiyyətlərindən biri idi. Çox insanlar Ona böyük titullar vermək istəyirdilər, amma O, istəyirdi ki, Ona sadəcə "Əbdül-Bəha" deyə müraciət etsinlər. Bu ad "Bəhanın Qulu" deməkdir. Onun ən atəşli istəyi xidmət etmək idi. Bir dəfə zəngin dostlardan bir neçəsi yeməkdən əvvəl Onun əllərini yumaq üçün müfəssəl bir plan qurdular. Onlar bir oğlanı xüsusi geyindirdilər ki, o, içərisində "şəffaf su" olan bəzəkli kasanı tutsun, onların həmçinin bir dənə də ətirli dəsmalları var idi. Həzrət Əbdül-Bəha bir qrup dostunun əlində su kasası və dəsmal olan o oğlanla çəmənlikdən keçib Ona tərəf gəldiklərini görəndə onların məqsədini başa düşdü. O, tez yaxınlıqda bir qədər su tapdı, əllərini yudu və bağbandan aldığı parça ilə əllərini quruladı. Sonra isə nəşəli şəkildə qonaqlara tərəf dönüb onları qarşıladı. Daha sonra Onun üçün nəzərdə tutulan şərəfi qonaqlarına bəxş edərək, onlara su və ətirli dəsmalı sevgi ilə təklif etdi!*

**E. Oyun: "Biz Bəzən Hündürük"**

Uşaqlardan birinin gözlərini bağlayın və qalanları isə onun ətrafında dairə yaratsınlar. Onlar bir ağızdan desinlər:

"Biz çox hündürük". (Onlar barmaqlarının ucuna qalxır və mümkün qədər özlərini dartırlar)
"Biz çox qısayıq". (Onlar aşağı çöməlir və mümkün qədər balacalaşırlar)
"Biz bəzən hündürük". (Onlar yenidən yuxarı dartılırlar)
"Biz bəzən qısayıq." (Onlar yenidən çöməlirlər)

İndi isə siz uşaqlara dartınmaq və ya çöməlmək üçün işarələrlə komandalar verin və onlar bir yerdə desinlər:

"Tap görək biz necəyik!"

Gözübağlı uşaq onların səslərinin səviyyəsinə uyğun olaraq onların "qısa" və ya "hündür" olduqlarını tapmalıdır. Növbə ilə hər bir uşağın gözləri bağlanmalıdır.

**F. Rəngləmə: Rəsm 9**

**G. Bağlanış duaları**

# DƏRS 10

### A. Duaların oxunması və əzbərlənməsi

Açılış dualarından sonra uşaqlar son dərsdə təqdim olunmuş duanı əzbərləməyə davam edə bilərlər.

### B. Mahnılar (əvvəlki mahnıları da təkrar etməklə)

Sənə Şükr və Tərif Deyirəm

C Am Em
Sənə şükr və tərif edirəm, ey Rəbbim
F G
Başıma qoyduğun
C Am
Lütf tacı üçün
F C
Hər an, hər bir zaman şükr etdikcə mən
G7 Am
Daim şəfəq saçacaq mərhəmət tacın
Dm G7 C
Sənə şükr və tərif edirəm, ey Rəbbim

Sənə şükr və tərif edirəm, ey Rəbbim
Qəlbimə saldığın məhəbbət və bilik üçün
Hər an, hər bir zaman şükr etdikcə mən
Onlar çoxalacaq, onlar artacaq
Sənə şükr və tərif edirəm, ey Rəbbim

Sənə şükr və tərif edirəm, ey Rəbbim
Gözümə nur verən həqiqət nuru üçün
Hər an, hər bir zaman şükr etdikcə mən
Sənin nemətlərinin yağdığını görəcəm
Sənə şükr və tərif edirəm, ey Rəbbim
Sənə şükr və tərif edirəm, ey Rəbbim

### C. Sitatların əzbərlənməsi

Əzbərləmək üçün yeni sitat şagirdlərə aşağıdakı tərzdə təqdim oluna bilər.

Ən kiçik hədiyyə alanda belə biz onu bizə verən insana təşəkkür edirik. Elə isə, saysız-hesabsız bəxşiş və lütfləri – bizi izləyən qayğıkeş gözlər, bizi sevən qəlblər və böyüməyimiz və inkişaf edə bilməyimiz üçün yaratdığı hər şey – üçün Allaha gör nə qədər minnətdar olmalıyıq. Həzrət Əbdül-Bəha bizə buyurur ki, Öz nemətlərini bizim üzərimizə yağdırdığı və bizim ürəklərimizi Onun məhəbbəti ilə doldurub daşırdığı üçün biz Allaha minnətdar olmalıyıq. Biz Allaha hər zaman, hətta ən çətin anlarda belə şükr etməliyik. Allaha şükr etmək bizi Onun sonsuz nemət və bərəkətlərindən daha çox almağa qabil edir. Gəlin aşağıdakı sitatı əzbərləyək:

**“Xoşbəxt və məmnun ol, qalx və Allaha şükr et ki, həmin şükranlıq bərəkətin artmasına kömək etsin”.**[110]

*Qalxmaq*

1. Səlma nənəsinin yataqdan qalxdığını və uzunmüddətli xəstəlikdən sonra gəzintiyə çıxdığını görəndə sevindi.

2. Uşaqlar dua etmək üçün hər səhər tezdən qalxırlar.

*Kömək etmək*

1. Nadya həmişə təmizkardır. O bilir ki, təmizkarlıq ruhani inkişaf üçün vacibdir. Təmizkarlıq ruhaniyyətə kömək edir.

2. Seffin ailə üzvləri bütün vacib məsələlərdə əməkdaşlıq edir və bir-birlərinə kömək edirlər. Əməkdaşlıq etdikləri üçün onlar harmoniya içərisində yaşayırlar. Əməkdaşlıq harmoniyaya kömək edir.

*Artmaq*

1. Keçən il Mariyanın məktəbində yalnız beş müəllim var idi. Bu il səkkiz müəllim var. Məktəbdə müəllim sayı üç nəfər artmışdır.

2. Şayan şad bir oğlandır və başqalarına kömək edə biləndə sevinci daha da artır. Onun sevinci başqalarına xidmət etdikdə artır.

**D. Hekayə:**

Bir gün Müqəddəs Torpaqda Həzrət Əbdül-Bəhanı görmək üçün çox uzaqlardan varlı bir xanım gəldi. Çox uzun müddət ərzində o, kiçik çətinliklərini bir-birinin ardınca Ona danışmağa başladı. Həzrət Əbdül-Bəha bir müddət onu səbir və mehribanlıqla dinlədi, sonda başqa bir görüş üçün ayrılmalı oldu. Ancaq qonağından ayrılmazdan əvvəl ona pəncərədən o tərəfdə gəzən bir alicənabı göstərdi. “Səninlə görüşdürmək istədiyim bir adam var” – dedi. “Adı Mirzə Heydər-Əlidir. O, yer üzündə gəzir, ancaq cənnətdə yaşayır” – Həzrət Əbdül-Bəha izah etdi. “O, çox çətinliklər yaşayıb və bunları sənə izah edəcəkdir”.

Mirzə Heydər-Əli həqiqətən çox çətinliklər görmüşdü. O, bəhailərə ədalətsizlik və böyük amansızlıqla yanaşılan İrandan idi. Onlardan bəziləri tutuldu və səhvən həbs edildi; digərləri nifrət və qəzəb dolu insanlar tərəfindən döyüldü. Mirzə Heydər-Əlinin həyatında çəkdiyi bütün əziyyətlər barədə eşitmək qəlblərinizi çox kədərləndirərdi.

İndi Həzrət Əbdül-Bəha, Mirzə Heydər-Əlini gətirmək və qonağı ilə görüşdürmək üçün bayıra çıxdı. Onu xanımla tanış etdikdən sonra Həzrət Əbdül-Bəha getdi. Bunun ardınca, Mirzə Heydər-Əli yaşadığımız ecazkar dövr və Allahın gələcək xeyir-bərəkətləri barəsində onunla böyük bir sevinc və təvazökarlıqla danışmağa başladı. Qonaq bir az dinlədi, sonra səbirsiz şəkildə onun sözünü kəsdi: “Amma Həzrət Əbdül-Bəha çətinliklərinizi mənə danışacağınızı dedi”. Mirzə Heydər-Əli təəccüblə başını qaldırdı. “Çətinliklər?” – deyə cavab verdi. “Xeyr, xanım, heç vaxt çətinlik çəkməmişəm. Çətinliklərin nə olduğunu bilmirəm”. Əlbəttə ki, Həzrət Əbdül-Bəha bilirdi ki, Mirzə Heydər-Əli böyük çətinliklər yaşasa da, bu çətinliklər onun xoşbəxtliyinə heç vaxt təsir etməyib və o, yalnız Allahın həyatda ona bəxş etdiyi xeyir-bərəkətləri görüb və minnətdar olub.

**E. Oyun: “Cəld İmpuls”**

Uşaqlardan xahiş edin ki, əl-ələ tutub dövrə yaratsınlar. Əvvəlcə sol əllərini, sonra da sağ əllərini sıxaraq məşq etmələrini istəyin. Daha sonra onlara izah edin ki, qrup vasitəsilə impuls siqnalları göndərməlidirlər. Uşaqlardan biri yanındakı uşağın əlini cəld sıxmaqla başlayır, o da bu siqnalı yanındakına ötürür və bu, impuls birinci uşağa qayıdana qədər davam edir. Uşaqlar üçün vaxt təyin olunmalı və getdikcə daha cəld olmaları tələb olunmalıdır. Uşaqlar bu sadə oyunu öyrəndikdən sonra impulsu əks tərəfə göndərmələrini və ya hər dəfə impuls göndərəndə “sıxmaların” sayını artırmalarını istəyə bilərsiniz.

**F. Rəngləmə: Rəsm 10**

**G. Bağlanış duaları**

# DƏRS 11

**A. Duaların oxunması və əzbərlənməsi**

Əzbərdən bir dua oxuyaraq və şagirdlərdən bir neçəsini də dua oxumağa dəvət edərək dərsi ənənəvi şəkildə açın. Daha sonra uşaqlara Dərs 9-da öyrənməyə başladıqları duanı əzbərləməyə davam etməkdə kömək edə bilərsiniz.

**B. Mahnılar (əvvəlki mahnıları da təkrar etməklə)**

Yaxşını Axtarmaq

C
Mən mükəmməlliyi hədəf qoymuşam
F7
Lakin gedəcəyim yol xeyli uzundur
C
Və mən bilirəm ki, bu yolda mənə
G7 C
Hər gün yaxşını görmək kömək edəcək
F7
Sənin bir səhvini görsəm əgər mən
C
Bu mahnıda bu barədə oxumaram
G7
Dostlara bu haqda söyləmərəm mən
F7 C
Hətta bunu bir daha düşünmərəm mən

Xor:
F7
Mən yalnız yaxşını görəcəm səndə
C
Mən yalnız yaxşını görəcəm səndə
G7
Mən bilirəm sən də bunu gözləyirsən

F7 C
Çünki mənim də səndən istədiyim budur
F7
Axı Allah da məndə yaxşıya baxır
C Am
Allah da məndə baxır yalnız yaxşıya
C G
Mən örtük olanda başqalarının kiçik səhvinə
F7
Ümid edirəm ki, Allah da onda
C G7 C
Örtük atacaq mənim səhvimə

Həzrət Əbdül-Bəha çox hikmətli idi
Gözündən oxuyurdu sənin qəlbini
Orada görəndə sənin səhvini
Bir yol tapardı ki, güclü etsin O səni
Mən də səndə olan səhvləri görsəm
Artıq bilirəm ki, nə edəcəyəm
Bunu başqasına deməyəcəyəm
Hətta özümə də söyləməyəcəm

Xor

**C. Sitatların əzbərlənməsi**

Aşağıdakı fikirləri şagirdlərinizlə bölüşərək dərsin mövzusunu və əzbərlənməli olan sitatı təqdim etməyiniz təklif olunur:

Bağışlamaq Allahın sifətlərindən biridir. Həzrət Əbdül-Bəha bizə deyir ki, biz bir-birimizə qarşı həmişə bağışlayıcı olmalıyıq. Biz bağışlayıcı gözlə baxmalı, başqalarının səhvlərinə göz yummalıyıq. Əgər biz Həzrət Əbdül-Bəhadan nümunə götürsək, biz yalnız dostlarımız səhv edəndə onlara deyil, həm də bizə qarşı lütfkar olmayanlara da bağışlayıcı gözlə baxacağıq. Gəlin bağışlayıcı olmaq səylərimizdə özümüzə kömək etmək üçün aşağıdakı sitatı əzbərləyək:

**“...qoy sizin bəzəyiniz bağışlayıcılıq, mərhəmət və Allahın sevimlilərinin ürəklərini sevindirən şeylər olsun”.**[111]

*Mərhəmət*

1. Yağış günlər boyu davam etdi. Hətta kəndi su basanda da yağış dayanmadı. Yağış heç bir mərhəmət göstərmədi.

2. Allaha dua etdiyimiz zaman O, səhvlərimizi bağışlayır. O bizə mərhəmət göstərir.

*Şadlandırmaq*

1. Ursula özünü yaxşı hiss etmirdi. Dostu Elsi ona çiçək gətirdi, xeyli müddət onun yanında oturdu, ona hekayələr danışdı, söhbət etdi. Elsinin ziyarəti Ursulanın əhvalını xeyli yaxşılaşdırdı. Ursula onun ziyarətindən şad oldu.

2. Xanım Sançes işləmək üçün yaxınlıqdakı şəhərə getmiş həyat yoldaşından uzun bir məktub aldı. Məktubda yaxşı bir xəbər vardı ki, o, tezliklə evə qayıdacaq. Bu xəbər onu xeyli şadlandırdı.

*Sevimli*

1. Müəllim bütün şagirdlərini sevirdi və hər birinə xüsusi diqqət ayırırdı. Onların hamısı onun üçün sevimli idi.

2. Ceyms məktəbdə bütün fənləri sevirdi, lakin o, təbiət elmlərində daha yaxşı idi. Təbiət elmləri onun ən sevimli fənləri idi.

**D. Hekayə**

*Həzrət Əbdül-Bəha Əkkada yaşadığı zaman burada bir hakim vardı və o, vaxtaşırı bəhailərə ziyan vurmaq istəyirdi. Bir dəfə o, bəhailərin qazanc yerlərini dağıtmaq üçün plan qurdu: mühafizəçilərinə bəhailərin hamısının dükanlarını bağlamağı və açarları ona gətirməyi əmr etdi. Lakin Həzrət Əbdül-Bəha hakimin planından xəbər tutdu və dostlara məsləhət gördü ki, sabah dükanlarını açmasınlar, səbr etsinlər görək Allah sabah nə əmr edəcək.*

*Mühafizəçiləri gəlib mağazalar açılmadığına görə onların açarlarını gətirə bilmədiklərini qeyd edəndə hakimin təəccübünü təsəvvür edin. Ancaq nə edəcəyini düşünməyə macal tapmamış gözlənilməz bir şey baş verdi. Yuxarı dairələrdən teleqram gəlmişdi və bildirilirdi ki, o, şəhərin hakimliyindən uzaqlaşdırılıb. Beləliklə, bəhailərin dükanları xilas oldu.*

*Artıq sabiq hakimə əmr olunmuşdu ki, Əkkanı tərk etsin və Dəməşq adlı başqa şəhərə getsin. Hakim nə edəcəyini bilmirdi. O, təcili olaraq təklikdə yola çıxmalı idi. Onun ailəsinə nə olacaqdı? Hökumətin gözündən düşmüş bir kəsə kim kömək edərdi? Ağa bu xəbəri eşitdi və onu görməyə getdi. O bu bədbəxt insana böyük mehribanlıq göstərdi, sanki o, heç vaxt Dinin düşməni olmamışdı. O, bircə dəfə də olsun hakimin keçmiş səhvlərini xatırlatmadı. Əvəzində, ona necə kömək edə bilər deyə yardımını təklif etdi. Sabiq hakim həyat yoldaşı və uşaqlarını arxada buraxıb getməsindən narahat idi. Həzrət Əbdül-Bəha onu əmin etdi ki, O bu məsələni diqqətdə saxlayacaqdır. Sonra O, rahat bir səfər təşkil etdi, etibarlı bir şəxs təyin etdi ki, hakimin yoldaşını və uşaqlarını müşayiət etsin, onların yol xərclərinin hamısını ödədi və ailəni Dəməşqə göndərdi.*

*Sabiq hakim ailəsinə qovuşanda sevindi. Minnətdarlıqla dolu ürəklə o, üzünü onun ailəsini müşayiət edən şəxsə tutaraq səfərin xərcləri barədə soruşdu. O şəxs dedi ki, bütün xərcləri Həzrət Əbdül-Bəha ödəmişdir. Belə olduqda sabiq hakim səfər boyu iltifat və zəhmətə görə ona bəxşiş təklif etdi. Lakin o, bəxşişi qəbul etmədi, dedi ki, sadəcə Həzrət Əbdül-Bəhaya itaət edib və xidməti üçün heç nə qəbul etmək istəmir. Onda sabiq hakim təklif etdi ki, onun evində bir gecəlik qonaq qalsın. Lakin həmin şəxs dedi ki, Ağanın göstərişinə əməl etmək istəyir, Ağa ona buyurmuşdur ki, gecikmədən Əkkaya qayıtsın. O zaman sabiq hakim ondan xahiş etdi ki, ən azından bir qədər gözləsin ki, o, Həzrət Əbdül-Bəhaya məktub yazsın. O şəxs bu təklifi qəbul etdi və Əkkaya qayıdanda məktubu Ağaya çatdırdı. Məktubda deyilirdi: "Ey Həzrət Əbdül-Bəha, Sizə yalvarıram, məni bağışlayın. Mən başa düşməmişəm. Mən Sizi tanımamışam. Mən Sizə böyük pislik etmişəm. Siz isə məni böyük yaxşılıq ilə mükafatlandırdınız".*

**E. Oyun: "İnsanlar İnsanlara"**

Uşaqlara əl çalaraq və "insanlar insanlara" deyərək ətrafda ora-bura gəzişmələrini söyləyin. Siz "arxa-arxaya" deyəndə onlar dayanmalı və hər biri tərəfdaşı ilə kürək-kürəyə durmalıdır. Sizin işarənizlə onlar yenidən əl çalaraq və "insanlar insanlara" deyərək ətrafda gəzişməyə başlayırlar. Siz "üz-üzə" deyə səslənəndə onlar dayanmalı və başlarını əyərək tərəfdaşları ilə üz-üzə durmalıdırlar. Oyun bu iki ifadənin bir neçə dəfə təkrarlanması ilə bu cür davam edə bilər. Digər əmrlərə "diz-dizə" və ya "dirsək-dirsəyə" kimi əmrlər də daxil ola bilər.

**F. Rəngləmə: Rəsm 11**

**G. Bağlanış duaları**

## DƏRS 12

**A. Duaların oxunması və əzbərlənməsi**

Həmişə olduğu kimi dərs açılış duaları ilə başlamalıdır. Sonra uşaqlarla son üç dərsdə öyrəndikləri duanı nəzərdən keçirə bilərsiniz. Onların hamısının bu duanı yaxşı bildiyindən əmin olmalısınız, çünki Dərs 13-də əzbərləmələri üçün yeni bir dua təqdim edəcəksiniz.

**B. Mahnılar (əvvəlki mahnıları da təkrar etməklə)**

Günəşdən Daha Parlaq

C G D G
Doğruluq günəş işığından daha parlaqdır
C G D G
Doğruluq günəş işığından daha parlaqdır
C G D G
Dilinizi, ey insanlar, doğruluqla bəzəyin
C G D G
Dilinizi, ey insanlar, doğruluqla bəzəyin

Dürüstlük hər kəsin qəlbini bəzər
Dürüstlük hər kəsin qəlbini bəzər
Dürüstlük günəş işığından daha parlaqdır
Dürüstlük günəş işığından daha parlaqdır

**C. Sitatların əzbərlənməsi**

Aşağıda dərsin mövzusu olan dürüstlüyü və əzbərləyəcəkləri sitatı təqdim etmək üçün şagirdlərinizlə bölüşə biləcəyiniz bir neçə fikir var.

> Bağlar müxtəlif formalı və rəngli çiçəklərlə bəzədilib. Yazda meyvə ağacları ətirli çiçəklərlə bəzənir. Biz özümüzü təmiz və ləkəsiz geyimlərlə bəzəyirik. Bu bəzəklərin hamısı gözəllik yaradır. Amma insan varlıqlarını gözəlləşdirən şey maddi şeylərdən daha

çox, məhz qəlbimizə sevinc bəxş edən ruhani keyfiyyətlərin şöləsidir. Bizim həyatımızı bəzəyə bilən ən gözəl keyfiyyətlərdən biri dürüstlükdür. Biz özümüzü dürüstlüklə bəzəyəndə başqalarına aid olan şeyləri onların icazəsi olmadan götürmürük, heç vaxt heç kimi aldatmırıq və heç vaxt kiməsə nəyisə etməsi üçün hiylə işlətmirik. Gəlin dürüstlük keyfiyyətini yadda saxlamaqda bizə kömək etməsi üçün Həzrət Bəhaullahın aşağıdakı sitatını əzbərləyək:

**"Ey insanlar, dilinizi doğruluqla zinətləndirin, ruhlarınızı isə dürüstlük naxışı ilə bəzəyin".**[112]

*Bəzəmək*

1. Malit bağçada gözəl qızılgüllər əkdi. Qızılgüllər bağçanı bəzəyir.

2. Sunil yalnız doğrunu danışır. Onun sözləri həmişə doğruluqla bəzənir.

**D. Hekayə**

*Ömrünün sonlarında Həzrət Əbdül-Bəha dünyanın bir çox yerinə səyahət edə bildi. O hara getsə, hər səviyyədən olan insanlarla – işçilər və rəhbərlər, təlimçilər və elm adamları ilə –görüşərdi və hamının özünü rahat hiss etməsi üçün əlindən gələni edərdi. Bir gün O, Misirdə yüksək çinli bir dövlət məmurunu naharda onun qonağı olmağa dəvət etmişdi. Məmur bu cür rahatlığa öyrəşdiyi üçün onu təyinat məntəqəsinə aparmaq məqsədilə Həzrət Əbdül-Bəha bir fayton tutmağa qərar verdi.*

*Gəzinti uzun deyildi və tezliklə nahara çatdılar. Ancaq fayton sürücüsü ödəniş üçün Həzrət Əbdül-Bəhaya yaxınlaşdıqda, səfər üçün ədalətli bir qiymətdən daha artığını istədi. Həzrət Əbdül-Bəha sürücünün dürüst olmadığını bilirdi. O bu adama yalnız borclu olduğu qədərini ödədi, sonra uzaqlaşmaq üçün çevrildi.*

*Faytonçu mübahisə etmək istədikdə, Həzrət Əbdül-Bəha öz mövqeyində möhkəm dayandı. Adama dedi ki, gediş haqqı ilə bağlı dürüst olsaydı, gözəl bir bəxşişlə mükafatlandırılacaqdı. Sonra Ağa sürücünü öz hərəkətləri barədə düşüncələrlə baş-başa qoyaraq uzaqlaşdı.*

**E. Oyun**: **"Kvadrat, Dairə, Üçbucaq"**

Belə fərz etmək olar ki, uşaqlar ən azı bir neçə fiqurun adlarını, məsələn, "kvadratı", "dairəni", "üçbucağı" bilirlər. Uşaqlarla birlikdə bu fiqurların adlarının bir daha təkrar öyrənilməsi ilə bu mərhələyə başlayın və əmin olun ki, onlar bunların hər birini ayıra bilirlər. Sonra isə üzərində müəyyən bir ardıcıllıqla üç fiqur çəkdiyiniz bir kart tutun – məsələn, çevrə, çevrə, kvadrat – və uşaqlara deyin ki, buna diqqətlə baxsınlar. Sonra isə kartı kənara qoyun və uşaqların birindən fiqurların adlarını rəsmdə göstərilən ardıcıllıqla ucadan deməsini xahiş edin. Üzərində bu fiqurların müxtəlif ardıcıllıqlarının əvvəlcədən çəkildiyi kartlardan istifadə edərək bunu bir neçə dəfə təkrarlayın. Üç fiqurdan ibarət ardıcıllığı uşaqların yadda saxlamaları bəzi hallarda çətin ola biləcəyi üçün iki fiqurdan ibarət olan bəzi kartlarınız da olmalıdır, üç fiqurdan ibarət ardıcıllıq onlar üçün çox asan olduqda isə əvvəlcədən çəkdiyiniz dörd və ya beş fiqurlu ardıcıllıqdan ibarət olan kartlardan istifadə edin.

Sonra isə siz şagirdlərinizin qabiliyyətindən asılı olaraq iki, üç və ya dörd fiqurdan ibarət fiqur ardıcıllığını ucadan söyləyə və qrupda uşaqlardan birinin bunu təkar etməsini istəyə bilərsiniz. Hər bir uşaqla bunu bir neçə dəfə etdikdən sonra uşaqlardan sizin

səsləndirdiyiniz fiqurlar ardıcıllığının rəsmini çəkməyi istəməklə oyunu daha da meydanoxuyucu edə bilərsiniz.

**F. Rəngləmə: Rəsm 12**

**G. Bağlanış duaları**

# DƏRS 13

**A. Duaların oxunması və əzbərlənməsi**

Bu və növbəti üç dərsdə uşaqlar səylərini aşağıdakı duanı əzbərdən oxumağı öyrənməyə yönəldəcəklər. Siz, məsələn, Bölmə 13-də təklif olunan dua kimi əzbərdən bir açılış duası etdikdən və şagirdlərinizdən də bir neçəsi bunu təkrar etdikdən sonra onlara aşağıdakı duanı təqdim edə bilərsiniz.

> **“Ya Rəbb! Bu zərif fidanı Sənin çoxsaylı nemətlərinin bağına ək, onu Öz mehriban məhəbbətinin çeşmələrindən sula və Sənin fəzl və lütfünün yağışları ilə yaxşı bir bitki halına gəlməsini nəsib et.**
>
> **Sən Qüdrətli və Qüvvətlisən”.[113]**

**B. Mahnılar (əvvəlki mahnıları da təkrar etməklə)**

İnsaflı Ol

Xor:

A
İnsaflı ol, insaflı ol
E7 A
Çalış hamıya rahatlıq gətirəsən
A
İnsaflı ol, insaflı ol
E7 A
Çalış hamıya rahatlıq gətirəsən
A E
Başqaları ilə işlərimizdə insaflı olanda biz
E7 A
Qardaş və bacılarımızın etibarını qazanırıq
A7 D
Hər şeyi bərabər bölüşəndə biz
E A
Ədalət doğacaq dünyaya onda

Xor

Həqiqi rahatlıq verib, yardım edəndə
Siz Ağanın qoyduğu yolla gedəcəksiniz

Söz və əməlinizdə hikmət və insaf olanda
Qəlblərə siz sevinc, şadlıq bəxş edəcəksiniz

Xor

### C. Sitatların əzbərlənməsi

Uşaqlar bu dərsdə şəfqət keyfiyyətinə aid sitat öyrənəcəklər, siz bu sitatı aşağıdakı tərzdə təqdim edə bilərsiniz:

> Allah Ən Şəfqətli və Ən Mərhəmətlidir. Çətin anlarda biz qəlblərimizi Ona tərəf döndərir, Ondan yardım və güc istəyirik. O cür də biz başqalarına şəfqət göstərməliyik. Biz biləndə ki, kiminsə müşkülü var və ya kimsə kədərlidir, əlimizdən gələni etməliyik ki, anlayışlı olaq və ona kömək edək. Biz hər kəslə bütün şəraitlərdə, hətta ona daş atanlara belə meyvə verən ağac kimi şəfqətli və mehriban olmalıyıq. Həzrət Əbdül-Bəha daim hər kəsə şəfqət göstərərdi, halbuki Onun Öz həyatı məşəqqətlərlə dolu idi. Şəfqətli olmaq səylərimizdə bizə kömək etməsi üçün gəlin Onun sözlərini əzbərləyək:
>
> **“Allahın Mələkutu insaf və ədalət, həmçinin hər bir canlı qəlbə qarşı mərhəmət, şəfqət və mehribanlıq üzərində qurulmuşdur”.**[114]

*Qurulmaq*

1. Həkim kəndlərdəki uşaqların sağlamlığına görə narahat idi və buna görə də onların qayğısına qalmaq üçün xəstəxana açdı. Xəstəxana onun uşaqlara olan məhəbbəti əsasında qurulmuşdur.

2. Cenna və Mersedes çoxdandır dostdurlar. Onlar həmişə bir yerdə oxuyur və öyrəndikləri faydalı şeyləri bir-biri ilə bölüşürlər. Onların dostluğu mehribanlıq və məhəbbət üzərində qurulmuşdur.

*İnsaflılıq*

1. Səltənətin bütün insanları onun çiçəklənməsi üçün səylə işləyirdilər. Bütün məhsul yığılandan sonra sultan onu ailələrin böyüklüyünü əsas tutaraq öz təbəələri arasında böldü. Sultan öz təbəələrinə insafla davrandı.

2. Şəhər şurası yaxınlıqdakı kəndə yol çəkməli idi. O, qərara aldı ki, yolu əkin sahəsinin kənarından salsın. Nəticədə çox insan yeni yoldan faydalana bildi, əkinçilər isə bundan ziyan çəkmədilər. Şura qərarında insaf hissi nümayiş etdirdi.

*Şəfqət*

1. Li Yonq gördü ki, dostu Zəhra kədərlidir, ona görə də dostuna kömək etməyin bir yolunu tapmaq üçün onun yanına getdi. Zəhra ona izah etdi ki, anası xəstədir və xəstəxanadadır. Li Yonq Zəhraya qulaq asdı, ona təsəlli verdi və ertəsi gün onunla xəstəxanaya getməyi təklif etdi. Li Yonq Zəhraya şəfqət göstərdi.

2. Bir gün Şiori şəhər kənarında gəzirdi və gördü ki, kiçik bir quzunun ayağı hasara ilişib qalıb. Şiori yavaşca onun ayağını çıxardı və həmin ayağı sarıdı. Şiori quzuya şəfqət göstərdi.

**D. Hekayə**

*Həzrət Əbdül-Bəha Qərbə səfər edəndə hansı şəhərə gedirdisə, Onu görmək üçün çoxlu insanlar gəlir və Onun təşviqedici sözlərinə qulaq asırdılar. O, gecə-gündüz hər cür insanlarla – gənc və yaşlı, zəngin və yoxsul insanlarla, məmur və sıravi vətəndaşlar ilə –görüşürdü. Bəziləri Həzrət Əbdül-Bəhaya olan böyük məhəbbətlərindən, bəziləri də Onun söhbətlərində nədən danışacağı barədə maraqlandıqlarından gəlirdilər.*

*Bir gün Həzrət Əbdül-Bəhanın qaldığı evə bir qadın gəldi və qapını döydü. Bu, sıravi bir qadın idi və ürəyindən keçmişdi ki, Həzrət Əbdül-Bəha ilə bir qədər vaxt keçirsin. "Sizin Həzrət Əbdül-Bəha ilə görüşünüz təyin olunubmu?" – qapını açan şəxs soruşdu. Qadın dedi ki, xeyr, görüş təyin olunmayıb. Belə olduqda ona dedilər ki, onun Həzrət Əbdül-Bəhanı görməsi mümkün deyil, çünki Onun çox mühüm adamlarla görüşü var. Qadın məyus halda geri döndü və evin qarşısı ilə üzüaşağı addımlamağa başladı. Onun ürəyində necə bir xəyal qırıqlığı vardı! Lakin birdən Həzrət Əbdül-Bəhanın göndərdiyi bir nəfər peyda oldu və ondan rica etdi ki, qayıtsın. Həzrət Əbdül-Bəha onu görmək istəyirdi. Onun güc və səlahiyyətlə danışan səsi eşidilirdi: "Bir qəlb qırılıb! Tələsin, tələsin, onu mənim yanıma gətirin!"*

**E. Oyun: "Bir yerdə"**

Uşaqları yan-yana duran cütlüklərə bölün, birinin sol ayağını o birinin sağ ayağına bağlayın. Uşaqlara izah edin ki, əgər bu oyunda uğur qazanmaq istəyirlərsə, birlikdə işləməyi öyrənməli olacaqlar. Sonra isə hər bir cütlüyün təyin olunmuş yerdən başqa bir yerə getməsini istəyin. Siz onların yoluna budaq və ya daş kimi kiçik maneələr qoymaqla oyunu daha da meydanoxuyucu edə bilərsiniz. Bunu təhlükəsiz şəkildə etdiyinizdən əmin olun. Alternativ olaraq, sadəcə yerimək əvəzinə cütlüklərdən qurbağa kimi tullanmaları, at kimi şığımaları və s. istənilə bilər.

**F. Rəngləmə: Rəsm 13**

**G. Bağlanış duaları**

# DƏRS 14

**A. Duaların oxunması və əzbərlənməsi**

Adəti üzrə siz və bir neçə şagird dərsi başlatmaq üçün bəzi açılış duaları oxumalısınız. Sonra uşaqlar son dərsdə təqdim olunmuş duanı əzbərləməyə davam edə bilərlər.

**B. Mahnılar (əvvəlki mahnıları da təkrar etməklə)**

İnqita Qanadlarında

Xor:

C F G
Bir gün göydə bir quş uçurdu

C F G
Sevinc və inamla dolu
C F G C F G
Evi olan bu Cənnətdə süzülürdü

C F G C F G
Uçarkən aclığı artmağa başladı
C F G C F G
Belədə, aşağıdakı su və gilə tərəf döndü
C F
Aşağıda
G C F
O, tələyə düşdü
G C
Arzusunun tələsinə
F G C F G
Və qanadları palçığa büründü
C
Uçmaq üçün çox ağır idi
F G C F G
Evinə qayıda bilmədi

Xor

O quş kimi mən də göylərə aidəm
Ona görə, aşağıdakı yerə yapışmayacam
Zənginliklərə yapışmayacağam
İstəklərimdən yapışmayacağam
Allahdan başqa bir şeyə yapışmayacağam

C G F G
Beləliklə, inqita ayaqları ilə yeriyəcəyəm
C G F G
Mən inqita qanadlarında süzüləcəyəm
C G F
Özümü bütün bağlılıqlardan azad edəcəyəm
G C
Yalnız Allaha bağlılıqdan başqa *(təkrar)*

## C. Sitatların əzbərlənməsi

Uşaqlar dərsin mövzusu olan inqita keyfiyyəti haqqında bir sitat əzbərləyəcəklər. Siz onlara bu mövzunu aşağıdakı kimi təqdim edə bilərsiniz:

Allah bu dünyadakı hər bir yaxşı şeyi bizim ondan həzz almağımız üçün yaratmışdır – sağlamlıq, dadlı yeməklər, məhəbbət və dostluq, təbiətin gözəlliyi, həyatımızı yaxşılaşdırmaq üçün bizi kəşflər və ixtiralar etməyə qabil edən əqlin gücü. Biz Allahın bizə verdiyi bütün nemətlərdən istifadə etməli və həyat sevinci üçün Ona şükr etməliyik. Lakin ehtiyatlı olmalıyıq ki, bu dünyaya bağlanmayaq. Bizim ruhlarımız daim azad olmalıdır; azad və güclü quşlar kimi, onlar müqəddəslik səmalarında uçmalıdırlar. Bu necə də kədərli olardı ki, quş yerdə qalsın, ətrafındakı şeylərə bağlılığı səbəbindən göylərə uça bilməsin. Gəlin aşağıdakı sitatı əzbərləyək:

**“Bil ki, sənin həqiqi bəzəyin Allahın məhəbbətindən və Ondan başqa hər şeydən inqita etməyindən ibarətdir...”[115]**

*İbarət olmaq*

1. Vladislavın yemək üçün bir sosiskası, bir neçə kartofu və yaşıl lobyaları var. Onun yeməyi sosiska, kartof və lobyadan ibarətdir.

2. Bu cümlədə beş söz var. Cümlə beş sözdən ibarətdir.

*İnqita*

1. Helgi həqiqətən dostları ilə üzməyə getmək istəyirdi. Ancaq anasının mağazaya gedə bilməsi üçün məmnuniyyətlə kiçik bacısı ilə evdə qaldı. Helgi ailəsinə kömək etmək istədiyi üçün öz planlarından inqita göstərdi.

2. Dərs ilinin sonunda Əncəli müəlliminə çiçək gətirməyin yaxşı fikir olduğunu düşünürdü. Bacısı bunun əvəzinə bir tort bişirmələrini təklif etdi. Əncəli bunu gözəl ideya hesab edir. O öz fikrindən inqita etdi.

*Başqa*

1. Hazırlaşmayan bir tələbə istisna olmaqla, uşaqların hamısı imtahanda uğur qazandı. Bir tələbədən başqa hamısı testdə yaxşı nəticə qazandı.

2. Ana ailə üçün xüsusi bir yemək hazırlamaq istədi. Sonra evdə vacib inqredientlərdən biri olmadığı üçün edə bilməyəcəyini anladı. Onun bir inqredientdən başqa hər şeyi var idi.

**D. Hekayə**

*Bir gün iki kişi, çoxdankı dostlar, çay içə-içə ruhani məsələləri müzakirə edirdilər. İndi bu adamlardan biri həyatı boyu çoxlu sərvət toplamışdı və heç bir şeyə ehtiyacı yox idi. Digərinin daha az sərvəti var idi. İkincisi varlı dostuna "Müqəddəs Torpağı ziyarət etmək istərdim" – dedi. Birinci adam tərəddüd etmədən cavab verdi: “Bu, çox gözəl bir fikirdir! Mən də sənə qoşulacağam”. Bu iki şəxs çay fincanlarını yerə qoyub dərhal Müqəddəs Torpaq istiqamətində ayağa qalxdılar.*

*Gecə düşməyə başlayanda onlar yalnız qısa bir müddət idi ki, gəzməyə başlamışdılar. Daha yoxsul olan adam yavaşladı və sonra dayandı: “Dostum, gəl gecəni keçirmək üçün evlərimizə qayıdaq. Bu, daha rahat olacaq və səhər təzədən başlaya bilərik”. “Amma niyə geri dönək ki?” – digəri cavab verdi. “Müqəddəs Torpaq yolundayıq!” Yenə də dostu razı deyildi. “Müqəddəs Torpaq piyada getmək üçün çox uzaqdadır,” – deyə yenidən cəhd etdi. “Heç olmasa geri qayıdıb arxada qoymaqdan çəkindiyim eşşəyimi gətirim”.*

*“O zaman” – zəngin dostu digərinə dedi, – “bəlkə də bu səyahətdə məni müşayiət edə biləcək şəxs sən deyilsən. Böyük bir sərvətdən – atlardan, torpaqlardan və gözəl paltarlardan – sevinclə imtina etdim, amma buna görə heç bir zərər hiss etmirəm. Müqəddəs Torpaqda bir an belə vaxt keçirməkdən daha böyük nə nemət var? Eşşəyini belə geridə qoymağı bacarmırsan?” Təəssüf ki, o, dəyərli bir mülkünü geridə buraxa*

*bilmədi. Beləliklə, Müqəddəs Torpağa yolunu davam etdirən və bir dəfə də olsun geriyə baxmayan dostundan ayrıldı.*

**E. Oyun: "Çarx"**

Uşaqlardan xahiş edin ki, çevrə quraraq yan-yana dayansınlar və sol əllərini içəri doğru uzadaraq əllərini mərkəzdə birləşdirsinlər. İndi onlar çarxa bənzəməlidirlər, əlləri isə çarxın oxlarına. Sonra isə uşaqlardan istəyin ki, çevrənin mərkəzi ətrafında çarx kimi fırlansınlar. Belə etdikdən sonra, deyin ki, dərsin keçirildiyi yerin ətrafında hərəkət etsinlər, lakin çarx formasında dönməklə həmişə eyni formanı saxlasınlar. Oyunu daha da meydanoxuyucu etmək üçün onlar atlana və tullana bilərlər.

Uşaqların bir çevrədə yerə oturub ayaqlarını ortada bir-birinə toxunacaq şəkildə uzatmalarını təmin etməklə oyunu daha da meydanoxuyucu edə bilərsiniz. Sonra ovuclarını yerə, ombalarının yanına qoymalıdırlar. Artıq çarx kimi hərəkət etməyə hazırdırlar. Bunu etmək üçün hamısı əlləri ilə özlərini hərəkətə gətirəcək və bir addım sağa irəliləyəcəklər. Əlləri ilə bu şəkildə addım-addım, tam bir dövr vurana qədər ayaqlarını çarxın mərkəzində tutaraq davam etməlidirlər.

**F. Rəngləmə: Rəsm 14**

**G. Bağlanış duaları**

# DƏRS 15

**A. Duaların oxunması və əzbərlənməsi**

Açılış duaları oxunduqdan sonra siz Dərs 13-də təqdim olunmuş duanı əzbərləməyə davam etmələrində uşaqlara kömək edə bilərsiniz.

**B. Mahnılar (əvvəlki mahnıları da təkrar etməklə)**

Mənə Öz Payımı Ver

Xor:

A
Mənə öz payımı ver
D A
Ya Rəbb, Ya Rəbb
A D A
Mənə öz payımı ver
E A
İstədiyin kimi

A
Yaxşı gündə qane olmaq
D A
Asandır, çox asandır

A
Bolluqda da qane olmaq
E A
Asandır, çox asandır
D A
İşlər yaxşı getmədikdə
E A
Razı qalmaq daha çətindir
D A
Çətin gündə, çətin anda səbirli olmaq
E A
Hətta bir mahnı oxumaq da çətindir

Xor

Balaca oğlan olduğu vaxtlardan
Təhqirlərə məruz qaldı Ağa
Həyatının əvvəlindən
Onun rahatlığı olmadı
Lakin O, məmnun və sakit qaldı
Heç vaxt təşvişə düşmədi
Allaha etibar etdi və Onun İradəsini qəbul etdi
Həmişə səbirlə davam etdi

Xor

**C. Sitatların əzbərlənməsi**

Dərsin mövzusunu və uşaqların bu gün əzbərdən öyrənəcəkləri sitatı təqdim edərkən sizə kömək edə biləcək bəzi fikirlər aşağıda verilmişdir:

> Həzrət Əbdül-Bəha bütün şərtlər altında Allahın İradəsi ilə razı idi. O, ətrafındakılara deyərdi ki, hər şey qaydasında gedəndə, insan sağlam və rahat olanda razı olmaq asandır. Daha çətin olan budur ki, narahatlıqlar zamanı, xəstəlik və çətinlikdə şad olasan və razı qalasan. Onun həyatını dolduran bütün iztirablara baxmayaraq Həzrət Əbdül-Bəha heç vaxt ruhdan düşmədi. Ən ağır və ən çətin vaxtlarda belə O, Allahdan razı qaldı və şükr etdi. O, həmişə şən və nikbin idi. Gəlin aşağıdakı sitatı əzbərləyək ki, Allahın İradəsi ilə razı olmağın dəyərini tez-tez xatırlayaq:
>
> **“Bütün şərəflərin kökü Rəbbin istənilən bəxşişlərini qəbul etmək, Allahın əmr etdikləri ilə razı olmaqdır”.[116]**

*Şərəf*

1. Məktəbdə təbiət elmlərini öyrəndikdən sonra Po Lenq elmi tədqiqatçılar qrupuna qoşuldu. Onlar xeyli mühüm kəşflər etdilər. Onun işi ailəsinin adına şərəf gətirdi.

2. Svi təbiəti – dağları, ağacları və dənizi – seyr etməyi xoşlayırdı. O, hər dəfə dünyanın gözəlliklərini gördükcə hər şeyin Yaradıcısı olan Allahın qüdrəti və əzəməti barədə düşünürdü. Təbiətə baxmaq Svini Allahın şərəf və calalı barədə düşünməyə vadar edirdi.

*Bəxş etmək*

1. Paulo hər gün mehriban ailəsi, möhkəm səhhəti və Allahın ona verdiyi hər yaxşı şey üçün Allaha şükr edir. Paulo Allahın ona bəxş etdiyi çoxlu lütflər üçün Ona minnətdardır.

2. Günəşsiz yer üzü qaranlıq və soyuq olardı və onda heç nə yaşaya bilməzdi. Günəş yerə işıq və istilik bəxş edir.

*Əmr etmək*

1. Şah əmr verdi ki, ölkənin insanları baharın ilk günündə işləməsinlər. Baharın ilk gününün tətil elan edilməsi əmr edildi.

2. Bölgədə bir neçə ay idi ki, yağış yağmırdı və kənd şurası camaata əmr etdi ki, suyun istifadəsini məhdudlaşdırsınlar. Şura tərəfindən əmr edilmiş məhdudiyyətlər suya qənaət etmək üçün qoyulmuşdu.

## D. Hekayə

*Bir axşam Həzrət Əbdül-Bəha bir neçə nəfər bəhai ilə işıqlı London şəhərində gəzirdilər. Onlar hər iki tərəfində göz işlədikcə uzanan çıraqlar olan küçə boyunca addımlayırdılar. Sevgili Sərkər Ağanın yanında olan o dostlar sanki başqa bir aləmə düşmüşdülər.*
*"Mən bu mənzərədən çox xoşhalam," Həzrət Əbdül-Bəha buyurdu. "İşıq yaxşıdır, çox yaxşıdır. Əkkada çox qaranlıq vardı."*
*Həzrət Əbdül-Bəhanı sevən bu kiçik bir qrup dost Onun, Atası Həzrət Bəhaullahla birlikdə neçə illər dustaq olduğu Əkka qala-məbəsində məhbusluğunu yada salanda kədərləndilər. Ora çox xoşagəlməz bir yer idi və ailə çox məşəqqətlər çəkmişdi. "Biz şadıq, çox şadıq ki, Siz azadsınız," onlar dedilər.*
*Onların bu sözünə Həzrət Əbdül-Bəha belə cavab verdi: "Mən o məhbəsdə xoşbəxt idim, çünki o illər xidmət yolunda keçdi." Ən böyük məhbəs, O onlara dedi, nəfsin məhbəsidir. Baxın, əgər biz ətrafınmızdakı insanlar barəsində deyil, ancaq özümüz haqqında düşünsək – o halda biz doğrudan da həbsdəyik, o zaman biz iztirabdayıq!"*
*Həzrət Əbdül-Bəha həmişə məmnun idi, çünki O, Allaha və insanlığa xidmət yolu ilə gedirdi. Odur ki, Əkkada məhbus olarkən hətta o ən qaranlıq günlərdə Onun ramedilməz ruhu başqalarına istilik və rahatlıq gətirərək nur saçırdı*

## E. Oyun: "Heykəltəraş"

Özünüzü bir heykəltəraş kimi aparın və uşaqlar sənət əsərinizi hazırlamağınıza kömək etsinlər. Bir uşağın sinfin önünə çıxmasını və nümayiş etdirəcəyiniz bir pozada durmasını istəyin, məsələn, qolları qabağa uzadılmış şəkildə əyilmək pozası. Sonra, digər uşaqları bir-bir və ya bir neçə nəfər olmaqla qrupun önünə çağırın və təqlid etmələri üçün pozalar göstərin. Hamısı öz pozasını öyrəndikdən sonra bir araya gələrək sənət əsərini formalaşdırsınlar. Sonra son parça olaraq özünüzü qrupa əlavə edin.

Şagirdlərinizi cütlərə bölərək oyuna davam edə bilərsiniz. Biri heykəltəraş kimi davranaraq, digəri isə tələb olunan pozalarda duraraq cütlər növbələşə bilərlər.

Bu oyunun başqa variantlarını da düşünə bilərsiniz. Məsələn, "Çəpər ola bilərsənmi?" və ya "Bağça ola bilərsənmi?" kimi suallar səsləndirə bilərsiniz. Belə olan halda, uşaqlar özlərini tələb olunan formaya salmaqla cavab verəcəklər.

**F. Rəngləmə: Rəsm 15**

**G. Bağlanış duaları**

## DƏRS 16

**A. Duaların oxunması və əzbərlənməsi**

Bu dərsdə uşaqların hamısı Dərs 13-də təqdim olunan duanı əzbərdən oxuya bilməlidirlər və siz bunu onlarla birlikdə açılış dualarından sonra nəzərdən keçirə bilərsiniz.

**B. Mahnılar (əvvəlki mahnıları da təkrar etməklə)**

Biz Damlalarıq

C
Biz damlalarıq
Biz damlalarıq *(səsin sədası)*
C
Bir okeandan
Bir okeandan
F
Biz dalğalarıq
Biz dalğalarıq
G
Bir dənizdən
Bir dənizdən

Xor:

C
Gəl və bizə qoşul
Gəl və bizə qoşul *(səsin sədası)*
F
Birlik axtarışımızda
C G C F C
Bu sənin və mənim üçün bir həyat tərzidir

Biz çiçəkləriyik *(səsin sədası)*
Bir bağçanın
Biz yarpaqlarıyıq
Bir ağacın

Xor

Bütün yer kürəsi *(səsin sədası)*
Tək bir ölkədir
İnsan birdir
Görmürsənmi?

Xor *(son sətri təkrarlamaqla)*

**C. Sitatların əzbərlənməsi**

Aşağıdakı fikirlər dərsin mövzusu olan mehribanlığı və uşaqların bugünkü dərsdə əzbərləyəcəkləri sitatı təqdim etməkdə sizə kömək edəcək:

Allah bütün bəşəriyyəti bir ailə kimi bir yerdə yaşaması üçün yaratmışdır. Əgər biz bunu etməliyiksə, onda fərqlərin aramıza girməsinə icazə verə bilmərik. Bunun yerinə biz hər bir dindən, millətdən və mənşədən olan insanlarla qəlblərimizdə sevgi və mehribanlıq olmaqla qaynayıb qarışmalıyıq. Gəlin bunu yadda saxlamaqda bizə kömək etməsi üçün Həzrət Bəhaullahın aşağıdakı sitatını əzbərləyək:

**“Mübarəkdir o kəs ki, bütün insanlarla son dərəcə mehribanlıq və məhəbbətlə qaynayıb qarışır”.**[117]

*Qaynayıb qarışmaq*

1. Ağ vağ və trupial quşları çəmənliklərdə yaşayan iki quş növüdür. Onlar çox vaxt bir yerdə görünürlər. Bu iki növ quş bir-birinə qaynayıb qarışırlar.

2. Dua görüşlərində dualar oxunduqdan sonra insanlar qaynayıb qarışdılar.

**D. Hekayə**

*Bizim əvvəlki hekayələrimizin bəzilərindən siz bilirsiniz ki, Həzrət Əbdül-Bəha ilk dəfə Əkkaya gələndə insanların çoxu Onunla pis rəftar edirdi. Onlar bəhailərə qarşı qəddar idilər və onlarla danışmaq istəmirdilər. Lakin tezliklə onlar gördülər ki, bəhailər sevgi dolu və mehribandırlar, yavaş-yavaş şəhər əhalisinin çoxu da bunun qarşılığında onlarla mehriban davranmağa başladı. Lakin öz qəzəb və nifrətindən yapışan bir neçə şəxs də var idi.*

*Bir dəfə ürəyində hələ də Həzrət Əbdül-Bəhaya qarşı nifrəti olan bir kişi başqalarının Onun böyüklüyünü və xeyirxahlığını tərif etdiklərini eşitdi. Bu kişi özündən çıxdı. O, qəzəblə dedi ki, onların hamısının hörmət etdiyi o Şəxsin heç də belə gözəl insan olmadığını onlara göstərəcək. Və o, ürəyi qəzəbdən alışıb yanaraq çıxıb getdi. O bilirdi ki, bu saatlarda Həzrət Əbdül-Bəha məsciddə dua edir və o da sevimli Ağaya qarşı zor tətbiq etməyə hazır vəziyyətdə məscidə tələsdi. Lakin Həzrət Əbdül-Bəha ona təmkin və ləyaqətlə baxdı. Kişiyə mehribancasına Allahın təlimlərini xatırlatdı ki, biz bütün qonaqlara, hətta bizdən fərqli olanlara qarşı da alicənab olmalıyıq. Bu yerdə kişi başa düşdü ki, Həzrət Əbdül-Bəha və bəhailər doğrudan da Əkkada, onun şəhərində qonaq kimi idilər. Alicənab bir ev sahibi kimi, o onları sevgi ilə qarşılamalı və onlara qarşı mehriban davranmalıdır.*

**D. Oyun: “Gizli Keyfiyyət”**

Uşaqlara deyin ki, iki əllərini bir-birinə bitişdirib irəli uzadaraq dairə əmələ gətirsinlər. Siz dairənin ortasında dayanın, əlinizdə qəpik pul və ya başqa bir əşya tutun. Bu əşya bir keyfiyyəti, məsələn, “mehribanlıq” keyfiyyətini təmsil edir. Sonra isə siz dairə boyunca hərəkət edərək əlinizi uşaqlara uzadın və deyin, məsələn: “Con mehribandır, İzabella mehribandır, Dervi mehribandır” və s. Uşaqların hər biri sanki siz ona əşyanı vermiş kimi ovuclarını bağlamalıdırlar. Əslində də siz əşyanı uşaqlardan birinin əlinə qoymalısınız. Siz bütün dairəni fırlandıqdan sonra uşaqlardan biri, məsələn, “Kenci çox mehribandır” deməklə qəpiyin kimdə olduğunu tapmağa çalışmalıdır. Onda Kenci ovcunu açmalı və əşyanın

doğrudan da onda olub-olmamasını göstərməlidir. Axtaran uşağa üç dəfə imkan verilməlidir ki, əşyanın kimdə olduğunu tapsın, bundan sonra isə oyun başqa bir keyfiyyəti seçərək davam etdirilə bilər. Əmin olmalısınız ki, hər uşağa ən azı bir turda əşya vermisiniz.

**F. Rəngləmə: Rəsm 16**

**G. Bağlanış duaları**

## DƏRS 17

**A. Duaların oxunması və əzbərlənməsi**

Növbəti dörd dərs ərzində uşaqlar aşağıdakı duanı əzbərdən oxumağı öyrənəcəklər və hər dərs dövrünü Bölmə 16-da təklif olunan dua kimi əzbər bildiyiniz yeni bir dua ilə açsanız, bu onlara təşviq mənbəyi olacaq. Bir neçə şagird açılış duaları oxumaqda sizə qoşulduqdan sonra bu duanı ənənəvi şəkildə təqdim edə bilərsiniz.

> **"Sənin adın mənim şəfamdır, ey Allahım, Səni xatırlamaq mənim dərmanımdır. Sənə yaxınlıq mənim ümidimdir, Sənə məhəbbət mənim munisimdir. Sənin mərhəmətin həm bu, həm də o biri dünyada mənim şəfam və yardımımdır. Sən, həqiqətən, Ən Səxavətli, Ən Çox Bilən və Ən Hikmətlisən".[118]**

**B. Mahnılar (əvvəlki mahnıları da təkrar etməklə)**

Şücaətin Mənbəyi

Xor:

Am
Şücaət və qüvvət mənbəyi
Dm E Am
Allahın Sözünü yüksəltməkdir
Am
Şücaət və qüvvət mənbəyi
Dm E Am
Onun məhəbbətində səbatlı olmaqdır
G
Tamamilə unut gəl sən özünü
C
Doğrunu qoru sən, söylə sözünü
E7
Ehtiyacı olanı müdafiə et
Am
Allahın qüdrətinə sən təvəkkül et

Allahın Sözünü yay sən dünyada
Cəsarətli ol öz əməllərində
Onun yoluyla get, yolundan dönmə
Bu yol aparır bizi əsl səadətə

Xor

**C. Sitatların əzbərlənməsi**

Aşağıdakı açıqlama sizə dərs mövzusunu və əzbərləmək üçün sitatı təqdim etməkdə kömək edəcəkdir:

> Cəsarətli olmaq hətta bizdən başqa bunu edən olmasa da doğru olanın yanında durmaq, bizim üçün narahatlığa səbəb olsa da köməyə ehtiyacı olanları müdafiə etmək və bizim üçün çətinliklər törədəcəyini bilsək belə həqiqəti deməkdir. Həyatdakı çətinlikləri sakit şəkildə və lütflkarlıqla qarşılamaq cəsarət tələb edir. Biz cəsarəti Allaha olan məhəbbətimizdən və Onu hamıdan çox razı salmaq istəyimizdən əxz edirik. Gəlin həyatda hər bir vəziyyəti cəsarətlə qarşılamalı olduğumuzu yadda saxlamaqda bizə kömək etməsi üçün aşağıdakı sitatı əzbərləyək:
>
> **"Şücaət və qüvvətin mənbəyi Allahın Sözünü irəlilədib Onun Məhəbbətində səbatlı olmaqdır".[119]**

*Mənbə*

1. Kyonqmi vadidə yerləşən bir kənddə yaşayır. Kəndin suyu yaxınlıqdakı dağların başındakı ərimiş qardan gəlir. Kəndin suyunun mənbəyi dağlardakı qardır.

2. Xanım Puttersin üç sevimli və xoşxasiyyət uşağı var. Uşaqları onun üçün sevinc və xoşbəxtlik mənbəyidir.

*Yüksəltmək*

1. Şoanın dostlarından ikisi mübahisə etməyə başladılar və bir-birlərinə qəzəbləndilər. Şoa kömək etdi ki, onlar bir-birlərinin fikirlərini başa düşsünlər və onlar arasında sülh yaransın. Şoa həmişə dostları arasında sülh və anlayışı yüksəldir.

2. Tibb bacısı sağlamlığa faydalı olan qidaları uşaqlara öyrətmək üçün sinfi ziyarət edir. Tibb bacısı sağlam qidalanmanı yüksəldir.

*Səbatlı*

1. Promilla həkim olmaq istəyirdi. O, məktəbdə həmişə çalışqanlıqla oxuyurdu və uzun illərin gərgin əməyindən sonra məqsədinə çatdı. O, həkim olmaq cəhdlərində səbatlılıq göstərirdi.

2. Zvonday məktəb qurulmasına başlamaqda kömək etmək üçün çox uzaq bir kəndə getdi. Hərçənd ailəsi üçün darıxırdı və çox çətinliklərlə üzləşdi, o, səbatlılıq göstərdi, bir neçə il kənddə qaldı, müəllimlər yetişdirdi və uşaqlarla işlədi.

**D. Hekayə**

> *Əli Əsgər İranda bir tacir idi. O, bəhai olanda Dinə müxalif olanlar tərəfindən çox əzab-əziyyətə məruz qaldı. Qısa vaxt ərzində nəyi vardısa itirdi. Hətta bu halında belə Əli Əsgər ruhdan düşmədi. Vətəndə dolanacaq qazana bilməyəcəyini görüb qərara aldı ki, qonşu ölkədəki Ədirnə şəhərinə getsin.*

*O, Ədirnədə ticarət üçün azacıq da olsa mal əldə edə bildi. Lakin bu dəfə də hələ bircə dənə də şey satmağa macal tapmamış oğrular ona hücum edib bütün mallarını oğurladılar və yenidən o, heç nəsiz qaldı.*

*Çox keçmədən oğrular tutuldular və çoxlu insanları soymaqla əldə etdikləri böyük var-dövlət onlardan müsadirə edildi. Bu sərvətdən gözləri qamaşan yerli məmurlardan biri onu özündə saxlamaq fikrinə düşdü. O, Əli Əsgəri öz idarəsinə çağırdı və ona izah etdi.*

*"Əli Əsgər," – o dedi – "bu oğrular çox zəngindirlər. Mən hökumətə göndərdiyim hesabatda yazmışam ki, oğurlanan şeylər xeyli çoxdur. Ona görə də sən məhkəməyə getməli və mənim yazdıqlarıma uyğun şahidlik etməlisən". Məmur düşünürdü ki, bu yolla bütün pullar Əli Əsgərə qaytarılar və ikisi bunu öz aralarında bölərlər.*

*Əli Əsgər bilirdi ki, o heç vaxt belə bir planla razılaşmayacaq. "Cənab Xan," – o dedi – "məndən oğurlanmış malların qiyməti çox az idi. Mən doğru olmayan bir şeyi necə deyə bilərəm? Onlar məndən soruşanda mən faktları olduğu kimi deyəcəyəm. Mən yalnız və yalnız bunu özümə borc bilirəm".*

*Məmur Əli Əsgəri fikrindən döndərməyə çalışdı. "Bizim əlimizdə çox gözəl bir fürsət var," – o dedi – "hər ikimiz bundan faydalana bilərik. Həyatda bir dəfə ələ düşən belə bir fürsəti əldən vermə!"*

*Ancaq Əli Əsgər yenə də, "Xan, Allah qarşısında bunun haqq-hesabını necə verərəm? Məni rahat buraxın. Mən həqiqəti söyləyəcəm, həqiqətdən başqa heç nəyi" – deyərək rədd etdi.*

*Bu zaman məmur qəzəbləndi. Əgər Əli Əsgər onun planı üzrə getməsə, onun bütün planı boşa çıxacaqdı və o, indi ovcunun içində olan böyük bir sərvəti itirəcəkdi. Və beləliklə o, Əli Əsgəri təhdid etməyə başladı və ümid edirdi ki, onu əməkdaşlıq üçün qorxuda biləcəkdi. "Mən səni həbsə atacağam," – o dedi. "Səni sürgün edəcəyəm; sənə vermədiyim əzab qalmayacaq". Sonra Əli Əsgərə dedi ki, əgər razılaşmasa, onu İrana geri göndərəcək.*

*Əli Əsgər sadəcə gülümsədi. "Cənab Xan," – o dedi, "mənimlə istədiyiniz kimi davranın; mən doğru olan şeyə arxa çevirməyəcəyəm".*

**E. Oyun: "Bəli və ya Xeyr"**

Uşaqlardan mərkəzində siz olmaqla geniş bir dairə yaratmağı xahiş edərək oyuna başlayın. İndi uşaqlara bir neçə açıqlama verəcəyinizi izah edin. Onlardan bəziləri doğru olacaq; digərləri yanlış olacaq. Onlara deyin ki, deyim doğrudursa, "bəli" deyə qışqırıb dairənin mərkəzinə doğru atılsınlar. Və əgər yanlışdırsa, "xeyr" deyə qışqırıb geriyə atılmalıdırlar.

Dediyiniz bütün ifadələr uşaqların asanlıqla müşahidə edə biləcəkləri şeylərə əsaslanmalıdır. "Bəli" ifadələrinin nümunələri aşağıdakılardır: "Günəş işıq saçır", "Ağaclar toxumdan böyüyür", "Dağlar hündürdür". Uşaqların nə geyindikləri barəsində də ifadələr işlədə bilərsiniz, məsələn, "Sera mavi köynək geyinir" və ya ətrafdakı məkanda gördüklərini təsvir edən "Orada iki oturacaq var" kimi cümlələr də deyə bilərsiniz.

"Xeyr" ifadələrinin bir neçə nümunəsi bunlardır: "Yağış yuxarıya doğru yağır", "Balıq uçur", "Daşlar ayaq üstə yeriyir". Yenə də səhv fikirlər demək üçün ətrafınıza baxa bilərsiniz. Unutmayın ki, səhvdən daha çox düzgün ifadələrə yer verməlisiniz ki, oyunun sonunda uşaqlar dairənin mərkəzində sizə çatsınlar.

**F. Rəngləmə: Rəsm 17**

**G. Bağlanış duaları**

# DƏRS 18

**A. Duaların oxunması və əzbərlənməsi**

Açılış dualarından sonra, uşaqlar son dərsdə təqdim olunmuş duanı əzbərdən oxumağı öyrənməyə vaxt ayırmalıdırlar.

**B. Mahnılar (əvvəlki mahnıları da təkrar etməklə)**

Ümidvar Ol

```
   C                  F
Gələcəyi bilmirik
    G                   C
Növbəti gün nə olacaq
        C                 F
Nemətlər kəsilməyəcək
  G                   C
Ona inan, yoluyla get
```

NƏQARƏT:

```
     F              G
Ümidvar ol, ümidvar ol
       C                    F
Nemətlər hər yerdə tap
        F
Günəş qalxıb
        G
Göyü tutacaq
  C                  F
Nigaran gözlərlə bax
  F                 G    C
Ümidvar gözlərlə bax
```

Böyüməyə sən tələs
Qış yaza yol verəcək

Nemətlər kəsilməyəcək
Hər yerə həyat verəcək

NƏQARƏT

Sevinc, sülh mənbəyi ol
Xidmətlə ruh parlasın
Unutma, nemət bitmir
Sabaha ümidvar ol

NƏQARƏT

**C. Sitatların əzbərlənməsi**

Bu dərsdə uşaqların əzbərləyəcəkləri sitatı təqdim etmək üçün sizin istifadə edə biləcəyiniz bəzi ideyalar aşağıda verilmişdir.

> Allahın məhəbbəti daim bizimlədir. O bizi heç vaxt təkbaşına buraxmayacaq və bizə vəd verir ki, bütün həyatımız boyu bizə kömək edəcək. Hərçənd biz bu gündən sabaha nələr baş verə biləcəyini bilmirik, ancaq Allaha güvənirik və Onun nemət və bəxşişlərinin bizim ətrafımızda olduğunu xatırlayırıq. Ona görə də biz gələcəyə baxanda ümidvar oluruq, inanırıq ki, Onun sonsuz nemət və bərəkətlərindən öz payımızı alacağıq. Ümidlə dolu ürəklərlə biz daim Allahın nemətlərinin bizim üzərimizə yağmasını gözləyirik. Gəlin ümidvar olmaq keyfiyyətinin vacibliyini yadda saxlamaqda bizə kömək etməsi üçün Həzrət Əbdül-Bəhanın bu sözlərini əzbərləyək:
>
> **“Heç bir zaman Allaha olan inamını itirmə. Daim ümidvar ol, çünki Allahın nemətlərinin insanların üzərinə yağması heç vaxt kəsilmir”.**[120]

*İnam*

1. Eduard bir problem yaşadı və kömək üçün Hun Venin yanına getdi. Eduard Hun Venin ona kömək etmək üçün əlindən gələni edəcəyini bilir. Eduard Hun Veyə inanır.

2. Nirmala evinin damını təmir etmək istəyir, ancaq təkbaşına edə bilmir. Nirmalanın dostları ertəsi gün ona kömək etmək üçün gəlməyi təklif edirlər. O onların söz verdikləri kimi gələcəklərinə inanır və hər şeyi hazırlayır.

*Ümidvar*

1. Yozefina günəşli bir yerdə toxum əkib və onu hər gün sulayır. O, gözləyir ki, toxum cücərsin. Yozefina ümidvardır ki, bu toxum bir gün möhkəm bir bitkiyə çevriləcək.

2. Antonionun yaxşı dostu olan Mət başqa şəhərə köçdü. Antonio öz dostu üçün darıxırdı, lakin ümidvar idi ki, onlar tezliklə görüşəcəklər.

*Nemətlər*

1. Lilian hər gecə dua edəndə ona nəsib olan çoxlu şeylər haqqında düşünür. O, valideynləri, dostları, müəllimləri, hətta yatdığı yataq barəsində belə düşünür. Lilian ona bəxş edilmiş nemətlər üçün həmişə şükr edir.

2. Rzanın onu sevən və onun böyüməsinə kömək edən çoxlu dostları və qohumları var. Rza onların məhəbbət və dəstəyi kimi bir nemət üçün minnətdardır.

*Kəsilmək*

1. Tahir kranı bağlayanda su gəlmir; suyun axması kəsilir.

2. Hətta buludlu günlərdə belə günəşin şüaları yeri isidir. Günəşin şüalarının yerə çatması heç vaxt kəsilmir.

**D. Hekayə**

*Londonda Temza çayının sahilində evsiz-eşiksiz tənha yaşayan bir kişi vardı. O, çox qəmgin idi və həyatda xoşbəxtliyə olan bütün ümidlərini itirmişdi. Bir gün o, bir dükanın yanından keçirdi və bir qəzetdəki şəkil onun gözünə sataşdı. Bu, Həzrət Əbdül-Bəhanın siması idi. Kişi gözlərini şəklə zilləyərək donub qaldı. O, əvvəllər Həzrət Əbdül-Bəhanı heç vaxt görməmişdi və Onun kim olduğunu bilmirdi, lakin bir şeydən əmin idi ki, Onunla görüşməlidir. Onun yaşadığı evin ünvanı qəzetdə verilmişdi, buna görə də kişi Onu orada tapmaq ümidi ilə piyada getməyə başladı. Bu, çox uzaq bir məsafə idi – təxminən 50 kilometr – lakin o, həmin evə çatanadək piyada getməyə davam etdi.*

*Nəhayət ki, ünvana çatanda kişi çox yorğun və ac idi, evin sahibəsi onu mehribanlıqla evə dəvət etdi, ona yemək verdi və bir qədər istirahət etməsinə icazə verdi. Dincələrkən o öz hekayəsini qadına danışdı və sonra Həzrət Əbdül-Bəhanın orada olub-olmadığını soruşdu. Qadın onu əmin etdi ki, O, evdədir.*

*"O mənimlə görüşəcəkmi?" – o soruşdu. "Hətta mənimlə?"*

*Qadın ona deyən kimi ki, Həzrət Əbdül-Bəha onu mütləq görəcək, Ağa Özü qapıda peyda oldu. Kişi ayağa qalxdı və Həzrət Əbdül-Bəha isə əllərini uzatdı ki, onu salamlasın. Sanki bu kişi Həzrət Əbdül-Bəhanın çoxdan bəri gözlədiyi köhnə dostu idi. O, kişini məhəbbət və şəfqətlə salamladı və yanında oturmasını xahiş etdi.*

*Hər zaman itirilmiş sevinc hissini insanların ürəyinə necə geri qaytarmağı bilən Həzrət Əbdül-Bəha bu kişi ilə danışmağa başladı. O, kişini bu qəmgin vəziyyətdən çıxmağa təşviq etdi, yadına salaraq ki, o, Allahın Məlakutunda zəngindir. Həzrət Əbdül-Bəha kişiyə şəfqət yağışı yağdırdıqca Onun təsəlliverici sözləri onun qəlbini sağaltmağa və ona güc verməyə başladı. Kişinin qəmginliyi yavaş-yavaş çəkilib getdi. Ayrılmazdan əvvəl kişi Həzrət Əbdül-Bəhaya dedi ki, o, bir daha imkan verməyəcək ki, yoxsulluğu ona kədər gətirsin; bunun yerinə o, tarlalarda iş tapacaq və pul toplayacaq ki, bir parça torpaq alsın və orada bənövşə becərib bazarda satsın. Kişi, Həzrət Əbdül-Bəhadan Allaha etibar etməyi və Allahın onun səylərinə təyid və xeyir-dua verəcəyinə əmin olmağı öyrəndi. Onun ümidsizliyi ümidlə əvəz olundu.*

**E. Oyun: "Yağışyağdıran"**

Əvvəlcə, uşaqlar ətrafınızda çevrə qursunlar və sonra oyunu təqdim etmək üçün uşaqlardan səhrada olduqlarını və leysan yağışının həsrətində olduqlarını xəyal etmələrini xahiş edin. Sonra isə ovuclarınızı bir-birinə sürtməyə başlayın, uşaqlara da təlimat verin ki, siz hər dəfə onların hər birinə baxdıqda eyni hərəkəti icra etməyə başlasınlar. Bu hərəkətlə siz bir dövrə vurduqdan və bütün uşaqlar ovuclarını bir-birinə sürtdükdən sonra onlara deyin ki, siz onlara təqlid edəcəkləri yeni bir hərəkət edərək baxana qədər onlar bu hərəkəti davam etdirməlidirlər. Siz növbəti hərəkət olaraq barmaqlarınızla çırtma vurun, sonra əl çalın, ayağınızın yuxarı hissəsinə sillə vurun və ayaqlarınızı tappıldadın. Başlanğıcda bütün uşaqların birlikdə yaratdıqları səs yağışın ilk damcılarının səsini, sondakı hərəkətlərin səsi isə güclü leysan səsini xatırlatmalıdır.

**F. Rəngləmə: Rəsm 18**

**G. Bağlanış duaları**

## DƏRS 19

**A. Duaların oxunması və əzbərlənməsi**

Həmişə olduğu kimi, dərsi dua ilə açın. Bundan sonra uşaqlara Dərs 17-də təqdim olunanları yadda saxlamaqda kömək edə bilərsiniz.

**B. Mahnılar (əvvəlki mahnıları da təkrar etməklə)**

Məşğul Əllər

Xor:

C F
Məşğul əllər uşaqları
Şad edir, xoşbəxt edir
C G
Xoşbəxt uşaqlar isə
C F
İnsanları şad edir
C F G C
Sülh və sevgi paylayır

C F
Yeni dünya qurmaq üçün çalışan əllər
C G
Hər kəsin öz rolu var
C F
Biz minnətdar olmalıyıq
C F G C
Çünki tezliklə bizlər
Məqsədə çatmalıyıq

Xor

Yeni dünya qurmaqda
Allahdır köməyimiz
Bir dünya ki, orada
Köməkdir hamı hamıya
Bir dünya ki, orada
Özümüzdən də artıq
Qonşumuzu sevməliyik

Xor *(son sətir təkrarlanır)*

**C. Sitatların əzbərlənməsi**

Bu dərsdə uşaqlar etibarlılıq haqqında sitatı əzbərləyəcəklər və siz bu mövzunu aşağıdakı kimi təqdim edə bilərsiniz:

> Allahın nəzərində ən gözəl keyfiyyətlərdən biri etibardır. Etibarlı insan doğruçu və dürüstdür və öz sözünü tutmaqda ona güvənmək olar. Biz dediklərimizə uyğun olmayan şeylər etməməliyik. Bizim əməllərimiz həmişə sözlərimizi əks etdirməlidir. Biz etibarlı olanda başqaları əmin ola bilərlər ki, biz öhdəlik və vəzifələrimizi yerinə yetirmək üçün əlimizdən gələni edəcəyik. Bu yolla insanlar ahəngdar şəkildə bir yerdə işləyə bilir və onlar bilirlər ki, hər kəs öz üzərinə düşəni yerinə yetirəcəkdir. Gəlin etibarlılığın vacibliyini yadda saxlamaqda bizə kömək etməsi üçün aşağıdakı sitatı əzbərləyək:
>
> **"Etibarlılıq insanları dinclik və əmin-amanlığa aparan ən böyük qapıdır".**[121]

*Etibarlılıq*

1. Atos anasına söz verdi ki, nahar yeməyi hazırlamaqda ona kömək edəcək. Dostları onların qapısına gəlib onu çöldə oynamağa dəvət edəndə Atos anasına verdiyi vədini xatırladı və dostlarına dedi ki, onlarla başqa vaxt oynayar. Atos etibarlılıq keyfiyyətini nümayiş etdirdi.

2. Sunita ailəsi üçün bəzi şeylər almaq üçün mağazaya getdi, amma ehtiyac duyduqları hər şeyin ödənişini etmək üçün kifayət qədər pul gətirmədiyini gördü. Mağazanın sahibindən pulun qalan hissəsini ertəsi gün gətirməsinin mümkünlüyünü soruşdu. Mağaza sahibi, Sunitanın etibarlı olduğunu və əşyaların pulunu vəd etdiyi kimi ödəyəcəyini bildiyi üçün bunun mümkün olduğunu dedi.

*Sakitlik*

1. Emilio hər dəfə mühüm qərar qəbul etməli olduqda düşünmək və götür-qoy etmək üçün sakit bir yer tapmağa çalışır. O, yaxınlıqdakı sakit bir bağa gedir və bağın sakitliyində öz beynini və ürəyini fikirlərdən təmizləyə bilir.

2. Böyük tufan keçib gedəndən sonra hər şey qeyri-adi dərəcədə sakit və aram oldu. Tufandan sonra əmin-amanlıq və sakitlik gəldi.

*Əmin-amanlıq*

1. Körpə heyvan qorxanda təhlükəsizlik üçün çox vaxt anasının yanına qaçır. Ana öz balası üçün əmin-amanlıq yaradır.

2. Səyyah cığırdan çıxdı və meşədə azdı. O, geri qayıtmadıqda kənddən olan bələdçilər onu axtarmağa gəldilər. Onlar onu tapanda o, əmin-amanlıq hiss etdi, bildi ki, onlar onu yenidən təhlükəsizliyə qovuşduracaqlar.

**D. Hekayə**

*Çox illər öncə, Əmrin ilk günlərində bir neçə ölkəyə yayılmış çox az sayda bəhailər vardı. Onlar çoxlu meydanoxumalarla qarşılaşırdılar və tez-tez Müqəddəs Torpağa, Həzrət Əbdül-Bəhaya məktub yazır, məlumatlar verir və müxtəlif suallar soruşurdular. Ona yetişməzdən əvvəl bu məktublar xeyli yol qət edərdi və O onların hər birinə böyük məhəbbət və qayğı ilə cavab verərdi. Onun təşviqedici sözləri o erkən bəhailəri gücləndirər və ürəklərini sevindirərdi. Buna görə də bu rabitə axınının kəsilməməsi çox mühüm idi.*

*Bu ərazidə Məhəmməd Tağı adlı bəhai bir kişi yaşayırdı. Uzun illər öncə hələ gənc ikən o, İrandan gəlmişdi və kiçik bir iş qurmuşdu. Get-gedə o, sarsılmaz etibarlılığı ilə tanındı. O, o qədər etibarlı idi ki, onun evi Müqəddəs Torpaqda Həzrət Əbdül-Bəhaya gələn məktubların və xaricə göndərilən cavabların hamısının keçdiyi mərkəzə çevrilmişdi. Hər kəs bilirdi ki, hər bir məktubun tez və təhlükəsiz bir şəkildə çatdırılmasını təmin etməkdə ona etibar etmək olardı.*

*Amma sonra Dinin düşmənləri Həzrət Əbdül-Bəhaya qarşı qalxdılar. Onlar Ona qarşı olan sevgiyə və insanların ona olan hörmətinə paxıllıq edirdilər. Onlar ümid edirdilər ki, Həzrət Əbdül-Bəhanın sürgününə, ya da ondan da pisi, edamına nail olarlar. Onun evinin ətrafında hər yerdə casuslar qoyulmuşdu və Ona daim nəzarət olunurdu. Həzrət Əbdül-Bəha ilə digər ölkələrdəki sədaqətli bəhailər arasındakı yazışmanı və əlaqəni kəssəydilər düşmənləri necə də şad olardı; hansısa bir sənədi oğurlayıb ondan istifadə edərək hakimiyyət dairələrini yanlış fikirlərə salsaydılar daha da şad olardılar!*

*Lakin Həzrət Əbdül-Bəha çəkinmədi. Gecədən xeyli keçmişə qədər lampa işığında Onun məktub yazdığını tez-tez görmək olardı; çünki O, məktubların alınması və göndərilməsi üçün təhlükəsiz bir vasitə müəyyən etmişdi. Sizcə o nə etdi?*

*Görürsünüz, Həzrət Əbdül-Bəha bilirdi ki, Onun düşmənləri Məhəmməd Tağının gördüyü işin əhəmiyyətini başa düşürlər. Onlar, şübhəsiz, onun vasitəsilə ötürülən məktubları ələ keçirməyə cəhd edə bilərdilər. Buna görə də, Həzrət Əbdül-Bəha Məhəmməd Tağını təhlükəsizlikdə olacağı bir qonşu ölkədəki yaxın bir yerə göndərdi. Daha sonra Onun düşmənlərinin şübhə etmədikləri digər şəxslər, Müqəddəs Torpaqdan aparılıb-gətirilən bütün məktubları Məhəmməd Tağıya daşıdılar. Və bu təhlükəsiz yerdən, o, Həzrət Əbdül-Bəhanın ona olan etibarına heç vaxt xələl gətirmədən məktubları almağa və göndərməyə sədaqətlə davam etdi. Beləliklə, hətta ən çətin zamanlarda belə Müqəddəs Torpaqla əlaqə kəsilmədi və hidayət nuru ən ucqar yerlərdə dostlara çatmaqda davam etdi.*

**E. Oyun: "Bələdçi"**

Şagirdləri cütlüklərə bölün və onlardan xahiş edin ki, partnyorlarının əllərini tutsunlar. Hər cütlükdəki uşaqlardan birinin gözlərini bağlayın, digər uşaq isə bələdçi kimi onu ətrafda gəzdirsin və onun yolda büdrəməməsini təmin etsin. Oyunu daha da meydanoxuyucu etmək üçün gözü bağlı olan uşağı ağac kötüyü, çuxur, daş və ya təkər kimi maneələrin üzərindən keçirmək olar. Bu şəkildə partnyorlar arasında bir inam bağı qurulduqdan sonra, gözü bağlı olan uşağa yalnız şifahi təlimatlardan istifadə edərək bələdçilik edilə bilər. Bu halda bələdçi onun yaxınlığında olmalıdır ki, gözübağlı uşaq büdrəyəndə onu tuta bilsin.

Yuxarıdakı oyuna bir alternativ olaraq uşaqların hamısının gözlərini bağlamaq və sizin və ya uşaqlardan birinin bələdçilik etdiyi bir qatar yaratmaq olar.

**F. Rəngləmə: Rəsm 19**

**G. Bağlanış duaları**

# DƏRS 20

**A. Duaların oxunması və əzbərlənməsi**

Siz və bir neçə şagird açılış duaları oxuduqdan sonra son üç dərsdə öyrəndikləri duanı uşaqlarla birlikdə nəzərdən keçirin.

**B. Mahnılar (əvvəlki mahnıları da təkrar etməklə)**

Allah Sevgisinin Odunu Alovlandırmaq

D
Qəlbimdə
A
Bir alov var
G
Allahın qoyduğu
D
Xüsusi bir alov
A
Bu yanğındır
G
Yanğın
D
Onun sevgisindən

Xor:

D A
Mən dua edəcəyəm
Mən dua edəcəyəm *(səsin sədası)*

G
Allaha ki
A D A
Qəlbimi alovlandırsın
Qəlbimi alovlandırsın *(səsin sədası)*
G
Həmin alov ilə
A D A
Sevgisinin atəşiylə
G
Və mən çalışacağam ki
A D
İşığı bütün qəlbləri işıqlandırsın

Günbəgün
Bu alovu bəsləyəcəyəm
Mən hər dua edəndə
Yaxşılıqlar edəndə
Bu alov böyüyəcək
Mən hər dua edəndə
Bəşərə xidmət edəndə

Və bu alov yandıqca
Bu alov böyüdükcə
Onun yoluna gələnlər
Hamısı onu hiss edər
O, istilik gətirəcək
Onun yoluna gələnlərə
Hamısına, hər birinə

Xor

**C. Sitatların əzbərlənməsi**

Bu dərsin mövzusu alovlanmaqdır və aşağıdakı açıqlama sizə bu mövzunu və əzbərləmək üçün sitatı təqdim etməkdə kömək edəcəkdir:

Hər bir insan varlığı Allahı tanımaq və Onu sevmək üçün yaradılmışdır, bizim hamımızın qəlblərimizdə isə Onun məhəbbətinin bir qığılcımı vardır. Bu, çox mühümdür ki, Allaha hər gün dua etməklə və başqalarına xidmət etməklə Ona olan məhəbbət odunu şölələndirək, o, getdikcə böyüsün. Bu od qəlblərimizdə getdikcə daha da parlaq yandıqca qarşımıza çıxan hər kəs onu hiss edə bilər. Və onların qəlbləri də alovlanar. Biz bu cür alovlananda elə bir yanar şama çevrilirik ki, o, ətrafdakılara işıq və istilik verməkdən özünü saxlaya bilmir. Gəlin aşağıdakı sitatı əzbərləyək:

**“Ey insanlar, Allah sevgisinin istiliyi ilə alovlanın ki, başqalarının da qəlblərini alovlandırasınız”.**[122]

*Alovlanmaq*

1. Ev soyuq idi, ona görə də Akselin atası qərara gəldi ki, sobanı yandırsın. O, böyük kötükləri sobaya qoydu və balaca budaqları altdan yandırdı. Odun tezliklə alovlandı və ocaq otağı isitdi.

2. Bir alim məktəbə gəldi və uşaqlara kainatın necə işləməsi barədə çox maraqlı şeylər danışdı. Onun çıxışından sonra uşaqlar ona müxtəlif suallar verdilər. O, şagirdlərdə dünya haqqında daha çox bilmək arzusunu alovlandırmışdı.

**D. Hekayə**

*Tomas Breykvel Birləşmiş Ştatların cənubunda pambıq fabrikində mühüm bir vəzifə tutan və məzuniyyətlərini Avropada keçirən bir gənc idi. 1901-ci ilin yayında Avropaya gələrkən buxar gəmisində bir qadınla tanış oldu və onunla ruhani məsələlərdən danışmağa başladı. Onlar Parisə çatanda qadın onu özü ilə bir dostunun yanına apardı. Onun dostu şəhərdə bir mənzildə yaşayırdı və qadının bildiyinə görə Tomasla oxşar maraqları vardı. Gənc qadın onları salamladı və üçü birlikdə bir qədər söhbət etdilər. Getməzdən əvvəl Breykvel ev sahibindən bir daha gəlib söhbətlərini davam etdirməyin mümkünlüyünü soruşdu. Ev sahibi onu ertəsi gün səhər gəlməyə dəvət etdi.*

*Növbəti gün Breykvel gələndə gənc qadın onun gözlərinin parıldadığını, səsinin isə həyəcanla dolu olduğunu gördü. O, qonaqdan oturmasını rica etdi. Breykvel bir an diqqətlə ona baxdı, sonra isə ona qəribə bir təcrübə danışdı. Dünən o, xanımın evini tərk etdikdən sonra isti və ağır axşam havasında xiyabanda gəzişirdi. Ətrafda bir yarpaq belə tərpənmirdi. Birdən güclü külək qopdu və ona elə gəldi ki, küləkdəki səs Allahdan yeni müjdənin gəlişini söyləyirdi!*

*Gənc qadın onu sakitləşməyə çağırdı. Göründüyü kimi, qadın Breykvelin bəhs etdiyi müjdədən xəbərdar idi. Növbəti üç gün ərzində O, Breykvelə Bəhai Dini – onun tarixi və təlimləri – haqqında və bu təlimlərin kamil Nümunəsi, Müqəddəs Torpaqda, şəhər-məhbəs Əkkada yaşayan Həzrət Əbdül-Bəha haqqında saatlarla danışdı.*

*Üç günün sonunda Breykvelin ürəyi sevinc və ümidlə elə doldu ki, O, Əkkaya səfər edib Həzrət Əbdül-Bəhanı ziyarət etməkdən başqa heç nə istəmirdi. Elə oldu ki, məhz bu məqsəd üçün Müqəddəs Torpağa səfər planlaşdırmış başqa bir gənc də var idi və o, Breykvelin onu müşayiət etməsindən məmnun oldu. Beləliklə, ziyarət üçün icazə almaq məqsədilə Həzrət Əbdül-Bəhaya ismarış göndərildi və qısa bir müddət sonra onlar yola düşdülər.*

*Bu iki şəxs Həzrət Əbdül-Bəhanın evinə gəlib çatanda onları bir neçə başqa adamın da toplaşdığı bir otağa apardılar. Ətrafa baxdıqda Breykvel dərindən narahatlıq hissi keçirdi. Otaqda bir nəfər də yox idi ki, onun ürəyi ona cəzb olunsun və düşünəndə ki, Həzrət Əbdül-Bəha buradakı insanların arasındadır, o, qorxdu ki, haqqında Parisdə öyrəndiyi o Səmavi Şəxsi düzgün tanıya bilməyib. O, ümidsizlik içində oturdu. Elə bu an qapı açıldı və Breykvel başını qaldırıb yuxarı baxdı. O, parlaq bir işıq gördü və oradan Həzrət Əbdül-Bəhanın surəti göründü. O, dərhal anladı ki, onun ən əziz arzusu yerinə yetmişdir.*

*Breykvel iki şərəfli günü Həzrət Əbdül-Bəhanın hüzurunda keçirdi və bu iki gündə onun qəlbində alovlanmış ataş getdikcə gücləndi. Breykvel Həzrət Əbdül-Bəhaya*

*uşaqların fəhlə kimi işlədildiyi pambıq fabrikindəki işindən danışanda Həzrət Əbdül-Bəha ona məsləhət gördü ki, vəzifəsindən istefa versin, Breykvel isə tərəddüd etmədən bunu etdi. Ziyarətindən sonra o, Parisə qayıtdı, onun ruhu alovlanmışdı. Qısa ömrünün sonuna qədər qəlbində alovlanan işığı görüşdüyü hər kəslə bölüşərək parlaq bir şam kimi yandı. Onun vəfat etməsilə Həzrət Əbdül-Bəha onun şərəfinə bir Lövh izhar etdi, orada aşağıdakı ayə vardı: "Ey Breykvel, Ey mənim əzizim! Sən Mələyi-Əlanın lampasında işıq yandırdın, sən Əbha Cənnətinə ayaq basdın, Mübarək Ağacın kölgəsində pənah tapdın, Cənnətin sığınacağında Onun görüşünə nail oldun".*

**E. Oyun: "Xəstəyə Kömək Et"**

Özünü "xəstə" kimi aparması üçün uşaqlardan birini seçin. Sonra isə qalan uşaqların ikisindən xahiş edin ki, üz-üzə dayanıb bir-birinin bazu önündən tutaraq "stul" əmələ gətirsinlər. Uşaqların ölçüsü və bacarıqlarından asılı olaraq başqa alternativ formalarda da stul əmələ gətirmək olar. Bu zaman hər iki uşaq sol əlləri ilə özlərinin sağ biləklərini tutmalıdırlar. Sonra isə uşaqlardan sağ əlləri ilə bir-birinin sol biləyindən tutmalarını rica edin.

Digər uşaqlar isə "xəstə"ni stula oturtmaqda kömək etməlidirlər. Bir ağacı və ya başqa bir yeri "xəstəxana" olaraq seçin və stul əmələ gətirən uşaqlardan xahiş edin ki, "xəstə"ni həmin yerə aparsınlar.

Daha böyük bir qrupda uşaqlardan iki cərgədə üz-üzə dayanmaqla stul əvəzinə "xərək" düzəltmələri istənilə bilər. Onlar qollarını dirsəkdə bükməli, qarşısındakı uşağın qolunun bazu önündən yapışmalıdırlar. Sonra isə "xəstə" xərəkdə uzadılmalı və "xəstəxana"ya aparılmalıdır. Uşaqlara "xəstə"ni sağlamlıq mərkəzinə təhlükəsiz şəkildə çatdırmaq üçün hər kəsin birlikdə çalışmalı olduğunu xatırladın. "Xəstənin yıxılmasına icazə versək," deyə bilərsiniz, "o, əziləcək və hamımız kədərlənəcəyik. Ancaq problemsiz bir şəkildə sağlamlıq mərkəzinə çatsaq, özümüzü xoşbəxt və məmnun hiss edə bilərik, çünki dostumuza kömək etmiş olacağıq".

**F. Rəngləmə: Rəsm 20**

**G. Bağlanış duaları**

## DƏRS 21

**A. Duaların oxunması və əzbərlənməsi**

Bu və növbəti üç dərsdə hər dərs dövrünü açmaq üçün əzbərdən bildiyiniz bir dua oxuyun, məsələn, Bölmə 19-da təklif olunan dua kimi. Siz və uşaqlardan bir neçəsi açılış dualarını oxuduqdan sonra onlara bu səviyyədə əzbərləyəcəkləri sonuncu dua olan aşağıdakı duanı təqdim edə bilərsiniz.

> **"Sən ey mehriban Rəbb! Mən balaca bir uşağam, məni səltənətə qəbul edərək ucalt. Mən faniyəm, məni səmavi et; aşağıdakı dünyaya məxsusam, qoy yuxarıdakı aləmə məxsus olum; tutqunam, qoy parlaq olum; maddiyəm, məni mənəvi et və mənə sonsuz nemətlərini təzahür etdirməyimi nəsib eylə.**
>
> **"Sən Qüdrətlisən, Sevənsən".**[123]

**B. Mahnılar (əvvəlki mahnıları da təkrar etməklə)**

Nur

E A
Biz yuxarıdan parlayan işığı əks etdirdikdə
B E
Qəlbimiz xeyirxahlıq və sevgi ilə parlayacaq
E A
Şən, işıqlı və parlaq olduğumuz üçün
B E
Ətrafda hamı Onun işığının istiliyini hiss edəcək

Xor:
E A
Ey Oğul! Ey Varlıq Oğlu!
B E
Sən Mənim çırağımsan və Mənim işığım səndədir!
E A
Ey Oğul! Ey Varlıq Oğlu!
B E
Sən Mənim çırağımsan və Mənim işığım səndədir!

Allah sevgisinin axması heç vaxt dayanmır
Biz xidmətə qalxdıqca onun parlaqlığı artacaq
Tərəddüd etmə! Sadəcə parla! Bütün qüdrətinlə
Hər qəlb Onun nuru ilə dolana qədər

Xor *(son sətri təkrarlamaqla)*

**C. Sitatların əzbərlənməsi**

Bugünkü dərsdə uşaqlar nur keyfiyyəti haqqında bir sitat əzbərləyəcəklər, siz onu aşağıdakı kimi təqdim edə bilərsiniz:

> Allah sevgisinin nuru qəlblərimizi nurlandırmaqdan heç vaxt imtina etmir. Bu işıq get-gedə daha da gur parladıqca bizim qəlblərimiz Onun məhəbbəti ilə nurlanır. Allah elminin işığı – Onun əzəmətinin və izzətinin elmi – gözlərimizə nur verir. Səxavətli əməllərimiz və xoş sözlərimiz vasitəsilə sevgi və bilik işığı parlayır. Ətrafımızdakılar sevincimizin şöləsindən təsirlənirlər. Gəlin nur saçmaq keyfiyyətinin vacibliyini yadda saxlamağımıza kömək etməsi üçün aşağıdakı sitatı əzbərləyək:
>
> **“Ey Varlıq Oğlu! Sən Mənim çırağımsan və Mənim işığım səndədir. Ondan nurlan və Məndən başqasını axtarma”.**[124]

*Nur*

1. Tayrel yuxudan oyananda otaq günəş işığı ilə dolmuşdu. O, günəşin nuru ilə qarşılandığı üçün xoşbəxt idi.

2. Xanım Santos hər kəsi öz ailəsi kimi sevir. O, başqalarına qarşı həmişə səxavətli, mehriban və yardımsevərdir. Onun qarşılaşdığı hər kəs onun ürəyindəki hamıya nəşə gətirən məhəbbəti hiss edir. Hər kəs onun nurundan mütəəssir olur.

*Axtarmaq*

1. Körpə quş yumurtadan çıxanda ana quş onu yedirmək üçün yem axtaracaq. Ana quş quşcuğaz üçün yem axtarmalı olur.

2. Məktəb bütün şagirdləri xüsusi ekskursiyaya dəvət etdi. İştirak etmək üçün valideynlərin icazəsi lazım idi. Bütün şagirdlərdən xahiş edildi ki, ekskursiyaya getmək üçün valideynlərinin icazəsini axtarsınlar.

**D. Hekayə**

*Çox güman ki, bir gün haqqında daha çox şeylər öyrənəcəyiniz Doroti Beyker gənc qız ikən Həzrət Əbdül-Bəha ilə görüşmək şərəfinə nail olmuşdu. Həzrət Əbdül-Bəhanın Qərbə səfərləri zamanı Dorotinin nənəsi onu Onunla görüşməyə aparmışdı. Əvvəllər heç vaxt gəlmədikləri bir evə gəldilər və Doroti çoxlu insanların olduğu bir otağa daxil oldu. Orada çoxlu insanlar sakitcə söhbət edirdilər və ehtiramla Həzrət Əbdül-Bəhanın danışmağa başlamasını gözləyirdilər. Doroti və nənəsi otağa daxil olanda Həzrət Əbdül-Bəha gülümsədi və gənc Dorotiyə işarə etdi ki, Onun yanında əyləşsin. İstəkli, amma bir az da həyəcanlı şəkildə o, otağın içindən keçdi. Başını qaldırmadan, diqqətlə bütün qonaqların yanından keçərək Onun ayaqları yaxınlığında ayaq kətilinə çatdı.*

*Həzrət Əbdül-Bəha danışarkən Doroti başını aşağı salmış, gözlərini özünün qara ayaqqabılarına dikmişdi. O Ona baxmağa cəsarət etmirdi. Lakin tədricən onun qorxusu aradan qalxdı. Həzrət Əbdül-Bəhanın sevgi dolu varlığının istiliyinə cəzb olundu. Onun parlaqlığı cəzbedici idi. Hərəkət etdiyini özü də hiss etmədən, Doroti Ona tərəf çevrilərək dirsəklərini dizlərinə və əllərinə çənəsini qoyub Həzrət Əbdül-Bəhanın nurlu üzünü seyr etdi.*

*Doroti o gün Həzrət Əbdül-Bəhanın nədən danışdığını heç cür xatırlaya bilmirdi. Xatırladığı şeylər Onun mehriban siması, məlahətli səsi və hüzurunun hərarəti idi. Həzrət Əbdül-Bəhanın sevən gözləri sanki ona Allahın ruhani aləmlərindən xəbər verirdi. Onun qəlbində alovlanan Allah sevgisi vaxt keçdikcə elə gücləndi ki, o, Həzrət Əbdül-Bəhaya məktub yazmaq qərarına gəldi. Doroti yalvardı ki, Ona və Atasının, Həzrət Bəhaullahın Əmrinə xidmət etməsi üçün ona icazə versin. Dorotiyə cavabında Həzrət Əbdül-Bəha onun məqsədini tərifləyir, Allahın kəramət və nemətlərindən onu əmin edir və ümidini ifadə edirdi ki, o, istəyinə müvəffəq olacaq. Doroti isə, həqiqətən bütün həyatını Allaha və bəşəriyyətə xidmətə həsr etdi.*

**E. Oyun: "İkitərəfli Nüsxə"**

Uşaqları cütlüklərə bölün, hər bir uşaq cütlükdəki digər uşağın üzünə baxsın. İndi isə hər cütlükdə bir uşaqdan sadə fiziki hərəkətlər etməsini istəyin, ikinci uşaq isə onun hərəkətlərini güzgü kimi əks etdirsin. Bir neçə dəqiqədən sonra tərəfdaşlar rollarını dəyişə bilərlər. Onlardan, həmçinin hərəkətlərdən daha çox üz ifadələrini əks etdirmələrini də istəyə bilərsiniz. Sonra isə hər cütlükdə bir uşaq digərinin arxasında dursun. Öndəki uşaq hərəkət edən kimi arxadakı da onun hərəkətlərinin kölgəsi kimi hərəkət etməlidir.

**F. Rəngləmə: Rəsm 21**

**G. Bağlanış duaları**

# DƏRS 22

**A. Duaların oxunması və əzbərlənməsi**

Açılış dualarından sonra uşaqlar son dərsdə təqdim olunmuş duanı əzbərləməyə davam edə bilərlər.

**B. Mahnılar (əvvəlki mahnıları da təkrar etməklə)**

Mən Xoşbəxt Olmaq İstəyirəm

Am
Bir şeyi bilməyin gərəkdir indi
Am E7
Biz bu Dində göstərməliyik ki
Dm
Biz əməl əhliyik, söz əhli deyil
Am E7 Am
Həyatımız dosta, yada Dinimizi əks etdirməlidir

Xor:
Am
Mən xoşbəxt olmaq istəyirəm
Am
Mən güclü olmaq istəyirəm
Am
Bütün həyatım boyu Ona
Am
Xidmət etmək istəyirəm
Dm Am
Ona görə də gərək mən
Allahın qanunlarına itaət edəm
E7 Am
Bəli, Onun qanunlarına itaət edəm

Bir şeyi bilməyin gərəkdir indi
Bu cah-calal, təm-təraq dünyasında
Yorulub boş danışıqdan insanlar
İşdə görmək istəyirlər sənin öyrətdiyini

Xor

## C. Sitatların əzbərlənməsi

Bu dərsdə uşaqlar dərsin mövzusu olan vəfalılıq üzərində fokuslanan aşağıdakı sitatı əzbərdən oxumağı öyrənəcəklər. Onu təqdim etməkdə sizə kömək etmək üçün aşağıda bir neçə fikir verilmişdir:

> Vəfalı ruh Allahın ona bəxş etdiyi bütün nemətləri heç vaxt unutmur; o, heç vaxt Allahı sevməyi dayandırmır. Bizim Ona olan vəfamızdandır ki, biz həmişə, hətta çətin olduqda belə, Onun təlimlərinə əməl etməyə və qanunlarına itaət etməyə səy göstəririk. Ona görə də biz inadla çalışırıq ki, Onun razılığına nail olmaqdan başqa heç nə düşünməyərək başqalarına xidmət edək və layiqli əməllər sergiləyək. Vəfalı ruh üçün Allahı razı etməyə çalışmaqdan daha böyük bir həzz yoxdur. Gəlin Həzrət Bəhaullahın bu sitatını əzbərləyək:
>
> **“Bəxtəvərdir o vəfadar kəs ki, ali səylər libası ilə bəzənib və bu Əmrə xidmət etmək üçün ayağa qalxıb”.**[125]

*Bəzənmək*

1. Meyin gözəl bir libası var ki, onu ancaq xüsusi tədbirlərdə geyinir. O bu libası icma yığıncağında geyinib. Mey öz xüsusi libası ilə bəzənib.

2. Natalya hamıya qarşı mehribandır. Allah onun ruhunu mehribanlıqla bəzəyib.

*Libas*

1. Bəzi yerlərdə hakimlər məhkəmədə ağ rəngli süni parik qoymalı və uzun qara mantiya geyinməlidirlər. Onlar hakimlərə məxsus libasda olmalıdırlar.

2. Sarayı tərk etməzdən əvvəl şahzadə qurşağını geyindi və tacını qoydu. O, zadəgan libasını geyindi.

3. Yakob hər səhər evdən çıxmazdan əvvəl dua edir. Dualar onun ruhu üçün libas kimidir. Onlar onu gün boyu gücləndirir və qoruyurlar.

*Səy*

1. Şagirdlər məktəbin ətrafında ağaclar əkmək qərarına gəldilər. İcma isə onlara fidanlar və torpaq verməklə onların səylərini dəstəklədi.

2. Pyer və Arlen qərara gəldilər ki, dağın başına dırmaşsınlar. Onlar bilirdilər ki, bu, çətin bir səy olacaqdır, lakin onlar cəhd etməkdə qərarlı idilər.

## D. Hekayə

> *Həzrət Əbdül-Bəha gənc oğlan olanda Onun İranın əsilzadə zümrəsindən olan ailəsinin İsfəndiyar adlı bir xidmətçisi vardı. O, ailəyə çox sədaqətli idi və onlar ona çox etibar edirdilər. Hakimiyyət dairələri həsəd və cahillik ucbatından Həzrət Əbdül-Bəhanın sevgili Atasını, Həzrət Bəhaullahı həbs edəndə ailənin bütün əmlakını əllərindən aldılar. Onların heç nəyi yox idi və Həzrət Bəhaullaha yaxın olan hər kəsi təhlükə gözləyirdi. Amma İsfəndiyar yenə də ailəyə xidmət etməkdə davam edirdi. Həzrət Əbdül-Bəhanın*

*çoxlu zabitlərin İsfəndiyarı axtaracaqlarını bilən anası onu məcbur edirdi ki, şəhərdən çıxsın, lakin İsfəndiyar getmədi.*

*"Mən gedə bilmərəm," – o dedi və satın aldığı şeylər üçün bir çox dükan sahibinə borclu olduğunu izah etdi. "Mən necə gedə bilərəm?" – o soruşdu. "Onlar deyəcəklər ki, Həzrət Bəhaullahın xidmətçisi dükançıların mallarını və ərzağını alıb və istifadə edib, pullarını isə ödəməyib. Mən bu borcların hamısını ödəməyincə gedə bilmərəm. Amma əgər onlar məni həbs etsələr də eybi yoxdur. Əgər məni cəzalandırsalar, bir ziyanı yoxdur. Əgər məni öldürsələr, qəmgin olmayın. Amma mənim çıxıb getməyim mümkün deyil. Mən bütün borclarımı ödəyənədək qalmalıyam".*

*İsfəndiyar bir ay ərzində küçələrdə və bazarlarda dolaşdı, əlində olan xırda şeyləri satdı. Son qəpiyinə qədər borcunu ödədikdən sonra o, ailənin yanına gəldi və vidalaşdı, çünki bilirdi ki, daha onlarla qala bilməyəcək. Bir vəzir onu bu təhlükəli zamanda qəbul edib qorumağa və sığınacaq verməyə razılıq verdi.*

*Aylar sonra Həzrət Bəhaullah zindandan azad olundu və O və ailəsi hökumət tərəfindən İrandan sürgün edildilər. Onlar qonşu ölkədəki Bağdad şəhərinə getdilər. Həzrət Bəhaullaha həmişə vəfalı olan İsfəndiyar Bağdada getdi və Həzrət Bəhaullahın evində yenidən xidmət etməyinin mümkünlüyünü soruşdu. Həzrət Bəhaullah ona dedi: "Sən bizi tərk edəndə bir İran vəziri vardı ki, sənə sığınacaq verdi, o zaman ki, heç kəs səni mühafizə edə bilməzdi. O sənə sığınacaq verdiyi və səni qoruduğu üçün sən ona vəfalı olmalısan. Əgər o onun yanından getməyinə xoşnudluqla razı olsa, onda bizim yanımıza gəl; əgər o sənin getməyini istəməsə, onda onu tərk etmə".*

*Əlbəttə, İsfəndiyar o qədər dürüst, o qədər etibarlı və sədaqətli idi ki, vəzir onun getməsini istəmədi. "Ey İsfəndiyar!" – o dedi, – "mən istəmirəm ki, sən gedəsən, amma əgər sən getmək istəyirsənsə, onda sən istəyən olsun". Lakin İsfəndiyar Həzrət Bəhaullahın sözlərini xatırladı. Vəzir vəfat edənə qədər İsfəndiyar onun xidmətində qaldı, sonra isə o, çox sevdiyi ailənin yanına qayıtdı və ömrünün sonuna qədər Həzrət Əbdül-Bəhaya xidmət etdi.*

**E. Oyun: "Qapımı Döyən Kimdir?"**

Uşaqlardan birinin gözlərini bağlayın, o, skamyada arxası digər uşaqlara tərəf olmaqla otursun. Sonra isə başqa bir uşağa işarə edin. O, gözləri bağlı olan uşağa yaxınlaşmalı və skamyanı taqqıldatmalıdır. Oturan uşaq deyir: "Kimdir mənim qapımı döyən?" O biri uşaq isə öz səsini gizlətməyə çalışaraq deyir: "Mənəm!" Oturmuş uşaq çalışır ki, "qapını döyən" uşağın kim olduğunu tapsın. Gözləri bağlı olan uşağa üç ad çəkməyə imkan verilir, sonra isə növbə başqa uşaqlara keçir. Uşaqların nəzərinə çatdıra bilərsiniz ki, gözü bağlı olan uşaq diqqətlə qulaq asanda, sinfin qalan hissəsi çox sakit olmalıdır.

**F. Rəngləmə: Rəsm 22**

**G. Bağlanış duaları**

# DƏRS 23

## A. Duaların oxunması və əzbərlənməsi

Dərsi dualarla aça və sonra uşaqlara Dərs 21-də təqdim olunmuş duanı əzbərləmək səylərində irəliləməyə kömək edə bilərsiniz.

## B. Mahnılar (əvvəlki mahnıları da təkrar etməklə)

Səbr

D A
Yorulub ayaqların
A D
Yolsa hələ uzanır
D A
Təslim olmaq istərsən
A D
Günəş də güclü vurur
G D
Səbirsizlik mənasızdır
G D
Ağlamaq faydasızdır
G D
Getsən sən addım-addım
A D
Ötüb keçəcək vaxtın

Xor:

G D
Səbirdir sənin cavabın
G D
Olanda yorğun, qəmgin
G D
Səbirin mükafatı var
A D
O səni xoşbəxt edər

Çox izah etsən də sən
Anlamır qardaş səni
Yenə çalış, cəhd et sən
Elə əldən gələni
Səbirsizlik mənasızdır
Sərtliksə faydasızdır
Onunla mehriban ol
Onda o, başa düşər
Bax budur ən yaxşı yol

Xor

İstədiyin hər şeyi
Yaxşı etmək istərsən
Lakin, gəl ki, hələ də
Sən müvəffəq deyilsən
Nə var axı cəhd edəcək?
Axı bu yol hara gedəcək?
Səbirsizlik mənasızdır
Tənbəllik anlamsızdır
Cəhd edib, səy göstərsən
İrəli gedəcəksən

Xor

**C. Sitatların əzbərlənməsi**

Uşaqlar bu dərsdə səbirə aid bir sitat əzbərləyəcəklər və siz onu aşağıdakı tərzdə təqdim edə bilərsiniz:

Səbir bizim malik ola biləcəyimiz ən mühüm keyfiyyətlərdən biridir. Səbir etmədən bu həyatda biz çox az şeyə nail ola bilərik. Təhsilimizdə, işimizdə, ailəmizdə, başqaları ilə dostluğumuzda, ruhani cəhətdən inkişaf etmək üçün göstərdiyimiz səylərdə səbir zəruridir. Həyatda heç də hər şeyi tez həll etmək mümkün olmur. Bir çox şeylər ancaq az-az, gündən-günə edilə bilər. Səbirli olduğumuz zaman vaxt tələb edən şeyləri tələsdirməyə çalışmırıq. Biz başqalarına və özümüzə qarşı səbirli olmalıyıq, çünki biz hamımız öyrənir və böyüyürük. Gəlin səbirli olmağı öyrənmək səylərimizdə bizə kömək etməsi üçün aşağıdakı sitatı əzbərləyək:

**"O, həqiqətən, səbirlə dözənlərin mükafatını artırandır".**[126]

*Mükafat*

1. Xanım Anderson öz sinfindəki şagirdlərin hazırladıqları əla elmi layihələrdən çox razı qaldı. O, mükafat olaraq onları yaxınlıqdakı bir akvariumu ziyarət etməyə apardı.

2. Alena gitara çalmağı öyrənməyə hər gün vaxt ayırdı. Kiçik qardaşı üçün şirin bir mahnı oxuduğunda, qardaşının üzündəki sevinc, onun səylərində ehtiyac duyduğu mükafatı idi.

*Dözmək*

1. Aliyə və onun ailəsi çox uzaq bir yerə köçdülər. İlk bir neçə ay onlar çox çətinliklər çəkdilər. Lakin mehriban qonşularının köməyilə onlar bu çətinliklərə dözə bildilər və indi yeni evlərində çox xoşbəxtdirlər.

2. Hyu xəstələndi. O, bərk ağrıyırdı, lakin şikayət etmirdi. O, iztirablarına səbirlə dözürdü.

**D. Hekayə**

*Li Ksin şaftalını çox xoşlayırdı. O, hər gün özü ilə məktəbə bir şaftalı gətirər, nahar fasiləsində yeyərdi. O, hər dişləkdən ləzzət alırdı, lakin o, həmişə şaftalının içindəki toxumla birlikdə çəyirdəyi atardı.*

*Bir gün Li Ksinin sinfi toxumlar barəsində öyrənirdi. Bu, Li Ksinə bir ideya verdi. O, yediyi şaftalının çəyirdəyini əkəcək və onu cücərdib ağac olanadək böyüdəcəkdi! Naharda o, şaftalının çəyirdəyini saxladı və onu bir kağız parçasına bükdü. Dərs bitən kimi o, evə tələsdi və atasından xahiş etdi ki, toxumu əkmək üçün yer tapmaqda ona kömək etsin. Atası ona xatırlatdı ki, o, çəyirdəyin qurumasını gözləməlidir ki, toxumu onun içərisindən çıxarsın. Amma Li Ksin yenə də çəyirdəyi torpağa dərhal basdırmaq istəyirdi. "Li Ksin," – atası ona dedi, – "əgər çəyirdəyin qurumasını gözləmək üçün səbrin çatmırsa, onda toxumun cücərməsini hansı səbirlə gözləyəcəksən?" Odur ki, Li Ksin çəyirdəyi qurumağa qoydu.*

*Bir neçə gün keçdikdən sonra Li Ksin, nəhayət ki, çəyirdəyi qırıb toxumu çıxara bildi. Anası həyətin bir küncündə bu toxumun cücərib böyük bir ağaca çevrilə biləcəyi yeri göstərdi. Li Ksin balaca bir çala açdı, toxumu oraya atdı və üzərini nəm torpaqla örtdü. O, sevincək gülümsədi. Onun ağacı, nəhayət ki, böyüməyə başlayacaqdı!*

*Li Ksin hər gün toxumu əkdiyi yerə gedir və toxumun cücərməsinə dair bir nişanə görməyi ümid edirdi. Lakin həftələr keçdi, toxum cücərtisi görünmədi, Li Ksin ruhdan düşməyə başladı. Li Ksinin narahatlığını görən anası ondan niyə narahat olduğunu soruşdu. "Mənim əkdiyim toxum cücərmir," – Li Ksin dedi. "Görəsən nə vaxtsa mənim ağacım olacaqmı?" "Yaxşı," – anası dedi, – "bu toxum uzun müddətə cücərir. Bu mənada o sənə çox bənzəyir. Sən doğulanda çox balaca bir şey idin, ancaq yeyir və yatırdın. Bir indi özünə bax! Sən cavan bir oğlansan, gəzirsən, danışırsan, özün sərbəst fikirləşirsən! Bu ağacın böyüməsi üçün illər lazım ola bilər, lakin onu yaxşı becərsən onda bir gün sən onun kölgəsində oturacaq, meyvələrindən ləzzət alacaqsan". Bu barədə düşünəndə Li Ksin yenidən ümidləndi. O, dərslərindən bilirdi ki, toxum hətta cücərməsi üçün çox dəyişikliklərdən keçməlidir.*

*Sonra bir yaz günü Li Ksin həmişəki kimi toxum əkdiyi yerə baxmağa gedəndə torpaqdan kiçik bir cücərtinin baş qaldırdığını gördü və sevindi! Onun ağacı böyüməyə başlamışdı! O, fermer qonşusunun yanına qaçdı və bu sevindirici xəbəri ona dedi. O, hələ çox kiçik və zərif olan ağaca necə qulluq etmək barədə ona məsləhət verdi, Li Ksin isə onun hər sözünə diqqətlə qulaq asdı ki, bacardığı qədər onu yaxşı böyütsün. "Tezliklə sizin faydalı məsləhətlərinizə minnətdarlıq əlaməti olaraq vermək üçün çoxlu şaftalılarım olacaq," – Li Ksin dedi. Qonşu isə sadəcə gülümsədi. "Li Ksin, yadındadırmı, çəyirdəyin qurumasını sən necə səbirlə gözləməli oldun?" Li Ksin başı ilə təsdiqlədi. "Onu da xatırlayırsanmı ki, toxumun cücərməsi üçün ondan daha çox səbir lazım gəldi?" Li Ksin bunu da xatırlayırdı. "Elə isə," – qonşu dedi, – "bundan daha artıq vaxt lazım olacaq ki, sənin fidanın ağac olsun, ondan sonra da gərək bir qədər gözləyəsən ki, o, meyvə versin. Ağacın sənin həzz alacağın meyvələri verməyə hazır olması üçün illər lazımdır".*

*Beləliklə, Li Ksin ağaca qulluq etdi, cücərtidən fidana, fidandan isə yetkin bir ağaca çevrilməsinə qədər onu bəslədi. Onun böyüməsi kimi ağac da yavaş-yavaş ucaldı, qol-budaq atdı. Və günlərin birində Li Ksin məktəbdən qayıdanda əvvəllər çiçəklər olan yerlərdə ağacın ilk şaftalılarının əmələ gəldiyini gördü. Toxum ilk dəfə cücərəndə onun ürəyini doldurmuş sevinc hissini yenidən hiss etdi. Və o, bir daha bildi ki, səbirli olmalı idi. Amma hələ bir qədər də gözləmək lazım gələcəkdi ki, meyvə yeyilməyə hazır olsun.*

**E. Oyun: "Start Verəni Tap"**

Bir uşağın gözünü bağlayın və onun qrupun qalan hissəsindən əks tərəfə dönməsini istəyin. Sonra "start verən" olacaq başqa bir uşağa sakitcə işarə edin. İlk uşaqdan qrupa yenidən qoşulmasını xahiş etməzdən əvvəl, digərlərinə "start verən" tərəfindən edilən

hərəkətləri izləməyi məşq etdirməklə kömək edin. Məsələn, əgər o, əl çalırsa, hamı da əl çalmalıdır. Əgər o, xudahafizləşmək mənasında əlini yelləyirsə, hamı da bunu etməlidir. Artıq ilk uşaq gözlərini aça və yenidən qrupa qoşula bilər. O, diqqətlə baxmalı və “start verən” rolunu kimin oynadığını aşkar etməyə çalışmalıdır. Eyni zamanda da qalan uşaqlar ehtiyatlı olmalıdırlar ki, hərəkətləri başladan uşağa tez-tez və ya yaxından baxmasınlar ki, axtaran onu asanlıqla tapmasın. Uşaqlar növbə ilə “start verən” və ya təxmin edən ola bilərlər.

**F. Rəngləmə: Rəsm 23**

**G. Bağlanış duaları**

# DƏRS 24

## A. Duaların oxunması və əzbərlənməsi

Həmişə olduğu kimi dərsi dualarla açın və sonra isə uşaqlarla birlikdə son bir neçə dərsdə əzbərdən söyləmək üçün öyrəndikləri duanı nəzərdən keçirin.

## B. Mahnılar (əvvəlki mahnıları da təkrar etməklə)

Allah Sevgisində Möhkəm

G C
Biz gəzirik, biz gəzirik
D G
Allah yolunda gedirik
G C
Biz möhkəmik, biz möhkəmik
D G
Allah sevgimizdə möhkəmik
G C
Allah yolunda gedirik
D G
Dərdlər qarşımıza çıxanda
G C
Allah sevgimizdə möhkəmik
D G
Onun yolunda dönmərik

Biz xidmət edirik, xidmət edirik
Allahın Əmrinə xidmət edirik
Biz möhkəmik, biz möhkəmik
Allah sevgimizdə möhkəmik
Allahın Əmrinə xidmət edirik
Üzərimizə düşəni hər vaxt edirik
Allah sevgimizdə möhkəmik
Sevincli qəlblərlə xidmət edənik

Biz qalxırıq, biz qalxırıq
Qəlblərimiz Allaha tərəf, qalxırıq
Biz möhkəmik, biz möhkəmik
Allah sevgimizdə möhkəmik
Qəlblərimiz Allaha tərəf, qalxırıq
Onun köməyindən şübhələnmərik
Allah sevgimizdə möhkəmik
Bu yolla kədərimizi azaldırıq

## C. Sitatların əzbərlənməsi

Aşağıdakı ideyalar uşaqların bu son dərsdə əzbərləyəcəkləri, mətinlik mövzusu üzərində fokuslanan sitatı təqdim etməkdə sizə kömək edəcək.

Allahı həqiqətən sevən bir insanın ən vacib keyfiyyətlərindən biri mətinlikdir. Həyatda nə baş verirsə versin, biz Allahı və Ona olan məhəbbətimizi həmişə xatırlayırıq. Ona görə də başqalarının dediyi və etdiyi heç nə bizim Ona olan imamımıza təsir edə bilməz. Biz onu sevir, Onun qanunlarına və təlimlərinə itaət edirik. Gəlin həmişə mətin olmalı olduğumuzu yadda saxlamaq üçün Həzrət Bəhaullahın aşağıdakı sitatını əzbərləyək.

**“Sənin məqamın son dərəcə uca olacaq, əgər sən öz Mövlanın Əmrində mətin olsan”.**[127]

*Son dərəcə*

1. Bu bağlar Xavierin gördüyü ən gözəl bağlardan belə son dərəcə gözəl idi. O bundan daha gözəl bir bağ təsəvvür edə bilməzdi.

2. Keletsonun anası ailəsi üçün çox xüsusi bir piroq bişirdi. Onlar onu ləzzətlə yedilər və hamı dedi ki, bu, son dərəcə dadlı idi.

*Uca*

1. Marta hər gecə yatmamışdan əvvəl dua edir və özünü Allaha yaxın hiss edir. Yatmağa gedəndə onun ruhu uca bir halətdə olur.

2. Görüşdə Kumar dünya sülhü və bəşərin rifahı barədə çıxış etdi. Kumar uca ideyalardan danışdı.

*Mətinlik*

1. Dostu davamlı olaraq Rozmeriyə deyir ki, ulduzlar səmada olan kiçik lampalardır, lakin Rozmeri dərsdə öyrənib ki, əslində hər bir ulduz çox uzaqda olan bir günəşdir. Rozmeri fikrindən dönmür. O, həqiqət olduğunu bildiyi şeydə mətinliklə dayanıb.

2. Kimsə Monaya deyib ki, hər gün dua oxumaq vacib deyil, lakin o, dua oxumaqda davam edir, çünki bilir ki, dua oxumaq Allahın bir qanunudur. Mona dua etmək qanununa riayət etməkdə mətindir.

## D. Hekayə

*Siz bəlkə də bilirsiniz ki, Bəhiyyə Xanım Həzrət Əbdül-Bəhanın kiçik bacısı idi. Onun sevgili Atası Həzrət Bəhaullahın ədalətsiz hökumət tərəfindən həbs edilib zindana salındığı zaman onun altı yaşı ancaq olardı. Başqa bir hekayədən xatırlayırsınız ki, onun ailəsi əsilzadə ailəsi idi. Lakin Atasının həbsindən sonra ailənin bütün mülkü əllərindən alınmışdı. Torpaqları, evləri, mebelləri, əşyaları – hamısı alınmışdı. Ailədə demək olar ki, heç bir şey, hətta yemək üçün belə nəsə qalmamışdı. O və sevgili böyük Qardaşı Həzrət Əbdül-Bəha ac olduqda və onlara veriləcək çörək olmadıqda, anaları bunun əvəzinə yemələri üçün onların ovuclarına bir az un tökürdü.*

*Bir müddət sonra, Atası zindandan buraxıldı və hökumət tərəfindən vətənini tərk etməyə məcbur edildi. Bəhiyyə Xanım və ailəsi qışın şiddətli soyuğunda qonşu ölkədəki bir şəhərə, Bağdad şəhərinə yola düşdülər. Şəhərə çatmaq üçün nəhəng, qarla örtülmüş dağlardan keçməli idilər. Səfər təhlükəli idi və bunun üçün əldə etdikləri tədarük yetərli deyildi. Paltarlarının onları qar və soyuqdan qorumaqda çox az köməyi dəyirdi. Yalnız qatırların köməyi ilə onlar yavaş-yavaş dağların yüksək zirvələri boyunca irəlilədilər. Çox vaxt, vəhşi təbiətin ortasında gecə düşərgəsi qurmalı olurdular. Ancaq Allah onları qorudu və Onun tükənməz köməyi ilə üç aydan sonra onlar sağ-salamat Bağdada çatdılar. Bəhiyyə Xanım bir daha heç vaxt doğulduğu ölkəyə geri qayıtmayacaqdı.*

*Ömrünün sonuna qədər Bəhiyyə Xanım Atasının əzablarını və sürgünlərini paylaşdı. Nəhayət, hökumət Həzrət Bəhaullahı Əkka şəhər-məhbəsinə sürgün etdi, harada ki, Bəhiyyə Xanım və ailəsi ən qatı cinayətkarların arasında yaşayacaqdı. Sevgili Atası bu dünyadan köçdükdə, Bəhiyyə Xanım, Atasının Dininin Başçısı olaraq təyin olunmuş sevimli qardaşı Həzrət Əbdül-Bəhaya sədaqətlə dəstək oldu. Uzun illər sonra Həzrət Əbdül-Bəha da o biri dünyaya köçəndə Bəhiyyə Xanım Onun Əmrin Vəlisi təyin etdiyi nəvəsi, gənc Şövqi Əfəndinin ən böyük dayağı və dəyanətli müdafiəçisi oldu.*

*Bəhiyyə Xanım artıq yaşlı bir qadın idi. Onun həyatı çaxnaşma və sarsıntılarla dolu olmuşdu. O, məşəqqətdən məşəqqətə, fəlakətdən fəlakətə düşmüşdü. Lakin onun ruhu səbatlı qaldı, ürəyi daim Allah sevgisi ilə dolu oldu. O, ömrünün son günlərində belə dəyanətli və mətin idi.*

## E. Oyun: “Yardım Əli”

Uşaqlardan cütlüklər yaratmalarını və partnyorları ilə əl-ələ tutmalarını istəyin. Əvvəlcə gözləri açıq şəkildə ətrafda cüt-cüt gəzmələrini təmin edin. Onlar kiçik addımlarla başlamalı və addımları getdikcə daha da böyüməlidir. Hər cütlük heç kimlə toqquşmamağa diqqət yetirməlidir. Sonra hər cütlükdən bir partnyor gözlərini yummalı və onlar gəzinti məşqini təkrarlamalıdırlar. İndi kimləsə toqquşmaqdan çəkinmələri üçün, digər uşaq yoldaşına rəhbərlik etməlidir. Onlara yalnız toxunuşla ötürülən siqnallardan istifadə etməli olduqlarını deyin. Başlamazdan əvvəl onlara siqnalları hazırlamaqda kömək etməlisiniz – məsələn, əlin bir dəfə sıxılması “dayan”, iki dəfə sıxılması “geri dön”, üç dəfə sıxılması “sağa dön” və dörd dəfə sıxılması “sola dön” mənasını verə bilər.

## F. Rəngləmə: Rəsm 24

## G. Bağlanış duaları



**“Ey Ruh Oğlu! Mənim ilk nəsihətim budur: Pak, mehriban və nurlu bir ürəyə malik ol...”**



**“Ədalət yolu ilə gedin, zira bu, həqiqətən, düz yoldur”**



**“Ey Dost! Könül bağında eşq gülündən başqa heç nə əkmə...”**



**"Doğruluq bütün insani fəzilətlərin təməlidir"**



**“Əliaçıq və səxavətli olmaq Mənim sifətlərimdir; xoş o kəsin halına ki, özünü Mənim fəzilətlərimlə bəzəyir”**



**“Mübarəkdir o kəs ki, qardaşını özündən üstün tutur”**



**“Ey İnsan Oğlu! Ürəyinin şadlığı ilə sevin ki, Mənimlə görüşməyə layiq olasan və gözəlliyimə ayna olasan”**



**“Biz hər zaman öz düzlüyümüzü və səmimiyyətimizi təzahür etdirməliyik...”**



**“Ey İnsan Oğlu! Mənim qarşımda müti ol ki, lütfkarlıqla görüşünə gəlim”**



**“Xoşbəxt və məmnun ol, qalx və Allaha şükr et ki, həmin şükranlıq bərəkətin artmasına kömək etsin”**



**“...qoy sizin bəzəyiniz bağışlayıcılıq və mərhəmət, Allahın sevimlilərinin ürəklərini şadlandıran şeylər olsun”**



**“Ey insanlar, dilinizi doğruluqla zinətləndirin, ruhlarınızı isə dürüstlük naxışı ilə bəzəyin”**



**“Allahın Mələkutu insaf və ədalət, həmçinin hər bir canlı qəlbə qarşı mərhəmət, şəfqət və mehribanlıq üzərində qurulmuşdur”**



**“Bil ki, sənin həqiqi bəzəyin həqiqi bəzəyin Allahın məhəbbətindən və Ondan başqa hər şeydən inqita etməyindən ibarətdir”**



**“Bütün şərəflərin kökü Rəbbin istənilən bəxşişlərini qəbul etmək, Allahın əmr etdikləri ilə razı olmaqdır”**



**“Mübarəkdir o kəs ki, bütün insanlarla son dərəcə mehribanlıq və məhəbbətlə qaynayıb qarışır”**



**“Şücaət və qüvvətin mənbəyi Allahın Sözünü yüksəldib Onun Məhəbbətində səbatlı olmaqdır”**



**“Heç bir zaman Allaha olan inamını itirmə. Daim ümidvar ol, çünki Allahın nemətlərinin insanların üzərinə yağması heç vaxt kəsilmir”**



**“Etibarlılıq insanları dinclik və əmin-amanlığa aparan ən böyük qapıdır”**



**“Ey insanlar, Allah sevgisinin istiliyi ilə alovlanın ki, başqalarının da qəlblərini alovlandırasınız”**



**“Ey Varlıq Oğlu! Sən Mənim çırağımsan və Mənim işığım səndədir. Ondan nurlan və Məndən başqasını axtarma”**



**“Bəxtəvərdir o vəfadar ki, nəcib səylər libası ilə bəzənib və bu Əmrə xidmət etmək üçün ayağa qalxıb”**



**“O, həqiqətən, səbirlə dözənlərin mükafatını artırandır”**



**“Sənin məqamın son dərəcə uca olacaq, əgər sən öz Mövlanın Əmrində mətin olsan”**

# İSTİNADLAR


1. ‘Abdu’l-Bahá, in *Bahá’í Prayers: A Selection of Prayers Revealed by Bahá’u’lláh, the Báb, and ‘Abdu’l-Bahá* (Wilmette: Bahá’í Publishing Trust, 2002, 2017 printing), p. 28.

2. Ibid., p. 29.

3. *Tablets of Bahá’u’lláh Revealed after the Kitáb-i-Aqdas* (Wilmette: Bahá’í Publishing Trust, 1988, 2005 printing), no. 6.25, pp. 66–67.

4. Bahá’u’lláh, cited by Shoghi Effendi, *The Advent of Divine Justice* (Wilmette: Bahá’í Publishing Trust, 2006, 2018 printing), par. 42, p. 41.

5. *Tablets of Bahá’u’lláh Revealed after the Kitáb-i-Aqdas* , no. 3.23, p. 27.

6. Bahá’u’lláh, *The Hidden Words* (Wilmette: Bahá’í Publishing Trust, 2003, 2012 printing), Arabic no. 2, pp. 3–4.

7. *Tablets of Bahá’u’lláh Revealed after the Kitáb-i-Aqdas* , no. 10.5, p. 155.

8. From a Tablet of ‘Abdu’l-Bahá. (authorized English translation)

9. Ibid.

10. *Selections from the Writings of ‘Abdu’l-Bahá* (Wilmette: Bahá’í Publishing, 2010, 2015 printing), no. 12.1, p. 42.

11. *Gleanings from the Writings of Bahá’u’lláh* (Wilmette: Bahá’í Publishing Trust, 1983, 2017 printing), CXXXIX, par. 8, p. 345.

12. ‘Abdu’l-Bahá, cited by Shoghi Effendi, *The Advent of Divine Justice*, par. 40, p. 39.

13. ‘Abdu’l-Bahá, in “Trustworthiness: A Cardinal Bahá’í Virtue”, compiled by the Research Department of the Universal House of Justice, published in *The Compilation of Compilations* (Maryborough: Bahá’í Publications Australia, 1991), vol. 2, no. 2053, p. 338.

14. ‘Abdu’l-Bahá, in *Bahá’í Prayers*, p. 28.

15. Ibid., p. 29.

16. *Tablets of Bahá’u’lláh Revealed after the Kitáb-i-Aqdas*, no. 9.4, p. 138.

17. Ibid., no. 10.15, p. 156.

18. *Selections from the Writings of ‘Abdu’l-Bahá*, no. 206.13, p. 357.

19. Ibid., no. 199.6, pp. 334–35.

20. From a talk given on 1 July 1912, published in *The Promulgation of Universal Peace: Talks Delivered by ‘Abdu’l-Bahá during His Visit to the United States and Canada in 1912* (Wilmette: Bahá’í Publishing, 2012), par. 1, p. 304.

21. *Selections from the Writings of ‘Abdu’l-Bahá*, no. 237.5, p. 442; also in *Bahá’í Prayers*, p. 328.

22. From a talk given by ‘Abdu’l-Bahá on 3 September 1912, published in *The Promulgation of Universal Peace*, par. 29, p. 441.

23. *The Tabernacle of Unity: Bahá’u’lláh’s Responses to Mánikchí Ṣáḥib and Other Writings* (Haifa: Bahá’í World Centre, 2006), no. 5.7, p. 74.

24. *Days of Remembrance: Selections from the Writings of Bahá’u’lláh for Bahá’í Holy Days* (Haifa: Bahá’í World Centre, 2016), no. 42.8, pp. 209–10.

25. From a talk given on 22 November 1911, published in *Paris Talks: Addresses Given by ‘Abdu’l-Bahá in 1911* (Wilmette: Bahá’í Publishing, 2006, 2016 printing), no. 35.2, p. 135.

26. *Selections from the Writings of ‘Abdu’l-Bahá*, no. 16.5, pp. 51–52.

27. *The Summons of the Lord of Hosts: Tablets of Bahá’u’lláh* (Wilmette: Bahá’í Publishing, 2006), no. 5.51, p. 301.

28. *Tablets of Bahá’u’lláh Revealed after the Kitáb-i-Aqdas*, no. 4.23, p. 39.

29. *The Summons of the Lord of Hosts*, no. 3.17, p. 249.

30. From a talk given by ‘Abdu’l-Bahá on 5 May 1912, published in *The Promulgation of Universal Peace*, par. 3, p. 127.

31. Bahá’u’lláh, in *Bahá’í Prayers*, p. 164.

32. Ibid., p. i.

33. *Tablets of Bahá’u’lláh Revealed after the Kitáb-i-Aqdas*, no. 6.19, p. 64.

34. *Gleanings from the Writings of Bahá’u’lláh*, LXXXII, par. 3, pp. 180–81.

35. Ibid., V, par. 2, pp. 6–7.

36. ‘Abdu’l-Bahá, *The Secret of Divine Civilization* (Wilmette: Bahá’í Publishing, 2007, 2016 printing), par. 130, p. 93.

37. *The Hidden Words*, Arabic no. 70, p. 21.

38. *Gleanings from the Writings of Bahá’u’lláh*, CXXIX, par. 2, p. 316.

39. Ibid., CXXXIX, par. 4, p. 343.

40. From a talk given by ‘Abdu’l-Bahá on 23 April 1912, published in *The Promulgation of Universal Peace*, par. 5, p. 69.

41. *Gleanings from the Writings of Bahá’u’lláh*, CXXV, par. 3, pp. 300–1.

42. Ibid., XV, par. 1, p. 39.

43. From a talk given by ‘Abdu’l-Bahá on 5 May 1912, published in *The Promulgation of Universal Peace*, par. 4, p. 128.

44. From a talk given by ‘Abdu’l-Bahá on 2 December 1912, ibid., par. 2, pp. 638–39.

45. *Tablets of Bahá’u’lláh Revealed after the Kitáb-i-Aqdas*, no. 6.3, p. 57.

46. Bahá’u’lláh, *Epistle to the Son of the Wolf* (Wilmette: Bahá’í Publishing Trust, 1988, 2016 printing), p. 23.

47. Bahá’u’lláh, in “Trustworthiness”, published in *The Compilation of Compilations*, vol. 2, no. 2037, p. 334.

48. ‘Abdu’l-Bahá, in “Bahá’í Prayers and Tablets for Children: A Compilation Prepared by the Research Department of the Universal House of Justice”, no. 11.

49. Ibid., no. 10.

50. From a talk given by ‘Abdu’l-Bahá on 14 April 1912, published in *The Promulgation of Universal Peace*, par. 9, p. 17.

51. *Abdul Baha on Divine Philosophy* (Boston: The Tudor Press, 1918), pp. 41–42.

52. *Selections from the Writings of ‘Abdu’l-Bahá*, no. 35.8, p. 104.

53. Ibid., no. 7.4, p. 33.

54. *Gleanings from the Writings of Bahá’u’lláh*, CXXI, par. 6, p. 291.

55. Ibid., LXVI, par. 6, p. 144.

56. *Tablets of Bahá’u’lláh Revealed after the Kitáb-i-Aqdas*, no. 10.8, p. 155.

57. Bahá’u’lláh, in *The Bahá’í World: Volume One*, *1925–1926* (Wilmette: Bahá’í Publishing Trust, 1926, 1980 printing), p. 42.

58. *The Hidden Words*, Arabic no. 40, p. 13.

59. Ibid., Persian no. 50, p. 39.

60. From a Tablet of ‘Abdu’l-Bahá. (authorized English translation)

61. *Gleanings from the Writings of Bahá’u’lláh*, CXLVI, par. 1, p. 357.

62. *Selections from the Writings of ‘Abdu’l-Bahá*, no. 1.7, p. 8.

63. From a talk given by ‘Abdu’l-Bahá on 12 May 1912, published in *The Promulgation of Universal Peace*, par. 8, p. 166.

64. From a talk given by ‘Abdu’l-Bahá on 16 and 17 October 1911, published in *Paris Talks*, no. 1.7, p. 6.

65. ‘Abdu’l-Bahá, in *Bahá’í Prayers*, p. 173.

66. Bahá’u’lláh, ibid., p. 94.

67. *Selections from the Writings of ‘Abdu’l-Bahá*, no. 179.1, p. 285.

68. From a talk given by ‘Abdu’l-Bahá on 10 November 1912, published in *The Promulgation of Universal Peace*, par. 8, p. 599.

69. *Gleanings from the Writings of Bahá’u’lláh*, CLIII, par. 1, pp. 366–67.

70. *The Hidden Words*, Persian no. 21, p. 29.

71. *Selections from the Writings of ‘Abdu’l-Bahá*, no. 178.1, p. 284.

72. From a talk given by ‘Abdu’l-Bahá on 21 November 1911, published in *Paris Talks*, no. 34.8, p. 133.

73. Bahá’u’lláh, in “Trustworthiness”, published in *The Compilation of Compilations*, vol. 2, no. 2013, p. 327.

74. Ibid., no. 2024, p. 330.

75. Ibid., no. 2027, p. 330.

76. Bahá’u’lláh, in “Guidelines for Teaching”, compiled by the Research Department of the Universal House of Justice, published in *The Compilation of Compilations*, vol. 2, no. 1898, p. 293.

77. *Gleanings from the Writings of Bahá’u’lláh*, XV, par. 6, p. 41.

78. *The Summons of the Lord of Hosts*, no. 1.145, pp. 114–15.

79. *The Call of the Divine Beloved: Selected Mystical Works of Bahá’u’lláh* (Haifa: Bahá’í World Centre, 2018), no. 2.22, p. 21.

80. Bahá’u’lláh, in *Bahá’í Prayers*, p. 162.

81. ‘Abdu’l-Bahá, ibid., p. 29.

82. From a Tablet of ‘Abdu’l-Bahá. (authorized English translation)

83. Bahá'u'lláh, in *The Kitáb-i-Aqdas: The Most Holy Book* (Wilmette: Bahá'í Publishing Trust, 1993, 2013 printing), par. 70, p. 45.

84. From a talk given by 'Abdu'l-Bahá on 23 November 1911, published in *Paris Talks*, no. 36.9, p. 140.

85. From a talk given by 'Abdu'l-Bahá on 12 April 1912, published in *The Promulgation of Universal Peace*, par. 2, p. 10.

86. *The Tabernacle of Unity*, no. 3.16, p. 64.

87. *Selections from the Writings of 'Abdu'l-Bahá*, no. 141.4, p. 228.

88. Ibid., no. 1.4, p. 6.

89. *The Hidden Words*, Arabic no. 48, p. 15.

90. *Gleanings from the Writings of Bahá'u'lláh*, LXVI, par. 11, p. 146.

91. *The Summons of the Lord of Hosts*, no. 2.30, p. 229.

92. *Tablets of Bahá'u'lláh Revealed after the Kitáb-i-Aqdas* , no. 14.11, p. 212.

93. *Gleanings from the Writings of Bahá'u'lláh*, CXXXIV, par. 1, p. 328.

94. Ibid., CLXI, par. 1, p. 384.

95. Ibid., CXLIII, par. 1, pp. 353–54.

96. Bahá'u'lláh, *The Kitáb-i-Íqán: The Book of Certitude* (Wilmette: Bahá'í Publishing Trust, 2003, 2018 printing), par. 146, pp. 123–24.

97. From a talk given by 'Abdu'l-Bahá on 23 November 1912, published in *The Promulgation of Universal Peace*, par. 4, p. 632.

98. Həzrət Əbdül-Bəha, Bəhai Duaları-nda, s. 29.

99. Gizli Kəlamlar, Ərəbcə №. 1, s. 3.

100. Həzrət Bəhaullahın Yazılarından Seçmələr, CXVIII, hissə. 1, s. 283.

101. Gizli Kəlamlar, Farsca №. 3, s. 23.

102. Həzrət Bəhaullah, Şövqi Əfəndi tərəfindən sitat gətirilib, İlahi Ədalətin Gəlişi, hissə. 40, s. 39.

103. Həzrət Əbdül-Bəha, Bəhai Duaları-nda, s. 29.

104. Gizli Kəlamlar, Farsca №. 49, s. 39.

105. Həzrət Bəhaullahın Kitabi-Əqdəsdən Sonra Nazil Olmuş Lövhləri, №. 6.37, s. 71.

106. Gizli Kəlamlar, Ərəbcə №. 36, s. 12.

107. Həzrət Əbdül-Bəhanın Yazılarından Seçmələr, №. 225.30, s. 407.

108. Həzrət Bəhaullah, Bəhai Duaları-nda, s. i.

109. Gizli Kəlamlar, Ərəbcə №. 42, s. 13.

110. Həzrət Əbdül-Bəha Abbasın Lövhləri (Nyu-York: Bahai Publishing Committee, 1915, 1940 nəşri), cild. 2, s. 483. (səlahiyyətli tərcümə)

111. Həzrət Bəhaullahın Kitabi-Əqdəsdən Sonra Nazil Olmuş Lövhləri, №. 9.5, s. 139.

112. Həzrət Bəhaullahın Yazılarından Seçmələr, CXXXVI, hissə. 6, s. 336.

113. Həzrət Əbdül-Bəha, "Bəhai Duaları və Uşaqlar üçün Lövhlər"-də, №. 10.

114. Həzrət Əbdül-Bəhanın Yazılarından Seçmələr, №. 138.1, s. 220.

115. Ordular Rəbbinin Çağırışı, №. 1.119, s. 93.

116. Həzrət Bəhaullahın Kitabi-Əqdəsdən Sonra Nazil Olmuş Lövhləri, №. 10.4, s. 155.

117. Həzrət Bəhaullahın Yazılarından Seçmələr, CLVI, hissə. 1, s. 378.

118. Həzrət Bəhaullah, Bəhai Duaları-nda, s. 94.

119. Həzrət Bəhaullahın Kitabi-Əqdəsdən Sonra Nazil Olmuş Lövhləri, №. 10.10, s. 156.

120. Həzrət Əbdül-Bəhanın Yazılarından Seçmələr, №. 178.1, s. 284.

121. Həzrət Bəhaullahın Kitabi-Əqdəsdən Sonra Nazil Olmuş Lövhləri, №. 4.16, s. 37.

122. Həzrət Bəhaullahın bir Lövhündən. (səlahiyyətli tərcümə)

123. Həzrət Əbdül-Bəha, Bəhai Duaları-nda, s. 29.

124. Gizli Kəlamlar, Ərəbcə №. 11, s. 6.

125. Həzrət Bəhaullahın Kitabi-Əqdəsdən Sonra Nazil Olmuş Lövhləri, №. 17, s. 257.

126. Həzrət Bəhaullahın Yazılarından Seçmələr, LXVI, hissə. 10, s. 146.

127. Yenə orada., CXV, hissə. 13, s. 278.